MƏMMƏD MÍRZƏYEV
CANALI MÍRZƏLÍYEV





# «QARA QIZIL» AĞ SƏADƏT RƏNGİNDƏ

## DÖRDÜNCÜ KİTAB



"QAPP-POLİQRAF"
BAKI - 2003

Rəyçilər:

**Rahib Rəhmanov**
Geologiya-mineralogiya elmləri doktoru, professor

**Rasim Dadaşov**
Geologiya-mineralogiya elmləri doktoru

M24 MƏMMƏD MİRZƏYEV, CANALI MİRZƏLİYEV
**"QARA QIZIL" AĞ SƏADƏT RƏNGİNDƏ".** Bakı, «QAPP-POLİQRAF» Korporasiyası, 2003, – 320 səh.

«Qara qızıl» ağ səadət rəngində» eyni adlı dördüncü kitabda, əvvəlki kitablarda olduğu kimi, Azərbaycanın neft strategiyasından, Bakı–Tbilisi–Ceyhan ixrac boru kəmərinin təməlinin qoyulması mərasimindən, neft-qaz sənayesinin inkişafında fədakarlıq göstərənlərin əmək fəaliyyətindən, həyatda pozulmaz iz qoyub getmiş – xoş xatirələrlə yad edilən neftçilərdən səmimi söhbət açılır.





*Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqillyini qorumuq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədiləşdirməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət, o cümlədən Azərbaycanda hüquqi demokratik, dünyəvi dövlətin qurulması, Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının... dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir.*

***H.Ə.Əliyev***

# BİRİNCİ BÖLMƏ

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏNİ DAHA SIX BİRLƏŞDİRƏCƏK BAKI–TBİLİSİ–CEYHAN NEFT KƏMƏRİ QAFQAZDA SÜLHÜN, ƏMİN-AMANLIĞIN VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİNATÇISI OLACAQDIR

### BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİ AZƏRBAYCAN, TÜRKİYƏ, GÜRCÜSTAN PREZİDENTLƏRİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞLƏR

2002-ci il sentyabrın 18-də Azərbaycan paytaxtı yaxınlığındakı Səngəçal sahil terminalında Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın prezidenti Eduard Şevardnadze mərasimdə iştirak etmişlər.

Amerika Birləşmiş Ştatlarının energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqlar da mərasimdə iştirak edirdilər. Prezidentlər və ABŞ-ın energetika naziri mərasimdən əvvəl avtobusa əyləşərək, Səngəçal terminalının indiki və gələcək ərazisi ilə tanış oldular.

Ali qonaqlara məlumat verildi ki, tikintisinə 1996-cı ildə başlanmış bu terminalın indiki ərazisi 255 hektardır. «Çıraq-1» platformasından sualtı boru kəməri ilə vurulan neft bu terminala qəbul olunur və texniki emaldan keçirilir. Terminalda ümumi tutumu 32 min kubmetr olan 4 çən

quraşdırılmışdır. Dəniz yatağından qəbul edilən neft texniki emaldan sonra bu çənlərə – sonra isə nasoslar vasitəsilə ixrac sisteminə vurulur. Hazırda terminalda iki Qərb və Şimal ixrac sistemləri var. İndi əsasən, Qərb ixrac sistemindən istifadə olunur.

Terminalda quraşdırılmış iki qaz-turbin generatoru onu elektrik enerjisi ilə təmin edir.

Prezidentlərə terminalın gələcək perspektivləri barədə də məlumat verildi. Bildirildi ki, terminalın gücünü artırmaq məqsədilə burada tikinti işləri aparılır. Hazırda terminal gündə 140 min barrel xam neft qəbul edə bilir. Gələn ildən etibarən bu, 180 min barrelə çatdırılacaqdır. İndi terminalda aparılan tikinti işlərinə min nəfərə yaxın yerli vətəndaş cəlb olunubdur.

Ali qonaqlara mərkəzi idarəetmə məntəqəsi də göstərildi, onun funksiyası və texniki göstəriciləri barədə məlumat verilərək bildirildi ki, terminalda bütün proseslər buradan idarə olunacaqdır.

Belə bir fakt da vurğulandı ki, bütün tikinti işləri qurtardıqdan sonra terminalın ərazisi 800 hektara çatacaq, gündəlik gücü isə 800 min barreldən çox olacaqdır. Beləliklə, o, dünyada ən böyük terminallardan birinə çevriləcəkdir.

* * *

Sonra Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulmasına həsr edilmiş mərasimin rəsmi hissəsi başlandı.

Mərasimə toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq ƏLİYEV təntənəli mərasimi açaraq dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının hörmətli prezidenti Heydər Əliyev!

İcazənizlə, bugünkü mərasimi açıq elan edirəm və bildirmək istəyirəm ki, bu tədbirə müxtəlif ölkələrdən çoxsaylı qonaqlar gəlmişdir. Onlar bizimlə tərəfdaş ölkələrin təmsilçiləridir. Ancaq ən böyük qürur hissini ona görə keçiririk ki, bu gün bizimlə bir yerdə sevincimizi bölüşməyə Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər gəlibdir. Gəlin, onu salamlayaq. Azərbaycan Respublikasının, həmişəki kimi, ən əziz qonağı Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze gəlibdir, onu salamlayaq.

Bizim layihələrə həmişə dəstək verən, siyasi cəhətdən bunu dəstəkləyən Amerika Birləşmiş Ştatları olubdur. Bu gün mərasimə Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Spenser Abraham da buyurubdur. Gəlin, onu da salamlayaq.

İndi isə bu böyük layihənin əsl memarı, hamımızın sevimlisi olan



Azərbaycan Respublikasının prezidenti hörmətli Heydər Əliyevdən xahiş edək ki, öz sözünü desin.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Türkiyə Cümhuriyyətinin prezidenti zati-aliləri hörmətli Əhməd Necdət Sezər!

Gürcüstanın prezidenti zati-aliləri hörmətli Eduard Şevardnadze!

Amerika Birləşmiş Ştatlarının energetika naziri hörmətli Spenser Abraham!

Hörmətli xanımlar və cənablar, qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimi qəlbdən salamlayıram və bu böyük əhəmiyyət kəsb edən layihənin həyata keçirilməsi münasibətilə bura toplaşanlara təşəkkür edirəm.

Bizim hamımızı, o cümlədən uzaq ölkələrdən Azərbaycana gəlib bu gün bizimlə birlikdə bu şənliyi bölüşənləri buraya toplayan Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanması üçün təməl daşının atılması mərasimidir. Bu böyük layihə artıq bütün dünyada məşhurdur və dünya ictimaiyyəti bir çox illərdir ki, bu layihəni müzakirə edir.

Bu layihənin əsası 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin başlanğıcında, 1994-cü ildə sentyabr ayının 20-də Azərbaycanda, Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda olan «Azəri», «Çıraq», «Günəşli» yataqlarının müştərək işlənilməsi üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında müqavilə imzalanarkən qoyulmuşdur. Bu müqavilə dünyaya səs saldı və təsadüfi deyildir ki, ona «Əsrin müqaviləsi» adı verildi. Biz bu müqaviləni imzalayarkən, təbiidir ki, «Azəri – Çıraq –Günəşli» yataqlarından gələcəkdə ildə 50 milyon tondan artıq neft hasil edilməsini nəzərdə tutmuşduq. Ancaq hasil olan neft dünya bazarlarına çıxarılmalıdır. Bunun üçün müxtəlif yollar var idi. Müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla –Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və təbiidir ki, bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq nefti Bakı – Tbilisi – Ceyhan boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldıq.

Bu qərarın özü də çox mübahisələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz Bakı – Tbilisi – Ceyhan marşrutu ilə getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yəni birinci növbədə Azərbaycana

mane olurdular. Çünki neftin sahibi bizik və nefti də haradan ixrac etmək birinci növbədə bizim hüququmuz idi. Bizə çox təzyiqlər etdilər. O vaxt Azərbaycanda ictimai-siyasi vəziyyət o qədər də sabit deyildi. 1993-cü ildə burada vətəndaş müharibəsi baş vermişdi. Biz onların qarşısını aldıq və müqaviləni imzaladıq. Ancaq müqaviləni imzalayanda, hətta bizim daxilimizdə belə yüksək vəzifəli şəxslər var idi ki, onlar müxtəlif xarici xidmət orqanlarına qulluq edirdilər. Bu müqavilənin pozulması haqqında öz fikirlərini söyləmişdilər.

Bunu demək sizin üçün maraqlıdır. Çünki 1994-cü il sentyabrın 20-də biz müqaviləni imzaladıq. Ondan bir gün sonra Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından böyük cinayət etmiş 4 nəfəri qaçırtdılar. Ondan bir həftə keçdi, Azərbaycan parlamenti sədrinin müavininə terror etdilər, onu öldürdülər. Azərbaycanın əks-kəşfiyyat idarəsinin rəisini, polkovniki öldürdülər. Bu terrorlarla bizi qorxutmaq istədilər. Ancaq biz qorxmadıq. Onlar isə bu işlərini davam etdirirdilər. O vaxt məcburiyyət qarşısında mənimlə burada baş nazir vəzifəsində çalışan Surət Hüseynov kimi bir şəxs oktyabr ayının 4-də Azərbaycanda silahlı dövlət çevrilişi etməyə başladı. Biz bunun qarşısını aldıq. Birinci növbədə, xalqın bizə dəstəyi ilə, xalqın köməyi ilə. 1995-ci ilin mart ayında yenidən silahlı dövlət çevrilişi etmək istədilər, qarşısını aldıq. Ondan sonra bəzi yerlərdə terror aktları törətmək, körpünü partlatmaq, təxribat etmək istədilər. Zərər çəkdik, amma qarşısını aldıq.

Bilirəm ki, məhz o zaman, Bakı – Tbilisi – Ceyhan layihəsi irəliyə sürüləndə mənim dostum Gürcüstan prezidenti Eduard Şevardnadzeyə terror etdilər və o, möcüzə sayəsində sağ-salamat qurtardı.

Bütün bunların hamısı və bizə göstərilən başqa siyasi təzyiqlər, müxtəlif təsirlər ona yönəldilmişdi ki, birincisi, bizim neft müqaviləsini – bu işə Xəzər dənizində ilk dəfə başladıq – qəbul etmək istəmirdilər. İkincisi isə, Bakı – Tbilisi – Ceyhan boru xəttinin çəkilməsinin əleyhinə çıxırdılar. Belə bir şəraitdə biz bunu başladıq, öz iradəmizi ortaya qoyduq və əvvəldən tutduğumuz yol ilə getdik.

1999-cu ildə «Çıraq» yatağından ilk neft aldıq. Biz onu əvvəl Bakı – Novorossiysk kəməri ilə Rusiyanın Qara dənizdəki Novorossiysk limanı vasitəsilə nəql edirdik. Ancaq bununla bərabər, biz Qərb marşrutu ilə Bakı – Supsa neft kəmərini tikirdik və onu tezliklə istifadəyə verdik. İndi o vaxtdan indiyə qədər hasil edilən neft məhz bu kəmərlə – Qərb xətti ilə nəql olunur.

Ancaq bunların hamısı ilkin neftdən ötrü idi. Bizim nəzərdə tutduğumuz böyük neft üçün isə, yenə də deyirəm, Bakı –Tbilisi – Ceyhan lazım idi. Biz ardıcıl surətdə bu layihənin üzərində işləyirdik, çalışırdıq, bütün imkanlarımızdan istifadə edirdik. Türkiyə, Gürcüstan, Azərbaycan burada bərabər idi, birlikdə hərəkət edirdi, bu işlə birlikdə məşğul



idi. Ancaq əgər Amerika Birləşmiş Ştatları hökumətinin bizə, Azərbaycana bu barədə köməyi, daimi dəstəyi, məsləhətləri olmasaydı, təbiidir ki, biz buna nail ola bilməzdik.

Təsadüfi deyil ki, 1999-cu ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşündə biz – Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstan Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlamaq üçün anlaşma imzaladıq. Bundan əlavə, bəyanat imzaladıq və Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton öz dövləti adından bu bəyanata qoşuldu, öz imzasını qoydu. Bu da Bakı –Tbilisi – Ceyhan boru xəttinin tikilməsinin reallığına gətirib çıxartdı.

Mən bu qısa tarixi sizə deməliyəm. Çünki bilməlisiniz ki, burada 8 il müddətində biz nə işlər görmüşük və hansı çətinliklərdən çıxmışıq, hansı müqavimətlərin, maneələrin qarşısını almışıq.

Nəhayət, son dövrdə Bakı – Tbilisi – Ceyhan boru xəttinin inşa edilməsi haqqında bir neçə aydır proseslər gedir. Onun maliyyələşdirilməsi məsələsində də problemlər var idi. Ancaq onlar da həll olundu. İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, bu işlərə başçılıq edir. Onlar artıq bütün planları hazırlayıblar. Ona görə də bizi buraya təməl daşının qoyulmasına dəvət ediblər.

Mən sizə bildirmək istəyirəm ki, Bakı–Tbilisi–Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu xəyaldır, mümkün deyil. Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük.

Bu yaxın vaxtlarda İstanbulda «Üç dənizin əfsanəsi» adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu xəyal deyil, əfsanə deyil, üç dəniz – Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə dair, dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq.

Buraya nə qədər vəsait qoyulacaq, nə işlər görüləcək – bu barədə sizə məlumatlar veriləcəkdir. Mən bunu demək istəmirəm. Ancaq onu demək istəyirəm ki, bütün bu layihələr Azərbaycanın iqtisadiyyatının inkişafına yönəldilibdir. Bu gün burada «Azəri–Çıraq–Günəşli» yataqlarının işlənilməsinin ikinci fazası haqqında da sənəd imzalanacaqdır. Bu, o deməkdir ki, artıq buraya çox böyük investisiya gələcək, işlər sürətlə gedəcəkdir. Çünki biz hesab edirik ki, 2005-ci ildə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri tamamilə hazır olacaq və biz hamımız birlikdə buradan Türkiyənin Ceyhan limanına gedəcək və

orada Azərbaycan neftinin, Xəzər neftinin Ceyhan limanından yola salınmasının şahidi olacağıq.

Dediyim kimi, Bakı–Tbilisi–Ceyhan layihəsinin maliyyələşdirilməsində bəzi problemlər var idi. Azərbaycan bu işə öz payını verdi, biz onun maliyyələşdirilməsinin 25 faizini öz üzərimizə götürdük. Qalan hissəsi ayrı-ayrı şirkətlər arasında bölünübdür. Ancaq maraqlısı budur ki, bu layihəyə 2,5 faizlə «Eni» şirkəti qoşulubdur. Sonra «Total» şirkəti qoşulubdur. Mənə bu gün dedilər ki, 2,5 faizlə Yaponiyanın «İtoçu» şirkəti qoşulubdur və bir də Yaponiyanın «İnpeks» şirkəti məhz dünən 2,5 faizlə buna qoşulubdur. Bu, nə deməkdir? O deməkdir ki, bu boru xəttindən təkcə Azərbaycan yox, hamı istifadə etmək istəyir.

Biz vaxtilə İstanbulda anlaşmanı imzalayanda ona Qazaxıstan prezidenti Nursultan Nazarbayev də imzasını qoyub və bildiribdir ki, Qazaxıstan da bu boru xəttindən istifadə edəcəkdir. İndi mən bilirəm ki, xarici şirkətlər Qazaxıstanda çox işləyirlər. Onların bizim Bakı–Tbilisi–Ceyhan layihəsinə qoşulması və sərmayə qoyması onu göstərir ki, doğrudan da, Xəzərin başqa sektorlarından neft Bakı–Tbilisi–Ceyhan kəməri ilə ixrac olunacaqdır.

Ancaq mən sizə deyirəm ki, təxminən 2007–2008-ci illərdə «Azəri–Çıraq–Günəşli» yataqlarından 50 milyon ton neft hasil olunacaqdır. Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər. Biz onlarla birlikdə çalışırıq. Ona görə gələcəkdə hətta Bakı–Tbilisi–Ceyhanın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır.

Mənim dediyim bu sözlər gələcək üçündür və bu işlər bizim xalqlarımızın gələcəyi üçündür. Bizim bu işlərimiz yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən sonra mümkün olubdur. Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. 150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt neft Azərbaycan xalqına məxsus olmayıbdır. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz bunun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik. İstədiyimiz ölkələr ilə əlaqələr qururuq və belə işlər görürük. Amma ikinci boru da növbədədir. 1 trilyon kubmetr ehtiyatı olan «Şahdəniz» yatağından Bakı–Tbilisi–Ərzurum qaz kəməri də çəkiləcəkdir.

Beləliklə, boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı–Tbilisi–Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əminamanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir.



Biz dost ölkələrik. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Gürcüstan bizim üçün dost, qardaş ölkədir. Eləcə də biz onlar üçün dost, qardaş ölkəyik. Biz çox əlaqələr saxlayırıq. Ancaq bu əlaqələrimizi, necə deyərlər, daha möhkəm tellərlə bağlayırıq. Bu tellərdən biri də Bakı–Tbilisi–Ceyhan kəməri olacaqdır. Mən şübhə etmirəm ki, Amerika Birləşmiş Ştatları bu məsələlərdə bizi bundan sonra da dəstəkləyəcəkdir. Ona görə mən bu mərasimdə Türkiyə Cümhuriyyətinə, onun prezidenti hörmətli Əhməd Necdət Sezərə təşəkkür edirəm. Gürcüstana, onun prezidenti hörmətli Eduard Şevardnadzeyə təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarına, onun prezidenti cənab Corc Buşa təşəkkür edirəm.

Mən bu yaxınlarda cənab Corc Buşdan antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən çox xoş bir məktub aldım. Biz ötən il sentyabrın 11-də ABŞ-da baş vermiş dəhşətli terror hadisəsindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşuq, bu koalisiyada öz vəzifəmizi yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Beləliklə, biz bu sahədə də Amerika – Azərbaycan əlaqələrini inkişaf etdiririk, daha da yüksəklərə qaldırırıq.

Dünən hörmətli nazir ilə söhbət edəndə o, prezident Buşdan mənə səmimi salamlar, çox xoş sözlər çatdırdı. Bütün bunlara görə, ümumiyyətlə, Bakı–Tbilisi–Ceyhan boru xəttinin reallaşmasına dəstəyinə görə Amerika Birləşmiş Ştatlarına, onun xalqına və prezident cənab Buşa təşəkkürümü bildirirəm.

Əziz dostlar!

Əziz qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram, hamınıza cansağlığı arzu edirəm. Bakı –Tbilisi – Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir!

## TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

– Hörmətli Cümhur başqanları!

Hörmətli nazirlər, dəyərli qonaqlar!

Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak etməkdən böyük qürur duyuram. Bu tarixi gündə qardaş Azərbaycanı iki illik fasilədən sonra yenidən ziyarət etməkdən də böyük məmnunluq duyduğumu bildirmək istəyirəm.

Şərq–Qərb enerji dəhlizi çərçivəsində Bakı – Tbilisi – Ceyhan neft

boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri və digər layihələr həyata keçirilməkdədir.

Şərq–Qərb enerji dəhlizi Xəzəryanı ölkələrin neft və qaz ehtiyatlarının dünya bazarlarına sabit şəkildə, təhlükəsiz çatdırılmasını təmin edəcəkdir. Bu layihələrin həyata keçirilməsinə başlanıldığı vaxtlarda hamımız bunu xəyal kimi qəbul edirdik. Ancaq Türkiyə, Azərbaycan və Gürcüstan müttəfiqlərinin dəstəyi ilə Xəzər dənizinin enerji sərvətlərini Qərbə daşıyacaq Şərq–Qərb enerji dəhlizini təmin etmək üçün hər cür işləri görmüşlər, fəaliyyətlərini inancla, qətiyyətlə göstərmişlər.

Bizim bu qərarımız və qətiyyətimiz artıq bu gün bəhrəsini vermişdir. Dostum hörmətli Heydər Əliyevin «Üç dənizin əfsanəsi» konfransında önəmli çıxışı zamanı bildirdiyi kimi, Bakı–Tbilisi–Ceyhan artıq əfsanəliyindən çıxmış, gerçəkliyə çevrilmişdir. Bəli, indi Şərq–Qərb enerji dəhlizi layihəsi geri dönülməz nöqtəyə çatmışdır. Bundan sonra bölgəmizin inkişafına və xalqlarımızın gücünə söykənən yeni əfsanələr tapmalı, bunları reallığa çevirmək üçün birlikdə çalışmalıyıq.

Qafqazda və Xəzər dənizində yeni işbirliyinə başladığımız bu tarixi gündə dostlarım hörmətli Heydər Əliyev və hörmətli Eduard Şevardnadze başda olmaqla, üç ölkənin hökumətlərinin dəyərli rəhbərlərinə, Amerika Birləşmiş Ştatlarının hökumətinə, Azərbaycanın Dövlət Neft Korporasiyasına, Gürcüstanın Beynəlxalq Neft Şirkətinə, Türkiyənin «Botaş» şirkətinə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərini həyata keçirən digər şirkətlərə, xüsusilə bu layihəyə əvvəldən inancla dəstək verən ARDNŞ, «Türkiyə Petrolları Anonim Şirkəti»nə, bp, «Statoyl», «Yunokal», «İtoçu» şirkətlərinə, Şərq–Qərb enerji dəhlizinin həyata keçirilməsində əməyi olan bütün insanlara ürəkdən təşəkkürümü bildirirəm. «Eni» və «Total» şirkətlərinin bu layihəyə qoşulmalarının da böyük məmnunluq doğurduğunu vurğulamaq istəyirəm.

Türkiyə lap əvvəldən Xəzər neftinin və təbii qazının Türkiyə üzərindən Qərb bazarlarına daşınmasının iqtisadi, siyasi və strateji cəhətdən bölgə ölkələri və özü üçün ən doğru seçim olduğunu bildirmiş və bu sahədə böyük fəaliyyət göstərmişdir. Bu layihələrin həyata keçirilməsi, bir tərəfdən, Qafqaz və Orta Asiya ölkələri ilə dünya bazarları arasında Türkiyə üzərindən keçən təhlükəsiz enerji körpüsü yaradacaq, digər tərəfdən isə, Türkiyə ilə Qərbin enerji təhlükəsizliyini artıracaqdır.

Bölgəmiz üçün başqa bir önəmli cəhət Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin ən təhlükəsiz yolla Türkiyə üzərindən keçməsidir. Tarixi İpək yolunun yenidən bərpa edilməsi layihəsinin də Xəzər hövzəsində yerləşən ölkələr üçün əhəmiyyəti çox böyükdür. Xəzəryanı ölkələr ilə Qərb arasında ticarət körpüsü və siyasi körpü rolunu oynayan bu layihələr bölgə ölkələrinin Qərbə qovuşması üçün önəmli əhəmiy-




*2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan kəmərinin təməl daşının qoyulması mərasimində.*
*Soldan: Ə.N. Sezər, H.Ə.Əliyev, E.A.Şevardnadze.*

yət daşıyacaqdır. Bu gün təməlini qoyacağımız Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinə qoşulması üçün Qazaxıstan hökumətinin fəaliyyətinin uğurla nəticələnəcəyinə inanıram. Qazaxıstan və Türkmənistan Şərq–Qərb enerji dəhlizi layihəsində yer almaqla, Xəzəryanı ölkələrin Qərb iqtisadiyyatına qovuşmasına yardımçı olacaqlar. Qazaxıstanın Bakı–Tbilisi–Ceyhan layihəsinə, daha sonra isə Türkmənistanın və Özbəkistanın Bakı–Tbilisi–Ərzurum layihələrinə qoşulmaları bölgədə iş birliyinin inkişafı baxımından böyük önəm daşımaqdadır.

Hörmətli Cümhur başqanları!

Hörmətli nazirlər!

Dəyərli qonaqlar!

Türkiyə enerji strategiyasını, təhlükəsizliyini diqqətlə həyata keçirməkdədir. Azərbaycanın qazı istər təbii qaz ehtiyatlarımızın artırılması, istərsə də, enerji təhlükəsizliyimizin təminatı baxımından strateji önəm daşıyacaqdır. Bu məqsədlə Bakı–Tbilisi–Ərzurum boru xəttinin tamamlanmasına, Azərbaycan qazının Türkiyəyə çatdırılmasına xüsusi əhəmiyyət veririk.

Bu fürsətdən istifadə edərək, Türkiyənin bütün qonşu ölkələrdən gələcək qaz kəmərləri üçün keçid yolu olduğunu diqqətə çəkmək istəyirəm. Türkiyə qısa müddət içində Cənubi Avropaya qaz verilməsində tranzit ölkə rolunu oynayacaqdır. Bununla əlaqədar 2002-ci il martın 28-də Türkiyənin «Botaş» və Yunanıstanın «Depo quruluşu» şirkətləri arasında bir anlaşma imzalanmışdır. Bu layihə ilə bağlı hüquqi sənədlər 2002-ci ilin üçüncü rübündə tamamlanacaqdır. Avropa Birliyi Komissiyasının da dəstəklədiyi bu layihə ilə Türkiyə yaxın gələcəkdə Avropanın təbii qazla təminatı üçün, Rusiya, Əlcəzair və Norveçdən sonra, mühüm rolunu oynayacaqdır. Bir sözlə, boru xətti layihələrinin həyata keçirilməsi regional iş birliyinin qurulmasına, Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi inkişafının güclənməsinə, siyasi sabitliyin və demokratiyanın qorunmasına xidmət edəcək və beləliklə, bölgədə və dünyada sülh işinə də kömək edəcəkdir. Bu layihələrin həyata keçirilməsi ilə Azərbaycan, Gürcüstan və Türkiyə arasında yüksək səviyyəyə qalxan çox mühüm, möhkəm, dayanıqlı əlaqələr zəncirinə yeni güclü halqalar əlavə ediləcəkdir. Bu duyğu və düşüncələrlə başda hörmətli Əliyev və hörmətli Şevardnadze olmaqla, Şərq–Qərb enerji dəhlizinin gerçəkliyə çevrilməsində əməyi olan hər kəsi bir daha salamlayır, fəaliyyətləri sayəsində siyasi qətiyyətlərini, yol göstərici xidmətlərini ortaya qoyan Türkiyə Cümhuriyyətinin məndən öncəki Cümhur başqanları mərhum Turqut Özalı və hörmətli Süleyman Dəmirəli hörmət və ehtiram duyğuları ilə anıram. Bu böyük layihələrin Azərbaycan, Gürcüstan və Türkiyə xalqları arasındakı dostluq və qardaşlığın daha da möhkəmləndirməsini, bölgəmizə sülh və əmin-amanlıq gətirməsini diləyirəm.

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN NİTQİ

– Cənab prezident Heydər Əliyev!

Cənab prezident Əhməd Sezər!

Amerikanın cənab energetika naziri!

Xanımlar və cənablar, qonaqlar, övladlarımız!

İndi burada baş verənləri bizim gələcək nəsillərimiz minnətdarlıq hissilə xatırlayacaqlar. XXI əsr Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə başlandı. Bu, Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin çoxəsrlik tarixində son dərəcə əhəmiyyətli hadisələrdəndir. Müstəqillik əldə etdikdən ötən 10 ildə Gürcüstan üçün bu, ən böyük nailiyyətlərdəndir. Mənə icazə verin, bu təntənənin səbəbkarına, ümumiyyətlə, bu mühüm layihənin əsas yaradıcısına, Azərbaycan xalqının tanınmış liderinə, xalqımın əsl dostuna, qardaşım Heydər Əliyevə bu sevincli gündə gürcü xalqı adından dərin minnətdarlığımı bildirim. Dəfələrlə demişəm, yaddaşlardan silinməsin deyə bir daha təkrar edirəm – prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq–Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi.

Bizim bədxahlarımız da məhz bunu istəyirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Ancaq onlar öz məqsədlərinə onda nail ola bilmədilər və gələcəkdə də nail ola bilməyəcəklər.

İcazə verin, prezident Sezərə atəşin salamlarımı yetirim. Şərq-Qərb enerji dəhlizinin tikintisində Türkiyənin rolu mühümdür. O, bölgənin lider dövləti kimi tarixi vəzifə daşıyır. Onun bu vəzifəsi Azərbaycan və gürcü xalqlarının Avroatlantik məkanına, dünya birliyinə inteqrasiyasında öz təzahürünü tapır.

Yeni Böyük İpək yolu ideyası yarandığı gündən bölgədə həmin ideyanın həyata keçirilməsini təmin edəcək əsas qüvvə məhz Türkiyə oldu. Şərq–Qərb enerji dəhlizini, mən yeni Böyük İpək yolunun onurğası adlandırardım. Qafqaz və Mərkəzi Asiya dövlətlərinin möhkəmlənməsi, azad seçimə əsaslanan inkişaf yolu ilə getmək imkanı məhz bundan asılıdır. Müasir dünyada bunu Amerika Birləşmiş Ştatları kimi dərindən dərk edənlər azdır. Bu layihəni və bir çox başqa layihələri açıq və gizli maneələrdən keçirən həlledici amil məhz dünyanın lideri olan həmin dövlətin dəstəyidir. Həmin layihələrə qarşı əvvəldən olan şübhələrə baxmayaraq, o, öz beynəlxalq sanbalı və nüfuzu ilə bu layihələrin uğurunu təmin etmişdir. Zərrə qədər şübhə etmirəm ki, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru kəmərləri prezident Buşun dəstəyi sayəsində yaxın vaxtlarda istismara veriləcək,



Qara dəniz və Xəzər dənizi hövzəsində həyata keçirilən ən uğurlu layihələr olacaqdır.

Avropa Birliyinin rolunu xüsusi qeyd etməyə bilmərəm. Həmin birlik Böyük İpək yolu layihəsinə həyat və dəstək verənlərdəndir. Əgər 1990-cı illərdə həmin layihəyə qarşı hökm sürən bədbinlikdən söz açırıqsa, onda onu da deməliyik ki, həmin şübhələrin aradan qaldırılmasında Avropa Birliyinin, onun rəhbərlərinin, onun üzvü olan ölkələrin, ələlxüsus da Almaniya, Böyük Britaniya və Fransanın rolu əvəzsizdir.

Əsas ixrac boru kəmərində iştirak edən şirkətləri salamlayıram. Bugünkü tarixi hadisə onların yorulmadan çalışmalarının və fasiləsiz zəhmətlərinin bəhrəsidir. Yüksək peşəkarlıq nümunəsi göstərən, əsas ixrac boru kəmərinin tikintisinin uğurla başa çatmasının və uğurlu istismarının zəminini təşkil edən şirkətlərin rəhbərlərinə, onların bütün əməkdaşlarına öz dərin təşəkkürümü bildirmək istəyirəm.

Şərq–Qərb enerji dəhlizinə Qazaxıstanın qoşulmasına regional əməkdaşlıq prinsipləri baxımından böyük əhəmiyyət verirəm. Bu barədə həm Heydər Əliyev, həm də Əhməd Sezər qeyd etmişlər. Həmin proses artıq praktiki olaraq başlanmışdır. Onun daha da inkişaf etməsinə Gürcüstan da təkan verəcəkdir. Biz hər cür imkan yaradacağıq ki, qardaş Ukrayna, Rumıniya, Bolqarıstan və Avropanın başqa ölkələri həmin dəhlizin sonrakı inkişafının gözəl bəhrəsini görsünlər.

Bu gün mən təkcə vətənimin və ona dost olan ölkələrin böyük qələbəsinin iştirakçısı olduğuma görə deyil, həm də ona görə xoşbəxtəm ki, hələ 12 il bundan öncə Vladivostokdan Vankuvevrədək vahid Avroatlantik məkanı barədə irəli sürdüyüm ideya, Böyük İpək yolunun Avroatlantik məkanına inteqrasiyasına dair tarixi Bakı sammitinin qərarları göz önündə gerçəkləşərək həyata keçir. Bu yolda biz hamımız ilk qələbəyə indiyədək maneəsiz işləyən Bakı–Supsa boru kəməri işə salınanda nail olduq. Cəsarətlə deyə bilərəm ki, Bakı–Supsa layihəsi Qərb istiqamətinin, xüsusən də Gürcüstandan keçən marşrutun etibarlılığını, sərfəliliyini təsdiq edən Bakı–Tbilisi–Ceyhan layihəsinə yol açmışdır.

Xanımlar və cənablar!

Gerçəkləşməsi bu gün başlanan əsrin layihəsi bir irs olaraq bizim nəvə-nəticələrimizə qalacaqdır. Mən fəxr edirəm ki, bizim nəslimiz onlara layiqli miras qoyur. Biz birgə qüvvəmizlə, razılaşdırılmış ahəngdar fəaliyyətimizlə, azacıq da olsa, möcüzə yaratmağa qadir olduğumuzu dünyaya göstərdik. Arzu edirəm ki, bizim birgə əməkdaşlığımız bir çox belə möcüzələr yarada bilsin.

Diqqətinizə görə təşəkkür edirəm. Sizə xoşbəxtlik arzu edirəm! Qardaş Azərbaycana tərəqqi arzu edirəm!

## ABŞ-ın ENERGETİKA NAZİRİ SPENSER ABRAHAMIN ÇIXIŞI

– Möhtərəm prezidentlər!

Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin ilk mərhələsinin başlanmasını bayram etmək üçün burada olmaq mənim üçün çox xoşdur. Bu, çox vacib bir tədbirdir. Bu, Bakı–Tbilisi–Ceyhan kəmərinin başlanğıcından xəbər verən bir tədbirdir. Prezident Əliyev, prezident Sezər və prezident Şevardnadze ilə bir yerdə olmaq çox xoşdur.

Bu, gözəl kommersiya, ticarət və mühəndis layihəsi, Xəzər dənizindən nefti Gürcüstan vasitəsilə Türkiyənin Aralıq dənizi sahilinə, Ceyhana, oradan da dünyaya daşıyacaq 1760 kilometrlik boru kəməridir.

Prezident Heydər Əliyevin Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdıqı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bugünkü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində prezident Heydər Əliyev neft və qaz ixrac dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir.

Mən həmçinin layihənin operatoru kimi bp şirkətinin xidmətlərini qiymətləndirmək istəyirəm. O, Bakı–Tbilisi–Ceyhan layihəsinə həyat vermək üçün özəl şirkətlərdən ibarət beynəlxalq qrupun yaradılmasında çox böyük iş görmüşdür. Mən çox məmnunam ki, Amerika Birləşmiş Ştatlarından burada «Yunokal» və «Delta Hess» şirkətləri də iştirak edirlər.

Mən dünən prezident Heydər Əliyev ilə görüşəndə demişəm və indi də bildirmək istəyirəm ki, ABŞ prezidenti cənab Buş da bu layihənin əhəmiyyətindən çox yaxşı xəbərdardır. O, prezident Əliyevə və bugünkü tədbirin iştirakçılarına bir məktub göndəribdir. Mən indi bu məktubu oxuyuram.

«Mən Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına və prezident Əliyevə, prezident Sezərə və prezident Şevardnadzeya Bakı–Tbilisi–Ceyhan neft boru kəməri layihəsinin açılışı münasibətilə salamlarımı, təbriklərimi göndərirəm.

Mən çox məmnunam ki, bu mühüm layihə indi həyata keçirilir və Amerika Birləşmiş Ştatlarından iki şirkət burada iştirak edir. Regionda yerləşən ölkələrin hökumətləri və bp-nin rəhbərlik etdiyi investorlar qrupu ilə ictimai, özəl səviyyədə sıx əməkdaşlıq qurulmuşdur və onun irəliləməsinə daha fəal töhfə verilmişdir.



Bakı–Tbilisi–Ceyhan boru kəməri Şərq–Qərb enerji dəhlizində mərkəzi komponentdir. Buraya, regiona yeni sərmayənin cəlb olunması, dünyanın enerji təhlükəsizliyinin gücləndirilməsi, Xəzər hövzəsi ölkələrinin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsi, bu ölkələrin iqtisadi əməkdaşlığına və dünya iqtisadiyyatına inteqrasiyasına təkan verilməsi daxildir. Bu boru kəməri region ölkələrinə, habelə dünyanın digər yerlərindəki ölkələrə xeyirlər gətirəcəkdir.

Mən bugünkü mərasimdə iştirak edən dövlət, hökumət və şirkət rəhbərlərinə onların strateji uzaqgörənliyi və qətiyyətinə görə ən xoş sözlərimi çatdırıram. Amerika Birləşmiş Ştatları Xəzərin enerji ehtiyatlarının üzümüzə gələn uzun illər boyunca təhlükəsizliyinin gücləndirilməsinin təmin olunmasında sizinlə davamlı tərəfdaşlıq etmək əzmindədir.

Corc Buş, ABŞ prezidenti.»

Baxmayaraq ki, bu boru kəməri ilə ilk neftin keçəcəyi vaxta hələ xeyli qalır, ancaq bu layihə regionun gələcəyinə əhəmiyyətli töhfələr vermişdir. Bu layihəni ərsəyə gətirərkən birgə işlədikləri zaman Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin öz aralarında yaratdıqları əməkdaşlıq və etibarlılıq gələcək birgə işlərdə inkişaf üçün, yeni tərəfdaşlar üçün, regionun digər ölkələri üçün bir model ola bilər.

Biz, həmçinin özəl sektor sərmayəsinin gücünü də qiymətləndirməliyik. İnanırıq ki, hökumətlərin və özəl şirkətlərdə çalışanların birliyi qarşıdakı illərdə dünyanın hər yerində enerji ehtiyatlarının uğurlu işlənilməsi üçün mühüm amil olacaqdır. Bu cür tərəfdaşlığa dəstək vermək və onu ruhlandırmaq ABŞ-ın enerji siyasətində əsas yer tutur.

Enerji sahəsində tərəfdaşlığı genişləndirmək imkanları da çox yaxşı haldır. Siz birlikdə işləməklə Xəzərin zəngin enerji ehtiyatlarına daha geniş qapılar açırsınız. Bu boru kəməri hər üç ölkənin xalqına, xüsusilə, Azərbaycan xalqına mənfəətlər gətirməlidir. Bu kəmər Azərbaycanda enerji ehtiyatlarının istismar sürətini artıracaq və prezident Heydər Əliyevin yaratdığı Neft Fondu kimi tərifəlayiq qurumlara kömək edəcək ki, neftlə bağlı qoyulan xarici sərmayələrdən gələcək gəlirlər yoxsulluğun azaldılmasına, təhsilə və Azərbaycanın kənd yerlərindəki əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yönəldilsin.

Amerika Birləşmiş Ştatları Xəzər regionunun hökumətləri ilə birgə işləməyə davam etmək əzmindədir. Dünyanın enerji bazarlarının daha fəal iştirakçısına çevrilməyiniz prosesində, hasilatdan və nəqldən gələcək gəlirlərin artımı üçün çoxşaxəliliyin sürətləndirilməsi prosesində biz sizinlə birlikdə işləməyə davam edəcəyik. İnanırıq ki, bu kimi birgə layihələr yerli, regional və qlobal sülhə, firavanlıq və əmin-amanlığa doğru daha yaxın bir yoldur.

Biz hamımız bu qələbəni qeyd etmək üçün buraya yığışmışıq. Bilirik ki, bu layihədən əldə edilən gəlirlərin hamısı bütün digər layihələ-

rin irəliyə aparılmasına çox yaxşı zəmin yaradır. Bu, qısa müddətdə əldə olunmuş çox böyük irəliləyişdir. Elə bir irəliləyişdir ki, cəmi on il əvvəl buna, ancaq xəyal demək olardı. Bizim ümumi təhlükəsizlik, kommersiya maraqlarımız, sülh və firavanlığa olan maraqlarımız bu kəmərin uzunluğu ilə daha da güclənəcəkdir.

Bu tədbirdə hamımızın olması bizi dövlətlərimiz arasında münasibətlərdə yeni, daha böyük ümidlər verən tarixin iştirakçısına çevirir. Tarixin bu bölməsini yazarkən gəlin, söz verək ki, biz bu gün burada, bu tədbirdə nailiyyətlərini qiymətləndirdiyimiz adamların belə alicənablıqla irəliyə, bu səviyyəyə gətirib çatdırdıqları işi davam etdirəcəyik. Bu layihənin uğurla həyata keçirilməsi uğrunda işimizi birlikdə davam etdirəcəyik ki, ondan hamımız üçün gəlirlər gəlsin.

Cənab prezident Heydər Əliyev, qonaqpərvərliyiniz üçün Sizə ürəkdən təşəkkür edirəm. Müdrik rəhbərliyinizə görə çox sağ olun.

* * *

Natiq ƏLİYEV: Zati-aliləri möhtərəm prezidentlər!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycanın paytaxtında, Bakı şəhərində keçirilən bugünkü mərasim dünyanın çox ölkələrinin diqqət mərkəzindədir. Bu ölkələr Azərbaycanda həyata keçirilən layihələri daim dəstəkləyiblər və bu gün də bu mərasimə çoxsaylı teleqram və məktublar göndəriblər.

Zati-aliləri, icazənizlə, biz onun bir neçəsini burada oxuyaq. Fransa Respublikasının prezidenti Jak Şirakın təbrik məktubunu oxumaq üçün bu ölkənin Azərbaycandakı səfiri xanım Şantal Puareyə söz verilir.

«Hörmətli Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri!

Mən bu məktubumda sizlərə, Azərbaycana, Türkiyəyə və Gürcüstana uğurlar arzulayıram, bu layihənin uğurlu və xeyirli olmasını diləyirəm.

Bakı–Tbilisi–Ərzurum qaz kəmərinə Fransanın şirkətləri də qoşulubdur. Eyni zamanda, Bakı–Tbilisi–Ceyhan konsorsiumuna Fransa şirkətlərinin daxil olmasını məmnuniyyət hissi ilə qeyd edirəm. Cənubi Afrikada «Davamlı inkişaf üzrə» beynəlxalq sammitdə, mən ətraf mühitin qorunmasında hamımızın kollektiv məsuliyyətimizi təkidlə vurğuladım. Azərbaycan, Gürcüstan və Türkiyə, eləcə də bp şirkəti bu işləri ekoloji cəhətdən məsuliyyətlə həyata keçirəcəkləri barədə öz iradələrini aydın şəkildə ifadə etmişlər. Biz sizinlə bu yolu seçmişik və bu sahədə Fransanın təcrübəsinə etibar edə bilərsiniz.

Nəhayət, icazə verin, neftdən və qazdan əldə edilən gəlirlərin ehtiyatla idarə olunması üçün yaradılan Neft Fondunun təsis olunmasını alqışlayım. Bu, Azərbaycan xalqına yalnız xeyir gətirə biləcək uğurlu bir təşəbbüsdür.



Azərbaycan Respublikasının hörmətli prezidenti Heydər Əliyev, Gürcüstanın prezidenti hörmətli Eduard Şevardnadze, Türkiyə Respublikasının prezidenti hörmətli Əhməd Necdət Sezər, qoy bu gün açılışında iştirak etdiyiniz layihələr ölkələrinizin inkişafına və hər üç ölkə ilə Fransa arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə xidmət etsin.

Jak Şirak, Fransanın prezidenti.»

* * *

İngiltərə nümayəndə heyətinin rəhbəri cənab Piter Tibber Böyük Britaniyanın baş naziri Toni Bleyerin təbrik məktubunu oxudu:

«Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab Heydər Əliyevə

Hörmətli cənab prezident!

Bakı–Tbilisi–Ceyhan ixrac neft kəmərinin tikintisinin təməlinin qoyulması və bu layihə ilə əlaqədar olaraq «Azəri–Çıraq–Günəşli» neft yataqlarının tammiqyaslı işlənilməsi münasibətilə Sizi təbrik edirəm.

Mən bp-nin, Böyük Britaniyanın digər şirkətlərinin Azərbaycanın neft sənayesində əhəmiyyətli rol oynamasından çox məmnunam. Bu möhtəşəm layihənin müvəffəqiyyətlə həyata keçirilməsi hər iki ölkəyə böyük fayda verəcəkdir. Bu, Britaniya şirkətinin Azərbaycana ən azı daha 20 il cəlb olunması deməkdir.

Ölkələrimiz arasında siyasi əlaqələr, eləcə də güclü ticarət-iqtisadi əlaqələr getdikcə artır. Avropa Şurasına qəbul olunmaq və eləcə də Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi vasitəsilə nazirlərimiz də bütün səviyyələrdə əlaqələr yaradıblar. Mən eləcə də Azərbaycanın gələcəkdə Ümumdünya Ticarət Təşkilatının üzvü olmasını arzu edirəm.

Bu gün Azərbaycan xalqı üçün tarixi bir gündür. Bu hadisə Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlığı gücləndirir. Xəzərin yeraltı sərvətlərindən istifadə edilməsinin gerçəkləşdirilməsi artıq uzaq xülya deyildir. Bu, sərvətin müdrikliklə idarə edilməsi, insanların həyat şəraitini yaxşılaşdırmaq üçün saysız imkanlar yaradır.

Azərbaycan xoş həyəcan dolu bir gələcəyin astanasındadır. Mən və eləcə də Böyük Britaniya sizə bu yolda müvəffəqiyyət arzulayırıq. Çox sağ olun.

Hörmətlə, Toni Bleyer, Böyük Britaniyanın baş naziri.»

* * *

**Sonra Norveçin Bakıdakı səfiri Steynar Gilə söz verildi.**

– Azərbaycan, Gürcüstan və Türkiyənin hörmətli prezidentləri!

Möhtərəm baş nazir və nazirlər!

Xanımlar və cənablar!

Bu gün burada Norveçdən təbrik məktubunu oxumaq bizim üçün fövqəladə dərəcədə əhəmiyyətlidir. İcazənizlə, möhtərəm Heydər Əliyevə Norveçin baş naziri cənab Bunnevikin təbrik məktubunu oxuyuram:

«Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab Heydər Əliyevə

Möhtərəm prezident Heydər Əliyev!

Mən Bakı–Tbilisi–Ceyhan boru xəttinin təməlinin qoyulduğu bu gündə Sizə ən səmimi arzularımı çatdırmaq istəyirəm. Bu boru xətti «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının istismarı üçün çox önəmli əhəmiyyət kəsb edəcəkdir. Beləliklə, bölgədə neft və qaz hasilatı əhəmiyyətli dərəcədə artacaq, Azərbaycan, Gürcüstan və Türkiyə daha sıx əməkdaşlıq imkanı əldə edəcəklər.

Bundan əlavə, biz fəxr edirik ki, Norveçin «Statoyl» firması da belə bir mühüm işdə iştirak edir, onun bir parçasıdır. Beləliklə, Norveç və Azərbaycan, eləcə də Norveç və bölgə ölkələri arasında əməkdaşlıq qüvvətlənəcək və bu, ölkəmizi bölgəyə daha da yaxınlaşdıracaqdır.

Bu mərasimlə bağlı, boru xəttinin uğurlu olması üçün ən səmimi təbriklərimizi Sizə çatdırıram.

Xyel Maqne Bunnevik, Norveçin baş naziri.»

## AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI

– Zati-aliləri cənab prezidentlər!

Cənab energetika naziri!

Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Əvvələn, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşlarımız – ARDNŞ, «Yunokal», «Lukoyl», «Statoyl», «Ekson-Mobil», TPAO, «Devon», «İtoçu» və «Delta Hess» şirkətləri adından, ikincisi, Bakı–Tbilisi–Ceyhan Boru Kəməri Şirkətindəki tərəfdaşlarımız – ARDNŞ, «Yunokal», «Statoyl», TPAO, ENİ, «İtoçu», «Delta Hess», TFE, İNPEKS şirkətlərinin adından bu gün burada çıxış etmək imkanından çox məmnunam.



Bu gün, həqiqətən, tarixi bir gündür. Biz, bu gün buraya iki böyük layihənin tikinti mərhələsinin başlanmasını bayram etmək üçün toplaşmışıq.

Bunlar «Azəri–Çıraq–Günəşli» yataqlarının (AÇG) işlənilməsi üzrə Faza-2 və Bakı–Tbilisi–Ceyhan boru kəməri layihələridir. Əminik ki, onların hər ikisinin Azərbaycana, Gürcüstana və Türkiyəyə əhəmiyyətli dərəcədə müsbət təsiri olacaqdır.

Beləliklə, biz hamımız bu gün Azərbaycan, Gürcüstan və Türkiyədə enerji iqtisadiyyatının yeni bir dövrünün yaranması ərəfəsindəyik. Bu, qanunauyğun haldır, dünyanın hələ də öz enerji ehtiyatları üçün arxalanmaqda davam etdiyi bir sənayenin yaranmasına 100 ildən də çox bundan qabaq töhfə vermiş bir ölkə olan Azərbaycan bu nəhəng enerji layihələri üçün karbohidrogen ehtiyatlarını təmin edəcəkdir.

1997-ci il noyabrın 7-dən – «Çıraq» yatağından ilkin neftin hasilinə başlanandan bəri bütün maraqlı tərəflərlə əməkdaşlıq şəraitində əldə etdiyimiz mühüm irəliləyişlər barədə əvvəllər də danışmışam.

İlkin neft layihəsi çərçivəsində artıq 165 milyon barreldən çox neft hasil edilmiş və Azərbaycan dövlətinə təxminən 500 milyon dollarlıq mənfəət nefti təhvil verilmişdir.

«Azəri» yatağının mərkəzi hissəsinin işlənilməsi üzrə Faza-1 layihəsinin tikinti işləri də yaxşı gedir. Bu layihəyə sanksiya verilməsindən bir il ötür, irəliləyiş əladır və layihə cədvələ tam uyğun həyata keçirilir. Faza-1 üzrə hasilatın 2005-ci ilin əvvəllərində başlanacağı və nəticədə, orta hesabla gündə 375.000 barrel neft çıxarılacağı gözlənilir.

Bu işin icrası bizdə belə böyük inam yaratmışdır ki, Azərbaycan və Gürcüstan uğurlu biznes qurmaq üçün möhkəm özül yaradılmasını təmin edə bilərlər və edirlər. Lakin bu günədək əldə etdiklərimiz nə qədər əhəmiyyətli olsa da, hazırda həyata keçirdiklərimizlə müqayisədə xeyli azdır.

Biz layihələrimizin həcmini və miqyasını genişləndirərək, Türkiyəni də bu işə qoşmaq ərəfəsindəyik. Biz burada uzun müddət fəaliyyət göstərəcəyik və ABƏŞ, BTC və «Şahdəniz»dəki tərəfdaşlarımızla birlikdə Xəzər regionundakı neft və qaz layihələrinə bundan sonra əlavə 18 milyard dollar sərmayə qoymağı planlaşdırırıq, bunun da əksər hissəsi Azərbaycana qoyulacaqdır.

Faza-2 layihəsinin dəniz obyektləri iki əsas hasilat platformasından ibarət olacaqdır. Onlar «Azəri» yatağının qərb və şərq hissələrində yerləşəcək və hər ikisi Faza-1-in hasilat platforması ilə oxşar olacaqdır. Yeni hasilat platformasından çıxarılacaq neft uzunluğu 190 kilometr olan 30 düyməlik yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına nəql ediləcəkdir. Səngəçal terminalında Faza-2 layihəsinin əsas hissəsi olaraq, böyük genişləndirmə işləri aparılacaqdır. Bunun nəticəsin-

də terminalın gücü sutkada 800.000 barreldən artıq olacaq, onun ümumi sahəsi 540 hektaradək artacaq və terminal dünyanın bu növ ən böyük obyektlərindən birinə çevriləcəkdir.

AÇG-nin işlənilməsinin üçüncü, yekun fazası 2007-ci ildə tamamlanacaq və bu mərhələ yataqlardan ümumi hasilatı gündə 1 milyon barreldən yuxarı səviyyəyə çatdıracaqdır.

Səngəçal terminalında texniki emaldan keçirilmiş neft Ceyhana ixrac olunmaq üçün Bakı–Tbilisi–Ceyhan boru kəmərinə vurulacaqdır.

BTC layihəsinin mahiyyəti nədir? Statistik məlumatlara görə, bu, uzunluğu 1760 kilometr olan, əsasən 42 düyməlik boru kəmərinə, 8 nasos stansiyasına və 98 siyirtməli stansiyaya malik, 2,95 milyard dollar sərmayə tələb edən layihədir. Xəzər dənizindən Aralıq dənizinədək olan yol boyunca boru kəməri bəzi yerlərdə 2700 metrdən də artıq yüksəklikdən və 1500-dən çox çaydan keçəcəkdir.

Lakin BTC təkcə bu demək deyildir. Bu layihə yeni Şərq–Qərb enerji dəhlizini açacaq və bizi yalnız yerli ixrac çözümü olan orta miqyaslı neft hasilatı əməliyyatlarından beynəlxalq ixrac çözümünə malik nəhəng neft istismarı əməliyyatlarına aparacaqdır. Bu elə bir beynəlxalq ixrac çözümüdür ki, onun beynəlxalq standartlara uyğun fəaliyyət göstərən beynəlxalq tərəfdaşları var. Bununla belə, o, yerli tərəfdaşlardan, yerli məhsullardan və xidmətlərdən istifadə etməklə və əhəmiyyətli sayda yerli işçi qüvvəsi cəlb etməklə yerli ehtiyaclara çox həssas yanaşır.

Gəlin, həm də unutmayaq ki, BTC böyük həcmdə xam neftin çox tünlük olan Türkiyə boğazlarından yan keçməklə birbaşa dünya bazarlarına nəqlinə imkan yaradacaq və ətraf mühitin qorunması ilə bağlı Türkiyənin bütün narahatlıqlarını aradan qaldıracaqdır.

Beləliklə, biz bu gün hansı mərhələdəyik? Bu gün biz artıq gələcək uğurlarımız üçün möhkəm təməl qoymuşuq. Bununla yanaşı, biz yalnız bütün maraqlı tərəflərin fəal dəstəyi, iştirakı və əməkdaşlığı ilə irəli gedə bilərik.

Mən, burada bizi bu tarixi günə gətirib çıxaran, rəhbərliyinə görə prezident Heydər Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Sizin prezident Şevardnadze və prezident Sezərlə birlikdə regionda yaratmış olduğunuz sülh və sabitlik, imzaladığınız müqavilələrin bütövlüyü bu çoxmilyardlı dollarlıq sərmayələr tələb edən layihələri irəli apara bilməyimiz üçün həlledici əhəmiyyətə malikdir. Bp və tərəfdaşları layihələrimizə gətirmiş olduğunuz gələcəyə tuşlanmış baxışları və uzaqgörənliyi, sizin nazirlərinizin və şəxslərinizin dəstəyini olduqca yüksək qiymətləndirirlər. Əminəm ki, biz bu layihələri irəli apardıqca və bugünkü tarixi günlə son məqsədə çatacağımız dövr arasında üzləşəcəyimiz labüd çətinliklərin aradan qaldırılmasında Sizin daimi dəstəyinizə arxalana bilərik.



Mən, həmçinin digər maraqlı tərəflərin – Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının, ABŞ və Avropa hökumətlərinin, maliyyə qurumlarının, dövləti təmsil edən tərəfdaşlarımızın – ARDNŞ və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının, çoxsaylı podratçılarımızın və əlbəttə, layihədəki tərəfdaşlarımızın əhəmiyyətli töhfələrini yüksək qiymətləndirmək istərdim. Onların dünyanın bir çox ölkələrindən – Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı və İtaliyadan olmaları layihələrin əsl beynəlmiləl təbiətini və bunun nəticəsi kimi, bu layihələrə göstərilən çox geniş dəstəyi əks etdirir.

Biz bu dəstəyə nail olmaq üçün çox ciddi çalışmışıq, bütün aidiyyəti tərəflərlə geniş məsləhətləşmələr aparmışıq. Biz BTC marşrutunun seçilməsinə böyük qayğı ilə yanaşmışıq, məsələn, elə bir əminlik yaratmağa çalışmışıq ki, bircə nəfər də olsa, öz evinin köçürülməsi barədə xahiş etməsin. Biz mənfi təsirin azaldılması üzrə geniş məsləhətləşmələr aparmışıq ki, nəticədə bu ərazidə tikinti işlərimiz başa çatdıqdan sonra ətraf mühiti işə başladığımız vaxt necə idisə, o cür, yaxud daha yaxşı vəziyyətdə təhvil verə bilək.

Hər bir işi bp-nin siyasətinə və tranzit ölkə hökuməti ilə sazişlərdəki öhdəliklərə uyğun olaraq, ən yüksək beynəlxalq standartlarla görməyə söz veririk. Bu öhdəliklərlə bərabər, hər bir hökumətin özünün həyata keçirəcəyi hüquq və tələblər də var və biz hökumətlərarası sazişlərin və tranzit ölkə hökuməti ilə sazişlərin yaratmış olduğu hüquqi əsaslar çərçivəsində bundan sonra da əməkdaşlıq etmək ümidindəyik ki, bu layihələrin təhlükəsiz, sərfəli və səmərəli yerinə yetirilməsi təmin olunsun.

İnanırıq ki, əldə olunacaq böyük gəlirlərdən yaxşı istifadə təmin edilərsə, bu, regionun əhalisinə əsaslı fayda verə bilər. Neft gəlirlərinin daxil olmasında və onlardan istifadə edilməsində şəffaflığı təmin etmək üçün Azərbaycanda Neft Fondunun yaradılmasından xüsusilə ruhlanmışıq.

Cənab prezidentlər, cənab energetika naziri, hörmətli qonaqlar, xanımlar və cənablar!

Zənnimcə, biz bu gün bir arzunu bölüşürük – Gürcüstan və Türkiyə ilə əməkdaşlıqda Azərbaycanda dünya səviyyəli neft və qaz layihələri gerçəkləşəcək və bu ölkələrə, onların vətəndaşlarına, sanballı fayda və mənfəət gətirəcəkdir. Elə buna görə də bu gün Faza-2 və BTC layihələrinə sanksiya verilməsinə həsr edilmiş bu mərasimdə olmaqdan məmnunluq duyuram. Bp və onun tərəfdaşları bu arzunun reallığa çevrilməsi üçün sizinlə birlikdə işləmək əzmindədirlər.

Sağ olun.

## ARDNŞ-nin PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI

Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab Heydər Əliyev!

Türkiyə Cümhuriyyətinin prezidenti zati-aliləri cənab Əhməd Necdət Sezər!

Gürcüstanın prezidenti zati-aliləri cənab Eduard Şevardnadze!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İki gündən sonra müstəqil Azərbaycanın yeni neft strategiyasının əsasını qoyan «Əsrin müqaviləsi»nin imzalanmasının 8 ili tamam olacaqdır. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda, onun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi. Bu gün tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin neft konsepsiyası nəinki Azərbaycanın XXI əsrdəki inkişafının əsasını qoydu, həm də Xəzər regionundakı zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə yol açdı və bütövlükdə, regionun dünyanın ən böyük enerji mərkəzlərindən birinə çevrilməsində həlledici qüvvə rolunu oynadı.

Mən öz adımdan, çoxsaylı tərəfdaşlarım və xarici qonaqlar adından bu gün Bakı şəhərində baş verən tarixi əhəmiyyətli hadisələr münasibətilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi və onun yaxın həmkarları Türkiyə və Gürcüstan prezidentlərini təbrik edirəm.

Yeni neft strategiyasının həyata keçirilməsinin indiki mərhələsinin əhəmiyyətini mərasim iştirakçılarına inandırmağa ehtiyac yoxdur, bununla belə, mən bu haqda bəzi rəqəm və faktları sizin nəzərinizə çatdırmaq istərdim.

«Əsrin müqaviləsi»nin imzalanmasından bu günə qədər xarici şirkətlərlə 21 neft müqaviləsi imzalanmışdır və bu layihələrin inkişafına ümumilikdə 6 milyard dollara qədər sərmayə qoyulmuşdur, bunun da təxminən 4 milyardı «Azəri», «Çıraq», «Günəşli» yataqlarının payına düşür. 1996-cı ilin fevral ayında «Çıraq» yatağından ilkin neftin hasilatı haqqında qərar qəbul olundu və uğurla həyata keçirildi. İlkin neft obyektlərinə «Çıraq» yatağında 105 metr dərinlikdə qurulmuş bir dəniz qazma və hasilat platforması, Səngəçaladək 24 düyməlik bir sualtı neft kəməri, Neft Daşlarınadək 16 düyməlik bir sualtı qaz kəməri, Səngəçalda neft terminalı, Şimal və Qərb istiqamətində iki ixrac boru kəməri və Supsada bir ixrac terminalı daxil oldu. Hazırda «Çıraq-1» özülündə 16



quyu qazılmışdır və onların 12-dən, nəzərdə tutulduğundan xeyli artıq, gündə orta hesabla 140 min barrel (19 min ton) neft hasil edilir. Bu günədək 22,6 milyon tondan artıq neft çıxarılıb ki, bunun da 3,8 milyon tonu Bakı–Novorossiysk, 18,6 milyon tonu isə Bakı–Supsa boru kəmərləri vasitəsilə dünya bazarlarına çatdırılmışdır.

Lakin neftin hasilatını və ixracını artırmaq üçün Azərbaycanın və xüsusilə, «Azəri», «Çıraq», «Günəşli» yataqlarının imkanları bugünkündən qat-qat çoxdur. Axır zamanlarda aparılan kəşfiyyat işləri göstərmişdir ki, yalnız bu yataqlardan sübut olunmuş və çıxarıla bilən neft ehtiyatları 4,2 milyard barreldən 5,4 milyard barrelə və ya 511 milyon tondan 730 milyon tona qədər artmışdır. Bu imkanlardan səmərəli istifadə etmək məqsədilə yataqların tammiqyaslı işlənilməsi proqramı hazırlandı və 2001-ci il avqustun 30-da onun ilk mərhələsi Faza-1 layihəsinin başlanması qərara alındı.

Bu layihə «Azəri» yatağının mərkəzi hissəsinin işlənilməsinə yönəldilmişdir. Layihədə 128 metr dərinlikdə 48 quyuağzına malik olan, sutkada 400 min barrel (ildə təxminən 20 milyon ton) neft hasil etmək gücündə hasilat, qazma və yaşayış platformasının tikilməsi nəzərdə tutulur. Bu platformadan neft, uzunluğu 187 kilometr olan yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına, səmt qazı isə 28 düyməlik kəmər vasitəsilə sahilə çatdırılacaqdır. Bu həcmdə nefti və qazı qəbul etmək üçün Səngəçal terminalının genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bunun nəticəsində Faza-1 layihəsi çərçivəsində terminal gündə 360 min barrelə (48,6 min tona) yaxın nefti qəbul və emal etmək qabiliyyətinə malik olacaqdır. Neft tutumlarının ümumi saxlanılma gücü 1,6 milyon barrelə və ya 220 min tona çatacaqdır. Bundan başqa, neft laylarının səmərəli işlənilməsini təmin etmək məqsədilə hasilat platformasının körpü ilə birləşdirilməsi, bir yeni qaz kompressorunun və suvurma platformasının inşası nəzərdə tutulmuşdur. Faza-1 layihəsinin həyata keçirilməsi nəticəsində 2005-ci ilin birinci rübündə ilkin neftin hasil olunması gözlənilir və ümumilikdə, «Çıraq-1» və «Mərkəzi Azəri» platformasından neft hasilatı gündə 250 min barrelə, 2008-ci ildə isə yalnız bu iki platformadan 500 min barrelə (ildə 25 milyon ton) çatacaqdır.

Möhtərəm cənab prezident!

Sizə məruzə etmək istəyirəm ki, Faza-1 layihəsi cari ildə çox dinamik inkişaf edir, artıq əsas tikinti-quraşdırma işlərinə Azərbaycanda, Dubayda, Fransada, İtaliyada və İsveçdə başlanmışdır və bu işlərin vaxtında yerinə yetirilməsi üçün ABŞ-ın «MakDermott», Fransanın «Buyiq», «Eyfel» və «Enterpoz», İtaliyanın «Saypem», İsveçin «Emtunqa», Türkiyənin «Tekfen» şirkətləri böyük səylər göstərir. Hazırda bu şirkət-

lərdə Faza-1 layihəsi çərçivəsində 2300-dən artıq Azərbaycan mütəxəssisi və vətəndaşı işə götürülüb və uğurla çalışır.

Faza-1 üzrə qazma proqramı «Dədə Qorqud» qazma qurğusu vasitəsilə «Azəri» yatağında platformanın tikilməsini gözləmədən, 2002-ci ilin mart ayında başlamışdır. Hal-hazırda bir quyu tam qazılıb qurtarıb, ikinci quyu qazılmaqdadır və ümumilikdə, dəniz dibində quraşdırılmış qazma dayaq tavasından istifadə edilməklə doqquz quyu qazılacaqdır. Qalan 39 quyu isə platforma istismara verildikdən sonra, 2005–2011-ci illər arasında platformadan qazılacaqdır.

Faza-2 layihəsi «Azəri» yatağının şərq və qərb hissələrinin işlənilməsinə yönəldilmişdir və bu, Faza-1 ilə birlikdə «Azəri» yatağının işlənilməsini tam başa çatdıracaqdır. Faza-2 dəniz obyektləri suyun dərinliyi müvafiq olaraq 120 və 150 metr olan sahələrdə yerləşməklə, «Azəri» yatağının qərb və şərq hissəsində iki ədəd 48 quyuağzına malik platformanı əhatə edəcəkdir. Platformaların texnoloji emal gücü «Azəri» yatağının qərb hissəsində gündə 340 min barrel (ildə 17 milyon ton), şərq hissəsində isə 260 min barrel (ildə 13 milyon ton) olacaqdır. Bunun nəticəsində «Azəri» yatağında neft hasilatı artırılacaq və gündə azı 800 min barrelə (ildə 40 milyon ton) çatdırılacaqdır.

Bu zaman neft Səngəçala iki ədəd 30 düyməlik boru kəməri, səmt qazı isə 28 düyməlik boru kəməri vasitəsilə nəql ediləcəkdir. Səngəçal terminalı alınacaq əlavə hasilatın texnoloji işlənilməsini təmin etmək üçün genişləndiriləcək və 2007-ci ilə qədər texnoloji emal obyektlərinin gücü gündə 1,2 milyon barrelə (ildə 60 milyon tona) çatdırılacaqdır. Bu da Səngəçal terminalını dünyanın ən böyük terminallarından birinə çevirəcəkdir.

Faza-1-in qaz kompressor və suvurma platforması gücləndiriləcək və onun üzərində yerləşdirilmiş dörd qaz və suvurma qurğusuna Faza-2-nin iş həcmi ilə əlaqədar daha iki qazvurma və üç suvurma qurğusu da əlavə ediləcəkdir.

Faza-2 çərçivəsində ilkin qazma işləri 2003-cü ilin 4-cü rübündə «Azəri» yatağının mərkəzi hissəsində ilkin qazma işləri başa çatdırılan kimi, onun qərb hissəsində «Dədə Qorqud» qazma qurğusu işə başlayacaq və platforma quraşdırılmazdan əvvəl doqquz hasilat quyusu qazılacaqdır. Bundan sonra şərq hissəsində 2006-cı ilin 2-ci rübünədək daha 4 hasilat quyusu təhvil veriləcəkdir. Bundan əlavə, platformalardan, ümumilikdə, 70 hasilat və 16 suvurma quyusunun qazılması nəzərdə tutulur.

Beləliklə, Faza-2 layihəsinin iş cədvəlinə və proqramına uyğun «Azəri» yatağının qərb və şərq hissələrindən ilk hasilat 2006-cı və 2007-ci illərdə başlanacaq və həmin ildə yalnız «Azəri» yatağından ümumi gündəlik hasilat 615 min barrelə (ildə 30 milyon ton) çatacaqdır.



Bu baxımdan, bu gün Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin ilk borusunun qoyulması, üç ölkənin prezidentlərinin bu təntənəli mərasimdə iştirak etməsi və bu işə xeyir-dua verməsi xüsusi əhəmiyyət kəsb edir, hamımızda bayram əhval-ruhiyyəsi yaradır. Bakı–Tbilisi–Ceyhan Ko şirkəti artıq yaradılmış və fəaliyyətə başlamışdır.

Hazırda boru kəməri sisteminin tikintisini və istismarını təmin etmək məqsədilə layihəni maliyyələşdirmək üçün Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, ixrac kredit agentlikləri, sığorta və kommersiya bankları daxil olmaqla geniş beynəlxalq kreditorlar qrupundan vəsait almaqdan ötrü danışıqlar aparılır. Boru kəmərinin Türkiyədən keçən hissəsi Türkiyə hökuməti ilə BTC Ko səhmdarları arasında bağlanmış Birdəfəyə Ödənilən Məbləğ Əsasında Açarlı Təhvil Sazişinə uyğun olaraq tikiləcəkdir. BTC Ko Türkiyə ərazisi daxilindəki 1070 kilometrlik hissənin tikintisinə məsul olan «Botaş» şirkətinə işə başlamaq barədə bildiriş təqdim etmişdir və müqavilə sentyabrın 10-dan qüvvəyə minmişdir.

Azərbaycanda və Gürcüstanda tikinti işlərini aparmaq üçün hazırlıq tədbirləri görülür, BTC dəhlizinin torpaq sahibləri müəyyənləşdirilib, lazımi sənədlər təsdiq olunub, müvafiq icazələr və lisenziyalar alınıbdır.

Biz qəti fikirdəyik və əminik ki, Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə bu iki nəhəng layihə qısa bir zamanda uğurla həyata gerçəkləşəcək və bununla, dövlət müstəqilliyimizin möhkəmlənməsinə, doğma Vətənimizin çiçəklənməsinə, xalqımızın rifah halının yüksək səviyyəyə çatdırılmasına misilsiz xidmətlər göstərəcəklər.

Çıxışımın sonunda mən fürsətdən istifadə edərək, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi adından bu layihələrdə iştirak edən çoxsaylı tərəfdaşlarımıza, Bakıya gələn bütün qonaqlarımıza öz dərin təşəkkürümü və minnətdarlığımı bildirmək, iki gündən sonra qarşılayacağımız və Azərbaycan Respublikasının prezidenti möhtərəm cənab Heydər Əliyev tərəfindən bizə bəxş edilən «Neftçilər günü» peşə bayramı münasibətilə Azərbaycan neftçilərini təbrik etmək istəyirəm.

Diqqətinizə görə sağ olun!

* * *

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MƏRASİMƏ TOPLAŞANLARA MÜRACİƏTLƏ DEDİ:

– Hörmətli xanımlar və cənablar!

Burada edilən bütün nitqlərdə bildirildi ki, Bakı–Tbilisi–Ceyhan

əsas ixrac neft kəmərinin gücünün təmin edilməsi üçün biz «Azəri», «Çıraq», «Günəşli» yataqlarında işləri genişləndirməliyik. Biz Faza-1-in sanksiyasını bir il öncə vermişik, indi isə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə Faza-2-nin başlanması haqqında qərar qəbul etməliyik. Hesab edirəm ki, bu qərarı biz qəbul edirik və hörmətli prezident Sezər də, hörmətli prezident Şevardnadze də və hörmətli nazir də buna etiraz etmirlər. İzin verin, cənab Vudvord və Natiq Əliyev sənədləri imzalasınlar.

* * *

ABƏŞ-in prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev «Azəri», «Çıraq», «Günəşli» yataqlarının tammiqyaslı işlənilməsinin Faza-2 mərhələsinə sanksiya verilməsinə dair sənədləri imzaladılar.

* * *

**Heydər ƏLİYEV:**

– Hörmətli xanımlar və cənablar!

Dostlar!

Bizim bugünkü təntənəli mərasimimiz başa çatır. Mən bir daha hamınıza təşəkkür edirəm ki, Azərbaycan, Türkiyə, Gürcüstan üçün və Qərb ölkələrindəki, digər ölkələrdəki həmkarlarımız üçün vacib olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanmasının təməlinin qoyulmasında iştirak edirsiniz. Çox sağ olun!

Biz belə qərara almışıq ki, bunun təməlini qoyanda, ilk borunu xəndəyə endirəndə, eyni zamanda, gələcək nəsillərə müraciətimizi də oraya qoyaq. Ona görə təklif var ki, o müraciət üç ölkənin prezidentləri adından burada imzalansın.

Mərasimdə prezidentlərin müraciətlərinin mətni oxundu:

«GƏLƏCƏK NƏSİLLƏRƏ

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri, 18 sentyabr 2002-ci il.

Bu gün biz, üç suveren dövlətin rəhbərləri – Azərbaycan Respublikasının prezidenti Heydər Əlirza oğlu Əliyev, Gürcüstan prezidenti Eduard Ambrosiyeviç Şevardnadze və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin təməl daşını qoyaraq, sizə, xalqlarımızın gələcək nəsillərinə müraciət edirik.

Ölkələrimizin milli mənafelərindən çıxış edərək, böyük qürur duyğusu ilə bütün dünyaya bəyan edirik ki, XXI əsrin ilk illərində regionda



ən nəhəng layihə olan, Xəzər və Aralıq dənizlərini birləşdirən neft boru kəmərinin çəkilməsi dövlətlərimizin, hökumətlərimizin birgə uğurlu səyləri nəticəsində artıq reallığa çevrilir.

Layihənin həyata keçirilməsi və istismar zamanı hazırda bəşəriyyətin bu sahədə əldə etdiyi müasir elmi-texnoloji nailiyyətlərin tətbiq ediləcəyi mütərəqqi mühəndislik üsullarından istifadə olunması nəticəsində Şərq–Qərb enerji dəhlizi keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaqdır. Bu proseslərdə Azərbaycan, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Norveç, Türkiyə, Yaponiya, İtaliya, Fransa və Səudiyyə Ərəbistanının neft şirkətləri xüsusi rola malikdirlər.

Buna görə, bu tarixi əhəmiyyətli hadisənin ən aparıcı amili ondan ibarətdir ki, müxtəlif dilə, dinə, adət-ənənələrə mənsub olan insanlar dostluq, qardaşlıq və həmrəylik şəraitində qlobal səviyyədə sivil əməkdaşlıq edirlər.

Əminik ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək, regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir.

**Sizə sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq.**

**Azərbaycan Respublikasının prezidenti Heydər ƏLİYEV**

**Gürcüstanın prezidenti Eduard ŞEVARDNADZE**

**Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət SEZƏR.»**

* * *

Heydər ƏLİYEV: Müraciət imzalandı. İndi cənab Vudvord bir dəqiqəlik söz istəyir. Buyurun.

Devid VUDVORD: Cənab prezident, dediyimiz kimi, bugünkü layihələrin həm Azərbaycan, həm də Gürcüstan və Türkiyə Cümhuriyyəti üçün çox böyük tarixi əhəmiyyəti var. Bu layihənin reallaşdırılması ilə Azərbaycanın Xəzər nefti dünyanın bütün yerlərinə çatdırılacaqdır. Bu hadisəni qeyd etmək üçün indi mən bizim tərəfdaşlarımız adından Sizə bir hədiyyə təqdim etmək istəyirəm.

Cənab D.Vudvord Azərbaycan prezidenti Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

* * *

Mərasimin sonunda Azərbaycan prezidenti yekun sözü söylədi.

– Hörmətli xanımlar və cənablar!

Dostlar!

Biz bu gün tarixi bir gün yaşayırıq. Tarixi bir hadisənin şahidiyik.

Bu tarixi biz yazırıq. Bugünkü nəsillər, Azərbaycan, Türkiyə, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Fransa, İtaliya və digər dövlətlər, hamımız bir yerdə böyük bir tarix yazırıq. Bunların hamısı gələcək nəsillər üçündür. Şübhə yoxdur ki, gələcək nəsillər bizim gördüyümüz bu işlərdən bəhrələnərək, daha da firavan yaşayaraq ölkələrimizdə, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu şəraitində, vətəndaş cəmiyyəti şəraitində yaşayaraq bunların bəhrələrini görəcəklər.

Bu gün burada Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Buşun təbrik məktubunu dinlədik. Mən prezident Buşa bizim bugünkü mərasimimizə göstərdiyi diqqətə görə çox təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, prezident Buş daim bizimlə, Bakı–Tbilisi–Ceyhanla olacaqdır.

Fransa prezidenti hörmətli Jak Şirak bizə təbrik məktubu göndərmişdir. Biz onu burada çox diqqətlə dinlədik. Çox mehriban, dostluq ruhunda yazılmış, yəni məzmunca bizə inamla dolu bir təbrik məktubudur.

Mən prezident cənab Jak Şiraka təşəkkürümü bildirirəm və onu əmin etmək istəyirəm ki, biz bu işdə dayanmayacağıq, irəliyə gedəcəyik və Fransanın dəstəyini daim hiss edəcəyik.

Biz, Böyük Britaniyanın baş naziri Toni Bleyerin təbrik məktubunu dinlədik. Mən təşəkkür edirəm. Burada, təbiidir ki, bir çox şirkətlər iş görür. Ancaq bu şirkətlərin içərisində bp bildiyiniz kimi, özünəməxsus yer tutubdur və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, eyni zamanda, Bakı–Tbilisi–Ceyhan layihəsi ilə əlaqədar yaradılmış şirkətə rəhbərlik edir. Ona görə də burada Böyük Britaniyanın mühüm iqtisadi maraqları var. Əmin ola bilərsiniz ki, o maraqlar yerinə yetiriləcəkdir.

Mən Böyük Britaniyanın baş naziri cənab Toni Bleyerə təşəkkür edirəm. Onu əmin edirəm ki, Azərbaycan-Böyük Britaniya əməkdaşlığı bundan sonra da davam edəcəkdir.

Biz Norveç Krallığının baş naziri cənab Xyel Maqne Bunnevikin təbrik məktubunu dinlədik. Biz Azərbaycanın neft strategiyasını həyata keçirməyə başlayandan, 1994-cü ildən bəri Norveç və onun «Statoyl» şirkəti bizimlə bərabərdir və çox səmərəli əməkdaşlıq edir. Ona görə bizə göndərdiyi təbrik üçün hörmətli baş nazirə təşəkkür edirəm və ümidvaram ki, bizim bu əməkdaşlığımız gələcəkdə də davam edəcəkdir.

Nəhayət, sizin hamınıza – Bakı–Tbilisi–Ceyhan boru xəttində çalışacaq insanlara, azərbaycanlılara, xarici ölkələrin Azərbaycanda işləyən vətəndaşlarına cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzu edirəm. Sağ olun.

İndi isə təməl daşının qoyulmasında iştirak edəcəyik.



* * *

Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri, ABŞ-ın Energetika naziri, mərasimin digər iştirakçıları Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulacağı yerə gəldilər. Burada ilk boru təntənəli şəkildə xəndəyə endirildi. Azərbaycan prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze, Türkiyə prezidenti Əhməd Necdət Sezər borunun üstünə ilk torpağı atdılar.

İçərisində «Gələcək nəsillərə» müraciətinin mətni olan dəmir kapsul Bakı–Tbilisi–Ceyhan boru kəmərinin başlanğıcında qazılmış quyuya basdırıldı.

Sonra dövlət başçıları boru kəmərinin təməlinin qoyulması münasibətilə ucaldılmış xatirə lövhəsinə baxdılar. Xatirə lövhəsində Azərbaycan, türk və gürcü dillərində bu sözlər yazılmışdır:

«18 sentyabr 2002-ci il tarixdə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin inşasının təməl daşı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər tərəfindən qoyulmuşdur».

Azərbaycan, Gürcüstan və Türkiyə Cümhuriyyətinin prezidentləri xatirə lövhəsinin qarşısında şəkil çəkdirdilər.

* * *

Mərasimdə Milli Məclisin sədri Murtuz Ələsgərov, baş nazir Artur Rəsizadə, prezidentin icra Aparatının rəhbəri Ramiz Mehdiyev, Milli Məclis sədrinin və baş nazirin müavinləri, nazirlər, konsern və şirkətlərin rəhbərləri xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələri və digər rəsmi şəxslər iştirak edirdilər.

Azər.TAc

# BAKI – TBİLİSİ – CEYHAN əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimi

2002-ci il sentyabrın 18-də «Gülüstan» sarayında Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin adından dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Salona toplaşanlar Azərbaycan prezidenti Heydər Əliyevi, Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezəri, Gürcüstan prezidenti Eduard Şevardnadzeni hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı Heydər Əliyev ziyafətdə nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər!

Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze!

Hörmətli qonaqlar, dostlar!

Bu gün biz tarixi bir gün yaşayırıq. Bu gün bir neçə il üzərində işlədiyimiz və çox həyata keçirmək istədiyimiz Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanılmasının təməlini qoyduq. Mən çox məmnunam ki, bunu biz Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və Amerika Birləşmiş Ştatları ilə bir yerdə edirik. ABŞ-ın energetika naziri bu mərasimdə iştirak etdi, ancaq onun Tokioda təcili işi olduğuna görə ziyafətə qala bilmədi.

Biz bu gün Səngəçalda, Bakı küləyinin əsməsinə baxmayaraq, çox böyük mərasim keçirdik. Yəni kəmərin təməl daşını atdıq, Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinə yol açdıq. Bununla əlaqədar biz – prezident Əhməd Necdət Sezər, prezident Eduard Şevardnadze, Amerika Birləşmiş Ştatlarının energetika naziri və mən orada nitqlər söyləmişik və Bakı – Tbilisi – Ceyhan haqqında öz fikirlərimizi, sözlərimizi, arzularımızı demişik. Ona görə də mən indi yemək vaxtı bu barədə danışmaq istəmirəm. İstəyirəm deyəm ki, Bakı – Tbilisi – Ceyhan boru



xəttinin hazırlanmasında və indi ona həyat verilməsində iştirak edənlərin hamısına ürəkdən təşəkkür edirəm.

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə, Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadzeyə, Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Spenser Abrahama xüsusi təşəkkür edirəm. Ancaq bu böyük layihənin hazırlanmasında bizimlə bərabər, bizdən də çox zəhmət çəkənlər var. Birincisi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və onun tərkibində olan şirkətlər, Azərbaycan Dövlət Neft Şirkəti... Mən bu gün onların indiyə qədər gördükləri işi yüksək qiymətləndirərək bəyan edirəm ki, bu işlərin hamısı beynəlxalq standartlara uyğundur və bizim Xəzər dənizində neft hasilatı ilə əlaqədar bütün istək və arzularımızı yerinə yetirə biləcəkdir. Ona görə də bu şirkətlərə təşəkkür edir, onların çox yüksək peşəkarlığını qeyd edirəm. Mən eyni zamanda, bütün neftçilərə, inşaatçılara, bütün fəhlələrə, Azərbaycan övladlarına, müxtəlif ölkələrdən Azərbaycana gəlmiş və bu layihələr üzərində çalışan dostlarımızın hamısına təşəkkür edirəm.

Bu təşəkkürləri edərkən mən yalnız bir adamın, cənab Vudvordun xüsusi səylərini və çox yüksək səviyyəli rəhbərliyini xüsusi qeyd etmək istəyirəm.

Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri tikilməyə başlandı. Mən sizi təbrik edirəm və Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinə uğurlu yol arzulayıram.

Bunun üçün qədəhlərinizi qaldırmağı xahiş edirəm.

* * *

Azərbaycan prezidenti Heydər ƏLİYEV dövlət başçılarına və qonaqlara bir daha müraciətlə dedi:

Hörmətli prezident Əhməd Necdət Sezər!

Hörmətli prezident Eduard Şevardnadze!

Hörmətli qonaqlar, dostlar!

Bakı – Tbilisi – Ceyhan neft kəməri üç dövlətin ərazisindən keçir. Neft Azərbaycanda hasil edilir və bundan sonra da hasil olunacaqdır. Amma neftin dünya bazarlarına çıxarılması üçün, təbiidir ki, bizim üçün çox əlverişli marşrut lazımdır. Burada da çox fikirləşmək lazım deyildi. Çünki biz Bakı–Tbilisi–Ceyhan layihəsinə 1994-cü ildə Türkiyə Cümhuriyyəti və Gürcüstan ilə bir yerdə başlamışdıq.

Biz əvvəldən Türkiyə Cümhuriyyəti, onun hökuməti ilə, Türkiyənin keçmiş prezidenti, mərhum Turqut Özalla, 9-cu prezidenti hörmətli Süleyman Dəmirəllə bu işləri bir yerdə başlamışdıq, bir yerdə çalışırdıq. Bu boru xətti Türkiyəsiz ola bilməzdi. Biz Türkiyədən savayı başqa öl-

kədən, regiondan boru xəttini keçirmək istəməmişik. Ona görə də bizim əməkdaşlığımız çox səmərəli olubdur. Türkiyənin şirkətləri burada çox işlər görüblər. Biz daim məsləhətləşdik və təsadüfi deyil ki, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşa olunması haqqında 1998-ci ildə ilk dəfə Ankara bəyannaməsini qəbul etdik. Daha sonra, 1999-cu ildə İstanbulda, ATƏT-in zirvə görüşündə bu barədə saziş imzalandı. Bu sazişi Azərbaycan prezidenti, Türkiyə prezidenti və Gürcüstan prezidenti imzaladı. Qazaxıstan prezidenti də buna qoşuldu. Ən əhəmiyyətlisi də odur ki, Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti Bill Klinton da bu sazişi dəstəklədi və biz birlikdə böyük bəyanat verdik və prezident Bill Klinton da həmin bəyanata öz imzasını atdı.

1999-cu ildən sonra əsas işlər başlandı. Bu işlərdə yenə də Türkiyə ilə Azərbaycan sıx əməkdaşlıq edirdi və Türkiyənin prezidenti hörmətli Əhməd Necdət Sezər də bizimlə bərabər bu layihənin həyata keçirilməsi üçün çox səylər qoymuşdur, çox zəhmət çəkmişdir.

Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyə xalqı ilə Azərbaycan xalqı arasında qədim dostluq, qardaşlıq əlaqələri var. Türkiyə bu gün də bizim üçün güvənc yeridir. Türkiyə bizim dostumuzdur. Biz Türkiyə ilə olan bu dostluğumuzu daim, əbədi olaraq davam etdirəcəyik.

Rica edirəm, qədəhlərinizi Türkiyə Cümhuriyyətinin və Türkiyə xalqının şərəfinə, Türkiyənin prezidenti hörmətli Əhməd Necdət Sezərin şərəfinə qaldırasınız.

* * *

Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər mərasimdə nitq söylədi.

## DÖVLƏT BAŞÇILARININ VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN ŞƏRƏFİNƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

– Əziz dostum, Cümhur başqanı Heydər Əliyev!

Əziz dostum, Cümhur başqanı Eduard Şevardnadze!

Dəyərli qonaqlar! Bu tarixi bir gündə qardaş ölkə Azərbaycanda olmaqdan böyük sevinc duyuram.

Bu gün ölkələrimiz, xalqlarımız üçün böyük əhəmiyyət daşıyan Bakı–Tbilisi–Ceyhan boru xəttinin təməlinin qoyulması mərasiminin gerçəkləşdirilməsində iştirak etməyimiz bizə qürur və məmnunluq verir.



Türkiyə üçün öz qonşuları ilə əlaqələri inkişaf etdirmək hər zaman önəmli olmuşdur. Ətrafdakı və bölgədəki dövlətlərlə sülh və sabitlik yaratmaq məqsədi daşıyan Türkiyənin bu münasibəti böyük öndərimiz Atatürkün «Yurdda sülh, cahanda sülh» sözləri ən gözəl şəkildə ifadə olunmuşdur.

Qonşularımız arasında Azərbaycan ilə Gürcüstanın xüsusi və ayrıca yeri vardır. Bu, coğrafi yaxınlıqdan əlavə, xalqlarımız arasındakı güclü mədəni və tarixi əlaqələrdən qaynaqlanır.

Sovetlər Birliyi dağıldıqdan sonra Türkiyə iki dəyərli qonşusu – Azərbaycan və Gürcüstanla əlaqələrini yeni anlayışla canlandırmağa başlamışdır. Xalqlarımız arasındakı qardaşlığa, tarixi və mədəni əlaqələrə söykənən strateji tərəfdaşlığımız hər ötən gün daha da sağlam bünövrə üzərində inkişaf etməkdədir.

Çox hörmətli Cümhur başqanları!

Dəyərli qonaqlar!

Təməlini bu gün qoyduğumuz Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri iş birliyimizin inkişafı yolunda önəmli bir addımdır. Dövlətlərimiz arasındakı işbirliyi yalnız siyasi sahədə əlaqələrin inkişafı ilə məhdudlaşmır. Siyasi sahədə əməkdaşlıq iqtisadi və mədəni işbirliyi ilə dəstəkləndiyi zaman daha da dərinləşir. İndi Bakı–Tbilisi–Ceyhan boru xətti iqtisadi maraqlardan əlavə, bu istiqamətdə də əhəmiyyət daşımaqdadır.

Ölkələrimiz arasındakı siyasi və iqtisadi əməkdaşlığın gözəl bir nümunəsi olan bu boru xətti həm də xalqlarımızın əbədi olan ümumi maraqlarına xidmət etməkdədir. Türkiyə bütün sahələrdə Azərbaycana və Gürcüstana öz köməyini əsirgəməmiş, bu dost və qardaş ölkələrin yanlarında olmuşdur. Əlaqələrimiz bundan sonra da ümumi mənafelərimiz və beynəlxalq maraqlarımız istiqamətində davam edəcəkdir.

Bakı–Tbilisi–Ceyhan boru xətti bu istiqamətdəki qətiyyətimizi açıq şəkildə ortaya qoymaqdadır. Azərbaycan və Gürcüstanın da öz ölkələrində sülh və sabitlik yaratmaq səylərini dəstəkləməkdə davam edirik. Bu mənada Azərbaycan və Gürcüstanın bölgədə beynəlxalq hüquqa və münasibətlərə zidd olaraq qarşılaşdığı problemləri beynəlxalq hüquq normaları əsasında həll etmələrinə hər cür kömək göstərməyə hazırıq. Qafqazın möhkəm sülhə və sabitliyə nail olması bu önəmli bölgənin əhəmiyyətli ölkələri olan Azərbaycan və Gürcüstanın demokratik dövlətlər arasında layiq olduqları yeri ən qısa müddətdə əldə etmələri bizə də xoşbəxtlik və qürur verəcəkdir. Türkiyə Azərbaycan və Gürcüstanın bu məqsədə xidmət edən səylərini hər zaman olduğu kimi, bundan sonra da hərtərəfli dəstəkləyəcəkdir.

Hörmətli Heydər Əliyev! Əziz qardaşım, Azərbaycanda olduğumuz müddətdə Sizin və Azərbaycanın digər vəzifəli şəxslərinin bizə göstər-

dikləri qonaqpərvərlik üçün təşəkkürlərimi bildirmək istəyirəm. Azərbaycanın öz vətənimiz olduğunu, eyni yurdun övladları olduğumuzu bir daha hiss etdik. Xalqlarımızı gözəl günlər gözləyir. Ölkələrimiz arasındakı möhkəm əməkdaşlığımızı davam etdirməyimiz Qafqazı sülh və sabitliyə qovuşduracaq, əməkdaşlıq anlayışının bütün bölgəyə yayılmasını sürətləndirəcəkdir. Bu düşüncələrlə hamınızı hörmətlə salamlayır və qədəhimi dostlarım hörmətli Heydər Əliyevin, hörmətli Eduard Şevardnadzenin sağlığına, xalqlarımızın səadəti və müvəffəqiyyətləri, ölkələrimizin əbədi birliyi şərəfinə qaldırıram.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Hörmətli qonaqlar! Hörmətli dostlar! Hörmətli Prezident Əhməd Necdət Sezər!

Hörmətli Prezident Eduard Şevardnadze!

Azərbaycan ilə Gürcüstan qonşu, dost, qardaş dövlətlərdir. Tale bizim xalqlarımızı Qafqazın gözəl bölgəsində yerləşdiribdir. Sevindirici hal odur ki, əsrlər boyu, tarixin bütün zamanlarında Gürcüstan ilə Azərbaycan arasında heç bir nifaq, münaqişə olmamış və bir-birimizlə dostluq, mehribanlıq, qonşuluq şəraitində yaşamışıq.

Biz Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin, ümumiyyətlə, 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinə başlayanda bilavasitə Gürcüstanla və onun prezidenti hörmətli Şevardnadze ilə əməkdaşlıq etmişik. Hasil ediləcək neftin Qərb istiqamətində, Gürcüstan ərazisindən nəqli üçün biz çox çalışdıq, prezident Şevardnadze də çox çalışdı. Çünki bu marşruta çox mane olanlar var idi. Ancaq bunların hamısı aradan götürüldü və artıq onun qarşısını heç kəs ala bilməz.

İlkin neftin ixracı üçün biz Bakıdan Novorossiyskə – Rusiyanın Qara dəniz sahilindəki limanına boru xətti çəkdik və onunla nefti ixrac etməyə başladıq. Ancaq bizim əsas məqsədimiz Qərb istiqamətində Bakı–Supsa xəttini – Gürcüstanın Qara dənizdəki limanına böyük neft kəməri çəkmək idi. Biz buna da nail olduq. 1999-cu ildə bu boru xətti artıq istismara başladı və o vaxtdan indiyə qədər Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti hasil etdiyi neftin hamısını bu xətlə ixrac edir. Bakı–Supsa xətti ilə artıq 23 milyon ton neft ixrac olunubdur.

Bakı–Tbilisi–Ceyhan kəməri üçün, təbiidir ki, ən əlverişli marşrut Gürcüstandan, Türkiyədən keçən marşrutdur. Bunun üçün də çox işlər görməli olduq. Ancaq, Allaha şükürlər olsun ki, biz bu gün böyük bayram edirik. Bayram edirik ki, Bakı–Tbilisi–Ceyhan boru xəttinin inşasına başlanıbdır və bu boru xətti ilə neft Azərbaycandan, Gürcüstanın ərazisindən, Türkiyənin ərazisindən keçərək Aralıq dənizindəki Ceyhan limanına çatacaqdır.



Beləliklə, prezident Şevardnadze əvvəldən indiyə qədər bu layihənin hazırlanması, həyata keçirilməsi üçün çox səylər qoymuşdur və ümumi səylərimizin, iş birliyimizin nəticəsində də biz indi bu xoşbəxt günə gəlib çatmışıq. Gürcüstan ilə bizim başqa sahələrdə də əməkdaşlığımız var və bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir.

Məlumdur ki, Gürcüstan indi müəyyən səbəblərdən gərgin vəziyyət keçirir. Ancaq biz bilirik ki, gürcü xalqı və onun hörmətli prezidenti böyük iradəyə malikdirlər. Ona görə öz dövlətinin suverenliyinin, ərazi bütövlüyünün qorunması yolunda nə lazımdırsa edəcəklər.

Təklif edirəm, qədəhlərimizi gürcü xalqının şərəfinə, müstəqil, azad Gürcüstanın şərəfinə və Gürcüstanın prezidenti hörmətli Eduard Şevardnadzenin şərəfinə qaldıraq.

* * *

Sonra Gürcüstan prezidenti nitq söylədi.

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN NİTQİ

– Əziz dostum, əziz qardaşım, Azərbaycan dövlətinin prezidenti cənab Heydər Əliyev!

Əziz dostum, bizə qardaş Türkiyənin prezidenti cənab Sezər!

Hörmətli xanımlar və cənablar!

Bu gün tarixi bir gündür. Həqiqətən tarixi bir gün – üç xalqın, millətin, üç dövlətin həyatında tarixi bir gün. Mən məcburam ki, öz çıxışımı qısaldam. Çünki gördüyünüz kimi, iki dilə tərcümə olunur. Mən burada sizə oxumaq üçün yazdıqlarımın hamısını desəm, onda biz səhərə qədər burada oturmalı olarıq. Ona görə də bu gün burada konkret olaraq qarşıma qoyduğum məqsəd ondan ibarətdir ki, Azərbaycan xalqının böyük oğlu, dünyada tanınmış siyasətçi, Azərbaycan xalqının tanınmış lideri cənab Heydər Əliyevə öz səmimi minnətdarlığımı bildirim. 1990-cı illərdən üzü bu yana mən və dostum, qardaşım Heydər Əliyev neft kəmərlərinin, qaz kəmərlərinin problemlərinə dəfələrlə qayıtmışıq, müzakirə aparmışıq.

Bu gün mən və mənim xalqım xoşbəxtdir. Ona görə xoşbəxtdir ki, bu günü də gördük. Bakı–Tbilisi–Ceyhan layihə, ideya deyil, artıq həyata keçirilmiş işdir. Bu layihəyə həmin ideyaya qarşı ayrı-ayrı dövlətlər

və qüvvələr tərəfindən, demək olar ki, fasiləsiz təzyiqlər var idi. Qızğın mübarizələr gedirdi, kənardan müdaxilələr olurdu, göstərişlər verilirdi. Çalışırdılar ki, bu layihənin həyata keçirilməsinə hər cür maneçilik etsinlər. Mən bu gün dediyim sözləri sizin qarşınızda da bir daha təkrar etmək istəyirəm. Heydər Əliyevin şəxsi qəhrəmanlığı, müdrikliyi, cəsarəti olmasaydı həmin layihə bu gün də həyata keçirilə bilməyəcəkdi. Mən göstərdiyi şücaətə, qəhrəmanlığa və mərdliyə görə bir daha sizin qarşınızda xalqım adından, öz adımdan Azərbaycanın prezidenti cənab Heydər Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Gürcü, Azərbaycan və türk xalqları üçün etdiklərinə görə mən ona minnətdarlığımı bildirmək istəyirəm.

Mən Bakıya ona görə gəldim ki, bir daha buradan böyük türk xalqını, böyük Türkiyəni, onun rəhbərlərini, böyük mədəniyyətin və böyük tarixin sahibi olan türk xalqını buradan salamlayım. Türkiyənin dəstəyi olmasaydı, Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəlin, Türkiyənin çağdaş prezidenti cənab Sezərin dəstəyi olmasaydı, beynəlxalq dəstək olmasaydı, sözsüz ki, biz bu layihəni həyata keçirə bilməzdik. Ona görə də türk xalqına bir daha dərin minnətdarlığımı bildirirəm. Ona görə dərin minnətdarlığımı bildirirəm ki, onların dəstəyi ilə biz tarixən qısa müddət olan on il ərzində mümkün olmayan uğurlar qazandıq. Ona görə də mən cənab Sezərdən xahiş edirəm ki, bizim salamlarımızı, minnətdarlığımızı böyük türk xalqına çatdırsın.

Cənab Heydər Əliyev bu gün artıq qeyd etdi ki, həmin layihənin həyata keçirilməsində Amerika Birləşmiş Ştatlarının misilsiz rolu olmuşdur. Doğrudan da, Amerika Birləşmiş Ştatlarının, onun rəhbərlərinin və prezident Corc Buşun dəstəyi olmasaydı, bu layihə həyata keçirilə bilməzdi.

Xoşbəxtəm ki, bu gün mən burada nəhəng, dünyamiqyaslı neft şirkətlərinin nümayəndələrini görürəm. Həmin şirkətlər nə əllərindən gələni, nə vaxtlarını, nə də vəsaitlərini əsirgəmirlər ki, Xəzər dənizinin sərvətləri bütün dünyanın sərvəti olsun. Artıq neçə illərdir bizim dövlətlərimizin xeyrinə fasiləsiz və maneəsiz işləyən Bakı–Supsa neft kəməri təsdiq etmişdir ki, Gürcüstan Sizin, Azərbaycan xalqının, dövlətinin layiqli tərəfdaşıdır. Mən əmin etmək istəyirəm ki, biz həmişə, daim sizin tərəfdaşınız olacağıq.

Bir məsələni də qeyd etmək istəyirəm. Gürcüstanda artıq neçə müddətdir ki, böyük qaz kəmərinin tikintisi barədə düşünürlər, bunu arzu edirlər. Sözsüz ki, bu, təkcə gürcü xalqının yox, həm də Azərbaycan xalqının, başqa dövlətlərin istəyinə uyğundur. Bizim layihəmizə, həyata keçirdiyimiz bu böyük işlərə gələcəkdə qoşulacaq ayrı-ayrı dövlətlərə, ölkələrə indidən minnətdarlığımı bildirmək istəyirəm. Bu işdə Gürcüstana, Azərbaycana, Türkiyəyə qoşulacaq ayrı-ayrı dövlətlərə indidən təşəkkürümü çatdırıram. Mənə belə gəlir ki, gələcəkdə Qazaxıstan, Orta Asiya dövlətləri hökmən həmin ideyaya qoşulacaqlar.



Mən əminəm ki, üç layihə, – mən iki ixrac neft kəmərini və qaz kəmərini nəzərdə tuturam, – üç dənizsahili dövləti bir-biri ilə daha möhkəm tellərlə bağlayacaqdır. Mən Xəzər dənizini, Qara dənizi və Aralıq dənizini nəzərdə tuturam.

Mən badəni, sözsüz ki, ilk növbədə dostum, qardaşım Azərbaycan dövlətinin prezidenti Heydər Əliyevin sağlığına və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərin sağlığına və onlar başda olmaqla sizin hər birinizin sağlığına qaldırıram.

* * *

Sonra Azərbaycan prezidenti Heydər Əliyev nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün, bütün mərasim vaxtı Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsinin hazırlanması və onun həyata keçirilməsi haqqında çox danışıldı.

Bu layihənin həyata keçirilməsinə müqavimət göstərənlər, maneçilik edənlər var idi. Ancaq Amerika Birləşmiş Ştatlarının hökumətinin əvvəldən, 1994-cü ildən Xəzər hövzəsinə, Azərbaycan neftinə göstərdiyi maraq və ümumiyyətlə, Qafqaza, Azərbaycan bölgəsinə göstərdiyi maraq ABŞ-ı Bakı–Tbilisi–Ceyhan neft kəmərinin həyata keçirilməsinə çox yaxından cəlb etdi. Ona görə də biz Amerika Birləşmiş Ştatlarının hökuməti ilə bu barədə çox danışıqlar aparırdıq, prezidentdən bizə məktublar gəlirdi. Həmin məktublarda bizim apardığımız iş dəstəklənirdi. Deyə bilərəm ki, əgər Amerika Birləşmiş Ştatlarının, onun hökumətinin güclü dəstəyi olmasaydı, Bakı–Tbilisi–Ceyhan ixrac neft kəməri bugünkü vəziyyətə gəlib çata bilməzdi.

Amerika Birləşmiş Ştatlarının energetika naziri mənimlə söhbətdə dedi ki, ABŞ özünün uzunmüddətli neft strategiyasını hazırlayıb və həyata keçirir. Bu strategiyada Xəzər dənizinin sərvətləri, neft sərvətləri, Azərbaycan özünün xüsusi yerini tutubdur. Mən çox məmnunam ki, prezident Buş bu məsələlərə və Azərbaycana çox diqqət yetirir və bizim burada apardığımız işlərin həyata keçirilməsi üçün dəstək verir və güman edirəm ki, bundan sonra da biz bunun şahidi olacağıq.

Prezident Buş bu gün bizə çox dəyərli təbrik məktubu göndəribdir. Ona görə mən bir daha təşəkkür edirəm.

Biz Fransa prezidenti Jak Şirakdan, Böyük Britaniyanın baş naziri Toni Bleyerdən, Norveçin baş nazirindən də çox dəyərli təbrik məktubları almışıq. Bunlara görə mən öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Mən rica edirəm, qədəhlərinizi dünyanın ən qüdrətli dövləti, ölkəsi olan Amerika Birləşmiş Ştatlarının, onun xalqının şərəfinə, Azərbaycanda böyük işlər görən Amerika vətəndaşlarının şərəfinə, ABŞ-ın prezidenti hörmətli Corc Buşun şərəfinə qaldırasınız.

* * *

Milli Məclisin sədri Murtuz Ələsgərov, baş nazir Artur Rəsizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə sədrləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların, xarici neft şirkətlərinin, Bakı ictimaiyyətinin nümayəndələri ziyafətdə iştirak edirdilər.



# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra iqtisadiyyatda və dövlət idarəetməsində islahatların aparılması ən mühüm vəzifələrdən biri olmuşdur. Ölkədə bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və müasir standartlara cavab verən idarəetmə mexanizminin yaradılması köklü dəyişikliklərin aparılmasını tələb etmişdir.

Dövlət idarəetməsinin səmərəliliyinin artırılması, iqtisadiyyatın yeni prinsiplər əsasında tənzimlənməsi məqsədilə son illərdə mühüm addımlar atılmışdır. Çoxsaylı nazirlik, dövlət komitəsi, şirkəti, konserni və digər qurumların strukturlarına yenidən baxılmış, mövcud mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmış, zəruri funksiyalara malik yeni təsisatlar yaradılmışdır.

Həyata keçirilən islahatlar iqtisadiyyatın və dövlət idarəetməsinin bütün sahələrini əhatə etmiş və bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi təşəbbüsə geniş imkanların yaradılması, insanların etibarlı sosial vəziyyətinin təmin edilməsi və dövlət mülkiyyətinin özəlləşdirilməsi üçün münbit şəraitin yaradılmasına səbəb olmuşdur. Qeyd edilən hər bir istiqamətə dair dövlət tərəfindən konkret qərarlar qəbul edilmiş və tədbirlər görülmüşdür.

Tarixən Azərbaycanın iqtisadiyyatının özəyini neft-qaz sənayesi təşkil etmişdir və ölkəmizin ən böyük nailiyyətlərindən biri bu sahədə qüdrətli elmi-texniki və kadr potensialının, geniş infrastrukturun yaradılması olmuşdur. Məhz bu sahə iqtisadiyyatın aparıcı amilinə çevrilmiş və onun inkişafına daim xüsusi diqqət yetirilmişdir.

Son dövrdə respublikamızın tərəqqisi üçün taleyüklü əhəmiyyət daşıyan yeni neft strategiyası və doktrinası irəli sürülmüşdür və uğurla həyata keçirilir. Azərbaycan 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı»nın imzalanması ilə regionda ilk dəfə olaraq dünyanın bir çox tanınmış şirkətləri ilə özünəməxsus olan neft və qaz yataqlarının birgə istismarına başlamışdır. Aparılan işlər ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına, iqtisadi əlaqələrin inteqrasiyasına güclü təkan vermişdir.

Neft-qaz kompleksi aparılan iqtisadi və dövlət idarəetməsi sahəsində islahatlardan kənarda qalmamışdır. Belə ki, göstərilən zaman kəsi-

yində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədilə dəfələrlə onun strukturuna dəyişikliklər edilmiş, mövcud infrastruktur təkmilləşdirilmişdir. Ən əhəmiyyətli addımlardan biri 2001-ci il 18 aprel tarixində Azərbaycan Respublikası prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyinin yaradılması olmuşdur. Eyni zamanda, dövlət siyasətinin başlıca istiqamətlərindən biri olan neft yataqlarının birgə işlənməsindən əldə edilən gəlirlərin ölkənin iqtisadi və sosial tərəqqisinə yönəldilməsini təmin etmək məqsədilə 1999-cu il 29 dekabr tarixində Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması olmuşdur.

Mütəmadi və sistemli şəkildə aparılan iqtisadi islahatların nəticəsidir ki, «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»na uyğun olaraq Azərbaycan Respublikası prezidentinin «Yanacaq-energetika kompleksi müəssisələrinin özəlləşdirilməsi haqqında» 2001-ci il 22 mart tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bilavasitə neftin hasilatı və emalı ilə məşğul olmayan 68 müəssisəsinin özəlləşdirilməsi barədə qərar qəbul edilmiş və onlar İqtisadi İnkişaf Nazirliyinin sərəncamına verilmişdir.

Görülmüş ciddi işlər dərin islahatların daha məqsədyönlü aparılmasına imkan vermişdir. Lakin bununla belə, bu sahədə bir sıra əlavə tədbirlərin həyata keçirilməsinə, idarəetmə üsluplarının keyfiyyətcə fərqli, beynəlxalq standartlara cavab verən səviyyəyə çatdırılmasına zərurət yaranmışdır.

Qeyd edilənlərlə əlaqədar respublikanın neft və qaz resurslarının daha səmərəli istifadəsi, daxili istehlakın və ixracat potensialının ehtiyaclarının tam ödənilməsi, yanacaq-energetika kompleksinin tərkibinə daxil olan müəssisələrin maliyyə nizam-intizamının əsaslı surətdə möhkəmləndirilməsi, onların fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq ardıcıl qurulması və bu vəzifələrin həyata keçirilməsini təmin edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni idarəetmə strukturunu tətbiq etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi təsdiq edilsin (əlavə olunur – Əlavə I).

2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu təsdiq edilsin (əlavə olunur – Əlavə II).

3. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə tapşırılsın ki, bir ay müddətində qanunvericiliklə nəzərdə tutulmuş qaydada Şirkətin tərkibinə daxil olan:

– Dənizdə Neft və Qaz çıxarma İstehsalat Birliyini və Quruda Neft



və Qaz çıxarma İstehsalat Birliyini birləşdirsin və onların bazasında «Azneft» İstehsalat Birliyini yaratsın;

– Xarici İqtisadi Əlaqələr İdarəsini və «Azərnefttəchizat» Birliyini birləşdirsin və onların bazasında «Marketinq və iqtisadi əməliyyatlar» İdarəsini yaratsın;

– Magistral Neft Kəmərləri İstehsalat Birliyinin bazasında «Neft kəmərləri» İdarəsini yaratsın;

– «Şelflayihətikinti» İstehsalat Birliyinin bazasında «Bakı dərin özüllər zavodu»nu yaratsın;

– «Azərneftyağ» İstehsalat Birliyinin bazasında «Azərneftyağ» neft emalı zavodunu yaratsın;

– «Azərneftyanacaq» İstehsalat Birliyinin bazasında «Azərneftyanacaq» neft emalı zavodunu yaratsın.

4. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə daxil olan «Xəzərdənizqazmatikinti» Tresti, «Xəzərdənizneftsosialtikinti» Tresti və Avtonəqliyyat Kontoru özəlləşdirməyə açıq elan edilsinlər. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin və özəlləşdirməyə açıq elan edilmiş müəssisələrin rəhbərlərinə tapşırılsın ki, həmin müəssisələr özəlləşdirilənədək və ya səhmdar cəmiyyətlərinə çevrilənədək onların idarə olunmasına və əmlakının qorunub saxlanılmasına görə şəxsən məsuliyyət daşıyırlar.

5. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, bu Fərmanın 4-cü bəndində göstərilən müəssisələrin qanunvericiliyə müvafiq olaraq özəlləşdirilməsinin həyata keçirilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

7. Azərbaycan Respublikası prezidentinin «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsinin yeni redaksiyasının təsdiqi haqqında» 1994-cü il 5 aprel tarixli 126 nömrəli fərmanı və «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni idarəetmə strukturunun təsdiqi haqqında» 1994-cü il 10 yanvar tarixli 50 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

8. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının prezidenti**
*Bakı şəhəri, 24 yanvar 2003-cü il*






## ABŞ ŞƏRQ–QƏRB ENERJİ DƏHLİZİNİN REALLIĞA ÇEVRİLMƏSİNDƏ AZƏRBAYCANIN ROLUNU YÜKSƏK QİYMƏTLƏNDİRİR

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ABŞ-a SƏFƏRİ

### 2003-cü İL FEVRALIN 25-də VAŞİNQTONDA «ŞƏRQ–QƏRB ENERJİ DƏHLİZİ REALLIQDIR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Hörmətli cənab Skoukroft!

Hörmətli cənab Stiv Mən!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı burada, Amerika Birləşmiş Ştatlarında, Vaşinqtonda indi işinə başladığımız konfrans münasibətilə təbrik edirəm, sizi səmimi qəlbdən salamlayıram və konfransın işinə uğurlar arzulayıram.

Bu konfransın Vaşinqtonda indi keçirilməsinin çox böyük əhəmiyyəti var. Konfrans «Şərq-Qərb enerji dəhlizi reallıqdır» mövzusundadır və onu Amerika–Azərbaycan Ticarət Palatası, Amerika–Gürcüstan Biznes Şurası, Amerika – Türkiyə Şurası və təbiidir ki, Amerika Birləşmiş Ştatlarının hökuməti birlikdə təşkil etmişlər. Dövlət Departamenti də bu işlə məşğul olubdur. Belə bir konfransın keçirilməsinin zəruri olduğu haqqında qərar qəbul etmişlər və bu konfrans baş tutmuşdur.

Bunun xüsusiyyəti ondan ibarətdir ki, burada həm Amerika Birləşmiş Ştatlarının, həm Türkiyənin, həm Gürcüstanın, həm də Azərbaycanın nümayəndələri iştirak edirlər. Bu da təbiidir, çünki Şərq-Qərb dəhlizi böyük məsafəni əhatə edir. Ancaq daha çox Xəzər dənizi hövzəsində həyata keçirdiyimiz proqramlar, layihələr əsasında bizim regionu – Xəzər dənizini, Azərbaycanı, Gürcüstanı və Türkiyəni əhatə edir.

Şərq-Qərb dəhlizi təkcə bundan ibarət deyildir. O, daha böyük bir ərazini əhatə edir. Ancaq bizim layihələr indi məhz bu ölkələr arasında həyata keçirilir. Lakin bu layihələrin həyata keçirilməsində Amerika Birləşmiş Ştatları və onun böyük neft şirkətləri xüsusi rol oynayırlar. Qərb ölkələrinin bir neçə böyük neft şirkəti və xüsusən Böyük Britaniyanın bp şirkəti bu işlərdə əvvəldən xüsusi rol oynayır.

Bu məsələ Amerika Birləşmiş Ştatlarının ictimaiyyətinə, güman edirəm ki, xüsusən də burada iştirak edənlərə, bu məsələyə maraq göstərənlərə məlumdur. Ancaq mən bu layihənin tarixi haqqında bir neçə kəlmə demək istəyirəm ki, hər şey daha da aydın olsun.

Sovetlər İttifaqı dağılandan sonra Azərbaycan öz müstəqilliyini əldə edib ölkəsində yeni, demokratik, dünyəvi dövlət qurmaq işinə başlamışdır. Azərbaycan dövlət quruculuğunda demokratiya, dünyəvilik, qanunun aliliyi və bazar iqtisadiyyatı prinsiplərinin həyata keçirilməsini əsas götürmüşdür və artıq on ildən çoxdur ki, bu yolla gedir.

Bu illər Azərbaycan üçün asan olmayıbdır. Biz bir neçə sınaqlardan keçmişik, bir neçə dəfə Azərbaycanda qanuni hakimiyyəti devirməyə çalışıblar və bəzən də buna nail olublar. Ancaq biz 1993-cü ildən başlayaraq, 1994-cü və 1995-ci illərdə Azərbaycanda hakimiyyət çevrilişinə cəhd edənlərin qarşısını ala, ölkəmizdə sabitlik yarada bildik. İndi Azərbaycan tam daxili sabitlik içərisində yaşayan bir ölkədir və demokratik prinsiplər əsasında inkişaf edir, bazar iqtisadiyyatı, iqtisadi islahatların keçirilməsi Azərbaycan iqtisadiyyatının əsas istiqamətləridir. Biz bu istiqamətdə irəliləyirik və deyə bilərəm ki, xeyli nailiyyətlər də əldə etmişik.

Bu yolda Azərbaycan birinci növbədə özünün təbii sərvətlərindən istifadə olunmasına xüsusi əhəmiyyət verdi. Sizə məlumdur ki, Azərbaycan qədim neft ölkəsidir. İlk dəfə sənaye üsulu ilə neftin hasilatı 150 il bundan öncə məhz Azərbaycanda başlamışdır. XIX əsrin ikinci yarısında Azərbaycana bir çox Qərb şirkətləri gəlib, neftin hasilatı ilə məşğul olublar. Burada Nobel qardaşları xüsusi rol oynayıblar. Sovet hakimiyyəti dövründə Azərbaycan, demək olar ki, SSRİ-nin ən böyük neft regionu olmuşdur. Çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsində SSRİ-nin İngiltərə–Amerika koalisiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı. Bu da həqiqətdir, o vaxt SSRİ-də istifadə olunan neftin 70 faizi Azərbaycandan daşınırdı, Azərbaycanda hasil edilirdi.

Beləliklə, Azərbaycan neft və qaz ilə zəngin bir ölkə olmuşdur. Azərbaycanda neftçilər, alimlər, geoloqlar, hətta Xəzər dənizində də kəşfiyyat işləri, neft hasilatı ilə məşğul olmuş və 1949-cu ildə – yarım əsr bundan əvvəl ilk dəfə sahildən 100 kilometr uzaqda neft çıxarılmışdır. Ona görə də Azərbaycan bir müstəqil dövlət kimi özünün böyük neft və qaz ehtiyatları olduğunu bilirdi. Bunlardan istifadə etmək üçün, – təbiidir ki, özünün buna imkanı yox idi, – Qərbə, yəni Amerika Birləşmiş Ştatlarına, Avropa ölkələrinə üzünü tutdu və bu ölkələrdən gələn böyük neft şirkətləri Azərbaycanda bu ölkənin dövləti ilə, Dövlət Neft Şirkəti ilə yataqların işlənilməsinə başladılar. Dünyanın 14 ölkəsindən olan 32 neft şirkəti ilə 21 müqavilə imzalanıbdır. Onların birincisi «Azəri», «Çıraq», «Günəşli» neft yataqları ilə əlaqədardır. Bunların işlənilməsi üçün həm Amerika şirkətləri, həm Böyük Britaniya, həm də digər ölkələrin şirkətləri – 11 neft şirkəti müqavilə imzalamışdır. 1994-cü ildə bu müqavilə imzalananda məhz Qərbdə, Amerikada ona «Əsrin müqaviləsi» adı verildi.



Biz nəzərdə tuturduq ki, bu yataqlardan 540 milyon ton neft hasil olunacaqdır. Ancaq sonra aparılan işlər göstərdi ki, orada 740 milyon ton neft hasil etmək mümkündür. Demək, bu yataqların işlənilməsinə başlanıldı.

Ancaq neftin ixracı, bizim qarşımızda duran əsas məsələ idi. Biz 1997-ci ildə «Çıraq» yatağından ilk neft aldıq. O vaxt bir boru xətti var idi: Bakı – Novorossiysk. O xətlə nefti ixrac etməyə başladıq. Sonra Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə, – onun başında bp durur, – xüsusi bir neft kəməri, Gürcüstanın Qara dənizdəki Supsa limanına neft kəməri çəkdik. İndi neft oradan ixrac olunur.

Ancaq biz müqaviləni imzalayanda və ondan sonrakı illərdə də aparılan bütün danışıqlar bu nəticəni vermişdi ki, Xəzərin zəngin neftini ixrac etmək üçün böyük neft kəməri lazımdır. Bu da Bakı – Tbilisi – Ceyhan neft kəməridir. Biz ötən illərdə bu kəmərin layihəsi üzərində işləmişik. 1998-ci ildə Ankarada Türkiyə, Azərbaycan, Gürcüstan Bakı – Tbilisi – Ceyhan əsas ixrac kəmərinin inşa edilməsi haqqında bəyannamə imzalamışlar. O vaxt Amerika Birləşmiş Ştatlarının energetika naziri də bu mərasimdə iştirak etmişdir. Qazaxıstan da bu bəyannaməyə qoşuldu ki, gələcəkdə Xəzər dənizindəki neftini, bu boru xətti ilə ixrac edə bilsin. Sonra, 1999-cu ilin noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşü zamanı Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşa edilməsi haqqında ölkələrimiz arasında saziş imzalandı. Türkiyə prezidenti, Azərbaycan prezidenti, Gürcüstan prezidenti saziş imzaladılar və Amerika Birləşmiş Ştatlarının prezidenti də himayəsini göstərərək, bu sazişə imza atdı. Yenə də Qazaxıstan bu sazişə qoşuldu. Qazaxıstan prezidenti də onu imzaladı. Onlar da bu boru xəttindən istifadə edəcəklər. Bundan sonra layihə işləri daha da gücləndi. Nəhayət, keçən ilin sentyabr ayında Türkiyə, Gürcüstan və Azərbaycan prezidentləri Bakıda neft şirkətləri ilə birlikdə, bp və başqa şirkətlərlə birlikdə, Bakı – Tbilisi – Ceyhan neft kəmərinin təməl daşını qoydular və bununla da tikinti işləri başlandı. Demək, Bakı–Tbilisi–Ceyhan böyük ixrac neft kəməri reallıqdır. İşə başlanılmışdır. İndi artıq bu kəmər üçün Yaponiyadan və başqa ölkələrdən alınan borular Gürcüstana, Azərbaycana gətirilir. Beləliklə, biz artıq inşaat işlərinə başlamışıq.

Bu layihənin maliyyələşdirilməsi də böyük məsələdir. Çünki Bakı – Tbilisi – Ceyhan neft kəməri 1760 kilometr olacaqdır. Bu kəmər ildə 40 milyon ton neft nəql edəcək və bunu gələcəkdə ildə 60 milyon tona çatdırmaq olar. Neft kəmərinin 445 kilometri Azərbaycandan, 245 kilometri Gürcüstandan, 1070 kilometri Türkiyədən keçəcəkdir. Kəmərin tikintisinə 2 milyard 900 milyon dollar sərmayə qoyulacaqdır. Bunda

Azərbaycanın hissəsi 600 milyon dollar, Gürcüstanın hissəsi 565 milyon dollar, Türkiyənin hissəsi 1 milyard 400 milyon dollardır.

İndi neft şirkətləri maliyyələşdirmə məsələsi ilə məşğul olurlar. Azərbaycan artıq öz payının birinci hissəsinin maliyyələşdirilməsi ilə əlaqədar qərar qəbul edibdir.

Bildirmək istəyirəm ki, biz 1994-cü ildə neft müqaviləsini imzalayarkən, bu, çoxlarına xülya kimi görünürdü. Deyirdilər ki, bu, mümkün olmayan şeydir. Amma bəziləri də dərhal çox narahatçılıq hissi keçirirdilər. Çünki Xəzər dənizinə qısa bir zamanda Amerika Birləşmiş Ştatlarından, digər Qərb ölkələrindən dünyanın ən böyük şirkətlərinin gəlməsi və onların orada sərmayə qoyması, təbiidir ki, bəzi ölkələrdə narahatçılıq doğururdu. Hətta bizim müqavilə imzalananda Xəzər dənizində belə bir işin mümkün olması, yenə də deyirəm, xülya hesab olunurdu. Amma eyni zamanda, biz nota da aldıq ki, Xəzər dənizinin hüquqi statusu sahilyanı ölkələr tərəfindən müəyyən olunmayınca, belə bir müqavilələrin imzalanmasının qüvvəsi yoxdur. Bu etirazlara baxmayaraq, biz öz işimizi görürdük və işimizi gördükcə, buna, qarşı maneçiliklər də hiss edirdik. Xüsusən, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin marşrutunun seçilməsinə müxtəlif maneçiliklər törədilirdi. Biz şübhə etmirdik ki, bu kəmər Gürcüstandan keçməlidir. Şübhə etmirdik ki, bu böyük neft kəməri məhz Türkiyəyə getməlidir. Xəzərin nefti Türkiyənin Ceyhan limanı vasitəsilə dünya bazarına çıxmalıdır. Amma bəziləri hesab edirdilər ki, kəmər başqa ölkələrdən keçə bilər. Yəni, artıq Azərbaycanda, Xəzərin Azərbaycan sektorunda neftin hasil olunmasının reallığını görəndə bəziləri hesab edirdilər ki, bu neft borusu Cənuba gedə bilər, yaxud Şimala gedə bilər, Şərqə gedə bilər. Müxtəlif belə fikirlər, müxtəlif iddialar var idi və getdikcə bunlar güclənirdi. Ancaq biz öz qərarımızda qəti idik. Əvvəldən də biz bunu elan etmişdik ki, kəmər yalnız bu marşrut ilə keçəcəkdir. Bu barədə Azərbaycan, Gürcüstan, Türkiyə arasında qəti razılıq əldə edilmişdi. Demək istəyirəm ki, biz bu layihəni başlayandan indiyə qədər Amerika Birləşmiş Ştatları onun həyata keçirilməsinə çox böyük diqqət, qayğı göstərmişdir, bu işi himayə etmişdir. Əgər Amerika Birləşmiş Ştatlarının layihəyə bu qədər dəstəyi olmasaydı, biz bunu həyata keçirə bilməzdik.

Ancaq indi də, hər şey hazır olandan sonra da bəziləri cürbəcür marşrutlar elan edirlər. Amma Azərbaycanda buna nail ola bilməzlər, çünki biz öz qərarımızda qətiyik. Mənə belə gəlir ki, Türkiyə də öz qərarında çox qətidir. Gürcüstanda da buna şübhə yoxdur. Amma Gürcüstanda bəzi təşkilatlar «niyə bu, Gürcüstanın bu hissəsindən keçmədi, o hissəsindən keçdi, nə üçün oradan keçmir?» fikirlərini, ekologiya məsələlərini ortaya atıblar. Ekologiya hər yerdə var. Azərbaycan da ekologiya problemləri ilə yaşayır. Türkiyə də ekologiya problemləri ilə yaşayır.



Gürcüstan da ekologiya problemləri ilə yaşayır. Məgər Gürcüstanın xüsusi ekologiyası var? Yox, sadəcə bu ayrı-ayrı qüvvələrin Gürcüstan dövlətinə və onun prezidenti cənab Şevardnadzeyə göstərdikləri maneçiliklərdir.

Mən demək istəyirəm ki, Gürcüstan hökuməti, dövləti və prezident cənab Şevardnadze əvvəldən kəmərin məhz bu marşrutla keçməsinin tərəfdarı olubdur. Yəni biz eyni fikirdə olmuşuq və bu gün də bu fikirdəyik, fikir dəyişmir. Ancaq bəzi qüvvələr maneçilik törədirlər. Təsəvvür edin, iki ay bundan qabaq Amerikanın bir qrup konqresmeni müraciət edib ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri Gürcüstandan yox, Ermənistandan keçsin. Biz 8 ildir bu işlə məşğuluq, buna bir belə xərc qoymuşuq, dünyada bir belə işlər görmüşük, indi iki ay bundan qabaq məktub yazıblar ki, qoy bu Ermənistandan keçsin. Təəssüf ki, biz belə təkliflərlə də rastlaşırıq.

Bu qüvvələr niyyətlərinə nail ola bilmədiklərinə görə, indi, məhz layihənin bu vaxtında, bu zamanında istəyirlər ki, maneçiliklər törətsinlər. Bəzi xüsusi xidmət orqanlarının bizdə olan məlumatlarına görə, hətta bəzi ölkələrdə vəsait də ayrılıbdır ki, layihənin həyata keçirilməsinin qarşısını almaq üçün tədbirlər görülsün. Bizdə belə məlumatlar da var. Ancaq sizə bildirmək istəyirəm ki, bu layihə əvvəldən axıra qədər düşünülmüş layihədir. Birincisi, qeyd etmək istəyirəm ki, Xəzər dənizi dünyanın ən zəngin neft və qaz yataqları olan dənizlərindən biridir. Biz fəxr edirik ki, Xəzər dənizinin bu imkanlara malik olmasını məhz Azərbaycan açıb dünyaya təqdim edibdir. Əgər 1994-cü ildə təkcə biz Xəzər dənizinin Azərbaycan sektorunda işlər görmək üçün müqavilə bağlamışdıqsa, indi artıq Qazaxıstan da öz sektorunda bu işlərlə çox ciddi məşğuldur və yaxşı nəticələr əldə edir. İkincisi, Xəzər dənizinin sektorlara bölünməsi məsələsi. Əgər 5–6 il bundan öncə, sadəcə, bizə maneçilik etmək istəyirdilərsə və bizim təklifimizin mümkün olmadığını bildirirdilərsə, biz deyirdik ki, Xəzər dənizi sahilyanı ölkələr üçün sektorlara bölünməlidir. Yəni onun dibinin istifadə olunması, onun enerji resurslarından istifadə olunması üçün bölünməlidir. Belə bir bölgü Xəzər dənizində 1970-ci ildə sovet hökuməti tərəfindən edilmişdi. Onda Xəzər dənizi, ancaq sovet hökumətinə məxsus idi. Onun cənubunda bir balaca hissəsi İrana məxsus idi.

Ancaq o vaxt bizimlə razı olmurdular. İndi isə aparılan danışıqlar nəticəsində Azərbaycan Rusiya və Qazaxıstan ilə Xəzər dənizinin sektorlara bölünməsi haqqında sazişlər imzalayıbdır. Biz həm birinci sənədləri imzalamışıq, həm də o sektorların koordinatlarının müəyyən olunması, yəni o sərhədlərin tam dəqiq müəyyən edilməsi ilə əlaqədar ikinci sazişləri imzalamışıq. Bunları mən şəxsən Rusiyanın prezidenti cənab Putin ilə, Qazaxıstan prezidenti cənab Nazarbayev ilə imzalamı-

şam. Eləcə də, Rusiya və Qazaxıstan arasında belə sazişlər imzalanıbdır. Türkmənistan və İran ilə əlaqədar hələ ki, biz razılığa gəlməmişik. Bu günlərdə sahilyanı ölkələrin Xəzər dənizi üzrə ekspertləri Bakıda yenidən görüşəcəklər. Biz çalışırıq ki, onlar da beynəlxalq hüquq normalarına, beynəlxalq dəniz hüququna uyğun olaraq orta xətt prinsipi əsasında razılığa gəlsinlər.

Onda hər bir Xəzəryanı ölkə öz sektorunda istədiyi işi görə bilər. Ancaq bildirmək istəyirəm ki, Xəzər dənizində neft və qaz ehtiyatları olduqca çoxdur. İlkin qiymətləndirmələrə görə, ancaq Azərbaycan sektorundan 4 milyard ton neft, 5 trilyon kubmetr qaz gözlənilir. Birinci müqavilədən 740–750 min ton neft gözləyirik və bu, Bakı–Tbilisi–Ceyhan kəməri ilə ixrac ediləcəkdir. Ancaq Azərbaycan sektorunda çox perspektivli başqa yataqlar da var. Ona görə də görürsünüz, ümumi miqdar çoxdur – 4 milyard ton neft və 5 trilyon kubmetr qaz. Bunlar, ancaq Azərbaycan sektorundadır. Demək bu, 50–100 ilə qədər işlənilməsi mümkün olan bir sahədir. Ona görə də bu, həm Azərbaycan üçün, onun iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq üçün, həm də bizimlə əməkdaşlıq edən Qərb ölkələri, şirkətləri üçün çox böyük mənfəət, fayda gətirəcəkdir.

Bu konfransda bu nəticələri elan edərək bildirmək istəyirik ki, gördüyümüz iş artıq layihə deyil, reallıqdır. Bu müddətdə Azərbaycanın neft sektoruna xarici şirkətlər tərəfindən 7 milyard dollar sərmayə qoyulubdur. Ümumiyyətlə, 1994-cü ildən indiyə qədər Azərbaycana gələn xarici sərmayə 9 milyard dollar təşkil edir. Yaxın vaxtlarda bu layihələrin həyata keçirilməsi üçün Azərbaycana xarici şirkətlərdən təxminən 10–12 milyard dollar sərmayə gələcəkdir. Bunların hamısı, təbiidir ki, öz nəticələrini verəcəkdir.

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəməri təkcə iqtisadi xarakter daşımır. O, eyni zamanda, Qafqazda, xüsusən Cənubi Qafqazda, Türkiyədə təhlükəsizliyi və sabitliyi təmin etmək üçün əsas vasitələrdən biridir. Təəssüflər olsun ki, bizim regionda hələ tam sabitlikdən danışmaq mümkün deyildir. Çünki münaqişələr var: Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, yaxud gürcü–abxaz münaqişəsi, yaxud bizdən şimalda – Çeçenistanda gedən hadisələr. Bunlar hamısı Qafqazda çox mürəkkəb siyasi-iqtisadi vəziyyət yaradıbdır. Ona görə də biz Azərbaycanda yeni neft strategiyasını həyata keçirərək, bu nailiyyətləri əldə edərək, iqtisadiyyatı inkişaf etdirərək çalışırıq ki, ölkəmizdə sabitliyi möhkəmləndirək və eləcə də, münaqişənin aradan qaldırılmasına müəyyən imkanlar yaradaq.

Təəssüflər olsun ki, bu münaqişənin aradan qaldırılması çox çətinləşibdir. Məlumdur ki, bu münaqişə 15 il bundan öncə Azərbaycana qarşı torpaq iddiası, Dağlıq Qarabağ vilayətini əlinə keçirmək məqsədi-



lə Ermənistan tərəfindən başlanıbdır. Bu, müharibəyə çevrilib və sonra, xüsusən 1991-ci, 1992-ci, 1993-cü illərdə şiddətli müharibə gedibdir. Müharibə nəticəsində Ermənistan silahlı qüvvələri müəyyən səbəblərdən Azərbaycan ərazisinin 20 faizini işğal ediblər. Dağlıq Qarabağ vilayəti və onun ətrafındakı sırf azərbaycanlılar yaşayan 7 inzibati rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub və indiyə qədər işğal altındadır.

İşğal olunmuş torpaqlardan 1 milyona qədər azərbaycanlı zorla çıxarılıb, etnik təmizləmə aparılıbdır. İndiyə qədər onların əksəriyyəti çadırlarda yaşayır. Öz yerlərindən, yurdlarından, torpaqlarından didərgin düşüblər. Bu münaqişənin həlli ilə Birləşmiş Millətlər Təşkilatı məşğul olub, qətnamələr qəbul edibdir. Təklif edib ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxsın. Ermənistan hökuməti bunu yerinə yetirməyibdir. Sonra ATƏT Minsk qrupu yaradılıbdır. Minsk qrupunun həmsədrləri Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa neçə illərdir ki, məsələni sülh yolu ilə həll etməyə çalışırlar. Ancaq təəssüf ki, onlar da hələ bir şeyə nail olmayıblar. Çünki Ermənistan çox qeyri-konstruktiv mövqe tutur.

Biz heç vaxt razı ola bilmərik ki, Azərbaycanın hansısa bir hissəsi Ermənistanın tərkibinə qatılsın. Biz məsələnin beynəlxalq hüquq normaları əsasında, hər bir ölkənin suverenliyinin qorunması, ərazi bütövlüyünün təmin olunması, sərhədlərinin toxunulmazlığının təmin edilməsi prinsipləri əsasında həll olunmasını istəyirik. Ancaq Ermənistan özü üçün xüsusi prinsiplər ortaya atır. Təbii ki, biz bununla razı ola bilmərik. Mən bu məsələni indi çox geniş izah etmək istəmirəm. Çünki bu gün bizim əsas mövzumuz başqa mövzudur. Sadəcə, buna toxundum ki, biləsiniz – Qafqazda və xüsusən, Cənubi Qafqazda belə bir ağır vəziyyət var. Amerika Birləşmiş Ştatları bundan sonra bu regiona daha da diqqətli olmalıdır. Biz hesab edirik ki, Minsk qrupunun həmsədrləri kimi Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa bu məsələnin sülh yolu ilə həll olunmasında qəti addımlar atmalıdırlar. Biz yenidən müharibənin başlanmasını istəmirik. Baxmayaraq ki, Azərbaycanda əhali artıq dözə bilmir. Belə vəziyyətə dözə bilmir ki, torpaqlarının 20 faizi on ildir işğal altındadır. Belə vəziyyətə dözə bilmir ki, bir milyon qaçqın–köçkün azərbaycanlının əksəriyyəti çadırlarda yaşayır. Ona görə xalq tərəfindən çox təkliflər alırıq, insanlar tələb edirlər: «Biz istəyirik müharibə edək, ya gedək torpaqlarımızı geriyə alaq, ya da məhv olaq!» Biz bunların qarşısını alırıq, bundan sonra da alacağıq. Ancaq vəziyyəti həmişə bu cür saxlamaq mümkün deyildir. Güman edirəm ki, bizim bu layihələrin həyata keçirilməsi münaqişələrin də həll olunmasına yardımçı ola bilər. Arzu edirəm ki, belə də olsun.

Beləliklə, hörmətli xanımlar və cənablar, Azərbaycanın yeni neft

strategiyası, onun qarşıya qoyduğu məsələlər, Azərbaycanın iqtisadiyyatı və bunun gələcəyi, demokratik, hüquqi, dünyəvi dövlət kimi ilbəil inkişaf etməsi, bazar iqtisadiyyatı ilə irəliləməsi – bunlar hamısı bizim əsas prinsiplərimizdir. Həmin prinsiplərimizdən biz istifadə edərək, ölkəmizin inkişafı ilə məşğuluq. Bu layihələrdə də biz həm Amerika Birləşmiş Ştatları ilə çox sıx əməkdaşlıq edirik, həm də Avropanın bir çox ölkələri və onların neft şirkətləri ilə əməkdaşlıq edirik və bunu gələcəkdə də davam etdirəcəyik.

Diqqətinizə görə sağ olun, təşəkkür edirəm!





# İKİNCİ BÖLMƏ

## NEFT SƏNAYESİNİN İNKİŞAFINDA GƏRGİN ƏMƏK SƏRF EDƏNLƏR

## QABAQCILLIQ ƏNƏNƏSİNƏ SƏDAQƏT

Telman Muxtar oğlu Cəfərov 1945-ci ildə anadan olmuşdur. Bakı Neft Texnikumunu, Azərbaycan Neft və Kimya İnstitutunu (indiki ADNA) bitirmişdir. Əmək fəaliyyətinə əfsanəvi Neft Daşlarında başlamışdır. Ali məktəbdə oxuyarkən təcrübəsini Qum adasında keçmiş, Neftçi Qurban kimi şəxsiyyətin imtahanından çıxmışdır. Təyinatla «Nərimanovneft»ə gəlmiş, aşağı ixtisas dərəcələrində mühəndis, böyük mühəndis, mədən müdirinin müavini, yeni yaradılmış «28 May» NQÇİ-nin texniki-istehsalat şöbəsinin rəisi işləmiş, baş mühəndis vəzifəsinə təyin olunana qədər mədən rəisi vəzifəsində böyük təcrübə toplamışdır. On iki il – 1990-cı ildən 2002-ci ilə qədər ölkə iqtisadiyyatının dayağı olan bu NQÇİ-nin baş mühəndisi vəzifəsində çalışmış və artıq bir ildir ki, bu məsul işdə topladığı təcrübəni NQÇİ-nin rəisi kimi uğurla həyata keçirir. Söhbət zamanı Telman Cəfərov dedi:

– Əsas nailiyyətimiz neft hasilatı planına əməl olunmasıdır. Ötən il 5868334 ton neft çıxarılmışdır ki, bu da nəzərdə tutulduğundan bir qədər artıqdır. Neftin təhvili üzrə tapşırığı da artıqlaması ilə yerinə yetirmiş, yəni əlavə olaraq dövlətə 318,077 ton məhsul təhvil vermişik. Azərbaycan Qaz Emalı zavoduna təhvil verilmiş qazın həcmi 109,9 faiz təşkil etmişdir. «Çıraq» platformalarından 958816 min kub metr qaz qəbul edərək vaxtında sifarişçi təşkilatlara nəql olunmuşdur.

Struktur bölmələrimiz əlaqəli işləmişlər. 8 saylı DDÖ-nün və Quyuların Əsaslı və Yeraltı təmiri sexinin kollektivinin yaxşı işini xüsusilə qeyd etmək istərdim. Neft-qaz tapşırıqlarının yerinə yetirilməsində aparılan təşkilati-texniki tədbirlərin, geoloji-texniki tədbirlərin səmərəliliyinin artırılması, quyularda aparılmış əsaslı və yeraltı təmirin keyfiy-

yəti yüksəlmiş, müsbət dəyişikliklər böyük rol oynamışdır. Ümumiyyətlə, 158 quyuda əsaslı və yeraltı təmir işi aparılmışdır. Artıq 69 quyuda bu işlər başa çatdırılmışdır. Əlbəttə, kollektivimiz problemsiz də ötüşməmişdir. Qaldırıcı traktor parkının müasir tələblərə cavab verməməsi, ehtiyat hissələrinin çatışmazlığı, yuma və nasos-kompressor borularına tələbat, bir sıra zəruri alət və avadanlığın, materialların kəskin surətdə çatışmaması və s. misal göstərmək olar. Amma kollektivimizin üzvləri daxili ehtiyat mənbələrini üzə çıxarır, çətinliyi öz qüvvələri ilə aradan qaldırmağa çalışırlar. İdarəmizin intellektual potensialı həmişə güclü olmuşdur. Bu da neft-qaz hasilatında mühüm şərtdir.

İdarə üzrə çıxarılan gündəlik neft hasilatının 28 faizi qazlift üsulu ilə işləyən quyuların payına düşür. İşlənmənin orta mərhələsində olan «Günəşli»də qazlift istismarına keçid bir sıra problemlərin həllini tələb edir. İlk növbədə hidrat əmələ gəlməsinə qarşı mübarizə aparmaq tələb olunur. Qazın qurudulması, bunun üçün separasiya qurğularının quraşdırılması, hidrata qarşı metanol vurma qurğularının yaradılması, qazın qızdırılması üçün qızdırıcı qurğuların layihələndirilməsi, tikilməsi və hazır qurğunun DDÖ-də quraşdırılması işi bu gün də davam etdirilir. Bu idarə üzrə neft-qaz hasilatının sabit saxlanmasını zəruri edir.

Kollektivimiz ölkədə istehsal olunan qazın 42 faizini hasil edir və bu göstəricini sabit saxlamaq, artırmaq barədə daim düşünür. «Günəşli»dən və «Çıraq» platformasından gələn səmt qazını qəbul edən Qaz-kompressor stansiyasının gündə 7,2 milyon kubmetr qazı sahilə nəql etməsi burada çalışan yüksək ixtisaslı mühəndis-texniki işçilərin böyük zəhməti sayəsində mümkün olur. Yeni texnika və texnologiyanın gözəl nümunəsi olan SKS-in tikilməsi, istifadəyə verilərək istismar olunması, əlbəttə, möhtərəm prezidentimizin neft sənayemizə göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir. Fərəhli haldır ki, bizim mütəxəssislərimiz əcnəbilərdən intellekti ilə heç də geri qalmır, bəzi hallarda onları üstələyir də. Daha bir fikrimi bildirmək istəyirəm. İstər «Günəşli», istərsə «Çıraq-1» platforması dünya siyasətinin liderlərindən olan möhtərəm prezidentimizin uzaqgörən siyasətinin bəhrəsi olub, onun ən möhtəşəm əsərləridir. Bu yataqların sahildən 120–130 kilometr uzaq məsafədə Xəzərin qoynunda mövcudluğu, millətimizin, dövlətimizin azad və müstəqilliyinin əyani sübutudur. Bu ərazidə görülən işlər dövlətimizin müstəqil siyasət yeritməsini təsdiqləyir. Bu bir də onu göstərir ki, cənab prezidentin sədri olduğu və ötən ilin noyabrında 10 illik yubileyini təntənə ilə qeyd edən Yeni Azərbaycan partiyası qurucu, yaradıcı, ilhamverici siyasi bir partiyadır. Şübhəsiz, bu il keçiriləcək prezident seçkisində də biz neftçilər parlaq şəxsiyyət, qüdrətli zəka sahibi Heydər Əliyevin həyata keçirdiyi doğru siyasi kursu dəstəkləyəcəyik. Çünki Atatürk Türkiyə üçün nə edibsə, H.Əliyev də Azərbaycan üçün



onu edib və etməkdədir. DDÖ-lərdə dəniz neftçilərinin normal işləməsi üçün mümkün olan məişət şəraiti yaradılmışdır. Səhiyyə xidmətinin, qidalanmanın vəziyyəti yaxşılaşmışdır. Əməyin təhlükəsizliyi, mühafizəsi sahəsində də bir sıra təsirli tədbirlər həyata keçirilmişdir. Bu xətt Çilov adasındakı yataqxanaların əsaslı təmiri və müasir avadanlıqla təchizi ilə, yolların, mühüm ictimai nöqtələrin abadlığına nail olmaqla davam etdirilir. 57 və 9 saylı yataqxanalarda, avtonəqliyyat sexinin ərazisində, vertolyot meydançasında və s. yerlərdə bu iş demək olar ki, başa çatdırılmışdır. Yaxın vaxtlarda digər obyektlərdə də abadlıq işi başlanacaqdır. Adanın içməli su ilə təchizatının yaxşılaşdırılmasında yenicə istifadəyə verilmiş su anbarının mühüm rolu olacaqdır.

Son zamanlar, perspektivli, təşkilatı bacarığa, elmi-texniki tərəqqiyə meylli kadrları məsul vəzifəyə təyin etmişik. Dərin Dəniz Özüllərinin bir sıra sex, sahə, xidmət rəhbərlərinin orta yaş həddi 27–40 arasındadır. Bu o deməkdir ki, onlara öz potensial imkanlarını üzə çıxarmaq üçün şans verilmişdir. Onların böyük əksəriyyəti bu etimadı doğruldur, öz üzərində daim çalışır, texniki ədəbiyyatı izləyir, bir mühəndis kimi peşəkarlıqlarını artırırlar. Özünü doğrultmayanlarla isə təbii ki, biz eyni yolu addımlaya bilmərik. Əsl mühəndisin yetişməsi üçün 25–30 il vaxt tələb olunur. Mühəndis daim axtarışda olmalı, səmərələşdirici, ixtiraçı olmalıdır. Yoxsa inkişaf olmaz. Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, elə vaxt olub ixtira və təkliflərdən aldığım zəhmət haqqı maaşımdan çox olub. İstehsalata tətbiq olunan təklifimdən həzz aldığım, duyduğum sevinc hissi məni yeni fikirlər, ideyalar irəli sürməyə sövq edib. Akademik Azad Mirzəcanzadənin dahiliyi ondadır ki, o nəzəriyyəni təcrübədən on il irəlidə görə bilir. Yəni nəzəriyyə daim öndə olmalıdır. Şübhəsiz, təcrübə ilə nəzəriyyə bir-birini tamamlamalıdır.

Kollektivimizdə sağlam ab-havanın, mənəvi mühitin yaradılmasında həmkarlar təşkilatının rolu əvəzsizdir. Bütün tədbirlərin, bayramların keçirilməsində sosial-məişət məsələlərinin həlli istiqamətində bu təşkilatın təşəbbüslərini dəstəkləmiş və köməyimizi əsirgəməmişik. Neftçilər gününün, Respublika, Dünya azərbaycanlılarının həmrəylik gününün və s. bayramların, dəniz neftçilərinin asudə vaxtlarının şən və mənalı keçirmələri üçün fikir mübadilələri aparmışıq. «Günəşli»də vertolyot qəzasında həlak olmuş neftçilərin, şəhidlərin xatirə mərasiminin keçirilməsini, onların ailə üzvlərinə, veteranlara və əlillərə maddi və mənəvi yardımlar göstərilməsini daim işgüzar şəraitdə müzakirə edib birgə qərar qəbul etmişik. Problem məsələlərin həllində təşəbbüslərimizi daim dəstəkləyən ARDNŞ-in rəhbərlərinə dərin minnətdarlığımızı bildirir və onları əmin edirik ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanacaq-energetika kompleksi əməkçiləri-

nin qarşısında qoyduğu yüksək tələblərə layiq işləyəcək, müstəqil dövlətimizin iqtisadi qüdrətinin möhkəmləndirilməsinə bütün bilik və bacarığımızı səfərbər edəcəyik. Həm texniki-iqtisadi nəticələri, həm də Azərbaycan nümayəndə heyətinin başçısı, ARDNŞ-nin I vitse-prezidenti, millət vəkili İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasının sədr müavini və büro üzvü seçilməsi, nüfuzlu beynəlxalq qurumda dövlətimizin təmsil olunması bizi həddən artıq sevindirir. Haqq səsimizin dünyaya bəyan olunmasında İlham müəllimin Avropa Şurasının mötəbər kürsüsündən söz demək imkanı əhəmiyyətli dərəcədə artmışdır. Biz neftçilər də çalışacağıq ki, ölkəmizin siyasi sahədə qazandığı nailiyyətlərini iqtisadi cəhətdən daha da artıraq.





## BİLİK VƏ BACARIĞINI ƏSİRGƏMİR

İbrahimli Mədət İbrahim oğlu 1951-ci ildə, noyabr ayının 17-də Dəvəçi rayonunun Uzunboyad kəndində anadan olmuşdur. 1958-ci ildə Uzunboyad səkkizillik məktəbinin birinci sinfinə getmiş, 1966–1968-ci illərdə Dəvəçi şəhər 1 saylı orta məktəbində təhsilini davam etdirmişdir. 1968-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirmiş, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Neft Akademiyası) daxil olmuş, 1973-cü ildə həmin institutun Neft-Mədən fakültəsini bitirərək dağ mühəndisi ixtisası almışdır.

O, 1973-cü ilin sentyabr ayında göndərişlə Neft daşlarına Sov.İKP XXII qurultayı adına Neft və Qazçıxarma İdarəsinə göndərilmiş, əvvəlcə neftçıxarma operatoru, 1974–78-ci illərdə mühəndis-texnoloq, böyük mühəndis-texnoloq vəzifələrində çalışmışdır. 1978–79-cu illərdə 5 saylı rayon mühəndis-texnoloji xidmətində neftçıxarma ustası işləmişdir. 1979-cu ilin sentyabrından 1984-cü ilin oktyabrına kimi 5 saylı RMTX-nin rəis müavini, 1984-cü ilin oktyabrından 1986-cı ilin aprelinə kimi «28 Aprel» adına NQÇS-nin (neft mədəni) rəis müavini olmuşdur. 1986-cı ilin aprelindən həmin mədənin rəisi işləmişdir. 1990-cı ildə NQÇS-nin bazası əsasında «28 May» Neft və Qazçıxarma İdarəsi yaradılmışdır.

O, 1990-cı ilin yanvarından 1993-cü ilin fevralına kimi «28 May» NQÇİ-nin 2 saylı NQÇS-də rəis işləmişdir. 1993-cü ilin fevralından 2002-ci ilin yanvarına kimi «28 May» NQÇİ-nin Mərkəzi Mühəndis-Texnoloji Xidmətinin rəisi olmuşdur.

Mədət İbrahimlinin dənizin dərinliyinin 100 m və daha artıq olan hissəsində «Günəşli» yatağının işlənməsində, onun üzərində iri mədən

təsərrüfatının yaradılmasında və abadlaşdırılmasında böyük əməyi vardır.

Yüksək təşkilatçılıq qabiliyyəti və işgüzarlığı sayəsində M.İbrahimli 2002-ci ilin yanvar ayının 17-dən Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin rəhbərliyi tərəfindən «28 May» NQÇİ-nin Baş mühəndisi vəzifəsinə irəli çəkilmişdir.

Mədət İbrahimli daşıdığı vəzifədə məsuliyyətini yaxşı dərk edir, neft və qaz sənayesinin inkişafında, neft və qaz istehsalının artırılmasında öz bilik və bacarığını əsirgəmir.



## TİKİNTİYƏ BAŞÇILIQ ETMİŞDİR

Quliyev Aydın Əli oğlu, 1947-ci il dekabr ayının 5-də Ağdam rayonunun Muradbəyli kəndində anadan olmuşdur. 1963-cü ildə Ağdamda 3 saylı orta məktəbi bitirdikdən sonra Bakı şəhərinə gəlmiş və orada fəhlə işləməklə əmək fəaliyyətinə başlamışdır. 1965-ci ildə əfsanəvi «Neft daşları»na işləməyə getmişdir. Əvvəlcə çilingər, elektrik mantyoru, sonralar isə buxar-turbin elektrik stansiyasında usta, sex rəisi və «28 May» Neft və Qazçıxarma İdarəsində Baş energetik müavini vəzifələrində əmək fəaliyyətini davam etdirmişdir.

Aydın Quliyev istehsalatdan ayrılmadan 1972-ci ildə Bakı axşam Neft texnikumunu bitirmişdir. O, 1980-ci ildə İ.M.Qubkin adına Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunun «Qaz sənayesinin elektrikləşdirilməsi» fakültəsini müvəffəqiyyətlə başa vurmuşdur.

Otuza qədər səmərələşdirici təklifin müəllifidir.

1983–1990-cı illərdə A.Quliyev İstehsalat Birliyinin «Xəzərdənizneftqaztikinti» trestində elektrik tikinti-quraşdırma sahəsinə, başqa sözlə, Nərimanov, Qum adası, Pirallahı NQÇİ-lərin, Günəşlidə Dərin Dəniz Özüllərinin elektrikləşdirilməsinə, eləcə də «Neft daşları» NQÇİ-də qaz-turbin elektrik stansiyasının tikintisinə başçılıq etmişdir.

Yüksək təşkilatçılıq qabiliyyəti və əməksevərliyi sayəsində Aydın Quliyev 1995-ci ilin iyun ayından, Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin rəhbərliyi tərəfindən «28 May» NQÇİ-nin ümumi və sosial məsələlər üzrə rəis müavini vəzifəsinə irəli çəkilmişdir.

Aydın Quliyev Respublikanın neft və qaz sənayesinin inkişafında nailiyyətlərinə görə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri fərmanı ilə təltif edilmişdir, Əmək veteranıdır.

Ailəlidir, iki övladı var.

## OPERATORLUQDAN BAŞ GEOLOQA QƏDƏR

Əliyev Yunis Xasay oğlu 1942-ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. 1959-cu ildə orta məktəbi bitirdikdən sonra o, «Neft daşları»nda operator işləmişdir. 1961–1964-cü illərdə Y.X.Əliyev o zamankı sovet hərbi hissələrində qulluq etmişdir. Hərbi qulluqdan tərxis olunandan sonra o, yenə «Neft daşları»na qayıtmış və təhsilini 1966-cı ildə Azərbaycan Neft-Kimya İnstitutunda, «Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı» fakültəsində, əyani şöbədə davam etdirmişdir.

İnstitutda oxuduğu dövrdə Y.X.Əliyev «Neft daşları» Neft-Qazçıxarma İstehsalat Birliyinin elmi-tədqiqat istehsalat işləri zəmininde mühəndis-geoloq vəzifəsində çalışmış, 1975-ci ildə isə həmin istehsalat birliyinin 4-cü mədənində geoloq vəzifəsində çalışmışdır.

1976-cı ildə institutu bitirdikdən sonra o, 1982-ci ilə qədər «Neft daşları» İB-nin neft və qaz yataqlarının işlənməsi şöbəsində mühəndis-geoloq və şöbə rəisinin müavini vəzifəsində işləmişdir.

1982-ci ildən 1990-cı ilə qədər «Neft daşları» Neft-Qazçıxarma İstehsalat Birliyinin elmi-tədqiqat istehsalat işləri texniki, Baş geoloqu, 1990-cı ildən 1994-cü ilə qədər «28 May» NQÇİ-nin geoloqu şöbəsinin rəisi, sonralar isə həmin Neft və Qazçıxarma İB-nin Baş geoloqu vəzifəsində çalışmışdır.

Y.X.Əliyev 2000-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri fərmanı ilə təltif edilmişdir. O, Əmək veteranıdır.



## ƏMƏKDAR MÜHƏNDİS

Hüseynov Oqtay Abdulla oğlu 1937-ci il yanvar ayının 29-da Şəmkir rayonunun Zəyəm qəsəbəsində müəllim ailəsində anadan olmuşdur.

1955-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra, 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Geoloji-Kəşfiyyat fakültəsinə daxil olmuş və 1961-ci ildə həmin institutu başa vurmuşdur.

O, əmək fəaliyyətinə «Gürganneft» Neft Mədənləri İdarəsində neft-qazçıxarma operatoru kimi başlamışdır. Az sonra o, laboratoriya mühəndisi, neft-qazçıxarma ustası, rayon mühəndisi-texnoloji xidmətinin (RMTX) rəisi vəzifələrində işləmişdir.

O.Hüseynov 1973–1975-ci illərdə Kuba Respublikasında ezamiyyətdə olmuş və orada «neft və qaz yataqlarının işlənməsi üzrə» bir mütəxəssis kimi çalışmışdır.

Xarici ezamiyyətdən qayıtdıqdan sonra Sov.İKP XXII qurultayı adına NQÇİ-də böyük mühəndis, neft-qazçıxarma sexinin rəisi, 1981–1984-cü illərdə «Artyomneft» (indiki Abşeronneft») NQÇİ-də idarənin rəis müavini, 1984–1990-cı illərdə Çilov adasında neft-qazçıxarma sexində böyük mühəndis və rəis vəzifələrində işləmişdir.

1990-cı ildə O.Hüseynov Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin rəhbərliyi tərəfindən «28 May» NQÇİ-nin istehsalat işləri üzrə rəis müavini vəzifəsinə irəli çəkilmişdir.

O.A.Hüseynov 1971-ci ildə Azərbaycan SSR Ali Sovetinə keçirilən seçkilər üzrə Respublika Mərkəzi Seçki Komissiyasının sədri olmuşdur. O, 1970-ci ildə «V.İ.Leninin anadan olmasının 100 illiyi» medalı ilə, 1981-ci ildə «Əməkdə fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur. 1982-ci ildə ona Azərbaycan Respublikasının əməkdar mühəndisi fəxri adı verilmişdir. Əmək veteranıdır.

İki övlad böyüdüb boya-başa çatdırmışdır.

## İŞƏ VİCDANLI MÜNASİBƏT

Ağammətov Vahab Ağabala oğlu 1937-ci il dekabr ayının 12-də Dağıstanın Kurax rayonunun Kumıx kəndində anadan olmuşdur. 1939-cu ildə Bakı şəhərində əmisinin himayəsinə verilmişdir.

1955-ci ildə Azərbaycan Sənaye İnstitutuna (indiki Dövlət Neft Akademiyası) qəbul olunmuş, 1962-ci ildə «İstehsalat proseslərinin avtomatlaşdırılması» fakültəsini bitirib dağ mühəndisi–elektrik mexaniki ixtisasına yiyələnmişdir.

1962-ci ildə V.A.Ağammətov gənc mütəxəssis kimi «Gürganneft» Neft Mədənləri İdarəsinin sərəncamına göndərilmişdir. Əmək fəaliyyətinə Elmi-tədqiqat istehsalat işləri sexində çilingər kimi başlamış, sonralar isə mühəndis, sahə rəisi, nəzarət-ölçü cihazları və avtomatika sexinin rəis müavini, rəis vəzifəsində çalışmışdır.

1985–1987-ci illərdə «Neft daşları» NQÇİ-nin texniki şöbəsinin rəisi, 1987–1989-cu illərdə isə Avtomatika-hesablama texnikası və NÖC İstehsalat şöbəsinin rəisi vəzifəsində işləmişdir.

1990-cı ilin yanvarından «28 May» NQÇİ-nin İstehsalatın Avtomatlaşdırılması və Mexanikləşdirilməsi şöbəsinin rəisi, 1999-cu ilin noyabr ayından hal-hazıra kimi Qaz Təsərrüfatı və Avtomatlaşdırma üzrə Baş mühəndisin müavini vəzifəsində çalışır.

Vahab müəllim səbrlə, təmkinlə işləyir, neft-qazçıxarma sənayesinin inkişafına öz əmək töhfəsini vermək üçün ciddi səy göstərir. O, heç bir mükafat gözləmədən işinə vicdanlı münasibət bəsləyir. Elə bu keyfiyyətlərinə görə də böyük neftçi kollektivi arasında dərin hörmət qazanmışdır.



V.A.Ağammətov müxtəlif medal və fəxri fərmanlarla təltif olunmuşdur. O, Əmək veteranıdır.

Ailəlidir. İki övlad atasıdır. Təvazökarlığı ilə seçilən Vahab Ağammətov bu gün ömrünün yetkin çağını yaşayır.

## SƏFALI LAHIC, UZAQ SURİYA, DOĞMA BAKI

Əhədov Məcid Seyidrəzi oğlu 1934-cü ilin 16 martında İsmayıllı rayonunun Lahıc qəsəbəsində doğulmuşdur. 1951-ci ildə qəsəbədəki orta məktəbi bitirib Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur.

1956-cı ildə Sənaye İnstitutunun Neft-Mədən fakültəsini bitirdikdən sonra Artyomneft Mədənlər İdarəsində neftqazçıxarma operatoru vəzifəsində işə başlamışdır. Mədəndə avadanlıq üzrə usta, neft-qazçıxarma ustası işləmişdir. 1968-ci ilin may ayından 1971-ci ilin iyun ayına kimi Suriya Ərəb respublikasında işləmişdir. Məcid Əhədov rəhbərlik etdiyi Neft-qazçıxarma briqadası dəfələrlə Ümumittifaq və Respublika yarışlarında qalib olmuşdur.

O, mədəndə işləyərkən yeni texnika və texnologiya ilə yaxından məşğul olmuş, ilk səmərələşdirici təklifini 1957-ci ildə vermiş, hazırda 300-ə yaxın səmərələşdirici təklif və 3 patentin, 10 ixtiranın müəllifidir.

İşlədiyi müddətdə Azərbaycan Ali Məhkəməsində 15 il (3 müddət) Xalq İclasçısı kimi fəaliyyət göstərmişdir.

Təbiətin mühafizəsi üzrə ictimai əsaslarla təlimatçı olmuş və bu sahədə çoxlu qiymətli səmərələşdirici təkliflər vermişdir.

Axırıncı təklif bir qrup mühəndislə birlikdə Dübəndi Neft-Yığma Məntəqəsindən dənizə atılan tullantı sularını «Abşeronneft» NQÇİ-nin su anbarına nəql etmək və oradan uducu quyulara vurulması olmuşdur. Bu təklifin həyata keçirilməsi ilə tullantı suları artıq dənizə atılmır. Beləliklə su hövzəsinin çirklənməsinin qarşısı alınmışdır.

O, 1971-ci ildən «Artyomneft»in dəniz neft mədənində növbə rəisi və MMTX-də rəis müavini işləmişdir. 1975–1994-cü illər «Abşeronneft» NQÇİ-də İstehsalat Texniki Şöbəsinin rəisi olmuşdur.



1994-cü ildən «28 May» NQÇİ-nin İstehsalat Şöbəsində mühəndis vəzifəsinə təyin olunmuşdur.

Əmək veteranıdır, Əməkdə Fərqlənməyə görə medalı, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medalı və Azərbaycan Respublikası Neft və Qaz Sənayesinin Əməkdar İşçisi fəxri adı ilə təltif olunmuşdur.

İşlədiyi müddətdə, həmişə öz sözünü, ədəb, ərkan, qanun çərçivəsində demiş, heç vaxt vəzifə dalınca qaçmamışdır.

Məcid müəllimin doğulduğu diyar, çalışdığı Neftçi peşəsinin romantikası barədə xatirələrindən:

«... 1956-cı ilin iyul ayından, göndərişlə Artyomneft Mədənlər İdarəsinin 4-cü dəniz mədənində neft və qazçıxarma operatoru vəzifəsində fəaliyyətə başlamışam və bir ildən bir qədər çox bu vəzifədə çalışmışam. Bu bir il ərzində neft-qazçıxarmanın fontan, kompressor və nasos istismarı üsulları ilə məşğul olmuşam. Onların hər birinin incəlikləri ilə gündüzlər əməli, gecələr isə nəzəri (yəni texniki ədəbiyyatda göstərilənlərlə) cəhətlərini dərindən öyrənmişəm.

1957–1959-cu illərdə neft-qazçıxarma sahəsində avadanlıq üzrə usta vəzifəsində işləmişəm. Bu illər ərzində avadanlığı öyrənib onun səmərəli istifadəsi üzrə bir çox təkliflərin müəllifi olmuşam.

İlk səmərəli təklifim 1957-ci ildə qeydiyyatdan keçib. Bu kanat asqılarında fiqurlu qaykanı adi qaykalarla əvəz etmək idi. Bu tez sıradan çıxan fiqurlu qayka açarının artıq lazım olmaması ilə nəticələnirdi.

Qeyd etdim ki, bütün işlədiyim dövrlərdə qarşıya çıxan məsələlərə mənim öz sözüm olub. Fikirlərim rəhbərliyin fikri ilə hər dəfə üst-üstə düşmürdü. Elə buna görə də tez-tez fikir ayrılığı, mübahisələrə səbəb olur, diskussiyalar yaranırdı.

Yadımdadır bir dəfə rəhbərlik böyük bir komissiya yaratdı, mənim sahəmdə mancanaq dəzgahlarına xidmətin aşağı səviyyədə olmasını sübut etməli idilər. Arayış hazır oldu, partiya iclasına çıxartdılar.

İclasın ssenarisi hazır idi. Çıxış edəcək adamlar hazırlanmışdı. Biri məni işdən çıxarmağı təklif etməli, digəri daha yüngül cəza təklif etməli və iş şiddətli töhmət ilə bitməli idi.

Mənə söz verdilər. Mən mancanaq dəzgahları haqqındakı məlumatla tanış olmuşdum. Çıxışımda bu mədəndə mancanaq dəzgahlarına lap əvvəldən düzgün xidmət edilmədiyini söyləyəndə, sübut istədilər. Mən təlimatın tələbini söylədim. Yəni mancanaq dəzgahlarında işlənmiş yağı dəyişərkən (əlbəttə, laboratoriya təhlilindən sonra) reduktoru ağ neftlə (kerosinlə) yumaq tələb olunduğunu söylədim. Bu mədəndə isə heç vaxt kerosin alınmamışdı. Məlumatımdan sonra fikirlərin mənə tərəf döndüyünü görən mədən müdiri söz alıb müzakirə ilə iclası bitirməyi təklif etdi. Şiddətli töhmət, elan olunmamış qaldı.

1959–1968-ci illərdə neft və qazçıxarma ustası işləmişəm. Bu

dövrdə neft və qazçıxarmaya aid olan texnika və texnologiyanın öyrənilməsinə və istehsalata tətbiqinə çoxlu vaxt sərf etmişəm.

Nəticəsi rayon, respublika və Neft Sənayesi Nazirliyi üzrə keçirilən müsabiqələrdə həmişə mükafatlara layiq yerlərin tutması olmuşdu. Bu dövrdə quyu fondu üzərində işləmək, məlum və hələ məlum olmayan tərtibat və üsulların axtarılıb tapılması və tətbiqi ilə hasilatda müsbət nəticələr əldə etmək olmuşdur.

Elmi-texniki nailiyyətlərin tətbiqi bəzən çox çətinliklə başa gəlirdi. Mədən rəhbərliyi hər dəfə quyuları tədqiqata saxlamağa icazə vermirdi.

Onu da qeyd edim ki, hər tədqiqatın nəticəsi quyuya optimal rejim qoymaqla optimal hasilat olmasına zəmanət verirdi. Elə buna görə də elm adamları ilə geniş əlaqə yaratmışdım. Onlar öz xülasələri ilə çıxış edirdilər. Mən isə tətbiq yolları axtarıb tapırdım.

Bir vacib cəhəti də qeyd etməyi lazım sayıram. Bütün işlədiyim müddətdə daxili intizam qaydalarını pozmamışam. Vaxtında işə gələr, getməyim isə çox vaxt gecikərdi.

1964-cü il yanvarın 18-dən 19-una keçən gecə Bakıya qalın qar yağmışdı. Elektrik qatarı ilə işə gedirdim. Qatar 19 yanvarda Zirə stansiyasına qədər bizi aparıb, qabağa getmədi. Qatardakılar geri qayıtdı. Mən işə getməyi qət etdim. O vaxt, bizimlə işləyən Əsaslı Təmir sexinin ustası Pavlenko İvan da mənə qoşuldu. Dambaya qədər yıxıla-dura gəlib çatdıq. Oradan müxtəlif maşınlarla və piyada iş yerinə çatdıq. Bu gəlməklə 25 yanvara qədər işdə qaldıq, işi təşkil etdik.

Demək lazımdır ki, xətlər donur, neft hərəkət etmir, quyular dayanırdı.

Sahə Neftçıxarma məntəqələrindən nefti, Artyomneft üçün layihələndirilmiş xüsusi aqreqatlarla vurmaqla, sahilə nəql etməyə başladıq. Bu iş üçün kommunikasiyalarda lazımi dəyişikliyi gün ərzində başa çatdırıb, gecə neft vurmağa başladıq. Bunun sayəsində sahəm ayın nəticələrinə görə cəmi 27 ton neft borclu qaldı ki, onu da fevral ayında doldurduq. Bu vaxtlar mən 4-cü dəniz neft mədəninin 3-cü sahəsində işləyirdim.

Quyu fondu əsasən dənizdə, yığım məntəqələri estakada ilə əlaqəsi olan quyu meydançalarında yerləşirdi.

Operatorların istirahəti üçün şərait çox pis idi. Operatorlar otağı sahildə yerləşirdi ki, biz orada bir səhər, bir də işdən çıxanda olurduq.

Bütün günü dənizdə işləyirdik, islanırdıq, yorulurduq. İsti yeməyin adı var idi. Kağızlarda, qərarlarda, təlimatlarda, işdə isə yox idi. Yadıma gəlir operatorların əksəriyyəti mədə-bağırsaq xəstəliyinə tutulmuşdu.Tez-tez xəstəlik vərəqləri gətirirdilər.

O zamanlar İdarənin nəzdində Hidrotexniki Qurğuların İstismarı və



Təmiri Sexi fəaliyyət göstərirdi. Mən bu idarənin iş icraçısı ilə uzun danışıqlar nəticəsində qərara gəldik ki, 644 saylı quyunun yerləşdiyi meydançanı əsaslı təmir qrafikinə salaq. Bundan sonra o, təmir zamanı özüldən aralı 12 ədəd dirək vursun, üst hissəsini quraşdırsın. Biz belə də etdik və nəticədə 3 otaqlı geniş bir operator otağı yarandı ki, bu da işçilərimizin sağlamlığında mühüm rol oynadı. Otaq 1962-ci ildən indiyə kimi fəaliyyətdədir.

Bu və bu kimi başqa müvəffəqiyyətlərə görə 1964-cü ildən Artyom Rayon Partiya Komitəsinin Plenum üzvü və 1967-ci ildən Azərbaycan SSR Ali Məhkəməsinə xalq iclasçısı seçildim. 1966-cı ildə keçirilmiş Azərbaycan KP-nın XXVI qurultayının nümayəndəsi oldum.

Qurultayda olduğum günlərdə B. Y. Axundov yoldaşla xüsusi görüşüm oldu. Doğulduğum Lahıc qəsəbəsi Azərbaycan Tarixi yerlərindən olub, öz sənətkarlığı ilə məşhur bir yerdir. B.Y. Axundov məruzələrinin birində demişdir. Azərbaycanda xalq sənətkarlığını inkişaf etdirmək lazımdır – o cümlədən Lahıcda misgərliyi...

Görüş zamanı dedim: Sizin məruzənizdən sonra Lahıcda misgərliyi bağladılar.

– Niyə?

Dedim: – bu ərəfədə MK-nın «Əlvan metalları qənaətlə işlətmək» barədə bir qərarı çıxdı. İsmayıllı rayon partiya rəhbərliyi bu qərara cavab tədbiri kimi «Qırıntıdan sənət əsəri yaradan misgərləri çölə atdı, sexi bağladılar.

B.Y.Axundov yoldaş indiki «Şəhriyar klubu»nun foyesində, Yerli Sənaye Naziri P.Y.Məmmədli yoldaşla bizi tanış etdi və göstəriş verdi: – «Qurultaydan sonra bu yoldaşla görüşüb danışarsınız. Lahıcda misgərliyin açılması barəsində mənə məruzə edərsiniz və bu yoldaşın qaldırdığı o biri məsələlər barəsində fikrinizi mənə bildirərsiniz».

Deməliyəm ki, qısa bir müddətdə Lahıcda misgərlər işə başladılar və qədim 60, 50, 45 litr həcmində samovarlar buraxmağa başladılar.

Əlavə etməliyəm ki, hörmətli prezidentimiz cənab Heydər Əliyevin səyləri nəticəsində Lahıc qəsəbəsi «tarixi abidə-qoruq» statusu aldı və ona diqqət artırıldı.

Cənab prezidentin bilavasitə rəhbərliyi və gündəlik qayğısı sayəsində Lahıca gedən yolun üstündə 3 körpü salındı ki, bu körpülər üçün bütün Lahıc əhli ibadətlərində Allaha əl qaldırıb prezidentə can sağlığı diləyirlər.

...1968–1971-ci illərdə Suriya Ərəb Respublikasında ezamiyyətdə olmuşam. Bu dövrdə Suriyada sənaye əhəmiyyətli neft hasil olunmağa başlanılmışdı. Mən orada bizdə olan neft-qazçıxarma ustalarının statusundan bir qədər də artıq vəzifə yerinə yetirirdim. Belə ki, istismarda olan quyuların rejimlərinə nəzarət, qazmadan çıxan quyuların mənimsə-

nilməsi, işə buraxılması, yığılan neftin və qazın mərkəzi yığım məntəqəsinə nəql edilməsi və inşaatçıların quraşdırdığı avadanlıqlarda sınaq işləri aparmaq, həmçinin yerli mütəxəssislər üçün neft və qazçıxarmanın müxtəlif məsələləri üzrə tərcüməçi vasitəsi ilə məruzələr etmək və s.

Yeni quyuların mənimsənilməsi əsas vəzifələrimizdən idi. Burada çoxdan müxtəlif ölkələrin mütəxəssisləri tərəfindən qazılmış quyular var idi ki, bunları da biz işə salırdıq. Çoxdan qazılmış və 4 dəfə mənimsənilməsinə cəhd göstərilmiş S-28 saylı quyu var idi. Axırıncı dəfə bu quyuda nəticə olmamış, quyuda neftin olmaması nəticəsinə gəlmişdilər. Ona görə də quyu üstündə quraşdırılmış aqreqatı çıxarmaq qərarına gəlmişdilər. Bütün bu barədə Dəməşqə xəbər verilib və aqreqatın çıxarılması göstərişi alınmışdı.

S-28 saylı quyu mənim sahəmdə deyildi. Quyuda neftin olmaması və qaldırıcının nəticə almamış çıxarılmasını ofisdə səhər toplantısında eşitdim və buna qəti etirazımı bildirdim. Mübahisə başlandı, bir azdan ərəblərin neft-qazçıxarma üzrə birinci şəxsi də gəlib çıxdı və mübahisəyə son qoymaq məqsədilə mənə dedi: – Əbu Əli (mənə belə müraciət edirdilər – yəni Əlinin atası) mübahisə etmə, o quyuda neft yox, şeytan vardır. Mən dedim ki, mister Riyad, o quyuda şeytan yox, neft var və onu çıxartmaq üçün insan əməli var.

Kontraktımızın rəisi mübahisəyə son qoymaq üçün dedi: – Yoldaş Əhədov, kimi istəyirsən götür, nəyi istəyirsən götür, get quyunun üstünə, sübut elə ki, orada neft var. Mən dedim: «Gedirəm quyunun üstünə saat 12-00-da quyuda dövretmə yaradacağam, 14–30-da neft alacağam».

Mister Riyad: –«Əgər sən o quyudan 1 fincan neft alsan, qara qoçu kəsib sənin şərəfinə Dəclə çayı üstündə ziyafət verəcəyəm».

Quyunun üstünə getdim, quyudan dediyim vaxtda dövretmə və neft aldım.

«Qara qoç» kəsildi, ziyafət verildi. Mən başqa quyuda məşğul olduğum üçün ziyafətdə iştirak edə bilmədim.

Onu da qeyd edim ki, kontraktımıza 5 ədəd 100-illik yubiley medalını SSRİ-nin Suriyadakı səfiri Mühitdinov elan etdi. Bu halda da mən başqa quyuda mənimsəmə aparırdım. Mənə medalı sonra verdilər.

Bunlardan əlavə Suriyada işlədiyim müddətdə SSRİ səfirliyinin iki fəxri fərmanını almışam. Onlardan birini mənə orada vermişdilər, birini mən oradan çıxandan 10 gün sonra imzalayıb göndərmişdilər. Azərbaycan–Suriya dostluq cəmiyyətinin üzvü (Xarici Ölkələrlə Dostluq Cəmiyyəti nəzdində) olmuşam.

1971-ci ildə Suriyadan qayıtdıqdan sonra əvvəlki iş yerinə «Abşeronneft» NQÇİ-nin 2 saylı rayon mühəndis texnoloji xidmətinə növbə rəisi kimi işə başladım. Burada işə mühəndis-texnoloji qurğuların və yığım sisteminin quruluşunu, quyu fondunu öyrəndim. Bütün qazılmış quyu fondunu öyrəndim və qruplaşdırdım. Bu bütün sonrakı fəaliyyətimdə mənə lazım oldu.



Burada bir qrup quyular «Abşeron» yatağında hələ 1965-ci ildə qazılıb qurtarmışdı, lakin abadlaşdırılmadığından işləmirdi. Bəzi quyular işləyirdi. (DSP-11) neft 2 ədəd 70 tonluq çənə yığılır və daşınırdı.

Quyuları yuyub mənimsəmək üçün texniki su təchizatı yox idi. Təklifimlə (DSP-24 və DSP-25) özüllərdə olan 16 kubluq çənlərə yanğınsöndürən gəmilərdən su dolduruldu və bu su ilə dövrü üsulla (çən-quyu-çən) quyular yuyuldu və işə salındı. Sonralar burada daha mürəkkəb sistemlər yaradıldı.

1972-ci ildən MMTX-nin rəis müavini vəzifəsinə təyin olundum. Bu dövrdə elm-texnika nailiyyətləri daha geniş çeşiddə böyük miqdarda tətbiq etməyə başladıq. Belə ki, bir quyuda iki horizontun eyni vaxtda istismarı işləri geniş tətbiq olunmağa başladı.

Bu dövrdə qumla mübarizə əsas məsələ kimi qarşıda dururdu. Quma qarşı mübarizə iki istiqamətdə aparılırdı.

Birinci–qumu layda saxlamaq. Bu məqsədlə bir çox quyudibi zonanın bərkidilməsi üsulları və müxtəlif tərkibli tompanaj materiallarının seçilməsi, tətbiq edilməsi və nəticələrin təhlili və s.

Bu məqsədlə əsaslı və cari təmirlərin SAM-in tətbiqi ilə aparılması, təmirdən sonra quyuların müəyyən dövrdə məhdud hasilatla işlədilməsi yaxşı nəticə verirdi.

İkinci–laydan gələn qumun çıxarılması və onun quyuda çökməsinə yol verməmək. Bu məqsədlə boru arxasına təmiz mayenin əlavə olunması ilə ümumi mayeyə qum faktorunu azaltmaq, müxtəlif konstruksiyalı qum, qaz-qum lövbərlərinin tətbiqi, daha davamlı nasosların seçilməsi, müxtəlif konstruksiyalı çökdürücülərin tətbiqi, boru-şlanqların tətbiqi ilə qumdan silindr-plunjer ciftinin təcrid edilməsi və sairə effektli olurdu.

1975-ci ildən «Abşeronneft» NQÇİ-nin İstehsalat-texniki şöbəsinə rəis təyin olunmuşam və bu vəzifədə 1994-cü ilin oktyabr ayına qədər işləmişəm.

1994-cü ildən «28 May» NQÇİ-nin İstehsalat şöbəsində mühəndis vəzifəsində işləyirəm.

## XƏZƏRİN EKOLOJİ PROBLEMLƏRİ

Şahabiddin Bayram oğlu Albuşov 20 may 1942-ci ildə Balakən rayonunun Talalar kəndində anadan olmuşdur. 1959-cu ildə Balakən şəhər Nizami adına orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək üçün Bakıya gəlmişdir.

Ş.Albuşov 1960-cı ildə yüngül sənaye müəssisəsində əmək fəaliyyətinə başlamışdır. İstehsalatda çalışmaqla yanaşı, 1963-cü ildə Azərbaycan Dövlət Politexnik İnstitutunun Texnologiya fakültəsinə qəbul olunmuş, oranı 1969-cu ildə müvəffəqiyyətlə bitirərək mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.

1970-ci ildən 1980-ci ilə kimi istehsalatda çalışmaqla yanaşı, Azərbaycan Politexnik İnstitutunun Texnologiya fakultəsində pedaqoji fəaliyyət göstərməyə dəvət edilmişdir.

1980-ci ilə kimi əmək fəaliyyətini yüngül sənaye müəssisəsində davam etdirməklə, müxtəlif vəzifələrdə çalışaraq müəssisənin Baş mühəndisi vəzifəsinə qədər yüksəlmişdir.

Ş.B.Albuşovun ətraf mühitin mühafizəsinə olan həvəsi nəzərə alınmış, 1980-ci ildə keçmiş SSRİ Su Təsərrüfatı və Meliorasiya Nazirliyinin Xəzər dənizinin su ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsinin tənzimlənməsinin Azərbaycan Ərazi Hövzə İdarəsinə dəvət edilərək böyük mühəndis vəzifəsinə işə qəbul olunmuşdur. 1981-ci ildən isə o, idarənin rəis müavini təyin edilmişdir.

1989-cu ildə təbiəti mühafizə orqanlarının strukturlarının təkmilləşdirilməsi ilə əlaqədar olaraq idarə, Respublika Təbiəti Mühafizə Komitəsinin tabeliyinə verilmiş və Dövlət Xəzər Mühafizə Müfəttişliyi adlandırılmışdır. Şahabiddin müəllim isə idarə rəisinin birinci müavini, 1992-ci ildən isə həmin müfəttişliyin rəisi vəzifəsinə təyin edilmişdir.



1997-ci ildə Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsində İşlər İdarəsinin rəisi təyin edilən Şahabiddin müəllimi yenidən həyatını Xəzər dənizinin çirklənmədən mühafizəsinə və ekoloji problemlərin həllinə həsr etmişdir.

1997-ci ilin dekabr ayından o, «28 May» NQÇİ-də Ekologiya və Təbii Ehtiyatlardan Səmərəli İstifadə qrupunun rəhbəri, az sonra isə Ekologiya və Təbii Ehtiyatlardan Səmərəli İstifadəyə nəzarət şöbəsinin rəisi təyin edilmişdir.

Ş.Albuşov hal-hazırda həmin vəzifədə çalışır. Son 22 il ərzində bir çox layihələrə ekoloji baxımdan rəylər vermiş, ətraf mühitin mühafizəsinə dair tədbirlərin həyata keçirilməsinə nail olmuşdur.

O, bir çox beynəlxalq seminar və konfranslarda, böyük layihələrin ekoloji ekspertizasının müzakirələrində, müşavirələrdə fəal iştirak etmiş və vacib təkliflər vermişdir.

O, zəmanəmizin inkişaf etmiş böyük dövlətlərində xüsusi kurslarda, seminarlarda iştirak etmiş və müvafiq sertifikatlar almışdır. Onun böyük Britaniya və ABŞ-da keçirilən xüsusi kurslarda mənimsədiyi yeniliklərin istehsalatda tətbiqi ətraf mühitin mühafizəsində öz müsbət təsirini göstərir.

Xəzər dənizinin ekoloji problemlərini bilən mütəxəssis kimi Milli Məclisin Xəzər dənizinin ekoloji problemlərini araşdıran işçi qrupuna daxil edilən Ş.Albuşovun 42 illik əmək fəaliyyəti dövlət tərəfindən qiymətləndirilmiş, o «Əmək igidliyinə görə», «Əmək veteranı» və «Ətraf mühitin mühafizəsi» medalları ilə təltif edilmişdir.



## MƏSULİYYƏT HİSSİ

Əliyev Sakit Cahangir oğlu 1936-cı il fevral ayının 10-da Şəmkir rayonunun Zəyəm qəsəbəsində anadan olmuşdur. 1946-cı ildə Zəyəm orta məktəbinin birinci sinfinə daxil olmuş, 1956-cı ildə 10 illik təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. Həmin ildə də o, hərbi xidmətə çağırılmış və 1959-cu ilə qədər Sovet ordusunda qulluq etmişdir. Ordudan tərxis olunduqdan sonra 1963-cü ilə kimi Zəyəm istehlak cəmiyyətində sürücü işləmişdir.

S.C.Əliyev 1963-cü ildə Bakıya gələrək, əfsanəvi «Neft daşları»nda yerləşən Sov.İKP XXII qurultayı adına Neft və Qazçıxarma idarəsində 1976-cı ilə qədər müxtəlif vəzifələrdə (sürücü, texnik, iqtisadçı) çalışmışdır. Tapşırılan işə məsuliyyətlə yanaşmasını, müxtəlif peşə sahibləri ilə işləmək bacarığını nəzərə alaraq müəssisənin rəhbərliyi S.C.Əliyevi 1976-cı ilin iyun ayından kadrlar şöbəsinin rəisi vəzifəsinə irəli çəkmişdir. Hal-hazırda o, «28 May» Neft və Qazçıxarma İdarəsi kadrlar şöbəsinin rəisi vəzifəsində özünə xas olan işgüzarlıqla çalışır.

S.C.Əliyev NQÇİ-nin struktur bölmələrində və sexlərində kadrların düzgün seçilməsinə, hazırlanmasına, onların ixtisaslarına uyğun yerləşdirilməsinə köməkliyini əsirgəmir. O, gənc mütəxəssislərin müqavilə əsasında ixtisaslarının artırılmasına, dəniz şəraitində işləmək üçün kadrların peşəkarlıq hazırlığına xüsusi səy göstərir. Müəssisədə bölmə və sexlərin işçilərinə metodiki köməklik göstərir, onlar tərəfindən qanun və əmrlərin icra olunmasına köməklik edir. NQÇİ-yə daxil olmuş ərizə və şikayətlərin «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxılmasını təşkil edir.

S.C.Əliyev NQÇİ-nin rəhbərliyinin, yuxarı təşkilatların verdiyi bütün tapşırıqları operativ surətdə yerinə yetirir, işə tələbkarlıqla və məsuliyyətlə yanaşır. O, 1982-ci ildən «Əmək veteranı» adını daşıyır. 1999-cu ildə dənizdə Neft və Qazçıxarmanın 50 illik yubileyi ilə əlaqədar, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

O, iki övlad atasıdır.



## DEMƏ, YERİN ALTINI DA GÖRMƏK MÜMKÜN İMİŞ...

Məmmədov Sabir Ağamməd oğlu 1932-ci ildə Salyan şəhərində anadan olmuşdur. 1950-ci ildə orta məktəbi bitirdikdən sonra həmin ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1955-ci ildə institutu bitirərək, «dağ mühəndisi-geoloqu» ixtisası almış və göndərişlə «Kürgənneft» neft-mədənlər idarəsinin 1 saylı mədənində fəaliyyətə başlamışdır. Həmin mədəndə bir il operator işlədikdən sonra idarənin geoloji şöbəsinə keçirilmiş və orada 1958-ci ilə kimi mühəndis vəzifəsində çalışmışdır. 1958-ci ilin oktyabr ayında, idarədə Elmi-tədqiqat və istehsalat işləri sexi (ETİİS) təşkil edilir və o, həmin sexdə layların işlənməsi, süni təsir üsullarının analizi və tənzimlənməsi laboratoriyasına böyük geoloq təyin olunmuşdur.

Həmin illər «Neft daşları» yatağının şimal-şərq qanadında aparılan intensiv qazma işləri nəticəsində yeni perspektivli neftli-qazlı sahələr aşkar edilmişdi. Neft-mədən idarəsi tərəfindən qırışığın bu hissəsində neftin-qazın ehtiyatlarının hesablanmasına başlanmış və bu işə ETİİS-in işlənmə şöbəsinin əməkdaşları da cəlb olunmuşdu. Qırışığın tektonikası və neftli-qazlılığının öyrənilməsi işini, idarənin baş geoloqu F.Səmədov gənc mühəndis S.Məmmədova tapşırmışdı. Karbohidrogen ehtiyatlarının hesablanması 1959-cu ildə başa çatdırıldı və həmin ildə ehtiyatlar üzrə dövlət komissiyası tərəfindən təsdiq edildi.

50-ci illərin axırına «Neft daşları»nın şimal-şərq qanadında qazma işlərinin həcmi böyük sürətlə artmaqda davam edirdi. Görülən işlərin effektivliyini artırmaq məqsədilə, yatağın tektonikasının dəqiqləşdirilməsi məsələsi günün aktual problemi kimi qarşıya çıxmışdı. Bu işlərin görülməsini idarənin Baş geoloqu F.İ.Səmədov, geoloji işlərə olan bö-



yük həvəsini və bacarığını nəzərə alıb S.A.Məmmədova tapşırır. O, 1960-cı ildən başlayaraq ETİİS-də görülən işlərlə yanaşı, «Neft daşları»nın tektonikasını dəqiqləşdirmək üçün lazım olan məlumatları toplamağa başlayır. 1961-ci ilin əvvəlinə artıq yatağın tektonikası tam öyrənilmiş, onun əvvəllər güman edildiyindən fərqli olaraq xeyli mürəkkəb geoloji quruluşa malik olması aşkar edilmişdi. Belə ki, əvvəllər qırışığın yalnız 4 tektonik qırılmalarla pozulduğu qəbul edildiyi halda, əsas bazis horizontların tavanına görə qurulmuş struktur xəritələr və geoloji profillərə əsasən bu qırılmaların sayının 30-dan artıq olduğu aşkar edilmişdir. Beləliklə, S.A.Məmmədovun məşhur geoloq F.İ.Səmədovun rəhbərliyi altında apardığı işlər öz müsbət nəticəsini verdi.

S.A.Məmmədov 1962-ci ilin dekabrında Az.SSR Elmlər Akademiyası dərin neft və qaz yataqlarının işlənməsi institutunun neft-mədən laboratoriyasına keçirilmiş və orada 1963-cü ilin avqust ayına kimi fəaliyyət göstərmişdir.

O, 1963-cü ilin avqustunda yeni təşkil olunmuş «Başdənizneft» İdarəsində neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı şöbəsinə böyük geoloq vəzifəsinə irəli çəkilmiş, bu vəzifədə 1964-cü ilin iyul ayına kimi işləmişdir. İşlədiyi müddət ərzində yeni açılmış «Səngəçal-dəniz» yatağının geoloji quruluşunun öyrənilməsində və burada aparılan kəşfiyyat işlərinin istiqamətinin müəyyən edilməsində bilavasitə iştirak etmiş, yatağın dəqiqləşdirilmiş struktur xəritəsi tərtib edilmiş, əldə edilmiş geoloji məlumatlar, yatağın şimal-şərq qanadının perspektivliyini söyləməyə imkan vermişdir.

S.A.Məmmədov 1964-cü ilin iyul ayında «Qum adası» neft-qazçıxarma idarəsi nəzdində 3 saylı mədənin əsasında yaradılmış irləşdirilmiş «Səngəçal-dəniz» neft mədənləri idarəsinə baş geoloq təyin olunmuş, yatağın işlənmə layihəsinin ilk variantının tərtib edilməsində yaxından iştirak etmişdir.

Qeyd edək ki, hələ 1961-ci ildə «Neft daşları» yatağının geoloji quruluşu dəqiqləşdirildikdən sonra, onun neft və qaz ehtiyatlarının yenidən hesablanması qərara alınmışdı. Bu işlərin aparılması F.İ.Səmədov, Ə.Ə.Məmmədov və S.A.Məmmədovun rəhbərliyi altında «Neft Daşları»nda fəaliyyət göstərən Elmi-tədqiqat və istehsalat işləri sexinə həvalə olunmuşdu. Lakin F.İ.Səmədov və S.A.Məmmədovun «Neft Daşları»ndan Az.SSR Elmlər Akademiyası dərin neft və qaz yataqlarının işlənməsi institutuna keçirilməsi ilə əlaqədar, bu işlərin aparılması müvəqqəti dayandırılmışdı. «Kasmorneftqaz» baş idarəsinin rəhbərliyi bu işlərin başa çatdırılmasının vacibliyini nəzərə alıb, S.A.Məmmədovu 1965-ci ildə yenidən XXII partiya qurultayı adına neft-qazçıxarma idarəsinin sərəncamına göndərməyi qərara alır. O, həmən ilin aprelindən Elmi-tədqiqat və istehsalat işləri sexinin baş geoloqu və eləcə də iş-

lənmə laboratoriyasının müdiri kimi fəaliyyət göstərməyə başlayır. 1967-ci ildə S.A.Məmmədovun yüksək bacarığı və böyük səyi nəticəsində «Neft daşları»nın karbohidrogen ehtiyatlarının hesablanması başa çatdırılır.

S.A.Məmmədov görülən bütün bu işlərlə yanaşı, 1965–1982-ci illər sexin laboratoriyalarında aparılan elmi-tədqiqat işlərinə bacarıqla rəhbərlik etmiş, istehsalatla əlaqədar olan müxtəlif problemlərin həllində yaxından iştirak etmişdir. Onun gənc kadrların hazırlanmasında əvəzsiz zəhmətini qeyd etmək lazımdır. İdarədə gənc mühəndislərə qarşı olan daimi qayğı nəticəsində, onların istehsalat işləri ilə yanaşı, elmi işlərlə də məşğul olması üçün lazımi şərait yaradılmışdı. Təkcə onu qeyd etmək lazımdır ki, ETİİS-in fəaliyyəti dövründə 20-dən artıq mühəndis elmlər namizədi və doktoru alimlik dərəcəsi almışdır. Onların böyük bir qismi müxtəlif müəssisələrdə, elmi və dövlət idarələrində yüksək vəzifələr tutmaqda davam etməkdədir.

S.Məmmədov «Neft daşları»nda 1958–1970-ci illərdə işlədiyi illər ərzində Abşeron arxipelağının cənub-qərb hissəsində yerləşən Hami, Çilov adası, Həzi Aslanov, Palçıq pilpiləsi və «Neft Daşları» yataqlarının geoloji quruluşu, neftliliyi-qazlılığı və işlənməsi üzrə topladığı böyük faktiki materialı ümumiləşdirmiş, bu strukturlarda neft və qaz yataqlarının əmələ gəlməsi, paylanması və pozulması ilə tektonik qırılmaların əlaqəsini araşdırmışdır. Əldə etdiyi nəticələri 1971-ci ildə namizədlik dissertasiyası kimi müvəffəqiyyətlə müdafiə edib, geologiya-mineralogiya elmləri namizədi dərəcəsini almışdır. O, mətbuatda «Neft daşları» və Palçıq pilpiləsi yataqları üzrə müxtəlif elmi məqalələrlə çıxış etmişdir.

S.Məmmədov 1982-ci ilin iyulunda «Azneft» Birliyinin sərəncamına köçürülür və Neftçalaneft neftqazçıxarma idarəsinə rəis təyin olunur. Burada 5 il işlədikdən sonra 1987-ci ildə köçürmə yolu ilə Neft Nazirliyinin Ümumittifaq neft sənayesində Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunda geofiziki işlərin təhlükəsiz aparılması sektorunun müdiri təyin olunur. Burada işlədiyi müddətdə mədən və çöl geofiziki işlərin təhlükəsiz aparılması üçün bir sıra normativ sənədlərin tərtib edilməsində yaxından iştirak edir.

S.Məmmədov 1992-ci ilin fevralında qarşılıqlı razılaşma yolu ilə «28 Aprel» (indiki 28 May) Neft-qazçıxarma idarəsində neft və qaz yataqlarının geologiyası və işlənməsi şöbəsinə aparıcı geoloq kimi qəbul olunur. İdarədə fəaliyyətə başladığı ilk gündən ona yalnız intensiv istismarda olan «Günəşli» yatağının geoloji quruluşunun tez bir zamanda dəqiqləşdirilməsi tapşırılır. Bunun üçün o, qazmadan alınmış və istismardan əldə edilmiş bütün quyu məlumatlarına, mədən geofiziki və hidrodinamiki tədqiqat materiallarına istinad edərək tez bir



zamanda yatağın tektonikasını öyrənib, perspektivli sayılan əsas işlənmə obyektlərinə (Qala, Qırməkialtı, Qırməkiüstü qumlu, «Fasilə» lay dəstələri və Balaxanı lay dəstəsinin X horizontu) görə qırışığın geoloji quruluşunun dəqiqləşdirilməsinə nail olur. Nəticədə, layların geoloji quruluşunun qəbul edilmiş variantdan xeyli fərqləndiyi aşkar edilmişdir. Bunu nəzərə alaraq İstehsalat Birliyinin göstərişi ilə 1993-cü ildə «Dəniz neftqazlayihə» Dövlət ETLİ tərəfindən Günəşli yatağının neft, qaz və kondensat ehtiyatlarının yenidən hesablanmasına başlanılmış və bu iş həmin ilin avqustunda tamamlanmışdı. Strukturdakı əsaslı dəyişikliyi nəzərə alaraq, institut tərəfindən «Günəşli» yatağının işlənməsinin dəqiqləşdirilmiş yeni variantı da hazırlandı.

«Günəşli» yatağında çıxarılan neftin Respublika neft strategiyasındakı rolunu nəzərə alaraq, yataq üzrə hasil olunan neftin artırılmasına yönəldilmiş hər bir qiymətli təklif və tədbirlər idarə rəhbərliyi tərəfindən daima müsbət qiymətləndirilmişdir. S.Məmmədov 1996-cı ildə neft və qaz yataqlarının geologiyası və işlənməsi şöbəsinə rəis təyin olunur. Onun son illər «Günəşli» yatağının geoloji quruluşunun öyrənilməsi ilə bağlı bütün işləri və təklifləri, son nəticədə neft və qaz yataqlarının aşkar edilməsində qazma işlərinin səmərəli aparılmasına, layların rasional işlədilməsinə və quyuların neft veriminin artırılmasına yönəldilmişdir.

S.Məmmədov geoloq ömrünün 47 ilini əsasən çox da asan olmayan çətin bir işə–neft və qaz yataqlarının yeraltı quruluşunun öyrənilməsinə həsr etmişdir. Onun, geoloji quruluşunu öyrəndiyi yataqların sayı 10-u keçir. Bu, «Neft daşları», Palçıq pilpiləsi, Həzi Aslanov, Çilov adası, Cənub yatağı, Hami, Gürgan-dəniz, Abşeron bankası, Qum adası, Səngəçal-dəniz, Duvannı adası, Günəşli yatağıdır.

S.Məmmədov çalışdığı hər bir kollektivdə özünü təşəbbüskar, bacarıqlı mütəxəssis və qayğıkeş bir işçi kimi tanıtmışdır. O, biliyini və zəngin təcrübəsini gənclərə öyrətməklə, onların savadlı mütəxəssis kimi yetişdirilməsinə sərf etməklə haqlı olaraq fəxr edir.

## GƏNCLİK HƏVƏSİ İLƏ

Şirinov Binaləddin Məmməd oğlu 1928-ci il fevral ayının 15-də Şəki şəhərində anadan olmuşdur. O, 1934-cü ildə orta məktəbə daxil olub, Əli Bayramlı şəhərində 9-cu sinfi qurtardıqdan sonra 1943-cü ildə elektrik montyoru kimi əmək fəaliyyətinə başlamışdır. 1945-ci ildə Şəki şəhərində tibb məktəbinə daxil olmuş və oranı 1948-ci ildə başa vurmuşdur. O, 1948-ci ilin sentyabrından 1960-cı ilə qədər, yəni 12 il hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunduqdan sonra 1960-cı ildən 1963-cü ilə kimi Bakı şəhəri tibbi yardım mərkəzində işləmişdir.

B.M.Şirinov 1962-ci ildə Politexnik İnstitutunun (indi Texniki Universitet) elektrotexnika fakultəsinə daxil olmuş, 1968-ci ildə həmin fakultəni bitirəcək, mühəndis-radiotexnik ixtisasına yiyələnmişdir. O, 1969-cu ildən 1993-cü ilə qədər Dəniz Neft və Qazçıxarma İstehsalat Birliyinin «Xəzərdəniznefqaztikinti» trestinin 1 saylı tikinti-quraşdırma idarəsində mühəndis-elektrik kimi çalışmışdır.

B.Şirinov 1993-cü ilin iyun ayından hal-hazıra kimi «28 May» Neft və Qazçıxarma idarəsinin elektrik avadanlıqlarının təmiri və elektrik təchizatı sexində mühəndis-energetik vəzifəsində işləyir. 75 yaşının tamam olmasına baxmayaraq o, indi də gənclik həvəsilə çalışır, öz bilik və təcrübəsini gənc kadrlara öyrətməkdən mənəvi zövq alır. Yaşıdları arasında çox sağlam və gümrah görünür.



## ONUN GƏRGİN ƏMƏYİ SƏMƏRƏSİNİ VERİR

Xaliq Şamil oğlu «Bulla-dəniz» NQÇİ-nin kollektivinə 2002-ci ilin aprel ayından başçılıq edir.

Səfiyev Xaliq Şamil oğlu 1951-ci il sentyabrın 28-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur.

1968-ci ildə o, M.Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olmuş və institutu 1973-cü ildə bitirərək dağ mühəndisi ixtisasına yiyələnmişdir.

Həmin ildə X.Şəfiyev N.Nərimanov adına NQÇİ-yə təyinatla göndərilmiş və əmək fəaliyyətinə neft və qazçıxarma üzrə operator vəzifəsindən başlamışdır. İşə olan ciddi münasibəti, çalışqanlığı sayəsində rəhbərliyin diqqətini cəlb etmiş və cəmi 1 ildən sonra o, 3 saylı Rayon Mühəndis Texnoloji xidmətində mühəndis-texnoloq vəzifəsinə təyin edilmişdir.

X. Şəfiyev sonradan 2 və 3 saylı RMTX-də böyük mühəndis-texnoloq, 1 saylı RMTX-nin rəis müavini və 1 saylı RMTX-nin rəisi vəzifəsində çalışmışdır.

1984-cü ildən 1987-ci ilə kimi Xaliq müəllim layların neft veriminin artırılması və quyuların əsaslı təmiri üzrə ixtisaslaşdırılmış Dəniz idarəsində işləmişdir.

1987–1990-cı illərdə o, xaricdə «Vyetnamsovpetro» VM-də neft-qazçıxarma üzrə sahə rəisi işləmiş və vətənə qayıtdıqdan sonra N.Nərimanov adına NQÇİ-də texniki istehsalat şöbəsində mühəndis, sonradan ƏM və TT şöbəsində aparıcı mühəndis, MMTX-nin rəis müavini, MMTX rəisi vəzifələrində çalışmışdır.

Xaliq müəllim 1997-ci ildən 2002-ci ilə qədər olan müddət ərzində məsul bir vəzifədə – qaz kompressor təsərrüfatı üzrə rəis müavini vəzifəsində işləmişdir.

Məsul vəzifələrdə xüsusi iş bacarığını, yüksək səviyyəli mühəndis olduğunu, insanlara qarşı münasibətini, kadrlara bilik və bacarığına görə düzgün qiymət verməsini və təşkilatçılıq xüsusiyyətlərini nəzərə alaraq Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin rəhbərliyi X.Şəfiyevi daha məsul vəzifəyə - «Bulla-dəniz» NQÇİ-yə rəis təyin edilməsi barədə sərəncam vermişdir.

X.Şəfiyev rəis təyin olunduğu ilk günlərdən başlayaraq idarənin fəaliyyətini diqqətlə araşdırmış, cari fəaliyyətdə işlənmə aparılan yataqların və fərdilikdə hər bir quyunun ümumi vəziyyəti və əsasən kadrların yerləşdirilməsindəki mövcud vəziyyəti təhlil edərək bir sıra kadr dəyişiklikləri etmişdir.

Birinci növbədə Mərkəzi Mühəndis Texnoloji Xidmətinin yenidən bərpası işindən başlamış və bu xidmətə təcrübəli işçi olan Məhərrəm Cəbrayıl oğlu Əhmədovu təyin etmişdir. MMTX-ni daha da gücləndirmək məqsədilə 2 saylı NQÇİ-nin rəisi Ağasəf Məmmədağa oğlu Nəcəfovu MMTX-nin rəis müavini vəzifəsinə təyin etmişdir.

MMTX-də təchizat məsələlərində operativliyi təşkil etmək məqsədilə istehsalat xidməti üzrə mühəndis vəzifəsinə Elton İzzət oğlu Məmmədovu təyin etmişdir.

Bundan əlavə, Əsaslı Tikinti şöbəsinin rəisi vəzifəsinə Şükürov Fuad Əflan oğlu təyin edilmişdir. İdarə işçilərinin sosial vəziyyətlərinin araşdırılması və yaxşılaşdırılması yollarının müəyyən edilməsi məqsədilə yeni bir şöbə – Sosial İnkişaf şöbəsi təşkil edilmiş və bu şöbənin rəisi vəzifəsinə Hüseynağa Əlifağa oğlu Rzayev təyin edilmişdir.

X.Şəfiyev idarənin əsas aparıcı şöbələrindən biri olan ƏM və TT şöbəsində də dəyişiklikliyin edilməsini zəruri saydı. Həmin şöbənin rəisi öz vəzifəsindən azad edildi və daha təcrübəli Ramiz Mirzəməmməd oğlu Hüseynovla əvəz edildi.

İdarənin aparatında digər bir mühüm dəyişiklik idarəetmə strukturunun təkmilləşdirilməsi, dövlət sirlərinin qorunması, məlumat axınlarının qarşısının alınması, strateji mahiyyət daşıyan obyektlərin mühafizəsinin daha etibarlı təşkil edilməsi üçün məxfi rejim və səfərbərlik şöbəsi yaradıldı və bu şöbəyə Abdullayev Dostəli Nəriman oğlu təyin edildi.

İşlənmə aparılan yataqlardakı dəniz özüllərində yerləşən quyuların təchizatı ilə məşğul olan əsas sexlərdən sayılan elektrik təchizatı elektrik avadanlıqlarının kirayə-təmir sexinin rəisi vəzifəsinə həmin sahədə daha təcrübəli və təşkilatçı işçi Nəsibov Səməd Mədət oğlu təyin edildi. Xaliq müəllimin əməyi «Xalqlar dostluğu» ordeninə və «Tərəqqi» medalına layiq görülmüşdür.

İdarənin həyətində qısa bir müddət ərzində X. Şəfiyevin bilavasitə rəhbərliyilə abadlıq işləri başa çatdırılmış və həyətin görkəmində göz



oxşayan xeyli dəyişikliklər edilmişdir. İş otaqlarında təmir işləri aparılmış və aparılmaqdadır. Ümumiyyətlə, Xaliq müəllim təmizliyi sevir, qayda-qanuna riayət edən və başqalarından xüsusi qətiyyətlə nizam-intizam tələb edən insandır. Bunu növbə dəyişilən günlərdə dənizə çıxan işçilər daha çox hiss edirlər. İdarədaxili qayda-qanunda ciddilik nəzərə çarpır.

X.Şəfiyev «Ələt-dəniz» yatağındakı quyularda, ilk növbədə qaz-neft üsulu ilə işləyən quyularda parafinləşməyə qarşı tədbirlərin xüsusi qrafiklə mütəmadi olaraq keçirilməsini vacib saydı və onun şəxsən rəhbərliyi və gündəlik nəzarəti sayəsində həmin quyularda kondensatla aparılmış termiki emal müxtəlif reagentlərin tətbiqi nəticəsində, qazlift quyularının bir tərəfdən hasilatının artırılması, o biri tərəfdən isə optimal qaz sərfi rejimlərinin təyini sahəsində əməli dərəcədə irəliləyiş əldə olunmuşdur. Belə ki, 2002-ci ilin aprel ayından başlayaraq ilin sonuna kimi hər iki yataqda yuxarıda göstərilən 57 tədbir həyata keçirilmiş və 8590 ton neft səmərəsi alınmışdır, aprel və may aylarında idarə üzrə yaranmış gerilik ləğv edilmiş və iyun ayından başlayaraq ilin axırına kimi bütün aylar üzrə neft və kondensat hasilatı tapşırıqları yerinə yetirilmişdir.

Fəaliyyətsiz fondda olan 57, 60 və 77 saylı quyularda müəyyən işlər aparılmış və xüsusən «Bulla-dəniz» sahəsində dərinliyi 6000 m olan 77 saylı quyuda texniki cəhətdən xeyli çətin olan qəza işlərinin, qismən ləğvi və quyu dibinə kimi NKB içərisindən yuma işləri aparılmışdır.

Hazırda 77 saylı quyuda perforasiyadan sonra mənimsəmə işləri gedir. İdarəetmə strukturunun təkmilləşdirilməsi, yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi, ümumiyyətlə, işlərin gedişində əhəmiyyətli dərəcədə dönüşün nəticəsidir ki, 2001-ci ildə 72028 ton neft və kondensat hasil edilmişdisə, bu rəqəm 2002-ci il üçün 77025 ton təşkil edir və bu uğurların qazanılmasında Xaliq müəllimin əməyi göz qabağındadır.

2003-cü il də uğurla başlamışdır.

Onu da qeyd etmək lazımdır ki, 2002-ci il yanvar ayının 17-də Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyində baş geoloqun iştirakı ilə idarənin sərəncamında olan yataqlardakı işləyən, fəaliyyətsiz quyular üzrə daxili imkanların araşdırılması istiqamətində də geoloji-texniki müşavirə keçirilmiş və «Ələt-dəniz» yatağındakı 12 quyuda geoloji tədbirlərin həyata keçirilməsi üçün olduqca mühüm qərar qəbul edilmişdir.

Bunlardan əlavə, idarənin olduqca geniş perspektiv imkanları vardır. «Bulla-dəniz» NQÇİ hazırda 2 yataqda–«Bulla-dəniz» və «Ələt-dəniz» yataqlarında işlənməni davam etdirir.

«Bulla-dəniz» yatağı üzrə işlənmənin əvvəlindən 01.01.2003-cü il tarixə 9035,6 min ton kondensat, 1253,1 min ton neft, 59096,4 mln.

kub.m təbii qaz və 643,5 mln. kub.m səmt qazı çıxarılmışdır. Yatağın əsas istismar obyektləri məhsuldar qatın V, VII və VIII horizontlarıdır.

V horizont 1974-cü ildə sənaye istismarına 14 saylı quyu vasitəsilə daxil edilib. Ona görə də geoloji xidmət tərəfindən yatağın II və V tektonik bloklarında əlavə, istismar quyularının qazılması təklif olunmuş və bu təklif DNQÇ İB-nin rəhbərliyi tərəfindən bəyənilmişdir.

Hazırda 50 saylı dəniz özülünün genişləndirilməsi işləri başa çatdırılır və 121 saylı istismar quyusunun qazılması üçün hazırlıq işləri görülür.

Bundan başqa, 29 saylı quyunun platformasının genişləndirilməsi ilə 122 saylı quyunun qazılması nəzərdə tutulmuşdur.

VII horizontun neftlilik-qazlılığı 1973-cü ildə 18 saylı quyu vasitəsilə müəyyən edilib. İşlənmənin əvvəlindən bu horizonta 39 quyu qazılmışdır. Hazırda VII horizontdan 17 quyu işləyir.

İşlənmənin əvvəlindən 01.01.2003-cü il tarixə VII horizontdan 8134,1 min ton kondensat, 1022,5 min ton neft, 54036,4 mln. kub.m təbii qaz və 511,4 mln. kub.m səmt qazı çıxarılıb.



## XƏZƏR KİMİ COŞĞUN, BULAQ KİMİ ŞƏFFAF ÖMÜR YOLU

Firuz Nəhməd oğlu Ağabalayev uşaqlıq illərindən orta məktəbdə oxuyarkən neftçi olmaq arzusu ilə yaşayırdı. Nə üçün?

Bakı şəhərində anadan olub boya-başa çatan Firuz müəllim Abşeron yarımadasının quru hissəsində və Xəzər dənizinin Azərbaycan sektorunda açılmış yeni və işlənmədə olan köhnə neft-qaz yataqlarında işləyən neftçilərə həmişə dövlət qayğısı olduğunu müşahidə etmişdi. Qabaqcıl neftçilərə Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı adları, orden, medallar verilməsinin, onların şəhərin ən yaxşı yerində evlə təmin olunmalarının, əməklərinin nəticələrinə görə əlavə pul mükafatları almalarının şahidi olmuş, neftçi sənətinin gərəkli olduğu qədər, nüfuzlu olduğunu da dərk edərək orta məktəbi qurtarandan sonra Azərbaycan Dövlət Neft Kimya İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmağı qərara almışdır.

... Firuz Nəhməd oğlu 1953-cü ilin yanvarında Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, 1971-ci ildə orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsinə daxil olub. 1976-cı ildə institutu müvəffəqiyyətlə bitirib. Dağ mühəndisi ixtisasına yiyələndikdən sonra bölgü üzrə keçmiş SSRİ-nin 50 illiyi adına Cənub neft-qazçıxarma idarəsinə işə göndərilmişdir.

Firuz müəllim istehsalata qədəm qoyanda əmək fəaliyyətinə «Bulla-dəniz» qazkondensat yatağında 1 saylı mədəndə operator-fəhlə kimi başladı. Onun özündən başqa 5–6 nəfər Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirib bölgü üzrə mədənə gələnlər də var idi. Onlar da əmək fəaliyyətinə operator vəzifəsi ilə başladılar. Firuz bu mühəndislər içərisində öz bilik və bacarığı, işə olan münasibəti, təşkilatçılıq qabiliyyəti ilə seçilirdi. O, qısa müddət ərzində kollektiv arasında böyük

hörmət qazandı və rəhbərlik tərəfindən əməyi qiymətləndirilərək əvvəlcə usta, sonra isə mədənin rəis müavini, mədənin rəisi kimi vəzifələrə irəli çəkildi.

Mədən rəisi vəzifəsində işlədiyi müddət ərzində Firuz müəllim bir də onunla seçilirdi ki, onun öhdəsində olan aylıq, illik dövlət tapşırıqlarının yerinə yetirilməsi üçün həmişə yüksək gərginliklə çalışırdı və bununla bərabər geoloji xidmət sahəsinin rəhbərliyi tərəfindən verilən tapşırıqların yerinə yetirilməsinə xüsusi səy göstərirdi. Quyularda müxtəlif növ tədqiqatların aparılması üçün yüksək səviyyəli rəhbər işçi kimi göstərişlər verərək nəzarəti də yadından çıxarmırdı.

Ona görə də «Bulla-dəniz» qaz-kondensat neft yatağının işlənməsinin ilk mərhələlərində karbohidrogen ehtiyatlarının düzgün hesablanması və işlənmənin düzgün texnoloji sxemlərinin seçilməsi işlərində çalışan elmi tədqiqat institutlarının əməkdaşları düzgün və dolğun quyu məlumatlarına görə Firuz müəllimdən həmişə razı qalmışlar. Onu sadə, bilikli, savadlı, bacarıqlı, böyük və kiçiyin yerini bilən və qayğısını çəkən, həyatda və istehsalatda özünü gözə çarpdırmayan bir şəxsiyyət kimi tanıyırlar.

F.Ağabalayevin 1976–2002-ci illərdə tutduğu vəzifələrlə əlaqədar keçdiyi təcrübə yolları çoxşaxəli olmuşdur və bunun nəticəsində o, «Bulla-dəniz», «Ələt-dəniz» yataqlarında işlədiyi müddət ərzində quyularda aparılan müxtəlif növ işlərin icraçısı və daha sonralar təşkilatçısı və rəhbəri olmuşdur. Firuz müəllim optimal iş rejimlərinin seçilməsi, məhsul verən quyuların düzgün işlədilməsinə nəzarət edilməsi, neftinqazın quyu meydancasında perforasiya olunmasından başlamış dənizdən sahilə qədər 40 km-dən çox məsafəyə uyğun məntəqələrinə nəqli prosesi, quyularda müxtəlif növ aparılan təmir bərpa işləri, fəhlə və mühəndis texniki işçiləri arasında görüləcək işlərin düzgün bölünməsi və onlara nəzarət, istehsalat sanitariyası, əməyin təhlükəsizliyi texnikasının düzgün təşkil olunması və s. əsas istehsalat proseslərində zəngin təcrübə toplamışdır. O, «Bulla-dəniz» qaz-kondensat neft, «Ələt-dəniz» neft yataqlarının təcrübi işlənmə dövründə qazmadan alınmış quyuların istismara daxil edilməsi üçün bütün texniki tədbirlərin qüsursuz olaraq yerinə yetirilməsində öz bilik və bacarığını əsirgəməmişdir.

Firuz müəllimin 1976-cı ildən 1993-cü ilə kimi topladığı istehsalat təcrübəsinin üstünlüklərini nəzərə alaraq DNQÇ İB-nin rəhbərliyi onu 1993-cü ildə yeni təşkil olunmuş «Bulla-dəniz» NQÇİ-yə baş mühəndis kimi məsuliyyətli vəzifəyə təyin etdi.

F.Ağabalayev bu məsuliyyətli vəzifəyə təyin olunduğu ilk günlərdən başlayaraq idarənin strukturunda ona tabe olan şöbələrdə, baş energetik və baş mexanik xidmətlərində, neft-qazçıxarma sahələrində, neftin-qazın nəqli, quyuların əsaslı yeraltı təmir sexində, nəzarət ölçü cihazları sahəsində olan çatışmamazlıqları aşkar edərək tapşırıqların yerinə yetirilməsi üçün elm və texnikanın son nailiyyətlərinin istehsalata tətbiq edilməsi ilə böyük bir plan tutmuşdu. Həmin bu plana əsasən görülmüş texniki tədbirlərin işləyən və işləməyən quyular üzərində tətbiqi sayəsində 1993–2001-ci illərdə 140737 ton neft və kondensat səmərəsi alınmışdır.



Firuz müəllim neft-mədən ixtisaslı gənc mütəxəssislərə xüsusi qayğı və diqqətlə yanaşır, onlara istehsalatda öz bilik və bacarıqlarını tətbiq etməyə geniş imkanlar verir və gənc mütəxəssislərin irəli çəkilməsi üçün çalışır. Onun yetirmələrindən hal-hazırda neft-qazçıxarma sahələrinin rəisləri Aydın Kazımov, Rövşən Səfərov, DNQÇ İB-nin MMTX-nin rəis müavini Əsgər Aslanov kimi bilikli, savadlı, işgüzar təşkilatçıları göstərmək olar.

İdarənin sərəncamında olan yataqların işlənməsi vaxtı neftin və qazın nəqlində hidrat əmələgəlmə və parafinləşməyə qarşı mübarizə üçün Firuz müəllimin rəhbərliyi altında «Ələt-dəniz» yatağında 58 saylı quyuda ilk dəfə olaraq «Maqniflo» buraxılmış, UTN qurğusu quraşdırılmış və nəticədə qaz quyularının atqı xətlərinə və neft quyularında lift cərgələrinin emalı üçün müxtəlif reagentlərdən geniş surətdə istifadə olunmaqla quyularda optimal iş rejimlərinin seçilməsinə nail olunmuşdur.

Firuz müəllim bir çox elmi məqalələrin, bir kitabın və yüzlərlə səmərələşdirici təkliflərin müəllifidir, onun səmərələşdirici təkliflərinin istehsalatda tətbiqi sayəsində neft sənayesində milyonlarla manata qənaət edilmişdir.

Firuz müəllim öz fədakar əməyi sayəsində seçilən mütəxəssis olmaqla bərabər, həm də gözəl ailə başçısıdır. Onun həyat yoldaşı ali təhsillidir, musiqi müəlliməsi işləyir. İki oğul, atasıdır. Oğlanlarından biri orta məktəbi müvəffəqiyyətlə bitirib arzuladığı ixtisasa yiyələnmək üçün ali məktəbə daxil olmuşdur, kiçik oğlu isə orta məktəbdə oxuyur.

F.N.Ağabalayev ömrünün 26 ildən çoxunu bilavasitə Xəzərin Azərbaycan sektorunda – Bakı arxipelağında açılmış «Bulla-dəniz» qaz-kondensat neft yatağı, «Ələt-dəniz» və «Qarasu» neft yataqlarında neftçıxarma işinə həsr edərək operatorluqdan başlayaraq neft-qazçıxarma idarəsinin baş mühəndisi vəzifəsinə kimi şərəfli bir yol keçmişdir. O, özünü işgüzar, yüksək səviyyəli mütəxəssis kimi göstərmiş, hal-hazırda işlədiyi kollektivin dərin hörmət və rəğbətini qazanmışdır.

## İŞ ONUN HƏYAT FUNKSİYASIDIR

Cavadov İmran Təyyar oğlu 1947-ci il sentyabırın 25-də Cəlilabad rayonunun Xənəgah kəndində müəllim ailəsində anadan olmuşdur. 1964-cü ildə Masallı şəhər 2 saylı on bir illik məktəbini bitirmiş, elə həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1969-cu ildə institutu neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı ixtisası üzrə tam kursu bitirmişdir.

İ.T. Cavadov institutu bitirdikdən sonra təyinatla «Suraxanıneft» NQÇİ-yə göndərilmişdir. O, burada quyuların tədqiqatı üzrə operator, 1971-ci ildən mühəndis, mühəndis geoloq, böyük geoloq, ETİİS-də layların işlənməsi və tədqiqatı laboratoriyasının müdiri, 1987-ci ildən Əzizbəyovneft NQÇİ-də layların neft veriminin artırılması üzrə rəis müavini vəzifələrində işləmişdir.

İ.T. Cavadov 1991-ci ildən «Suraxanıneft» NQÇİ-də baş geoloq-rəis müavini vəzifəsində işləyir.

... İmran müəllimin həyat fəaliyyəti ilə tanış olarkən görkəmli yazıçı Jül Vernin sözləri yada düşür: «Kim hələ uşaqlıqdan bilirsə ki, əmək həyatın qanunudur, kim hələ gənclikdən başa düşmüşdür ki, çörək yalnız alın təri ilə qazanılır, o, igidlik göstərməyə qadirdir. Bunun üçün o, özündə həmişə iradə və qüvvə tapa bilər... İş mənim həyat funksiyamdır. Nə vaxt ki, işləmirəm, özümdə o vaxt heç bir həyat əlaməti hiss etmirəm»... Bax, elə İmran müəllimin də həyat funksiyası işdir, namuslu, vicdanlı əməkdir.

...İ.T.Cavadov 1976-cı ildə xaricdə işləmək üçün «Azneft»in göndərişi ilə Azərbaycan Dövlət Universitetində təşkil olunmuş on aylıq ingilis dili kursunu əla qiymətlərlə bitirmişdir. Sonra o, 1981–1984-cü illərdə Əlcəzair Respublikasının «Şonatrak» Şirkətində baş mühəndis kimi fəaliyyət göstərmişdir.



İşgüzar ailə başçısı İmran müəllimin iki oğlu və bir qızı «Suraxanıneft»də mühəndis işləyirlər. Balaca nəvələr – İmran və Dövlət ailənin işgüzarlıq ənənələrinə uyğun böyüyürlər.



## O TALEYİNDƏN RAZIDIR

Cahandar Məhəmməd oğlu Axundov 1960-cı il iyun ayının 5-də Ağcabədi rayonunun Mehrablı kəndində, kolxozçu ailəsində anadan olub. 1976-cı ildə kənd orta məktəbini bitirib və həmin il Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsinin axşam şöbəsinə daxil olub. Əmək fəaliyyətinə 1977-ci ilin fevralında rayondakı kolxozlararası idarədə fəhlə kimi başlayıb. 1979-cu ildə hərbi xidmətə gedib, hərbi xidməti başa vurandan sonra, 1981-ci ildə həyatını neft sənayesi ilə bağlayıb.

... İnsan həyatında elə bir məqam olur ki, onun gələcək müqəddəratını həll edir. C.Axundov üçün belə bir hadisə 1981-ci ilin 8 iyulunda baş verdi: həmin gün o, əmisi oğlu Cahangirin təkidilə «Azneft» İstehsalat Birliyinin Abşeron Qazma İşləri İdarəsinə qazma avadanlıqlarına xidmət üzrə mexanik vəzifəsinə işə düzəldi. Onun əmisi oğlu sonralar müxtəlif qazma idarələrində rəhbər vəzifələrdə çalışan, neftçi-alim, hazırda Qobustan Qazma İşləri İdarəsində Texniki şöbənin rəisi vəzifəsində işləyən Cahangir Səməd oğlu Axundov idi. Yeri gəlmişkən, Cahandarın daha bir qardaşını – hazırda «Bibiheybət» NQÇİ-də iqtisadiyyat üzrə rəis müavini işləyən Kərəm Axundovu da o, neft sənayesinə gətirmişdi.

Cahandar Axundov mexanik işlədiyi müddətdə ilk dəfə neft qoxusunu duymuş, neftçi peşəsinin sirlərinə yiyələnmiş, mürəkkəb olduğu qədər şərəf gətirən neftçi peşəsinin sahibləri ilə yaxından tanış olmuş, insan xarakterlərini öyrənmişdi və bütün bunlar ona gələcəkdə uzun müddət rəhbər vəzifələrdə çalışmaq üçün həyat məktəbi olmuşdur.

O vaxtlar Abşeron Qazma İşləri İdarəsində 18 ədəd qazma qurğusu eyni vaxtda fəaliyyətdə idi. Quyuların qazmaya hazırlanması prosesindəki tikinti işlərinə, avadanlıqların vaxtında və saz halında işə salınmasına bir mütəxəssis kimi C.Axundov cavabdeh idi. Bu işlərin öhdəsindən o, müvəffəqiyyətlə gəlirdi. Bu həmin illər idi ki, qazma sahəsindəki istehsalat göstəriciləri gündən-günə yüksəlirdi. Onun işgüzarlığı, problemləri yerindəcə operativ şəkildə həll etməsi idarənin və İstehsalat Birliyi rəhbərliyinin gözündən yayınmırdı. Bütün bunlar cavabsız qalmadı. C.Axundov 1989-cu ildə «Azneft» İstehsalat Birliyi tərəfindən «Neft əlaçısı» döş nişanına layiq görüldü.

1988-ci ilin avqust ayında C.Axundova ilk məsul rəhbər vəzifə tapşırıldı – o, Kürsahili Kəşfiyyat Qazması İdarəsinə İstehsalat məsələləri üzrə rəis müavini təyin olundu. Özünün dediyinə görə, bu çox mürəkkəb və məsul tapşırıq idi. Ceyrançöl və İmişli sahələrində dərin kəşfiyyat quyularının tikintisi üzrə istehsalat məsələləri ilə yanaşı, sosial-məişət, təmir-tikinti, abadlaşdırma işləri ilə də məşğul olmaq lazım gəlirdi. C.Axundov ərazi üzrə yerləşən rayonun sosial məsələləri ilə məşğul olduğu üçün onu bir çağırış Qaradağ rayon sovetinə deputat da seçmişdilər. Bu vaxt Cahandarın hələ 30 yaşı tamam olmamışdı...

C.Axundov «Suraxanıneft» Neft və Qazçıxarma İdarəsində 1991-ci ildən işləyir. Məlum olduğu kimi, 1987–1991-ci illərdə əvvəlki «Orconikidzeneft» NQÇİ «Əzizbəyovneft» NQÇİ-nin tərkibində fəaliyyət göstərirdi. 1991-ci ildə idarələr yenidən sərbəst iki struktur bölməsinə ayrılanda «Azneft» İB-nin rəhbərliyi Cahandar Axundovu «Suraxanıneft» NQÇİ-də ümumi işlər üzrə rəis müavini vəzifəsinə layiq gördü. Həmin vaxtdan da C.Axundov özünü Suraxanı neftçisi sayır.

Respublikada neftçıxarmanın beşiyi sayılan Suraxanı rayonu əhalisinin həyatı bu kollektivlə bağlıdır. Ərazidə elə bir ailə tapa bilməzsən ki, onun heç olmazsa, bir üzvü nə vaxtsa bu kollektivdə işləməsin. Neftçi sülalələrinin sayı yüzlərlədir. Əhalinin su, qaz, elektrik enerjisi, yol, kommunikasiya xidmətləri, bir sözlə, həyatla bağlı bütün problemləri bu idarədə həll olunur. İdarənin rəhbərliyi Suraxanı Rayon İcra Hakimiyyətinin keçmiş və indiki rəhbərliyi ilə sıx əlaqədə çalışaraq son bir neçə ildə ərazinin tanınmaz dərəcədə abadlaşdırılmasına nail olub.

Hazırda NQÇİ-nin 374 binasında 15 min nəfər əhali yaşayır. Son on iki ildə 9 bina inşa edilərək istifadəyə verilib. Bir bina vəsait çatışmazlığı üzündən hələlik yarımçıqdır. İmkan olan kimi həmin binada inşaat işləri tamamlanacaq. 2004-cü ildə daha iki yaşayış binasını inşa etmək nəzərdə tutulub.

Son on ildə 200 nəfərə yaxın neftçi ailəsi mənzil şəraitini yaxşılaşdırıb. İdarənin balansında olan və 450 uşağın saxlandığı 6 körpələr evi–uşaq bağçasında əsaslı təmir işləri görülüb, onlar avadanlıqlaşdırılıb. Həmin uşaq müəssisələrinin hamısına Şəhidlərimi-

zin adı verilib. Advermə mərasimləri yüksək səviyyədə keçirilərək, vətənpərvərlik, torpağa məhəbbət hisslərinin gücləndirilməsinə xidmət edib.

İdarə aparatında, sexlərdə otaqların, sosial obyektlərin, mədəni budkaların təmiri də son zamanlar idarədə görülən işlərin həcmindən xəbər verir. İdarənin həyətində müasir, gözəl zövqlə salınmış park mənalı istirahət etməyə imkan verir. Yeni açılmış yeməkxana da neftçilərə töhfədir.

İdarənin Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayının saxlanması, avadanlıqlaşdırılması, təmir olunması da C.Axundovun vəzifə borclarına daxildir. Saray kollektivinin əldə etdiyi nailiyyətlər isə, öz növbəsində, bu qayğıya cavabdır. Burada fəaliyyət göstərən «Vətən» xalq çalğı alətləri ansamblının, qızlardan ibarət «Şənlik» rəqs qrupunun, «Çinar» studiyasının sorağı respublikanın hüdudlarını aşıb. Təkcə «Şənlik» ansamblı son iki ildə Kipr və Türkiyədə 4 dəfə səfərdə olub, daha iki festivalda iştirak etmək üçün dəvət alıb.

Cahandar Axundov «Suraxanıneft» NQÇİ-də işlədiyi müddətdə iki dəfə müvəqqəti olaraq kollektivdən ayrılıb. Birinci dəfə Suraxanı Rayon İcra Hakimiyyətinə, ikinci dəfə Bakı Şəhər İcra Hakimiyyətinə işə çağırılıb. Rayonun və şəhərin ictimai həyatında yaxından iştirak edib, əhalinin mənzil problemlərini həll edib. Yenidən doğma kollektivə, yoldaşlarının arasına qayıdıb.

Yeri gəlmişkən, bu illər ərzində C.Axundov biliyini, savadını və təhsilini artırmağı unutmayıb, istehsalatdan ayrılmadan, 1998-ci ildə Azərbaycan Neft Akademiyasını bitirib. İndi onun ali təhsil haqqında iki diplomu var.

... İnsan qəribə məxluqdur – biri haqqında danışarkən, nə üçünsə, onun nöqsanları, səhvləri yada düşür. O, ən obyektiv qiyməti, ömrünün hesabatı kimi, bu dünyadan köçəndən sonra alır. İnsana layiq olduğu qiyməti verməklə, xoş sözlər söyləməklə onu islah da etmək mümkündür. Bunu yalnız dostlar bacarar. Bu hərəkəti etməklə ulu yaradan qarşısında nə qədər savab qazanacağımızı düşünək... Cahandar müəllimə aid olan bu fikirlə razılaşmaq olar.

Cahandar müəllim təbiətcə optimist, həyat sevgisi ilə dolu, üzügülər, bir qədər də səs-küylü insandır, heç kimin qəlbini qırmaz, heç kəsdən köməyini əsirgəməz. Özünün etiraf etdiyi kimi, müqəddəs adam, peyğəmbər deyil. Səhvləri olanda, onlardan nəticə çıxarmağa çalışır. Deyir ki, həyat hər bir insana qarşı qayğıkeş olmaqla yanaşı, sərt bir mübarizə meydanıdır. O mübarizləri, güclüləri sevir, güclü olmağı isə hər adam bacarmır...

Axundovlar sülaləsində yeni nəsil yetişir. Bu gün onlardan biri, ali təhsilli Saməddin əmisi ilə bir kollektivdə çalışır, mühasibdir. Cahandar



Axundov və onun həyat yoldaşı, Binəqədi rayonundakı 248 saylı orta məktəbin müəlliməsi Sona xanımın ailəsində 3 övlad böyüyür: Ülviyyə, Nərmin və Orxan. Nərminin 14 yaşı olmasına baxmayaraq, 2002-ci ildə «Sevgi dünyası» adlı şerlər kitabı çap olunub. Vətən, torpaq, ailə, valideyn sevgisinə və gözəlliyə həsr olunmuş 150 şerdən ibarət ikinci kitabı çapa hazırlanır.

Cahandar müəllim öz taleyindən, həyatından, dost-tanışlarından, iş yoldaşlarından, ailəsindən, övladlarından razıdır. Hamıya da könül xoşluğu, xoşbəxt, firavan həyat arzulayır.



## XARİCİ SƏFƏRLƏRİN SƏMƏRƏSİ

Sultanov Paşa Teymur oğlu 1932-ci il yanvarın 12-də Salyan rayonunda anadan olmuşdur. O, 1950-ci ildə Salyan rayonunun 2 saylı orta məktəbini medalla, 1955-ci ildə Azərbaycan Sənaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini bitirmişdir. O, 1955-ci ildə 26 Bakı komissarı adına neftqazçıxarma idarəsində, ikinci mədəndə operator, neft-qazçıxarma üzrə usta köməkçisi, üçüncü mədəndə geoloq, beşinci və altıncı mədəndə böyük geoloq, neft-qazçıxarma idarəsində baş geoloq və 1974–1979-cu illərdə həmin idarənin rəisi, 1979–1987-ci illərdə «Suraxanıneft» neft-qazçıxarma idarəsinin «elmi tədqiqat istehsalat» sexinin rəisi, 1987-ci ildən birləşmiş «Suraxanıneft» və «Əzizbəyovneft» neft-qazçıxarma idarəsinin baş geoloqu vəzifələrində çalışmışdır. Haxırda o, H.Z.Tağıyev adına neft-qazçıxarma idarəsinin baş geoloqu işləyir.

P.T.Sultanov 1988-ci ildə Moskva şəhərindəki İ.M.Qubkin adına Neft Akademiyasının məzunu olmuş, keçmiş SSRİ-nin neft nazirliyinin «Neft əlaçısı» adına layiq görülmüşdür.

Paşa müəllimin həyat yoldaşı həkim, qızı mühəndis-müəllimə, oğlu mühəndis-tikinti sahəsində rəis vəzifəsində çalışırlar. Dörd nəvəsi vardır. O, bir neçə xarici ölkələrdə – Polşada (1968-ci ildə), Bolqarıstanda (1976-cı ildə), Amerikada – 2 dəfə (1997-ci ildə), İngiltərədə (1997-ci ildə) ezamiyyətdə olmuşdur.

P.T.Sultanov İngiltərə və ikinci dəfə Amerikada olarkən 13 ölkənin neft şirkətlərinin göndərdikləri nümayəndələrinə 2–3 saat vaxt ərzində Bibiheybət, Qala, Köhnə Qala və Buzovna–Maştağa neft-qaz yataqları haqqında məruzə etmiş, həmin yataqların cari və gələcək perspektivlərini onların nəzərinə çatdırmışdır.



Onun Hüyuston şəhərindəki «Şlümberje» idarəsində geofizika avadanlıqlarının istehsalatda tətbiqi xüsusi maraq doğurmuşdur.

Seysmik kəşfiyyatın nəticələri, karotaj dioqrammalı iri kağız parçalarında yox, kiçik kaset lentlərində saxlanılıb istifadə edilir.

Hazırda layların sulaşması 92% və çıxarıla biləcək neft ehtiyatı 17 milyon ton təşkil edir. Bu nefti çıxarmaq üçün 150–200 yeni quyu qazmaq, 50–60 quyunu ikinci lülə üsulu ilə qazılmasına başlamaq, 200-dən çox dayanan quyuların 50%-ni işə salmaq, maye çıxarmanı intensivləşdirmək, yeni texnikanın tətbiqini artırmaq, Buzovna və Köhnə Qala yatağında kompressor stansiyalarını canlandırmaq vacibdir.

Bunun üçün lazım olan yeraltı və yerüstü neft və qaz avadanlığına malik olmaq lazımdır. Bu halda qalıq neft ehtiyatını yüksək sürətlə çıxarmaq olar.



Fig.5. "AVO" time section along CDP profile. Attribute 1

## QAZMA QUYULARI VƏ ƏTRAF MÜHİT

Sadıqov Arif Məmmədtağı oğlu 7 mart 1938-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, orta təhsilini Bakıdakı 66 saylı məktəbdə almışdır. Sonra istehsalatdan ayrılmadan təhsilini davam etdirmiş, Az.NSETLİ-də laborant, texnik və mühəndis vəzifələrində çalışmışdır.

A.M.Sadıqov 1962–1964-cü illərdə əsgəri xidmətdə olmuşdur. Hərbi hissədən tərxis edildikdən sonra yenidən Az.NSETLİ-də mühəndis işləmişdir. 1965-ci ildə o, aspiranturaya daxil olmuş, 1969-cu ildə namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi almışdır.

A.M.Sadıqov Az.NSETLİ-də kiçik elmi işçi, böyük elmi işçi, 1979-cu ildə isə həmin institutda ətraf mühitin qorunması laboratoriyasının müdiri işləmiş, elə həmin il Almaniya Demokratik Respublikasında ezamiyyətdə olmuşdur.

A.M.Sadıqov 5 ixtiranın, 70-dən çox elmi məqalənin müəllifidir. O, SSRİ Ali Soveti Rəyasət Heyətinin 20 aprel 1986-cı il tarixli fərmanı ilə «Şərəf nişanı» ordeni ilə təltif olunmuş «Əmək veteranı» medalına, Az.NESETLİ-nin 50 illiyi münasibətilə fəxri fərmana layiq görülmüşdür. Onun elmi məqalələri doğma respublikamızın, həmçinin xarici ölkələrin mətbuat orqanlarında çap olunmuşdur. Arif müəllimin rəhbərliyi ilə bir sıra normativ-texniki layihələr işlənib hazırlanmış və tətbiq olunmuşdur.

A.M.Sadıqov bacarıqlı ekspert kimi Çıraq, Qarabağneft yataqlarında, Lənkəran Talış, Əşrəfi-Dan Ulduzu sahələrində qazılan quyuların ətraf mühitə təsirinə rəy vermişdir. O, 1997-ci ildə ekspertlər qrupunda ətraf mühitin qorunması üzrə Azərbaycan Milli Proqramının hazırlanmasında iştirak etmiş, sonrakı illərdə isə bir sıra normativ sənədlərin tətbiqi ilə məşğul olmuşdur.

A.M.Sadıqov hazırda ARDNŞ-də ətraf mühitin qorunması və əməyin təhlükəsizlik texnikası şöbəsində aparıcı mühəndis vəzifəsində çalışır.

## NEFTÇİ – ƏMƏK VETERANI

Qəhrəmanova Ədilə Mirzə qızı 1933-cü il avqust ayının 20-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, 1956-cı ildə dağ mühəndisi-geofizik ixtisası üzrə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə «Azərneftgeofizika» trestinin Mərkəzi Geofiziki İşlər İdarəsində başlamış, mühəndis, böyük mühəndis, karotaj dəstə rəisi, Baş geoloq vəzifələrində işləmişdir.

Ədilə Qəhrəmanova 1959-cu ildən həmin idarənin texniki-istehsalat şöbəsinin böyük mühəndisi işləməklə bərabər karotaj və perforasiya dəstələrinin işinə rəhbərlik etmişdir. 1965-ci ildən 1983-cü ilə kimi həmin idarədə nəzarət interpretasiya dəstəsində rəis vəzifəsində çalışmışdır.

1983-cü ildən isə «Azərneftmədəngeofizika» trestində Baş geoloq vəzifəsində fəaliyyət göstərir.

Ə.M.Qəhrəmanova karotaj-perfarator dəstələrinə rəhbərlik etmiş, istismar və kəşfiyyat quyularında aparılan mədən-geofiziki tədqiqat materiallarının keyfiyyətinin təyini, quyularda mədən-geofiziki materiallar kompleksinin yerinə yetirilməsi, yataqların işlənməsinə geofiziki nəzarətdə geofiziki materiallara rəy verilməsinə rəhbərlik etmiş və yeni texnikanın istehsalatda tətbiqi ilə məşğul olmuşdur.

Ədilə Qəhrəmanova Azərbaycan respublikasında qazılan neft quyularında mədən geofiziki materialları ilə yanaşı, Gürcüstan respublikasının Teleti, Ninosminda sahələrində kompleks tədqiqat, mədən-geofiziki materialların emalında da iştirak etmişdir.

Ədilə xanım Milli Geofizika Komitəsinin üzvüdür. Üç övlad anasıdır. Əmək veteranıdır.



## İŞ YOLDAŞLARININ HÖRMƏTİNİ QAZANMIŞDIR

Heydərova Xədicə İsmayıl qızı 1934-cü il dekabr ayının 28-də Bakı şəhərində anadan olmuşdur. O, 1958-ci ildə dağ mühəndis-geofizik ixtisası üzrə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə «Azərneftgeofizika» trestinin mərkəzi elmi-tədqiqat laboratoriyasında mühəndis vəzifəsi ilə başlamışdır. Sonra ÜİET-Geofizika İnstitutunun Azərbaycan bölməsində kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir.

1972-ci ildən 1993-cü ilədək «Azərneftgeofizika» trestində, 1993-cü ildən «Azərneftgeofizika» trestində geoloji şöbə rəisi, baş geoloqun müavini kimi məsul vəzifələrdə çalışmışdır.

Onun elmi-istehsalat fəaliyyəti Azərbaycanın bir çox regionlarında quyularda mədən-geofiziki tədqiqatlar kompleksinin yerinə yetirilməsi, yeni üsulların kəşfiyyat və axtarış sahələrində geniş tətbiqi ilə bağlıdır (qaz karotajı, geoloji-texnoloji tədqiqatlar, borulu, lay sınayıcıları induksion, akustik karotaj və s.).

X.İ.Heydərova Gürcüstanın Telcti, Ninosminda sahələrinin quyularında aparılan kompleks mədən-geofiziki tədqiqatların materiallarının emalında bilavasitə iştirak etmişdir.

Xədicə xanım Azərbaycanın quru sahələrində çöküntülərin QGT məmulatlarının interpretasiya üsullarının təkmilləşdirilməsi və qazma quyularında müxtəlif proqramların (Petcom), o cümlədən yataqların işlənməsinə geofiziki nəzarəti əhatə edən yeni tədqiqat üsullarının araşdırılması ilə məşğuldur. (Quyularda axın və udulma yerinin, zədə yerinin təyini, quyuların texniki vəziyyətinin təyini, İNNK üsulu ilə laylarda qalıq neftin təyini və s.)

Heydərova Xədicə İsmayıl qızı özünün işgüzarlığı və mehribanlığı ilə iş yoldaşlarının hörmətini qazanmışdır.

## SƏMƏRƏLİ TƏKLİFLƏR

İsmayıl Qədir oğlu Hüseynov 1956-cı il avqust ayının 27-də Şəmkir rayonunun Düyərli kəndində neftçi ailəsində anadan olmuşdur.

1973-cü ildə orta məktəbi bitirdikdən sonra «Dənizneftqaz layihə» Elmi-tədqiqat Layihə İstitutunda «Elektrik ölçüləri və meteorologiya» laboratoriyasında «laborant» kimi əmək fəaliyyətinə başlamışdır.

İ.Hüseynovun «neftçi» peşəsini seçməsinin əsas səbəbkarı atası Qədir Abdulla oğlu Hüseynov olmuşdur. Qədir kişi «Neft daşları»nın ilk təməl daşını qoyanlarından biri olmuşdur.

İ.Hüseynov 1974-cü ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun Neft-mexanika fakültəsinə daxil olmuş, hərbi xidmət borcunu verməklə, 1982-ci ildə həmin institutu mühəndis-mexanik ixtisası üzrə bitirmişdir.

1976-cı ildə hərbi xidmətdən qayıdandan sonra İ.Hüseynov «Dənizneftlayihə» ETLİ-də müxtəlif vəzifələrdə – mühəndis, böyük mühəndis, elmi işçi, böyük elmi işçi, laboratoriya müdiri vəzifələrində işləmişdir. İşləməklə bərabər o, 1982-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun nəzdində ikillik ingilis dili kursunu bitirmişdir.

1985-ci ildə İ.Hüseynov Leninqrad İnşaat Mühəndisləri İnstitutunun İnşaat Konstruksiyası ixtisası üzrə qiyabi aspiranturasına daxil olmuş və 1989-cu ildə isə təhsilini başa vurmuşdur.

İ.Hüseynov işlədiyi müddətdə institutun ictimai işlərində fəal iştirak etməklə yanaşı, bir çox beynəlxalq elmi konfranslarda və simpoziumlarda elmi-istehsalat məsələləri üzrə çıxışlar etmişdir.

İ.Hüseynov 1980-ci ildə «Urenqoy» qaz kəmərinin sualtı hissəsinin tikintisi zamanı sınaq işlərinin aparılmasında, 1981-ci ildə isə «Günəş-



li» yataqlarının ilk dərin dəniz stasionar özüllərinin tikintidən sonra nəqli, quraşdırılması və sınağı işlərində yaxından iştirak etmişdir.

İ.Hüseynovun savadı, işgüzarlığı, bacarığı nəzərə alınaraq «Azərneft» Neft və Qazçıxarma üzrə baş idarənin idarəetmə aparatının «neft və mədən qurğularının, boru kəmərlərinin istismarı, təmiri və korroziya ilə mübarizə üzrə istehsalat şöbəsi»nə rəis vəzifəsinə irəli çəkilmişdir.

O, hal-hazırda Azneft İB-nin baş mexanika şöbəsinin rəisi vəzifəsində çalışır.

İ.Hüseynovun rəhbərliyi altında İstehsalat Birliyinin NQÇİ-də ilk dəfə olaraq böyük həcmli qaz-kompressor stansiyalarının tikintidən sonra istismara buraxılması həyata keçirilmişdir.

1999-cu ildən İ.Hüseynovun rəhbərliyi altında oksigen hasil edən qurğu istismara buraxılmışdır ki, bu da ARDNŞ-nin müəssisələrini oksigenlə tam təmin etməyə imkan vermişdir. Onun rəhbərliyi altında İstehsalat Birliyində neft-mədən avadanlıqlarının və qazma qurğularının istismarı və əsaslı təmiri sahəsində xeyli səmərəli iş görülmüşdür.

İ.Hüseynov 10 səmərələşdirici təklifin, 20-dən çox elmi məqalənin, ixtiranın və monoqrafiyanın müəllifidir.

İki övlad atasıdır.



## YENİ QAYDA VƏ ŞƏRTLƏRİN HAZIRLANMASINDA İŞTİRAK ETMİŞDİR

Vaqif Əziz oğlu Zeynalov 1960-cı il dekabr ayının 1-də Kürdəmir rayonunun Axtaçı kəndində fəhlə ailəsində anadan olmuşdur.

V.Zeynalov 1978-ci ildə orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun Qaz Neft-Mədən fakültəsinin əyani şöbəsinə daxil olmuşdur. 1983-cü ildə neft və qaz quyularının qazılması ixtisası üzrə tam kursu bitirmişdir.

İnstitutu bitirdikdən sonra V.Zeynalov göndərişlə «Xəzər qazma neft-qaz sənaye» İstehsalat Birliyinin Bulla-Dəniz Kəşfiyyat Qazma İdarəsində qazmaçı köməkçisi kimi əmək fəaliyyətinə başlamışdır. O, 1984-cü ildən həmin idarədə böyük mühəndis, qazma ustası, buruq rəisi, «Mərkəzi-mühəndis texnoloji xidməti»n də rəis müavini vəzifələrində işləmişdir.

V.Zeynalov «Bulla» DKQİ-də qazma işləri apardığı «İqnatev daşı», «Bulla-dəniz», «8 Mart», «Ələt» yataqlarında onlarla dərin kəşfiyyat və istismar quyularının qazılmasında iştirak etmişdir.

V.Zeynalov işlədiyi dövrdə idarədə özünü təcrübəli mühəndis-texnoloq kimi göstərməklə yanaşı, qazma zamanı qarşıya çıxan mürəkkəb kəsilişli layların qazılması üçün vaxt normalarının hazırlanması üzrə konkret təklifləri ilə fərqlənmişdir. Bu sahədə normativ-tədqiqat stansiyasının əməkdaşlarına yaxından köməklik göstərmişdir.

Biliyini, bacarığını və işgüzarlığını nəzərə alan idarə rəhbərliyi onu 1990-cı ildən idarənin əməyin təşkili və əmək haqqı şöbəsinin rəisi vəzifəsinə təyin etmişdir.

Qısa müddət ərzində V.Zeynalov öz istehsalat təcrübəsindən istifadə etməklə qazma briqadalarının işində və ümumiyyətlə, əməyin təşkili sahəsində xeyli dəyişiklik etmiş, kollektiv arasında nüfuz qazanmışdır.



V.Zeynalov 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin «Azərneft» neft və qazçıxarma işləri üzrə baş idarənin idarəetmə aparatının Əməyin təşkili və əmək haqqı şöbəsinə rəis müavini vəzifəsinə irəli çəkilmişdir.

O, hal-hazırda Azneft İB-nin əmək haqqı şöbəsinin rəisi vəzifəsində işləyir.

V.Zeynalovun fəaliyyəti dövründə İstehsalat Birliyi üçün mühüm əhəmiyyət kəsb edən, «Quyuların yeraltı və əsaslı təmiri briqadalarının əməyinin ödənilməsinin yeni əsasnaməsi», «Ləğv olunmuş quyulardan istismar kəmərlərinin çıxarılması haqqında təlimatların», neft və qazçıxarmada, qazmada, nəqliyyatda say normativlərinin hazırlanması həyata keçirilmişdir.

V.Zeynalov Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə işçilərin əməyinin ödənilməsi sisteminin yeni qayda və şərtlərinin işlənib hazırlanmasında yaxından iştirak etmiş və Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin müəssisə və struktur vahidlərində onun tətbiqinə rəhbərlik etmişdir.

V.Zeynalov işlədiyi müddətdə savadlı və bacarıqlı mütəxəssis kimi yetişməsi ilə kifayətlənməyərək, təhsilini Azərbaycan Dövlət İqtisad Universitetində davam etdirir.

İki övlad atasıdır.

## QABAQCIL NEFTÇİ

Quruda Neft və Qazçıxarma İstehsalat Birliyində hamının çox böyük hörmətlə «Həsən müəllim», «Ağsaqqal», «Həsən Əliyeviç» deyə müraciət etdiyi nurani bir insan işləyir. Hər dəfə bu qocaman neftçi ilə həmsöhbət olduqda, Azərbaycan neft sənayesinin korifeyləri ilə bağlı duzlu-məzəli, maraqlı xatirələrini dinlədikdə onun dərin biliyinə, möhkəm yaddaşına heyran qalmaya bilmirsən.

Həsən Əlihüseyn oğlu Məmmədov 1929-cu ildə anadan olmuş və uşaqlıq dövrü müharibə və aclıq dövrünə təsadüf etmişdir. 1942-ci ildə atasının vəfatından sonra ana və beş uşaqdan ibarət ailə, xüsusilə ağır vəziyyətə düşmüş və Salyan şəhərindən Xıllı rayonuna köçmüşdür. Burada onlar əmi himayəsində yaşamalı olmuşlar. Xıllıda keçirdiyi uşaqlıq dövrü gənc Həsənin dünya görüşünün formalaşmasında müstəsna rol oynamışdır. Qeyd edək ki, bu dövrdə Xıllı rayonunda geniş neft-kəşfiyyat qazma işləri aparılırdı. Neftçilərin gərgin əməyini saatlarla seyr etməkdən usanmayan Həsən orta məktəbi bitirdikdən sonra 1945-ci ildə Azərbaycan Neft Sənayesi İnstitutuna qəbul oldu. İnstitutu müvəffəqiyyətlə bitirən gənc neftçi 1951-ci ildə elmi şuranın məsləhəti ilə imtahan verərək aspiranturaya daxil olmuşdur. Lakin o dövrdə institut Neft Nazirliyinin tərkibində olduğundan o, 6 aydan sonra istehsalat zərurəti ilə əlaqədar «Azərneft» Birliyinin sərəncamına göndərilmişdi. Həsən Məmmədov əmək fəaliyyətinə «Buzovnaneft» mədənlərində operator, usta köməkçisi, neftçıxarma ustası, quyuların tədqiqatı üzrə mühəndis, geoloq və baş geoloq işləmişdir. Lakin Həsən müəllim sırf istehsalat qayğıları ilə yaşamamış, daim elmi axtarışlarda olmuşdur. O, neft quyularının öyrənilməsi, neft veriminin artırılması, fontan üsulundan kompressor üsuluna keçilməsi, quyuların dərinlik nasosları ilə istismar edilməsi və s. problemlərlə əlaqədar tədqiqatlar aparmışdır. «Buzovnaneft» Neftçıxarma idarəsində elmi-tədqiqat və təcrübə işləri sexinə rəis müavini–Baş geoloq vəzifəsinə təyin edilən H.Məmmədov 1958-ci ildə istehsalatdan ayrılmamaqla Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. Bu dövrdə Həsən müəllim 27-yə qədər elmi məqalə və 2 qiymətli monoqrafiya çap etdirmişdir. Həmin elmi əsərlər neft laylarının və istismar quyularının tədqiqi, neft quyularında tıxacların əmələ gəlməsi səbəbləri, sıxılmış hava ilə işləyən quyularda verilən havanın rasional miqdarı, lay təzyiqi düşmüş quyularda quyulararası rasional məsafənin seçilməsi qaydası, istismarda olan neft layları horizontlarının birləşdirilməsinin rasionallığı və s. bu kimi çox aktual və problem məsələlərin şərhinə və təhlilinə həsr edilmişdir. Onun 1960-cı ildə işıq üzü görmüş «Buzovna–Maştağa yatağında Kirmaki lay dəstəsinin işlənməsi» və 1963-cü ildə elmi ictimaiyyətin müzakirəsinə təqdim edilmiş, bu gün də öz aktuallığını itirməyən «Zəif sementlənmiş neft laylarının həll edilmiş qaz rejimində işlənməsi məsələləri» kitablarında neft hasilatının vacib məsələləri tədqiq edilmişdir. 1961-ci ildə isə Həsən Məmmədov Azərbaycan Neft Sənayesi İnstitutunun yeni təşkil edilmiş akademiklərindən, müxbir üzvlərindən ibarət elmi şurasında müvəffəqiyyətlə dissertasiya müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsi almışdır. Həsən Məmmədovun elmi fəaliyyətində onun əsas məsləhətçisi akademik Azad Mirzəcanzadə olmuşdur. Həmin ilin oktyabr ayında Həsən müəllim Azərbaycan Respublikası «Dövlət sənayedə işlərin təhlükəsiz aparılması və dağ-mədən işlərinə nəzarət» komitəsinə birinci müavin vəzifəsinə təyin edilmişdir. O, bu vəzifədə 32 il çalışmış, sənayedə təhlükəsizliyin təmin edilməsi sahəsində çox böyük bacarıq və qabiliyyət nümayiş etdirmişdir. Qeyd etmək yerinə düşərdi ki, bu dövrdə neft yataqlarının işlənməsinə, istismarına və qazma işlərinə dövlət nəzarətinin gücləndirilməsi ilə əlaqədar ölümlə nəticələnən bədbəxt hadisə və qəzaların, eləcə də istehsalat zədələrinin sayı 10 dəfədən çox azalmışdır. Onun rəhbərliyi altında işləyib hazırladığı metodik göstərişlər əsasında sənayenin bütün sahələri üçün təhlükəsizlik texnikası qaydaları və təlimatlarına yenidən baxılmış və hal-hazırda da istehsalatda, xüsusilə neft sənayesində geniş istifadə olunur. Səngəçal–Bulla–dəniz, Bahar, Kürsəngi, Abşeron, Günəşli yataqlarında, açıq dənizdə üzən qurğulardan neft laylarına qazılmış kəşfiyyat xarakterli bir çox quyuların vaxtından əvvəl ləğv edilməsi təhlükəsi yaranan zaman Həsən müəllim məsələyə fəal müdaxilə etmiş, yer təkinin qorunması tədbirləri görülməsini, neftli layların məcburi yoxlanmasını tələb etmiş və nəticədə bu yataqların açılmasında mühüm rol oynamışdır. Bu illərdə Qurban Abbasov, Bəxtiyar Məmmədov, Bəhmən Hacıyev, Xoşbəxt Yusifzadə kimi məşhur neftçilərlə çiyin-çiyinə işləyən H.Məmmədov onlardan çox şey görüb-götürmüşdü. 1991-ci ildə o,

Azərbaycan neft sənayesinin inkişafında göstərdiyi xüsusi xidmətlərinə görə respublikanın əməkdar mühəndisi fəxri adına layiq görülmüşdür.

Öz təşəbbüsü ilə 2000-ci ilə qədər Dövlətdağtexnikinəzarət komitəsinin inkişaf konsepsiyasını hazırlayan Həsən Məmmədov onu 1992-ci ildə hökumətə təqdim etmişdi.

Həsən Məmmədov 1993-cü ilin fevralında yenidən özünə doğma hesab etdiyi Dövlət Neft Şirkətinə qayıdaraq Neft-qazçıxarma baş idarəsinin «Əməyin mühafizəsi və təhlükəsizlik texnikası» şöbəsinə rəis təyin olundu.

Quruda Neft və Qazçıxarma İB-nin Baş mühəndisinin əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə müavini işlədiy dövrdə Həsən müəllim yeni metodik göstərişlərin hazırlanması, idarə və müəssisə rəhbərlərinin şəxsi məsuliyyət hissinin gücləndirilməsi, yerlərdə aparılan kompleks və operativ yoxlamaların səviyyəsinin yüksəldilməsi və kollektivlərdə müzakirəsi, baş mühəndislərin hesabatlarının keyfiyyətinin artırılması kimi mühüm məsələlərlə yaxından məşğul olur. Onun ilk növbədə özünə və sonra başqalarına qarşı tələbkarlığı, idarə və müəssisə rəhbərlərindən öz vəzifə borclarının dəqiq yerinə yetirilməsini ciddi tələb etməsi sayəsində son illərdə Quruda NQÇ İstehsalat Birliyində ölümlə nəticələnən bədbəxt hadisələrin sayı 3 dəfə azalmış, heç bir kateqoriyalı qəza baş verməmişdir. İndi o təqaüddədir.

Həsən müəllimin elmi fəaliyyəti təkcə tədqiqat işləri ilə məhdudlaşmamışdır. 1961-ci ildən bu günə kimi o, Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun elmi şurasının üzvüdür. İnstitutda tədqiqat işlərinin yaxşılaşdırılması və elmi şuranın səmərəli işləməsinə onun böyük köməyi olmuşdur.

İstehsalatda əvəzsiz xidmətləri ilə yanaşı, Həsən müəllim eyni zamanda pedoqoji fəaliyyətlə də məşğul olmuş, 1969–1982-ci illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun «Əməyin mühafizəsi» kafedrasında çalışmış, «Neft-mədən», «Mexanika», «Geoloji-kəşfiyyat» və digər fakültələrin axşam şöbələrində mühazirələr oxumuşdur. Onun, vaxtilə dərs dediyi tələbələr indi neft-qazçıxarma idarələrində rəis, baş mühəndis və s. vəzifələrdə işləyir, ağsaqqal mühəndis və əvəzsiz müəllimləri ilə hər görüşdə ona öz böyük minnətdarlıqlarını bildirməyi özlərinə borc bilirlər. Bu gün də əvvəlki kimi gənclik eşqi, həvəsi ilə çalışan və işləyən Həsən müəllimə yüksək ixtisaslı və dəyərli mütəxəssis kimi tez-tez müraciət edirlər. İstehsalat Birliyində müxtəlif təlimatların hazırlanmasında onun irad və təklifləri hər zaman nəzərə alınır.



## İŞGÜZARLIQ NÜMUNƏSİ

Qaracəmirli Çingiz Yunis oğlu 1934-cü il fevral ayının 7-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi 1950-ci ildə bitirmiş və həmin ildə Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuşdur. 1955-ci ildə institutu bitirərək «qaz yataqlarının istismarı üzrə dağ mühəndisi» ixtisası almışdır.

O, institutu bitirdikdən sonra təyinatla indiki Suraxanıneft NQÇİ-yə göndərilmişdir. 1955-ci ildən 1968-ci ilə qədər həmin idarənin bir sıra mədənlərində neftçıxarma ustasının köməkçisi, yerüstü avadanlıq ustası, neftçıxarma üzrə sahə rəisi, mədən müdirinin müavini – böyük mühəndis, mədən müdiri vəzifələrində işləmişdir.

Ç.Y.Qaracəmirli 1968-ci ildən 1976-cı ilə qədər Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunun laylara istilik ilə təsiretmə laboratoriyasında əvvəl böyük mühəndis, sonralar böyük elmi işçi vəzifələrində çalışmışdır. İnstitutda işləyərkən 5 elmi məqalə çap etdirmiş, iki səmərələşdirici təklif vermişdir. O, 1976-cı ildən Azərneft istehsalat birliyinin neft və qaz hasilatı şöbəsində əvvəl böyük mühəndis, 1979-cu ildən isə neftin hazırlanması və nəqli üzrə şöbə rəisinin müavini vəzifəsinə təyin edilmişdir.

1985–1992-ci illərdə həmin istehsalat birliyində mərkəzi mühəndis-texnoloji xidmətində MMTX rəisi, 1992–1994-ci illərdə neft və qazçıxarma üzrə baş idarədə MMTX rəisinin müavini, 1994-cü ildən Quruda NQÇİB-nin MMTX-də rəis vəzifəsində işləmiş, indi isə MMTX rəisinin müavini vəzifəsində çalışır. O, çalışdığı sahədə işgüzarlıq nümunəsi göstərir.

Ç.Y.Qaracəmirli iki ixtiranın müəllifidir, «SSRİ ixtiraçısı» döş nişanı ilə təltif edilmişdir. Dəfələrlə idarə rəhbərliyinin və həmkarlar ko-

mitəsinin fəxri fərmanları ilə təltif edilmişdir. 1991-ci ildə ona Azərbaycan respublikasının Əməkdar mühəndisi fəxri adı verilmişdir.

Çingiz müəllim 2 övlad atasıdır, 3 nəvəsi vardır. Həyat yoldaşı Kubra xanım 1959-cu ildə Azərbaycan Sənaye İnstitutunu bitirmiş və həmin ildən bugünə qədər Suraxanı NQÇİ-nin neftin kompleks hazırlanması və nəqli sahəsində mühəndis vəzifəsində işləyir.





## ŞƏRƏFLİ HƏYAT YOLU

Tağıyev Rüstəm Hüseyn oğlu 25 avqust 1932-ci ildə Aşqabad şəhərində anadan olmuşdur.

O, 1949-cu ildə orta məktəbi bitirdikdən sonra, Azərbaycan Sənaye İnstitutunun Neft–Mədən fakültəsinə daxil olmuş və 1954-cü ildə həmin fakültəni müvəffəqiyyətlə bitirərək dağ mühəndisi ixtisası qazanmışdır. Əmək fəaliyyətinə 1954-cü ildə, indiki Bibiheybət NQÇİ-də neftçıxarma ustası vəzifəsindən başlamışdır. Usta işlədiyi dövrdə yeni texnika və texnologiyanın tətbiq edilməsinə xüsusi fikir vermiş və bunun sahəsində neft hasilatının artırılmasına nail olmuşdur.

Rüstəm Tağıyevin işə məsuliyyətli yanaşması və bilikli mühəndis olması idarə rəhbərliyi tərəfindən nəzərə alınmış, onu 6-cı mədənə böyük mühəndis–mədən müdirinin müavini vəzifəsinə təyin etmişlər. Bu vəzifədə çalışdığı dövr (9 il) ərzində neft quyularının düzgün texnoloji rejimdə işləməsini təmin etmiş, geoloji-texniki tədbirlərin sayının və effektliyinin artırılmasına xüsusi fikir vermişdir.

Elmə və yeni texnika-texnologiyanın tətbiqinə böyük həvəsini nəzərə alan idarə müdiriyyəti onu 1966-cı ildə elmi-tədqiqat istehsalat işləri sexinə əvvəl rəis müavini, sonra isə rəis vəzifəsinə təyin etmişdir.

R.H.Tağıyev 1977-ci ildən 1993-cü ilə qədər, NQÇİ-də böyük mühəndis-mexanik, Dənizneftqazlayihə institutunda böyük mühəndis, Azərbaycan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində neft və kimya pavilyonunun direktoru, sərgi bağlandıqdan sonra, Normativ Tədqiqat Stansiyasında 1-ci dərəcəli mühəndis və həmin stansiyada elmi-texniki nailiyyətlərin tətbiqi şöbəsinin rəisi olmuşdur.

O, 1993-cü ildən «Azərneft» neft və qazçıxarma üzrə baş idarənin qazın çıxarılması, nəqli, emalı və kompressor təsərrüfatı üzrə istehsalat şöbəsinin 1-ci dərəcəli mühəndisi vəzifəsində, 1994-cü ilin fevral ayın-

dan Azərbaycan Dövlət Neft Şirkətinin Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin Mərkəzi Mühəndis-Texnoloji Xidmətində növbə rəisi vəzifəsində çalışmış, indi isə Azneft İB-nin Neft və Qazın Hasilatı və Nəqli Üzrə İstehsalat şöbəsində mühəndis vəzifəsində işləyir.

Rüstəm müəllim 30-a qədər səmərələşdirici təklifin müəllifidir. 1974-cü ildə Moskva şəhərində XTNS-nin iştirakçısı olmuş və diplom ilə mükafatlandırılmışdır.

O, 1955–57-ci illərdə Bakı Şəhər Sovetinə deputat seçilmişdir.

Rüstəm müəllim neft sənayesində işlədiyi bütün müddət ərzində özünü təcrübəli, yüksəkixtisaslı bir mühəndis kimi göstərmiş, neft və qaz hasilatı tapşırıqlarının yerinə yetirilməsi üçün bilik və bacarığını səfərbər etmiş, özünün əməyi sayəsində kollektivin hörmətini qazanmışdır.





## FƏALLIQ GÖSTƏRİR

Binyətov Cahangir Murtuza oğlu 1958-ci il sentyabr ayının 26-da Siyəzən rayonunun Böyük Həmyə kəndində anadan olmuşdur. O, 1975-ci ildə Siyəzən orta məktəbini, 1980-ci ildə isə Azərbaycan Neft Akademiyasının Neft-Mədən fakültəsini «Neft və qaz quyularının qazılması» ixtisası üzrə tam kursu bitirmişdir. Sonra o, təyinatla Bulladəniz kəşfiyyat qazma işləri idarəsində əvvəlcə, qazmaçı köməkçisi, sonra böyük mühəndis-texnoloq işləmişdir.

C.M.Binyətov 1984-cü ilin noyabr ayında köçürmə yolu ilə Siyəzən Qazma İşləri İdarəsinə işə gəlmiş, əvvəlcə, Vışkaquraşdırma sexində böyük mühəndis, sonra isə Vışkaquraşdırma sexinin rəisi vəzifəsində çalışmışdır.

C.M.Binyətov 1997-ci ilin aprel ayından Siyəzən Qazma İşləri İdarəsinin rəisi işləyir.

Cahangir müəllim Yeni Azərbaycan Partiyasının üzvüdür. O, doğma vəzifəsində və ictimai işlərdə fəallıq göstərir, iş yoldaşlarına qarşı həssas münasibət bəsləyir. Xoşbəxt ailə başçısıdır. Dörd övladı vardır. O, öz övladlarında yüksək vətənpərvərlik, doğma yurda, doğma Azərbaycana sevgi hissi tərbiyə edir. Ailədə və işdə səmimi və mehribandır.

## DƏRİN QAZMA EKSPEDİSİYASI

Qalmaz dərin qazma ekspedisiyasının rəisi Muradov Eldar Bayram oğlu 1949-cu il may ayının 10-da Qax rayonunda müəllim ailəsində dünyaya göz açmışdır.

1956-cı ildə o, «Oktyabr inqilabı» adına Bakı Neft Texnikumunun «Neft və Qaz Yataqlarının Qazılması» fakültəsinə daxil olmuşdur.

1956-cı ildə Ə.B.Muradov texnikumu bitirdikdən sonra təyinatla «Azərneftkəşfiyyat» Trestinin 5 nömrəli qazma kontorunda 3-cü dərəcəli qazma köməkçisi kimi əmək fəaliyyətinə başlamışdır.

1969-cu ilin may ayının 7-dən həmin ilin noyabr ayının 15-nə qədər hərbi xidmətdə olmuşdur. Hərbi xidməti qurtardıqdan sonra Ə.B.Muradov «Azərneftkəşfiyyat» trestinin 1 saylı qazma idarəsində 4-cü və 5-ci dərəcəli qazma köməkçisi işləmiş, dekabr ayının 1-dən isə qazmaçı peşəsində çalışmışdır.

Ə.B.Muradov 1972-ci il noyabr ayının 12-dən Carlı Kəşfiyyat Qazma İşləri İdarəsində qazmaçı, növbə ustası, böyük usta, 1974-cü ilin fevral ayının 1-dən rayon və mərkəzi mühəndis texnoloji xidmət sahəsində növbə rəisi, 1978-ci ilin fevral ayından isə bu xidmətin rəisi vəzifəsində çalışmışdır.

Ə.B.Muradov 1978-ci ildən Azərbaycan Dövlət Universitetinin «Geologiya» fakültəsində əyani təhsil almaqla yanaşı, yuxarıda göstərilən idarənin geoloji şöbəsində geoloq vəzifəsində fəaliyyət göstərmişdir.

Sonrakı illərdə Eldar Bayram oğlu Muradov Carlı Kəşfiyyat Qazma işləri İdarəsində baş mexanik, sənayedə və dağ-mədən işlərində təhlükəsizlik texnikasının nəzarət komitəsində neft sənayesi üzrə müfəttiş vəzifəsində çalışmışdır.



1988-ci ilin noyabr ayının 3-dən Ə.B.Muradov Quruda geoloji-kəşfiyyat qazma idarəsində Baş mühəndis, 1991-ci ilin son ayından həmin idarənin bazasında yaradılmış «POİSK» kiçik müəssisəsində baş mühəndis, 1993-cü ilin mart ayından Qalmaz dərin qazma ekspedisiyasının rəisi vəzifəsində çalışır.

Eldar müəllim çalışdığı vəzifənin məsuliyyətini dərindən hiss edir. O, çalışqanlığı ilə kollektivin hörmətini qazanmışdır.



## NEFTÇİ KADRLARIN İSTEDADLI TƏŞKİLATÇISI

İsmayılov Əsəd İsmayıl oğlu 1960-cı il iyulun 16-da Azərbaycanın ən qədim guşələrindən biri olan Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Üstüpü kəndində qulluqçu ailəsində anadan olmuşdur.

1967-ci ildə Üstüpü kənd orta məktəbinə daxil olmuş və 1977-ci ildə orta təhsilini başa vuraraq, Ordubad rayon Aqrar-Sənaye Birliyində fəhlə kimi əmək fəaliyyətinə başlamışdır.

1978–1980-ci illərdə ordu sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra yenidən boya-başa çatdığı Ordubada qayıtmış və Nəriman Nərimanov adına sovxozda fəhlə işləmişdir.

1981–1986-cı illərdə M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu (indiki Slavyan Universiteti), 1993-1998-ci illərdə isə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu fərqlənmə diplomları ilə bitirmişdir. O, öz ana dilindən başqa rus və ingilis dillərini sərbəst bilir. Evlidir, 3 övlad atasıdır.

2002-ci il yanvar ayının 2-dən Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi Kadrlar Şöbəsinin rəisi olmuş, 2003-cü ildən isə «Azneft» İB-nin həmin şöbəsində rəis müavini vəzifəsində çalışır.

Ə.İ.İsmayılov 1986-cı ildə M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirdikdən sonra təyinatını o zamanlar respublikamızın ən böyük kənd rayonlarından biri olan Ağdam rayonuna almış və orada bir sıra orta ixtisas məktəblərində müəllim kimi fəaliyyət göstərmişdir. Ə.İ.İsmayılov pedaqoji fəaliyyətə başladığı ilk gündən ixtisasını yaxşı bilən, ətrafdakılarla səmimi münasibət qurmağı bacaran bir insan kimi hamının rəğbətini qazanmışdır.

Ə.İsmayılov 1987-ci ildə Ağdam Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumuna baş müəllim vəzifəsinə irəli çəkilmişdir.



1991-ci ildə Ə.İ.İsmayılov yenidən Bakı şəhərinə qayıdaraq, burada Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasında aparıcı mütəxəssis, sədr köməkçisi, təşkilat idarəsinin rəisi vəzifələrində işləməklə yanaşı, 1991–1996-cı illərdə saat hesabı ilə, 1996–1999-cu illərdə isə tam ştatla Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda baş müəllim və metodist-müəllim kimi çalışmışdır.

Ə.İ.İsmayılov 2000-ci ildən Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin tərkibinə daxil olan Xəzər Fəhlə Təchizatı Ticarət İstehsalat Müəssisəsinin kadrlar şöbəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

2002-ci ildə Ə.İ.İsmayılov daha məsul bir vəzifəyə – Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin Kadrlar Şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmişdir.

Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi kimi strateji dövlət əhəmiyyətli bir müəssisədə bütün idarəetmə və istehsalat sahələrinin ixtisaslı kadrlarla təmin olunması, onların peşə hazırlıqlarının daha da artırılması, gənc kadrlara həmişə diqqət və qayğı ilə yanaşılması, yerlərdə əmək və icra intizamının möhkəmləndirilməsi istiqamətində aparılan işlərdə Əsəd müəllimin xidmətləri böyükdür.

Əsəd müəllim eyni zamanda kadrlar xidməti işinin düzgün təşkil edilməsi, Azərbaycan Respublikası ali qanunverici və icraedici orqanlarının, ARDNŞ-in, fərman və sərəncamlarından irəli gələn tələblərin yerinə yetirilməsi, kadrların nəzəri və peşə hazırlıqlarının daha da artırılması üçün daim diqqət və qayğı göstərir.

Ərizə və şikayətlərə «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxılması və digər məsələlər Əsəd müəllimin həmişə diqqət mərkəzində olmuşdur. ARDNŞ və İstehsalat Birliyi rəhbərliyindən verilən hər bir tapşırığın vaxtında dəqiq və operativ yerinə yetirilməsi, özünə və tabeliyində olan adamlara qarşı tələbkarlığı, səmimiyyəti, yüksək mədəniyyəti və peşəkarlığı onun ən ümdə xüsusiyyətlərindən biridir.

20 sentyabr 1994-cü ildə «Əsrin Müqaviləsi» adını almış neft müqavilələrinin imzalanması ilə əlaqədar xarici şirkətlərlə bağlanmış 20-dən artıq kontraktın uğurla həyata keçirilməsində yüksək ixtisaslı kadrlar böyük rol oynayırlar. Xarici şirkətlərin ciddi tələblərinə cavab verə biləcək kadrların hazırlanmasına DNQÇ İB-nin kadr xidməti xüsusi diqqət yetirir.

Hal-hazırda «Amoko», «Penzoyl», «Şell», «MakDermat» və digər nüfuzlu xarici neft şirkətlərində ARDNŞ-də çalışan yüzlərlə mühəndis, qazmaçı və digər neftçi-mütəxəssis müvəffəqiyyətlə çalışır,

respublikamızda dünya standartlarına uyğun texnika və texnologiyanın istehsalatda uğurla tətbiqini yüksək səviyyədə təşkil edirlər.

Əsəd müəllim də Azərbaycan Dövlət Neft Şirkəti sistemində öz sözü, öz yeri olan nüfuzlu rəhbər imici qazanmışdır.





## KOLLEKTİV ONU SEVİR VƏ HÖRMƏT EDİR

Zeynalova Fəridə Abbasqulu qızı 1935-ci il fevral ayının 3-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, Bakı şəhərindəki 132 saylı orta məktəbi bitirdikdən sonra 1953-cü ildə Azərbaycan Sənaye İnstitutuna (indiki Neft Akademiyasına) daxil olmuş, 1958-ci ildə bu təhsil ocağının Neft-Mədən fakültəsini «Neft və qaz quyularının qazılması» ixtisası üzrə bitirmişdir.

Əmək fəaliyyətinə 1958-ci ildən M.Əzizbəyov adına NMİ-də operatorluqdan başlamışdır. Sonra həmin NMİ-nin qazma kontorunun Zirə sahəsində mühəndis vəzifəsində çalışmışdır.

F.A. Zeynalova 1959-cu ildə Əzizbəyov rayon Sovetinə deputat seçilmişdir.

1961-ci ildən 1968-ci ilə kimi yeni yaranmış Qazma üzrə Elmi-Tədqiqat İnstitutunda böyük mühəndis vəzifəsində işləyərək, layların mənimsənilməsində «Laysınayanlar»ın tətbiqində fəal iştirak etmişdir.

1968–1974-cü illərdə «Dəniz neftqazlayihə» ETLİ-da böyük mühəndis vəzifəsində işləyərək İstehsalat Birliyinin NQÇ idarələrində tikilən əsaslı tikinti obyektlərinin avadanlıq və materiallarla komplektləşdirilməsi və təchizatı ilə məşğul olmuşdur.

F.A.Zeynalova 1974-cü ildən Xəzər dənizinin çirklənməsinin qarşısını almaq məqsədilə «Xəzərdəniz neftqazçıxarma» İB-də yaranmış şöbədə böyük mühəndis vəzifəsində çalışmışdır. Bu şöbədə «suyu qoruma» obyektlərinin tikintisinə, avadanlıq və materiallarla təchizatına da nəzarət etmişdir.

F.A.Zeynalova 1982-ci ildən «Azneft» İB-də maddi-texniki təchizat şöbəsində mühəndis işləyərək, material ehtiyatlarının normalarının hesablanması və onların sərfinə nəzarət edilməsi ilə, idarə və müəssisələrin tələbatına uyğun olaraq illik sifarişlərinin tərtib edilməsilə,

alınmış avadanlıq və materiallarla tikinti obyektlərini komplektləşdirməklə məşğul olur.

F.A Zeynalovanı işlədiyi kollektiv sevir və ona hörmət edir. İşdəki nailiyyətlər və ictimai işlərdə fəal iştirakına görə bir neçə fəxri fərmanla təltif olmuşdur. Azərbaycan Respublikasının «Əmək veteranı»dır. «Neftçi qadınlar» cəmiyyətinin fəal üzvüdür.

F.A.Zeynalova Respublikanın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Dəniz neft sənayesinin 50 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin «Fəxri Fərmanı» ilə təltif olunmuşdur.

Fəridə xanımın iki övladı və dörd nəvəsi var. Böyük qızı Qasımova Natəvan Xalq Təsərrüfat institutunun Əmtəəşünastlıq fakültəsini bitirmişdir. Kiçik qızı Məmmədova Mehriban DETLİ-də mühəndis-texnoloq vəzifəsində çalışır. F.A.Zeynalovanın həyat yoldaşı Zeynalov Rauf 52 il Bakı Elektromaş zavodunda çalışıb, hal hazırda təqauddədir.





## НАЧАЛЬНИК КАРСКОЙ НЕФТЕРАЗВЕДКИ



Ямальский полуостров – в основном территория из льда, перемежаемая минеральными грунтами с крайне плохими строительными свойствами, полностью расположенная за Полярным кругом, омываемая студеными водами Карского моря Северного Ледовитого океана.

Здесь, в поселке Харасавэй, расположена самая крупная в Сибири Карская нефтегазоразведочная экспедиция Производственного объединения «Ямалнефтегазгеология». Возглавлял эту экспедицию наш азербайджанец Вагиф Иззат оглу Алиев, выпускник нефтепромыслового факультета Азербайджанского института нефти и химии им. М. Азизбекова. После окончания института он три года работал в управлении буровых работ НГДУ «Киргизнефть» помощником бурильщика, буровым мастером, старшим инженером технологического отдела управления.

В Западной Сибири уже были выявлены запасы газа на Харасавэйском, Бованенском и Крузенштерновском месторождениях, когда Вагиф Алиев по приглашению начальника «Главтюменнефтегазгеологии» Фармана Салманова в 1975 году приехал на полуостров Ямал. Начал работать помощником бурильщика, затем бурильщиком, помощником бурового мастера, старшим инженером-технологом районной инженерно-технологической службы, начальником смены этой службы.

За три года Вагиф достиг должности главного инженера, заместителя начальника Гыданской нефтеразведочной экспедиции.

В 1984-1985 годах Вагиф, работая главным инженером Тамбейской нефтеразведочной экспедиции, был командирован в Афганистан, где до 1987 года проработал главным инженером конто-

ры бурения, после чего снова вернулся на Ямал и возглавил Карскую нефтегазоразведочную экспедицию ПО «Ямалнефтегазгеология». Под его руководством стволы разведочных скважин прокладывались 24 буровыми станками типа БУ-3000, Уралмашзавод-ЗД и 4Э при средней их глубине 3500 метров.

Газ Ямала оказался трудным «орешком». Суровые климатические условия, когда зимой мороз достигал 58 градусов, холодные колючие ветра, дующие с океана, накладывали свой отпечаток на ритм жизни. Были трудности в бурении скважин в условиях вечной мерзлоты, достигающей глубины 1100-1200 м, аномально-высокие пластовые давления, превышающие почти в два раза гидростатическое. Все это требовало применения особой технологии при проводке скважин до проектных глубин. Работа велась круглогодично, по методу циклового строительства, включающего этапы монтажа бурового станка, бурения скважин, пуска их в эксплуатацию и демонтажа. Так достигалась ежегодная проходка в объеме до 115 тысяч метров. Несмотря на трудности, экспедиция из года в год перевыполняла плановые задания и считалась в ПО «Ямалнефтегазгеология» одной из передовых. При численности работающих 5000 человек экспедиция имела вспомогательные службы – автотранспортное хозяйство, тампонажную службу, два управления по рабочему снабжению. Работа была организована вахтовым методом. Обслуживающий персонал из Тюмени самолетами доставлялся на Ямальский полуостров и обратно. Всем этим сложным хозяйством руководил Вагиф Алиев и, надо сказать, весьма успешно. Об этом свидетельствует множество почетных грамот, полученных Вагифом Алиевым.

Пожалуй, самым трудным была доставка грузов – оборудования, спецтехники, запасных частей к механизмам, продуктов питания на базу экспедиции в поселок Харасавэй. Со временем этот поселок стал местом более знаменательным для моряков-полярников, чем для добытчиков природного газа. Железной дороги на Ямал тогда не было, а воздухом все не перевезешь (до недавнего времени сюда летали лишь «АН-2»). Был единственный выход – использовать морской флот.

Здесь тоже были ограничения. Ведь навигация на Карском море была слишком короткая, нередко длившаяся 75 суток в году. К тому же из-за мелководья у Ямала суда не могли подходить к самому берегу и вынуждены были вставать в десяти километрах от полуострова, где грузы перегружались на баржи, затем доставлялись на берег. Эта операция была долгой, очень сложной и дорогостоящей. При северных ветрах приходилось прекращать перевалку грузов на баржи, а при южных ветрах обнажались бары (отмели в устьях рек Надым и Пура). И тогда на помощь специалистам газовой промышленности пришли моряки-полярники. С помощью атомоходов «Арктика» и «Сибирь» суда с грузом по Северному морскому пути проводились к Ямалу. Вместо причальных сооружений был использован припайный лед, на котором были проложены автомобильные дороги, связывающие искусственный ледяной порт с берегом. Даже при такой сложной операции по доставке грузов каждая из 24 буровых была обеспечена всем необходимым оборудованием и продуктами питания из расчета на 3 – 4 месяца. Это уже потом, с 1987 года, на Ямал из Тюмени стали летать большегрузные самолеты «ИЛ-76», которые доставляли на полуостров все необходимое для нефтеразведчиков.

Доставка грузов, организация бесперебойного цикла бурения скважин отнимали много сил и времени у Вагифа Алиева. Даже в этих условиях он постоянно повышал свою квалификацию, о чем свидетельствуют акты внедрения его изобретений и патенты. А их у него множество.

На Ямальском полуострове Вагиф Алиев проработал до 1993 года. В тот год он вернулся в Баку и возглавил морское управление буровых работ «Сахил лиманы». Сейчас он трудится в ПО Азнефтьпо в должности инженера отдела бурения.

Есть у Вагифа Алиева две жемчужины, живое напоминание о годах работы в Сибири. Это его сын Рафаэль и дочь Гюнель, родившиеся в городе Салехард – единственном городе в мире, через который проходит Северный полярный круг, городе, стоящем на вечной мерзлоте, до революции известном под коми-зырянским названием Обдорск. В этом городе Рафаэль стал сорокатысячным жителем-азербайджанцем среди ненцев, хантов, селькупов, коми-зырян. Кроме этих двух жемчужин есть у Вагифа и друзья, оставшиеся там, на Севере, на полуострове Ямал, с которыми Вагиф по мере возможности в наше с вами трудное время поддерживает связь. Бывают минуты, когда годы, прожитые на Севере, мелькают перед глазами Вагифа, как кадры кинохроники. И тогда на него наваливаются грусть, тоска... Это ностальгия по прожитым годам в Сибири, такое бывает. Я его прекрасно понимаю. Ведь и у меня бывают такие минуты, когда я вспоминаю Центральные Каракумы, Казахстан, где пришлось мне проработать долгое время. Однако жизнь продолжается, и надо жить и работать, не отклоняясь от раз и навсегда выбранного жизненного пути.

## BAŞ MÜHƏNDİS

Nağıyev Abbas Abbas oğlu 1949-cu ildə Bakıda, neftçi ailəsində anadan olmuşdur.

1956-cı ildə Ələt qəsəbəsindəki 195 saylı orta məktəbə daxil olmuş, 1966-cı ildə 10-cu sinfi bitirmiş, həmin il Azərbaycan Neft–Kimya İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuş, 1972-ci ildə institutu bitirmişdir. Həmin ildən əmək fəaliyyətinə başlamış, 26 Bakı Komissarı adına Neft və Qazçıxarma İdarəsində operator işləməyə başlamışdır.

A.A.Hüseynov 1976-cı ildə Neftçala Qazma İşləri İdarəsində qazmaçı, mühəndis, texnoloq vəzifələrində çalışmışdır.

1977-ci ildən etibarən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində işləməyə başlamışdır. Əvvəlcə qazmaçı köməkçisi, sonra buruq ustası vəzifəsində işləmişdir. O, atası Sosialist Əməyi Qəhrəmanı Salman Nağıyevla birlikdə Ağdaş, Qarasu, Pirsəhhət, Tərsdəllər sahələrində müvəffəqiyyətlə bir çox neft-qaz quyuları qazmış, mədənlər təhvil vermişdir. Bütün quyular yüksək göstəricilərlə, sürətlə qazılmış və vaxtından qabaq təhvil verilmişdir. Pirsəhhət sahəsində qazılmış 211 saylı quyu sutkada 4000 $m^3$ qaz-kondensat vermişdir. Ceyrançöl sahəsində 4 saylı Tərsdəllər quyusu sutkada 180 ton fontan üsulu ilə neft vermişdir. Briqada Rüstəm Rüstəmov adına, Qaraş Əmirov adına prizə layiq görülmüşdür.

Tərsdəllər sahəsindəki quyuların yüksək göstəricilərinə görə A.A.Nağıyev SSRİ Neft Nazirliyinin Fəxri fərmanı və «QAZ-24» markalı «VOLQA» maşını ilə mükafatlandırılmışdır.

O, 1985-ci ildə Qalmaz Dərin Qazma İşləri İdarəsində buruq ustası, növbə rəisi, baş mühəndis vəzifələrində işləmişdir. 1996-cı ildən



Qobustan KQİİ-də növbə rəisi vəzifəsində işləmiş, 1999-cu ildən qədər baş mühəndis vəzifəsində çalışır.

Abbas Abbas oğlu Nağıyev 2 övlad atasıdır.



## İKİ SEVGİ İLƏ YAŞAYAN İNSAN

İsmayılov Bəhram Əhməd oğlu 1947-ci il sentyabr ayının 25-də Qazax rayonunun Qaymaqlı kəndində anadan olmuşdur. Uşaqlığı doğma Qaymaqlı kəndində, səfalı Gədəbəy və Qərbi Azərbaycan yaylaqlarında keçmişdir.

O, 1965-ci ildə orta məktəbi başa vurduqdan sonra Bakıya gələrək M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Neft-Mexanika fakültəsinə daxil olmuşdur. Əmək fəaliyyətinə 1970-ci ildə institutu bitirdikdən sonra Qaradağda zavodların birində başlamış, sex rəisi vəzifəsinədək yüksəlmişdir. 1974-cü ildə Sahil Dəniz Kəşfiyyat Qazma İdarəsinə isə keçməklə şanlı neftçilər cərgəsinə qoşulmuşdur. Üç il dəniz buruqlarında işlədikdən sonra B.Ə.İsmayılov 1976-cı ildə «Azneft» Birliyinin Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinə keçmişdir. Artıq 26 ildir ki, bu kollektivdə çalışır.

1980-cı ildə o, işləmək üçün ailəsi ilə birlikdə Əlcəzair Xalq Demokratik Respublikasına ezam olunmuşdur. Üç il müddətində Əlcəzairin Böyük Səhrasında mürəkkəb iqlim şəraitində böyük bazada şef-mexanik işləmişdir. Bu üç il ərzində tez-tez doğma diyar, səfalı yaylaqlar yadına düşürdü. Bəlkə, buna görə də ona həm Əlcəzair Respublikası tərəfindən, həm də keçmiş ittifaq nazirliyi tərəfindən dördüncü il qalıb işləmək təklifini qəbul etməyib, vətənə qayıtmaq istədiyini bildirmişdir. Lakin Əlcəzairdə keçirdiyi bu illər ürəyində xoş xatirə kimi qalmışdır. Ailədə o illərdən iki ən əziz hədiyyə saxlanılır. B.Ə.İsmayılova Böyük Səhradakı yaxşı işinə görə Əlcəzairin neft şirkəti tərəfindən ona verilmiş fəxri fərman və Sovet İttifaqının Əlcəzairdəki səfirliyi tərəfindən həyat yoldaşı Nərminə xanıma özfəaliyyət dərnəyinin başçısı kimi ictimai işinə görə verilən tərifnamə.



1983-cü ildə Bəhram İsmayılov yenidən doğma kollektivə qayıtmışdır. 1985-ci ildə ona etimad göstərib idarə həmkarlar təşkilatının sədri seçmişlər. Bu vəzifədə çalışdığı 12 il ərzində yanına gələn heç kimi naümid qaytarmamış, onlara hər cür kömək göstərmişdir.

B.Ə.İsmayılov 1997-ci ildən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinin rəis müavini vəzifəsində çalışır. Kollektivdə böyük hörmətə malikdir.

Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsi respublikamızın müxtəlif bölgələrində – Ceyrançöldə, Naftalanda, Abşeron yarımadasında kəşfiyyat işləri aparır. Qazma işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsində, buruqların təminatının təşkil edilməsində B.Ə.İsmayılovun böyük rolu vardır. Bundan başqa, sosial məsələlərin həllinə də o, olduqca böyük əhəmiyyət verir. Fəhlələrin müxtəlif ehtiyaclarının ödənilməsi məsələləri də rəis müavininin əsas işlərindən biridir.

B.Ə.İsmayılovun gözəl ailəsi var. Üç qız atasıdır. Böyük qızları ailə qurublar, sonbeşiyi BDU-nun tələbəsidir, Azərbaycan tarixini dərindən öyrənmək niyyətindədir.

Bəhram İsmayılov həmişə deyir ki, onu yaşadan iki böyük sevgidir: biri vətən sevgisi, biri ailə sevgisi. Nə ailədən, nə də vətəndən uzaqda o yaşaya bilməz.



## BİLİK VƏ BACARIĞINI SƏRF EDİR

Hacıyev Təbriz Ağaqulu oğlu 1952-ci ildə Salyan rayonunun Qarabağlı kəndində dəmirçi ailəsində anadan olmuşdur. 1959-cu ildə Qarabağlı kənd məktəbinin I sinfinə daxil olmuş, 1969-cu ildə orta məktəbi müvəffəqiyyətlə bitirmişdir. O, 1969-cu ildə M.Əzizbəyov adına Neft-Kimya İnstituna daxil olmuş, 1974-cü ildə «Elektrik maşınları və aparatları» ixtisası üzrə kursu bitirib elektrik mexaniki-mühəndisi kimi Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinə təyinatla işləməyə gəlmişdir. Burada əmək fəaliyyətinə elektrik mantyoru kimi başlamışdır. Gənc yaşlarında işdə göstərdiyi yüksək səviyyəli biliyi və eyni zamanda gözəl təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq onu sonradan yüksək gərginlikli xətlərə xidmət edən qrupun böyük mühəndisi, 1978-ci ildən isə elektrik avadanlıqları və elektrik təmir sexinin rəisi vəzifəsinə təyin etmişlər. 1983-cü ildən Qobustan KQİİ-nin baş energetiki vəzifəsini ləyaqətlə yerinə yetirir.

Respublikamızın bir neçə neft yataqlarının açılmasında, xüsusilə Kürsəngi, Muradxanlı, Zərdab, Kəmaləddin, Ceyrançöl və s. sahələrdə Təbriz Hacıyevin xüsusi əmək payı vardır. İşlədiyi müəssisə Respublikamızın müxtəlif rayonlarında axtarış-kəşfiyyat işləri apardığı üçün Təbriz Hacıyevi də köçəri quş kimi Azərbaycanın müxtəlif rayonlarına çəkib aparmışdır.

50 ilin 28 ilini bu gərgin əmək şahəsində işləməyə imkan verən onun gözəl təşkilatçılıq qabiliyyəti, yüksək səviyyəli mühəndislik bacarığı və bir yoldaş kimi təvazökarlığı olmuşdur.

Təbriz Hacıyev bütün bu illər ərzində bilik və bacarığını müəssisə üçün neçə-neçə gənc mütəxəssislərin yetişdirilməsinə sərf etmişdir.

Təbriz Hacıyev Gözəl ailə başçısıdır, iki oğul atası və bir nəvə babasıdır.



## BACARIQLI İQTİSADÇI

Məmmədağa Rza oğlu Gözəlov 20 may 1935-ci ildə Ağsu rayonunun Kəndoba kəndində dünyaya göz açmışdır. 1953-cü ildə Ağsu şəhər orta məktəbini bitirdikdən sonra Bakı şəhərinə gələrək Azərbaycan Sənaye İnstitutunun Mühəndis-İqtisad fakültəsinə daxil olmuşdur. O, 1953-cü ildə institutu bitirərək gənc mütəxəssis kimi Şirvanneft Mədənləri idarəsində iqtisadçı vəzifəsində işləməyə başlamışdır. Bu həmin illər idi ki, Şirvan neftçiləri yeni-yeni yataqlar açır, fövqəladə hünər göstərirdilər. Burada istedadlı neft mühəndisləri yetişirdi. Əlbəttə, gənc mühəndis-iqtisadçı Məmmədağa Gözəlov burada neftçixarmanın sirlərini öyrənir, öz iqtisadi biliklərini artırırdı. Lakin bunlar gənc mütəxəssis kimi onu qane etmirdi. Odur ki, 1961-ci ildə o, Bakıya qayıdaraq Az.NSETLİ-də neft yataqlarının işlənməsinin iqtisadiyyatı şöbəsində işə qəbul olunmuşdur. Burada elmi-tədqiqat işləri ilə bərabər neft yataqlarının işlənməsinin layihələndirilməsi ilə məşğul olan Məmmədağa Gözəlov qısa bir zamanda sərbəst olaraq fəaliyyət göstərirdi. Tezliklə «Azərneft» birliyinin rəhbərliyinin nəzərini cəlb edən M.Gözəlov 1966-cı ildə Suraxanı rayonunda yerləşən Quyuların Sınaqdan Keçirilməsi və Əsaslı Təmiri İdarəsində Plan-İqtisad şöbəsinə rəis təyin edilir. Burada onun iştirakı ilə aparılan tədbirlər nəticəsində ziyanla işləyən idarə gəlirlə işləməyə başlayır.

Artıq tanınmış iqtisadçı mühəndis M.Gözəlov 1970-ci ildə «Azərneft» Kəşfiyyat Tresti müdirinin iqtisadiyyat üzrə müavini təyin edilir.

Respublikanın quru sahəsində axtarış və kəşfiyyat qazması ilə məşğul olan bu trestin tərkibində üç qazma idarəsi, sınaqdankeçirmə, vışkaquraşdırma, nəqliyyat, mənzil təsərrüfat idarəsi, xüsusi tikinti ilə məşğul olan idarə və digər yardımçı müəssisələri mövcud idi.

1970-ci illərdə neft sənayesində yenidən canlanma başlayır. Sovet

məkanında neft sənayesinə güclü sərmayə qoyulurdu. Həmişə olduğu kimi, Azərbaycan respublikasına sərmayə qoyuluşunda ögey münasibət hiss olunurdu. Respublika rəhbərliyinin güclü səyinə baxmayaraq, kəşfiyyat qazmasında quyuların layihələri təsdiq olunanda sədd qoyulurdu, bir çox layihələri mərkəzi neft sənaye nazirliyi təsdiq edirdi.

1975-ci ildə struktur dəyişikliyilə əlaqədar olaraq, trest ləğv olunmuş, onun əvəzində Qobustan Kəşfiyyat Qazma İdarəsi yaradılmışdır. Elə bu ildən də Məmmədağa Gözəlov bu idarəyə baş iqtisadçı təyin edilmişdir. Qobustan KQİİ 1975-ci ildən Azərbaycan Respublikasının quru sahəsində kəşfiyyat işlərini davam etdirir. Bu idarə uğurlu kəşfiyyat işləri apararaq bir neçə yatağı aşkar etmiş, iqtisadi səmərə ilə işləmişdir.

Güclü kadr potensialına malik olan Qobustan KQİİ-nin mühəndisləri – qazmaçıları Respublikanın qazmaçıları arasında böyük nüfuza malik olmuşlar. Bunlarla çiyin-çiyinə çalışan M.Gözəlov Qaradağ rayonunda nüfuz qazanmışdır. 1986-cı ildə ona Respublikanın Əməkdar Təbliğatçısı fəxri adı verilmişdir. M.Gözəlov iqtisadçı kadrların yetişməsində xeyli iş görmüşdür.

M.Gözəlov xalqına, vətəninə bağlı olan nəcib əməllər sahibidir. 1998-ci ildə Kəbə evini ziyarət edərək müqəddəs Həcci başa vuran Hacı Məmmədağa Gözəlov yaxşı ailə başçısıdır. Üç övladı var. Böyük oğlu Gülağa Az.NSETLİ-də elmi işçi işləyir. Qızı ingilis dili müəllimidir. Kiçik oğlu İlqar polisdə xidmət edir. 7 nəvəsi var. Böyük nəvəsi Rəna Dövlət İqtisad Universitetinin tələbəsidir.

Hal-hazırda Hacı Məmmədağa Gözəlov Qobustan KQİİ-də baş iqtisadçı vəzifəsində işləyir. O, xalqının işıqlı gələcəyinə inanır və ömrünün müdrik çağlarını yaşayır.





## НАЧАЛЬНИК ГЕОЛОГИЧЕСКОГО ОТДЕЛА

Степашкин Виктор Яковлевич, 1937 года рождения, русский, родился в г.Баку в семье рабочего-нефтяника. Всю свою трудовую жизнь он связал с нефтяной промышленностью Азербайджана и вот уже более 45 лет трудится в славной армии нефтеразведчиков.

В.Я.Степашкин свою трудовую деятельность начал в 1957 году в Геолого–разведочной конторе на суше (ранее Абшероно-Прикаспийская геолого-поисковая контора), куда был направлен после окончания Бакинского нефтяного техникума им. Октябрьской Революции по специальности «Геология и разведка нефтяных и газовых месторождений».

В Геолого–разведочной конторе на суше непрерывно проработал более 34 лет на многих разведочных площадях Азербайджана, где последовательно занимал должности бурового рабочего, оператора-коллектора, техника-геолога; а с 1964 года был назначен старшим геологом Геолого-поисковой партии. Без отрыва от производства в 1974 году окончил Азербайджанский государственный университет им.С.М.Кирова по специальности «Геология и разведка полезных ископаемых».

Начиная с 1992 года по настоящее время работает в Гобустанском управлении разведочного бурения, сначала в качестве участкового геолога РИТСа, а с 1997 года – в должности начальника геологического отдела.

В.Я.Степашкин имеет огромный опыт в структурно-поисковом и разведочном бурении скважин. Постоянно работает над повышением уровня своих геологических знаний. В 1980 году был направлен на курсы повышения квалификации в Уфимский нефтяной

институт, где окончил 3-месячные курсы по специальности «Бурение нефтяных и газовых скважин».

Товарищи по совместной работе знают его как квалифицированного и трудолюбивого специалиста, чуткого и отзывчивого товарища. Инициативный и исполнительный работник. Умело руководит своими подчиненными.

Его долголетняя безупречная работа заслуженно отмечена грамотами от нефтяной промышленности СССР и Азербайджана и юбилейной медалью в ознаменование 100-летия со дня рождения В.И.Ленина.

Своим отношением к труду, активной общественной работой В.Я.Степашкин снискал большое и заслуженное уважение среди сослуживцев и всего коллектива нефтеразведчиков.





## İŞGÜZAR AİLƏ

Bayramov Cəmil Nəbi oğlu 1934-cü il 25 dekabrda Gədəbəy rayonunun Tikdaş kəndində anadan olmuşdur. O, 1954-cü ildə orta məktəbi bitirdikdən sonra Bakı Neft Texnikumuna qəbul olunmuş, 1955–1958-ci illərdə hərbi hissədə qulluq etmiş, 1960-cı ildə Bakı Neft Texnikumunu bitirmişdir.

C.N.Bayramov 1960-cı ildən 1970-ci ilə qədər Əlibayramlı Qazma Trestinin 1 saylı Qazma İdarəsində qazmaçı, turba üzrə mühəndis, qazma avadanlığının təmir sexinin rəisi, Əlibayramlı Boru Alətləri Bazasında baş mühəndis, Əlibayramlı Boru Alətləri Bazasının rəisi vəzifələrində işləmişdir. O, 1970–1971-ci ildə Abşeron Qazma Trestinin 3 saylı Qazma İdarəsində buruq ustası, 1971–1976-cı illərdə Sahil Dəniz Kəşfiyyat Qazma İdarəsinin İstehsalat-Təminat bazasında rəis müavini vəzifəsində fəaliyyət göstərmişdir.

C.N.Bayramov 1976-cı ildən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində İstehsalat-Təminat bazasında rəis vəzifəsində işləyir.

Həyat yoldaşı və oğlu mühəndis, qızı həkimdir. Ailə üzvlərini işgüzarlıqda başqalarına nümunə göstərmək olar.

Kollektivin dərin hörmətini qazanmış Cəmil müəllim öz zəngin təcrübəsini gənclərə həvəslə öyrədir.

## O, NEFT SƏNAYESİNİN PARLAQ GƏLƏCƏYİNƏ İNANIR

Qənbərov Vidadi Ağasəf oğlu 1955-ci il aprel ayının 23-də Neftçala rayonunun Bankə qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur. O, 1962-ci ildə orta məktəbin birinci sinfinə getmiş və 1972-ci ildə orta təhsilini başa vurmuşdur. Elə həmin il sənədlərini Azərbaycan Neft və Kimya İnstitutuna vermiş, Neft–Mədən fakültəsinə daxil olmuşdur. 1977-ci ildə həmin institutun Neft–Mədən fakültəsini, neft-qaz quyularının qazılması ixtisası üzrə bitirmişdir. V.A.Qənbərov 1977-ci ildə təyinatla Neftçala Qazma İşləri İdarəsinə göndərilmişdir. Hələ tələbə ikən o, Ukrayna, Belorusiya və Krasnodarda təcrübə keçmiş və bir ilə yaxın oralarda qazmaçı köməkçisi işləmişdir. Tələbə ikən qazandığı təcrübə institutu bitirdikdən sonra özünü büruzə vermişdir. V.A.Qənbərov Neftçala Qazma İşləri İdarəsində qazmaçı köməkçisi və qazmaçı (1977–1978), buruq ustası, rayon mərkəzi texniki xidmət rəisi (1981–1984), baş texnoloq (1984–1985) vəzifələrində çalışmışdır.

1985-ci ildən V.A.Qənbərovun əmək fəaliyyəti Qobustan KQİİ ilə bağlı olmuşdur. O, burada 1987-ci ilə qədər baş texnoloq, 1987-ci ildən 1991-ci ilə qədər mərkəzi mühəndis texnoloji xidmətinin rəis müavini, 1991-ci ildən MMTX rəisi vəzifəsində çalışır.

V.A. Qənbərov iş yoldaşları arasında zəngin və hərtərəfli iş təcrübəsi olan mütəxəssis kimi tanınır. O, buruq ustası işlədiyi vaxt 1981-ci ildə «Azərneft» Birliyi briqadaları arasında üçüncü yeri tutmuş və mükafatlandırılmışdır.

V.A. Qənbərovun bilavasitə iştirakı və rəhbərliyi ilə Neftçala, Qızılağac, Babazanı, Kürsəngi, Qurovdağ, Şorsulu, Orta Muğan, Ramanı, Balaxanı, Suraxanı, Buzovna–Maştağa, Lökbatan, Atəşgah, Şubanı, Puta, Pirsaat, Qobustan və s. sahələrdə çoxlu sayda quyular qazılıb istifadəyə verilmişdir.



V.A. Qənbərov onlarla səmərələşdirici təklifin müəllifidir. O, işlədiyi dövrdə idarənin, «Azərneft» Birliyinin və o vaxtkı ÜİLKGİ-nin fəxri fərmanları, döş nişanları ilə təltif edilmişdir.

V.A.Qənbərov neft sənayesinin daha parlaq gələcəyinə inanır. O, neftçi olması ilə fəxr edir, çünki Azərbaycan iqtisadiyyatının dirəyi olan neft sənayesinin inkişafında onun da əməyi vardır. V.A.Qənbərov gözəl ailə başçısıdır, üç övlad atasıdır.



## XEYİRXAH NEFTÇİ

Bayramov Sahib Qaraş oğlu 1932-ci il iyun ayının 10-da Goranboy rayonunun Şəfəq kəndində kəndli ailəsində doğulmuşdur. Orta təhsilini Şəfəq kənd orta məktəbində almış, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyasının), Neft-Mədən fakültəsinin, neft və qaz quyularının qazılması şöbəsinə qəbul olunmuş, 1957-ci ildə həmin institutu bitirib təyinatla Azərneftin Leninneft mədənlər idarəsinin tərkibində olan qazma kontoruna işə göndərilmişdir. O, burada qazmaçı köməkçisi, qazmaçı, sahə mühəndisi və qazma ustası işləmişdir. 1967-ci il yanvar ayının 1-dən həmin qazma kontorunun texnoloji şöbəsinə rəis təyin edilmişdir. 1968-ci il yanvar ayının 1-dən «Şirvanneftqazma» trestinin Nefçalada yerləşən 4-cü kontoruna baş mühəndis müavini göndərilmişdir.

S.Q.Bayramov 1968-ci il mart ayında, SSRİ neft sənayesinin cənub rayonları üzrə «Açıq neft və qaz fontanlarının profilaktikası və ləğvi» hərbiləşmiş hissəsinə baş mühəndis-rəis müavini təyin olunmuşdur. (Cənub rayonlarına: Azərbaycan, Gürcüstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan və Qazaxıstan daxil idi.) 1972-ci ilin oktyabr ayından Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinin MMTX-nin rəisi, 1978-ci ildən həmin idarənin rəis müavini olmuşdur.

1985-ci ildən 1993-cü ilə qədər, SSRİ qaz sənayesinin Kalmas ekspedisiyasında MMTX-nin rəisi işləmişdir. (Bu ekspedisiya yeraltı qaz anbarları qazırdı.) 1993-cü ildən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinin MMTX-nin növbə rəisi vəzifəsində çalışır. O, 1962-ci il yanvar–aprel aylarında Almaniya Demokratik Respublikasının Leypsiq şəhərinə yaz texniki yarmarkasına qazma avadanlığı üzrə stendist kimi ezam olunmuşdur. 1963-cü il sentyabrın 15-dən 1966-cı il avqustun 20-



nə qədər Əfqanıstanda neft və qaz kəşfiyyat quyularının qazılmasında texniki rəhbər kimi işləmişdir. Hər iki ezamiyyətdə müsbət xasiyyətnamə və rəhbərliyin təşəkkür əmrini almışdır. Açıq fontanların ləğvində göstərdiyi peşəkarlığına və fəallığına görə 1971-ci il 6 iyul tarixində Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

SSRİ Neft sənayesinin 50 illik yubileyi münasibətilə nümunəvi işinə görə fəxri fərmanla təltif edilmişdir. Əfqanıstanda işləyən zaman S.Q.Bayramov rəhbərlik etdiyi qazma briqadasının kollektivinə yüksək nailiyyətinə görə, Şibirqan qazma idarəsi tərəfindən Fəxri fərmanla təltif edilmişdir.

O, 1962-ci ildə Leypsiq şəhərində keçirilmiş beynəlxalq texniki yarmarkada SSRİ pavilyonunun direktoru P. Briqadnov tərəfindən təşəkkür almışdır.

Açıq neft və qaz fontanlarının ləğvi çox təhlükəli və mürəkkəb olsa da S.Q.Bayramov işləri düzgün təşkil edərək qoyulan məqsədə nail olmuşdur. Adətən açıq fontanlar, təzə yataqları qazarkən, yüksək anamal təzyiqli layların açılmasında buraxılan texniki-texnoloji və ya təşkilati səhvlər nəticəsində baş verir. Belə qəzaların ləğvi üçün, çox vaxt və böyük vəsait tələb olunur. Bəzən də açıq fontanların ləğvi zamanı fəsadlarla nəticələnir (yanğın, böyük partlayışlar, insan ölümü, böyük sahəni əhatə edən qrifonlar, qazdan zəhərlənmələr). Ən xarakterik olan yataqlar Azərbaycanda dəniz sahəsində olan yataqlardır.

S.Q.Bayramov Özbəkistanda – Namanqan, Çus-pab, Termez, Qızılqum, Andican, Qazlı, Kazaxıstanda – Uzen, Jettibay, Baynaçuk, Emba, Üzümçü; Tacikistanda – Komsomolski, Kiçik bel, Ayratan; Qırğızıstanda – Maylı say, Prijevalski yataqlarında baş vermiş açıq fontanların ləğvinə, Əfqanıstanda olarkən Məzari-Şərif, Şibirqam, Gündüz, Məymənə, Anxoy, Xacibulan, Yalın ağac, Kux-Elburs sahələrində quyuların qazılmasına rəhbərlik etmişdir.

Hər bir açıq fontanın bağlanmasında tətbiq etdiyi fərdi metod və təkliflər yazılıb qeyd olunmadığı üçün özünə yer tapmamışdır. Verdiyi təkliflərdən biri – Fontanla işləyən quyunu dayandırmadan quyu ağzı mərkəzi siyirtməni dəyişdirmək, ovaxtkı «Azərneft» rəhbərliyi nazir B.Məmmədov və N.Babayev tərəfindən bəyənilmiş və Bulla-dəniz quyularının birində tətbiq olunmuşdur.

O, Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində işlədiyi müddətdə Kürsəngi, Girovdağ, Kalaməddin, Kolanı, Nardaran–Suleyman, Daşmərdan, Duvannı, Kalmas, Bənduvan, Pirsaat, Duzdağ, Gödək-boz, Əmirarx, Zərdab, Hacı-nohur, Ceyrançöl, Məmməd-təpə, Keylu-Keylan, Tərsdəllər və sairə yataqların qazılmasında və mənimsənilməsində, texniki-texnoloji və təşkilati işlərdə rəhbərlik etmişdir.

S.Q.Bayramov tanınmış neftçilərdən B.İ.Əlibəyov, V.G.Vavilov,

İ.S.Hüseynov, İsmayıl-Mikayıl, Ə.Ə.Əsgərov, C.Q.İbrahimov, A.İ.Lətifov, Q.İ.Əmirov, Yəhya, X.B.Mirzəyev, Q.Q.Məmmədov, Y.M.Mehdiyev, Ə.C.Abdullayev, Ə.Ş.İmaməliyev, A.Ş.Şıxlinski, N.M.Hacıyev, S.A.Nağıyev, məşhur fontançılardan Aleynikov (Qroznı), Ananyev P.F. (Türkmənistan), Karnayev V.P. və digər neftçilərlə çiyin-çiyinə çalışmışdır.

Ailəsi – üç övlad və altı nəvədən ibarətdir. Anadan olduğu Şəfəq kəndinin içərisindən keçən Göran çayı üzərindən, öz vəsaiti hesabına saldırdığı 20 metr uzunluğunda körpü onun xeyriyyəçiliyini, xeyirxahlığını göstərir.

Yeri gəlmişkən demək lazımdır ki, «Fəryad» filmində əsirlərin dəyişdirilməsi səhnəsi həmin körpünün üstündə çəkilmişdir.





## HƏR ÇƏTİNLİYİN ÖZ XÜSUSİYYƏTİ VAR

Rüstəmov Nurəli Məşədi oğlu 1932-ci ildə Neftçala rayonunun Yuxarı Qaraymanlı kəndində anadan olmuşdur. Orta məktəbi, sonra da Bakı Neft Texnikumunu əla qiymətlərlə bitirmiş, 1953-cü ildə isə Azərbaycan Neft-Kimya İnstitutunun axşam şöbəsinə daxil olmuşdur. O, istehsalatda işləməklə 1959-cu ildə institutu bitirmişdir.

N.M.Rüstəmov 1965–1975-ci illərdə «Azərneft» Birliyində quyuların sınanması kantorunda texniki şöbənin rəisi və sonra idarənin baş mühəndisi vəzifəsində işləmişdir. Bu müddət, Azərbaycanda – quruda Tələbi, Tekçay, Qaradağ, Divannı, Bəndovan, Kürsəngi, Drovdağ, Kalomətdin, Xarami, Padar, Muradxanlı, Sor-sor, Naftalan, Tərsdəllər, Gürzündağ kimi kəşfiyyat quyularının sınanmasında və onlara düzgün rejim seçilməsində gərgin əmək sərf etmişdir. Sınanma işləri aparmaqla yanaşı, ən dərin və ən ağır gilli məhlulu olan quyularda az sement sərf etməklə keyfiyyətli və möhkəm sement körpüsünün qoyulmasında qiymətli, səmərəli təkliflərin müəllifidir. Bu dediklərimizə misal olaraq: Bəndovan sahəsində 26 saylı, Qarabağlı sahəsində 86 saylı, Dəniz-Bahar sahəsində 7 saylı, Sor-sor sahəsində 3 saylı və digər dərin kəşfiyyat quyularında möhkəm sement körpüsü mümkün olmurdu: sement körpüsü çox zəif olurdu, möhkəmliyə davam gətirmirdi, təkrar sementləmələrin sayı artırdı, bu da öz növbəsində quyunun qazılıb qurtarma müddətini uzadırdı, əlavə xərcləri artırır, sementin normadan artıq (4 ton əvəzinə 10–20 ton) işlədilməsinə səbəb olurdu. Nəhayət, Nurəli Rüstəmovun bu sahədəki çoxsaylı sementləmələrin təcrübəsinə əsaslanan səmərəli təklifləri sayəsində təkrar və keyfiyyətsiz sementləməyə son qoyuldu.

O, «Neft daşları»nda işlədiyi müddət ərzində özünün mühəndislik bacarığından istifadə edərək, bir meydançada olan beş parafinli fontan

quyusunda parafini ərsinləmək üçün beş aparat əvəzinə bir aparatdan istifadə etməyin konstruksiyasını vermiş və onun rəhbərliyi ilə bütün meydançalarda olan parafinli quyularda bu yeni konstruksiyalı aparatdan qoyulması işi ona tapşırılmışdır.

Azərbaycan neft sənayesində borulu lay sınayıcısının tətbiqi və inkişafı məhz Nurəli Rüstəmovun adı ilə bağlıdır, desək yanılmarıq. 1964-cü ildən məhz Azərbaycanın kəşfiyyat quyularında neft və qaz yataqlarının aşkara çıxarılması ilə bərabər lay sınayıcısının konstruksiyasında bir neçə əsaslı dəyişikliklər aparmaqla 1965-ci ildə Kürsəngi sahəsindəki 135 saylı kəşfiyyat quyusundan güclü qaz fontanı almağa nail olmuşdur.

Onun istehsalatda tətbiq olunan 25-dən çox səmərəli təklifi olmuşdur. Bu təkliflərin içərisində təqdirəlayiqlərindən biri də kəşfiyyat quyularının sınanması kontorunda Baş mühəndis işlədiyi vaxtda təklif etdiyi və kontor şəraitində düzəldib quyularda istifadə etdiyi «Səyyar ölçmə» qurğusudur.

Bu qurğunun köməyi ilə neft çıxarılan quyulardan çox-çox uzaqlarda yerləşən kəşfiyyat quyusunun sutkalıq hasilatının qədərini, yəni quyudan çıxan qazın, neftin və suyun miqdarını dəqiq ölçməyə imkan verir. Həmin qurğunu çox sayda hazırlamaq üçün çertyojları zavoda verilmişdir.

O, baş verə biləcək əngəllikləri irəlicədən görən və onu aradan qaldırmaq üçün, yeni-yeni təkliflər axtararaq, işi vaxtında yerinə yetirən bacarıqlı mühəndislərdən biridir.

N.M.Rüstəmov 1975-ci ildən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində mərkəzi-mühəndis texniki xidmət sahəsinin rəis müavini vəzifəsində çalışır.

O, 1 oğul, 2 qız atası, 7 nəvənin babasıdır.



## HÖRMƏT QAZANMIŞDIR

Məmmədov Fariz Nurqələm oğlu 1959-cu ildə Ağdaş rayonunun Ləki qəsəbəsində anadan olmuşdur. 1976-cı ildə Ləki qəsəbə 6 saylı orta məktəbini bitirmiş, həmin ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuşdur. 1981-ci ildə həmin fakültəni bitirərək dağ mühəndisi ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində qazmaçı köməkçisi kimi başlamışdır. Biliyi və işgüzarlığı sayəsində tezliklə buruq ustası təyin edilmişdir. O, Zərdab sahəsində 6 və 8 saylı quyuların Ağdaş rayonu ərazisində yerləşən 4, Əmirarx, Ceyrançöl sahəsində yerləşən 5, Tərsdəllər 1, Qərbi Gürzündağ, Z Palantökən dərin-kəşfiyyat quyularının müvəffəqiyyətlə qazılmasına, qoruyucu və istismar kəmərlərinin buraxılmasına, quyuların sementlənməsinə, qazmada qarşıya çıxan çətinliklərin və mürəkkəbləşmələrin aradan qaldırılmasına rəhbərlik etmişdir.

F.N.Məmmədov 1992-ci ildən Rayon-Mühəndis Texnoloji Xidmət (RMTX) sahəsinin rəisi təyin edilmiş və ona Abşeron ərazisində qazılan istismar quyuları həvalə olunmuşdur. Bilavasitə onun rəhbərliyi ilə Suraxanı, Binəqədi, Lökbatan, Atəşgah, Qaradağ sahələrində yüzlərlə istismar quyusu müvəffəqiyyətlə qazılıb mədənçilərə təhvil verilmişdir.

O, bir neçə səmərələşdirici təklifin müəllifidir. Onun əməyi Fəxri fərmanlarla qiymətləndirilmişdir. Hal-hazırda Qobustan KQİİ-də RMTX rəisi işləyir. Mehribanlığına görə kollektivdə hörmət qazanmışdır.

Üç uşaq atasıdır.



## «NEFT DAŞLARI»nın İLK CANLI FATEHİ

Dünyada ilk dəniz şəhərinin «Neft daşları»nın bünövrəsini qoyanlardan, onun ilk fatehlərindən biri məşhur buruq ustası Müslüm Hacımətovun sinəsi tarixdir, ensiklopediyadır, dəniz şəhərinin keçdiyi əlli il onun yaddaşındadır. «Neft daşları» onun gözləri önündə, onun bilavasitə fəal iştirakı ilə tikilib, qurulub, dənizin dərinliyindən çıxan qara daşların üstündə dəniz şəhəri salınıb. O vaxtlar yüz kilometr yolu qət edib dənizin dibindən çıxan qara daşlar üzərində şəhər salmaq, quyu qazmaq, neft çıxarmaq, onu sahilə göndərmək xüsusi cəsarət, böyük vətənpərvərlik tələb edirdi. O vaxt oturmağa, durmağa, işləməyə yer yox idi, yüksək dalğalar, kəsici şaxta, tufan hər an qorxu, vahimə yaradırdı, adamlar hər gün ölümlə üzbəüz dururdular.

İndi nə var ki, dəniz şəhərində hər cür şərait yaradılıb: rahat evlər, möhkəm estakadalar, yeni avadanlıqlar, istirahət guşələri, mədəniyyət ocaqları neftçilərin istifadəsinə verilib. İşıq, su, qaz burada daimidir. Növbədə işləyənlər özlərini doğma evlərindəki kimi hiss edir, rahat şəhər şəraitində yaşayır. Bir sözlə, yaşayış üçün heç bir problem yoxdur.

Neftçilərin gediş-gəliş məsələsi də qaydaya salınıb. Vertolyotla «Neft daşları»na gedib-gəlmək şəhərdən Əhmədliyə gəlmək qədər vaxt aparır. Növbə ilə işləyən dəniz neftçilərini əfsanəvi dəniz şəhərinə aparmaq və sahilə qaytarmaq üçün xüsusi gəmilər və vertolyotlar ayrılmışdır. Bu rahat nəqliyyat növləri ilə vaxtaşırı qrafiklə neftçiləri işə və evə daşıyır. Artıq onlar bu yüz kilometrlik dəniz yolunu gedib-gəlməyə adət etmişlər. Dəniz fatehləri bu uzaq yolu dənizə səyahət kimi qəbul edirlər. Vertolyotlar gündə üç-dörd reys edir. 15-20 dəqiqəyə neftçiləri hər iki tərəfə daşıyırlar.

Yaşamaq və işləmək üçün əlverişli şərait yaradıldığı üçün neftçilər



«Neft daşları»na məmnuniyyətla gedib-gəlirlər. Üstəlik də ayda on beş gün işləyən neftçilər 400–500 min manat, bəzi ağır sahələrdə isə 750 min manat maaş alırlar. Burada neftçilərin rahat və təhlükəsiz yaşaması, işləməsi üçün böyük həcmli tikinti quraşdırma işləri görülür. NQÇİnin baş mühəndisi Şahin İsmayılovun məlumatına görə artıq 741, 1544, 1183, 1157, 2346 saylı estakada meydançaları tikilib istifadəyə verilib. Yeni estakadaların tikilməsi, köhnələrin yenidən qurulması dənizdə neft çıxarılmasına böyük təsir göstərir. Dövlət Neft-Qaz Layihə İnstitutu «Neft daşları»ında bütün hidrotexniki qurğularını təmir etmək və yenidən tikmək məqsədilə layihə və sairə sənədləri hazırlayırlar.

Dünya bazarında neftin qiymətindən asılı olmayaraq «Neft daşları»nda işlər əvvəlki ritmində gedir.

Boş yerin ilk dəniz şəhəri salınarkən çoxları quruda işləməyə, evində yaşamağa üstünlük verir, «Neft daşları»na gəlməkdən çəkinirdilər. Bununla belə cəsur, qətiyyətli, qeyrətli adamlar da az deyildi. 1949-cu ildə «Qara daşlar» adasına ilk gələn cəsurlar arasında 1 saylı sənət məktəbinin məzunu Müslüm Məhəmməd oğlu Hacımətov da var idi. O, ilk əmək fəaliyyətinə «Neft daşları»nda yeddinci dərəcəli qazmaçı kimi başlamışdı. Gənc neftçi işə başladığı ilk günlər çox çətinliklərlə üzləşsə də ruhdan düşmürdü. Çünki, bu əməksevər, əzmkar insana «Neft Daşları»nın bünövrəsini qoyan Qurban Abbasov və Mixail Kaveroçkin kimi məşhur fatehlərlə çiyin-çiyinə işləmək nəsib olmuşdur. Müslüm bütün varlığı ilə çalışırdı ki, onların iş təcrübəsini öyrənsin, qazma işinin bütün sirlərini mənimsəsin və qabaqcıllar sırasına çıxsın.

Belə də oldu. Bu fədakar, son dərəcə intizamlı gənc neftçi qısa müddət ərzində səkkizinci dərəcəli qazmaçı oldu. Müslümün əməksevərliyini görən Qurban Abbasov və Mixail Kaveroçkin həmişə onu qazmaçılara nümunə göstərirdilər. Çünki quyuların qazılması zamanı Müslüm xüsusi fədakarlıq göstərir, quyuların qazılıb, vaxtından əvvəl mədənçilərə təhvil verilməsində əzmlə çalışırdı.

Bacarıqlı qazmaçı daima təhsilini artırmaq, Neft Akademiyasına daxil olmaq arzusu ilə yaşayırdı. O, aydın dərk edirdi ki, qazandığı zəngin təcrübəni nəzəri biliklə birləşdirsə daha böyük nailiyyətlər əldə edə bilər. Müslüm «Neft-qaz quyularının istismarı» ixtisası üzrə Bakı Neft Texnikumunu fərqlənmə diplomu ilə bitirsə də, ali təhsilə can atırdı. Məşhur buruq ustası, Sosialist Əməyi Qəhrəmanı İsrafil Hüseynov neft sənaye işçilərinin Respublika Həmkarlar İttifaqı Komitəsinin sədri seçilməsi ilə əlaqədar olaraq «Neft daşları»ndan gedəndən sonra Qazma İdarəsinin rəisi Həzrət Xadikov onu qazma ustası vəzifəsinə irəli çəkdi. Çox çəkmədi ki, əzmkar əməyi, bacarığı və təcrübəsi ilə Müslüm məşhur neftçi İsrafil Hüseynovun ən ləyaqətli davamçısı olduğunu sübut etdi. İşə böyük məsuliyyət ilə yanaşan Müslümün yeni vəzifədə mü-

həndis adı almağa tələbatı daha da artdı. Bu arzu nəhayət ki, Müslümü o vaxtki, M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun «Qaz-neft və mədən» fakültəsinə gətirdi.

Müslümün zəngin təcrübəsi və dərin biliyi dövlət orqanlarının diqqətini cəlb etdi. O, bilikli və təcrübəli qazmaçı kimi Suriya Ərəb Respublikasına kömək üçün, bu ölkəyə ezam edildi. Suriyanın Çidisi səhrasında Müslümün briqadasının qazdığı 4 saylı quyu fontan vurdu və sutkada 650 ton neft verir. Müslümün briqadası 5 saylı quyuda 3250 min kub.m. kondensat olan layı açır və 7 saylı quyuda qaz aşkar etdi. Az vaxtda qazandığı böyük nailiyyətlərə görə Suriya Ərəb Respublikasının Neft Şirkətinin prezidenti briqadanın üzvlərinə mükafatlar təqdim etdi. Müslümə qızıl qol saatı bağışladı.

Suriya Ərəb respublikasından vətənə qayıdıb yenə də «Neft daşları»nda işə başlayan Müslüm öhdəlikləri vaxtından əvvəl yerinə yetirdiyinə görə «Qırmızı Əmək Bayrağı» ordeni ilə təltif edildi, az sonra isə SSRİ-nin «Əlaçı neftçisi» fəxri adına layiq görüldü.

Müslümün şöhrəti gün-gündən zirvəyə qalxırdı. Bu dəfə məşhur qazmaçı Müslüm İraq Ərəb Respublikasına göndərildi. Onun başçılıq etdiyi Um-Kasirdə 3400 metr dərinlikdə 1 saylı quyunu 56 gündə qazıb qurtardı və ölkədə ən böyük rekord qazandı. Hələ Suriyada ərəb dilini mükəmməl öyrənən Müslüm həm tərcüməçi, həm də məsləhətçi funksiyasını yerinə yetirdi. Ərəblərlə onların dilində ünsiyyət yaradan Müslüm Zuberdə 19 saylı quyunu qazarkən 3480 metr dərinlikdə güclü neft layı açdı. Bu böyük nailiyyət Azərbaycan neftçilərinin şöhrətini yüksəklərə qaldırdı, çünki Müslümün qazdığı quyudan 2 kilometr aralıqda fransızların qazdıqları quyunun taleyi məlum deyildi. Qısa müddət ərzində qazandığı nəticələrə görə ərəblər Müslümə «Markiz usta» adı verdilər.

Genişürəkli Müslüm işlədiyi ölkələrdə gənc neftçilərin hazırlanmasına xüsusi qayğı ilə yanaşır, onların bilik və təcrübəsinin artırılmasına səy göstərirdi. Suriya Ərəb Respublikasında işlədiyi müddət ərzində 3 qazmaçı, 8 qazma köməkçisi, 4 çilingər, 6 motorçu, 1 mexanik, 2 usta; İraq Ərəb Respublikasında 2 qazmaçı, 6 qazma köməkçisi, 3 çilingər, 3 motorçu, 1 usta yetişdirmişdir. İraqda neft sənayesində qazandığı böyük nailiyyətlərə görə İraq səfirliyi tərəfindən «FƏXRİ FƏRMAN» ilə təltif olunmuşdur. İndi Müslümün yetişdirmələri, Suriyanın və İraqın neft sənayesində rəhbər işlərdə, mühəndis-texnik vəzifələrində fəaliyyət göstərirlər. O vaxtdan çox keçsə də, qədirbilən ərəblər Müslümü «Markiz usta» kimi yad edir, qazandıqları təcrübə və bilik üçün ona həmişə minnətdardırlar.

Müslümün yüksək mənəvi keyfiyyətlərini, işgüzarlığını, bacarığını yaxından bilən Qurban Abbasov yeni və ən mürəkkəb işləri ona tapşırırdı. Qurban Abbasov bilirdi ki, Müslüm qorxmazdır, təcrübəlidir, yaxşı təşkilatçıdır, işi yaradandır.



Müslüm ilk dəniz fatehləri ilə birlikdə «Neft daşları»nı qurub dənizin daha dərinliyinə doğru addımladı. 28 Aprel yatağının mənimsənilməsinə başladı. 28 Aprel yatağı ilk dəniz stasionar platformasından biri idi. Müslüm Hacımətov briqadası ilə birlikdə bu platformadan dörd dərin dəniz quyusu qazıb təhvil verdi. O vaxta qədər «Neft daşları»nda heç bir briqada bu dərinlikdə quyu qazımamışdı. Bu, ilk təcrübə idi.

Lakin bu təcrübə çox asan başa gəlməmişdi, çoxlu gözlənilməz hadisələrlə müşahidə edilmişdi. Dördüncü platformada işlər xüsusilə çox gərgin keçmişdi.

Birinci platformada qazılan quyuların layihə dərinliyi 4.300 metr idi. Laya çatana qədər Müslüm çoxsaylı çətinliklərlə üzləşdi. Xüsusilə 3.800 metr dərinlikdə gözlənilməz hadisə baş verdi, gözlənilmədən quyunun dərinliyindən yuxarı, bayıra böyük təzyiqlə qaz və neftlə su dalğası qalxdı. Təzyiqi dayandırmaq üçün gil məhlulu çatışmırdı. Bununla belə, bu prosesi buraxmaq olmazdı, əks halda başlanan partlayış quyunu və platformanı darmadağın edə bilərdi. Ona görə də o, bərk palçıq hazırlayıb quyuya vurdu. Lakin səmərə az idi. Dördüncü platformada yeni-yeni gözlənilməz proseslər yaranırdı. Belə gərgin vəziyyətdə hər bir mütəxəssis briqadaya kömək üçün özünün təklifini təqdim edirdi. Lakin təhlükəli vəziyyətdə olan quyunu ram etmək üçün ən sərişteli məsləhətçi Müslüm Hacımətov oldu. O, cəsarətli, operativ, ən sərfəli metodların tətbiqi ilə hamının diqqət mərkəzində dayanırdı. Hamı onun qərarını gözləyirdi. Nəhayət, zəngin təcrübəyə və dərin texniki biliyə malik olan Müslüm qeyri-standart vasitələrlə gərginliyi aradan qaldırdı və müəyyən edilmiş dərinliyə çatdı. Beləliklə, dördüncü platformada baş vermiş təhlükəli vəziyyətin qarşısının alınması tarixə çevrildi, dəniz fatehi Müslümə şöhrət qazandırdı, vaxtilə Koveroçkin briqadasının başına gələn faciə sovuşduruldu.

Yarım əsr «Neft daşları»nda işləyən, bütün ömrünü, təcrübəsini dəniz-neft sənayesinin inkişafına sərf edən usta Müslümün əməyi yüksək qiymətə layiqdir. Bu fədakar neftçinin qəhrəman əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Müslüm Azərbaycanın «Əməkdar neftçisi», SSRİ-nin «Əlaçı neftçisi» adına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. Lakin Müslümün ən yüksək mükafatı onun əlli il ərzində qazandığı ümumxalq məhəbbətdir. «Neft daşları»nın fəthindən 50 il keçsə də, ömrünü dənizlə bağlayan Müslüm ilk həmkarları, sahə rəisi Hidayət Əliyev, qazmaçılar Əziz Məhərrəmov, Uspaxan Uspaxanov, Aleksandr Polyakov, Meybulla Kərimovla birlikdə təqaüd yaşları keçsə də, doğma iş yerlərindən uzaqlaşmır, böyük həvəslə növbədə dayanır və tonlarla qara qızıl çıxarırlır.

Müslüm Hacımətov ilk əfsanəvi dəniz şəhərinin qəhrəman fatehidir, qurucusu və yaradıcısıdır. Müslüm dəniz şəhərini yaradanlarla birlikdə dəniz neft sənayesinin tarixində əbədi yaşayacaqdır.

Müslüm qəhrəman dəniz fatehlərinin canlı müasiridir. Onun fədakar əməyi, böyük vətəndaşlıq duyumu, şəxsi cəsarəti, vətən, xalq yolunda fəda etdiyi əlliillik qəhrəman ömrü bugünkü gənc nəsil üçün örnəkdir, zəngin həyat məktəbidir. Bu qəhrəman ömrünün bəhrəsi kimi yaradılan güclü dəniz neft sənayesi bu gün Azərbaycanın böyük neft sənayesinin əsasını və gələcək inkişaf perspektivinin bünövrəsini təşkil edir.

"Neft daşları"nın fatehlərindən biri qüdrətli insan, böyük vətəndaş, əmək qəhrəmanı Müslüm Hacımətovdur, ona eşq olsun!

PROFESSOR İMRAN CƏFƏRZADƏ





## VƏTƏNDAŞLIQ MƏSULİYYƏTİ

Müasir şəraitdə, müstəqil respublikamızda daim yeni vəzifələr meydana çıxır. Şübhə yoxdur ki, bu vəzifələrin yerinə yetirilməsi üçün şəxsiyyətin qüvvəsi, əzmkarlığı və səyləri səfərbərliyə alınmalıdır.

Bu vəzifələrin həyata keçirilməsi üçün zəhmət və səbir tələb edən təşkilatçılıqla, ciddi şəxsi intizamla və işgüzarlıqla birləşən tələbkarlıq, iradə və əmək-ruh yüksəkliyi lazımdır. Bütün bunları nəzərə alaraq Zöhrab Talış oğlu Baharlı ictimai işlərə maraq bəsləyir, ictimai fəallıq göstərir. Bunun üçün o, özünü əməkdə, idarəctmə işlərində bacarıqlı kadr kimi göstərir, harada işləməsindən asılı olmayaraq, orada əsl vətəndaşlıq məsuliyyəti nümayiş etdirir.

Baharlı Zöhrab Talış oğlu 1936-cı il sentyabr ayının 24-də Bərdə şəhərində anadan olmuşdur. Goranboy şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna qəbul olunmuşdur. İnstitutu bitirdikdən sonra «Qaradağneft» Neft Mədənlər İdarəsində qazmaçı köməkçisi, qazmaçı və buruq ustası (1959-1967-ci illər) işləmişdir.

Z.T.Baharlı 1967–1970-ci illərdə Suriya Ərəb Respublikasına ezam olunmuş, orada böyük buruq ustası vəzifəsində çalışmışdır. Ezamiyyətdən qayıtdıqdan sonra (1970–1976) Səngəçal Dəniz Qazma İdarəsində buruq ustası, sahə rəisi, texniki şöbənin rəis müavini, 1976–1979-cu illərdə «Xəzərdənizqazma» İstehsalat Birliyində Üzən Qazma Qurğuları İdarəsində baş mühəndis vəzifəsində uğurla fəaliyyət göstərmişdir.

1976-1979-cu illərdə Z.T.Baharlı Üzən Qazma Qurğuları İdarəsində Baş mühəndis işləyərkən, o, Hollandiyadan gətirilən «Xəzər» və Həştərxan gəmi təmiri zavodundan alınan «Bakı» qazma qurğuları vasitəsilə Xəzərin Azərbaycan sektorunda bir çox dərin kəşfiyyat quyuları-

nın layihə dərinliklərinə çatdırılmasında uğurlu iş aparmış, gərgin əmək sərf etmişdir.

Z.T.Baharlı Xəzərin Türkmənistan sektorunda yerləşən, Azərbaycan mütəxəssisləri tərəfindən açılmış Şərqi-Livanov yatağından bir çox quyunun qazılmasına rəhbərlik etmiş, gənc kadrların yetişdirilməsində xüsusi fəallıq göstərmişdir.

Z.T. Baharlı sonralar «Şelf-1», «Şelf-2» və başqa üzən qurğularla qazılan quyulara bilavasitə rəhbərlik etmişdir.

Z.T.Baharlı 1979–1982-ci illərdə «Xəzərdənizqazma» İstehsalat Birliyində direktor müavini, 1982–1984-cü illərdə Azərbaycan Dövlət Neft Təchizatı Komitəsində sədr müavini, 1984-1996-cı illərdə «Dövlətyanacaq» Komitəsində Neft bazalarının və Yanacaqdoldurma Məntəqələrinin İstismarı İdarəsinin rəisi, 1996-2000-ci illərdə «Azərnefttəchizat» Birliyinin mühəndisi kimi məsul vəzifələrdə fəaliyyət göstərmişdir.

Z.T.Baharlı 2000-ci il noyabr ayının 17-dən Ağdam neft bazasının direktoru vəzifəsində işləyir. O, qayğıkeş ailə başçısıdır.

O, ictimai işlərdə fəallıq göstərir, YAP-ın üzvüdür. O illər yadımızdadır. 1992-ci ildə cənab Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri idi. Blokada şəraitində yaşayan Muxtar Respublikaya hər sahədə kömək lazım idi. O vaxtlar Z.T.Baharlı «Dövlətneftməhsulları» Komitəsində Neftbazaların və Yanacaqdoldurma Məntəqələrinin İstismarı İdarəsində şöbə rəisi işləyirdi. Komitə rəhbərləri özlərində cəsarət tapıb ora gedə bilmədilər, ancaq Zöhrab müəllim əlindən gələn köməyi əsirgəmədi. O, cəbhəçilərin hər cür təzyiqlərinə baxmayaraq Naxçıvana getdi. Müdrik insan, Heydər Əliyevlə üç gün ardıcıl olaraq görüşüb söhbət etdi. O böyük insanda gördüyü dahiliklə sadəliyin vəhdəti onu heyrətə gətirdi. O, çox sadə, başqaları kimi, həyat şəraitinə malik idi. Respublika üçün, xalq üçün böyük zəhmət çəkən dahi insan, fövqəladə zəka sahibinin belə sadə yaşayışı Zöhrab müəllimi heyrətə salmışdı.

O illər yalnız hava yolundan istifadə edən Naxçıvan həm də neft məhsulları sarıdan ciddi korluq çəkirdi. Zöhrab müəllim bu sahədə öz təklifini verdi, köməyini göstərdi. Çox çəkmədi ki, nazirliklərin və baş idarələrin köməyilə İran ərazisindən keçməklə, Naxçıvana neft məhsullarının tələbata görə göndərilməsinə başlanıldı. Bu işdə o vaxt Naxçıvan Neft Bazasının direktoru H. Əliyevə böyük məhəbbəti olan Akif Musayev gərgin əmək sərf etdi.

...Naxçıvanda sessiya keçirilirdi. Bakıdan köməyə gələnlərlə tanışlıq gedirdi. Bakıdan gələnlər öz ad və soyadlarını, hansı idarədən gəldiklərini, vəzifələrini yazıb H.Əliyevə təqdim edirdilər. Onda Zöhrab müəllim vəzifəsini şöbə müdiri yazdığı halda, H.Əliyev onu Dövlət Neft Məhsulları Komitəsinin sədr müavini kimi qeyd etdi. Onda Zöhrab



müəllim təəccüb etdi və yanında oturan Akif Musayeva baxdı. Akif müəllim dedi:

– Təəccüb eləmə, Heydər Əliyev 1982-ci ildə səni sədr müavini təsdiq etmişdimi?

– Bəli.

– Bax, onu sənə xatırladır. Səni tanıdığını bildirir.

Zöhrab müəllim rəhbərin yaddaşına məftun oldu. Sonra da Akif müəllim dedi:

– 20 il əvvəl mən Naxçıvanda «Badamlı»da direktor işləyəndə Heydər Əliyev ora gəlmişdi. Bu gün görüşəndə mənə dedi ki, sənin «Badamlı»da işlədiyin yadımdadır.

Zöhrab Talış oğlu Baharlı həmin illərdə Naxçıvanda olduğu günləri bu gün də xoş əhval-ruhiyyə ilə xatırlayır.



## İŞGÜZAR QADIN

Bağırova Ədilə Rəfi qızı 1942-ci il aprel ayının 19-da Bakı şəhərində hüquqşünas ailəsində anadan olmuşdur. 1950-ci ildə 14 saylı şəhər orta təhsil məktəbinə daxil olmuş və oranı 1960-cı ildə müvəffəqiyyətlə bitirdikdən sonra əmək fəaliyyətinə 1960-cı ildə Ə.Qarayev adına Neftayırma zavodunda operator köməkçisi kimi başlamışdır. İşdən ayrılmadan o, 1960-cı ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Kimya-Texnik fakultəsinin axşam şöbəsinə daxil olmuşdur. 1967-ci ildə institutu başa vurduqdan sonra XXII partiya qurultayı adına zavodun baş laboratoriyasına laborant göndərilmişdir. Az sonra isə Ə.Bağırova öz biliyi və bacarığı sayəsində şöbə rəisi vəzifəsinə irəli çəkilmişdir. O, hal-hazırda həmin vəzifədə səylə çalışır.

Ə.Bağırova «Azərneftyağ» İstehsalat Birliyinin Qadınlar Şurasına sədr seçilmişdir. O, Respublikanın «Əmək veteranı»dır.

Ə.Bağırova neftayırma sənayesində 40 ildən çox bir müddət ərzində qüsursuz işlərinə görə İstehsalat Birliyinin rəhbərliyi tərəfindən qiymətli hədiyyələrlə, fəxri fərmanlarla və pul mükafatları ilə mükafatlandırılmışdır. Yeni Azərbaycan Partiyası sex təşkilatının sədridir.

O, üç övlad anasıdır. Qızı anasının yolunu davam etdirir. Oğlanlarından biri həkim, o biri isə zərgər peşəsinə yiyələnmişlər.



## FAYDALI TƏKLİFLƏR

Bağırov Zeynal Şəki oğlu 1939-cu il fevral ayının 10-da Gədəbəy rayonunda kəndli ailəsində anadan olmuşdur. 1956-cı ildə orta təhsilini başa vurub Bakı şəhərinə gəlmiş və Qafur Məmmədov adına Dənizçilik texnikumunun mexanika şöbəsinə daxil olmuşdur. Həmin texnikumu 1959-cu ildə bitirərək, 1960-cı ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun (indiki Dövlət Neft Akademiyası) Kimya-Texnologiya fakultəsinə daxil olmuşdur. 1965-ci ildə oranı bitirib təyinatla Yeni Bakı Neftayırma zavodunda mühəndis kimi əmək fəaliyyətinə başlamış, orada neft emalı proseslərinin sirlərinə yiyələnmişdir. İşdə olan fəallığını görən zavodun rəhbərliyi onu zavod qurğularından birinə rəis təyin etmişdir. Qurğu rəisi işlədiyi müddətdə bir çox səmərəli təkliflər vermiş və onu həyata keçirmişdir. Qurğunun məhsuldarlığını artırmaq, keyfiyyətə nəzarət, qurğuda nəzarət-ölçü cihazlarının tətbiqi haqqındakı faydalı təklifləri xeyli iqtisadi səmərə vermişdir.

Z.Ş.Bağırov tezliklə həmin zavodda sex rəisi vəzifəsinə irəli çəkilmişdir. Sexdə olan müsbət irəliləyişləri görən Azərbaycan Neft Emalı və Neft-Kimya Nazirliyi Z.Ş.Bağırovu nazirliyin aparatına aparıcı mühəndis vəzifəsinə təyin etmişdir. Nazirlikdə o, 1975-ci ilə qədər işləmişdir. 1975-ci ildə Z.Ş.Bağırov yenidən Neft və Qaz zavoduna baş mühəndis müavini vəzifəsinə göndərilmişdir. O, həmişə olduğu kimi, yenə də işə can-başla yanaşaraq qurğuların məhsuldarlığının artırılması, alınan neft məhsullarının əlverişli üsulla istehlakçılara çatdırılması, yeni keyfiyyətdə sürtgü yağlarının alınması sahəsində bir sıra səmərəli işlər görmüşdür.

O, 1982-ci ildən «Azərneftyağ» İstehsalat Birliyində gənclik həvəsilə çalışır. Respublikanın Əmək veteranıdır. İşdə əldə etdiyi nailiyyət-

lərə görə «Azərneftyağ» İstehsalat Birliyinin rəhbərliyi tərəfindən dəfələrlə qiymətli mükafatlarla və Fəxri fərmanlarla təltif edilmişdir.

Üç övlad böyüdüb boya-başa çatdırmışdır.

Zeynal müəllim «Əsrin müqaviləsi»nin uğurla həyata keçirilməsində öz əmək payını verir, bundan qürur hissi keçirir.





## YER DƏRİNLİKLƏRİNİN KƏŞFİ ƏLAÇISI

Hacızadə Ziya Salman oğlu 1934-cü ildə Şəkidə anadan olmuşdur. 1951-ci ildə Bakı şəhər 1 saylı orta məktəbini bitirmişdir. Həmin ildə o, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsinə daxil olmuş və 1956-cı ildə təhsilini başa vurmuşdur. O, təyinatla «Neft daşları»na işə göndərilmiş, 1962-ci ilə qədər orada operator, mühəndis və böyük mühəndis vəzifələrində çalışmışdır.

Z.Hacızadə 1967-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunda «Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı» kafedrasında əyani aspiranturanı bitirmiş və görkəmli alim-professor B.İ.Sultanovun rəhbərliyi ilə institutun Geoloji-Kəşfiyyat fakültəsinin İxtisaslaşdırılmış Elmi Şurasında «Neftlilik-qazlılıqla əlaqədar olaraq, Abşeron vilayəti qərb kənar zonasında qırməkanaltı lay dəstəsinin hidrogeoloji və hidrokimyəvi xüsusiyyətləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bu mövzunun həmin sahənin neft yataqlarının işlənməsində müəyyən dərəcədə həm nəzəri, həm də praktik əhəmiyyəti olmuşdur, çünki belə hərtərəfli tədqiqat bu rayon üçün ilk dəfə aparılmışdır.

Namizədlik dissertasiyasını müdafiə etdikdən sonra Z.Hacızadə həmin kafedrada mühəndis, böyük mühəndis, elmi işçi vəzifələrində çalışmışdır. O, 1968–1972 və 1980–1981-ci illərdə Əlcəzair Respublikasının Bumerdes şəhərinin Neft İnstitutunda fransız dilində bir sıra geoloji fənlərdən dərs demişdir. 1972-ci ildən etibarən Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mədən geologiyası» kafedrasında dosent vəzifəsində çalışır. Bir sıra elmi konfranslarda hidrologiya üzrə məruzələr etmişdir. Onun 50-dən artıq elmi məqaləsi vardır ki, onlardan üçü Əlcəzairdə çap edilmişdir.

Z.Hacızadə bir sıra dərslik, dərs vəsaiti və metodik göstəricilərin

müəllifidir. 1981-ci ildə «Maarif» nəşriyyatı onun bir neçə müəlliflə birlikdə 27,8 çap listi həcmində «Neft-qaz axtarışı və neft-mədən geologiyası» dərsliyini çap etdirmişdir. Azərbaycan Neft Kimya İnstitutunun 1966-cı ildə «Hidrogeologiya» (3,5 ç.v.), 1979-cu ildə «Neft-qaz yataqlarının hidrologiyasının əsas məsələlərinə dair» (5 ç.v), «SSRİ-nin əsas neftli-qazlı artezian hövzələrinin hidrogeologiyası» (2,75 ç.v) dərs vəsaitləri çap olunmuşdur. Bunlardan əlavə o, neft və qaz ehtiyatlarının hesablanması, struktur geologiya, magistr kursunda təhsil alan tələbələr üçün neft yataqlarının işlənməsində hidrogeoloji nəzarət fənləri üzrə bir sıra metodik göstəriş və laboratoriya tapşırıqlarının müəllifidir.

Z.Hacızadənin elmi tədqiqatlarının neft və qaz yataqlarının səmərəli işlənməsində, istismarın tənzimlənməsində mühüm rolu vardır. O, Geoloji-Kəşfiyyat fakültəsinin dekan müavini və dekanı olmuşdur.

Z.Hacızadə 1991-ci ildə SSRİ Geologiya Nazirliyi tərəfindən «Yer dərinliklərinin kəşfi əlaçısı» nişanı ilə təltif edilmişdir.

Onun həm də nümunəvi ailəsi vardır. Həyat yoldaşı, özüylə həmsənət olan Ədilə xanım «Dənizdə neft-qaz çıxarma idarəsi»ndə aparıcı geoloq vəzifəsində çalışır. Onların birgə tərbiyə edib, boya-başa çatdırdıqları ali təhsilli iki övladları vardır: qızı həkimdir, oğlu isə valideynlərinin sənətini davam etdirir – geoloqdur və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində işləyir. Ailədə 4 nəvə böyüyür.





## ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİYİ TEXNİKASINA DİQQƏT

Əsgərov Kəmaləddin Əsəd oğlu 30 iyul 1932-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

O, 1950-ci ildə Gəncə Neft Texnikumuna daxil olmuş və 1953-cü ildə oranı bitirmişdir. Texnikumu bitirdikdən sonra Qobustan Qazma Kəşfiyyat Trestinin Nardaran–Süleyman Qazma Kəşfiyyat İşləri İdarəsində qazmaçı köməkçisi və 1953-cü ilin sentyabr ayından Kirov Neft Qazma kontorunda texnik işləmişdir.

1954-cü ildə Azərbaycan Neftçıxarma Elmi Tədqiqat İnstitutunun Qazma texnologiyası şöbəsində əvvəlcə texnik, sonra böyük texnik işləmiş və eyni zamanda Azərbaycan Neft-Kimya İnstitutunun Neft-Mədən fakültəsinin axşam şöbəsində oxumuşdur. 1960-cı ildə həmin fakültəni bitirdikdən sonra mühəndis vəzifəsinə keçirilmişdir. Azərbaycan Elmi-Tədqiqat Qazma İşləri İnstitutu təşkil edildikdən sonra, 1961-ci ildə həmin institutun aspiranturasına daxil olmuş, 1964-cü ildə aspiranturanı bitirmiş, sonra Qaradağneft NQÇİ-nin istehsalat elmi-tədqiqat sexində böyük mühəndis, «Abşeronqazma» işləri trestinin texnoloji şöbəsində böyük mühəndis, 2 saylı Qazma kontorunda rəis vəzifələrində çalışmışdır.

K.Ə. Əsgərov 1966-cı ildə M.Əzizbəyov adına Az.NKİ-da namizədlik dissertasiyası müdafiə etmiş, texniki elmlər namizədi adına layiq görülmüşdür. Onun ixtira etdiyi üç şaroşkalı baltalar 75 B 269 SQ Əlibayramlı qazma işləri kontorunda, Qaradağ 2 saylı Qazma işləri kontorunda tətbiq edilmiş və böyük səmərə vermişdir. Bundan başqa, hidrotexniki qurğuların tikintisində və təmirində istifadə olunan təlimat Vyetnamda və Azərbaycanda tətbiq olunmuşdur.

O, 1968-ci ildə müsabiqə yolu ilə C.İldırım adına Azərbaycan Politexnik İnstitutunun «Əmək mühafizəsi» kafedrasına dosent keçmiş,

1970-ci ildə isə dosent dərəcəsi almışdır. 1971-ci ildən 1982-ci ilə kimi həmin kafedranın müdiri olmuş, 16 dekabr 1988-ci ilə qədər dosent, sonra isə professor vəzifəsinə keçirilmişdir.

K.Ə.Əsgərov bütün illərdə kafedrada aparılan təsərrüfat və dövlət hesablı elmi-tədqiqat işlərinin rəhbəri olmuşdur. Onun apardığı bu işlərin nəticələri SSRİ-nin Manqışlaq, Əlibayramlı qazma kontorlarında tətbiq edilmiş və böyük iqtisadi səmərə vermişdir.

«Qoruyucu kəmərləri buraxmaq üçün yüngülləşdirilmiş xomut» hal-hazırda «Neft daşları»nda, «İliç» buxtasında tətbiq edilir və böyük iqtisadi səmərə verməkdədir.

K.Ə. Əsgərov 5 ixtiranın, 3 səmərələşdirici təklifin, 130 elmi əsər və məqalənin müəllifi, 19 elmi-metodik dərs vəsaitinin, 5 dərsliyin (4-ü rus dilində, 1-i Azərbaycan dilində ilk dərslikdir) elmi redaktorudur.

İctimai əsaslarla keçmiş SSRİ-nin Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-Metodik Sovetinin mühəndis ixtisası üzrə «Əmək mühafizəsi» bölməsinin üzvü, Azərbaycan Xalq Təhsili Nazirliyinin Elmi-Metodik Sovetinin «Əmək mühafizəsi» bölməsi üzrə sədr müavini, Azərbaycan həmkarlar Şurasının sənaye və kənd təsərrüfatı üzrə ixtira və səmərələşdirici təkliflərə baxan komissiyanın üzvü, Azərbaycan Politexnik İnstitutunun Elmi Sovetinin üzvü, institutun Elmi-Metodik Sovetində «Əmək mühafizəsi» bölməsinin üzvü olmuşdur. Bundan başqa o, Az.DƏMTTETİ-də də Elmi Sovetin üzvü olmuşdur.

Onun təklifləri və ixtiraları, apardığı elmi-tədqiqat işlərinin səmərəli nəticələri keçmiş QİYŞ ölkələrində istifadə olunmuşdur.

Hal-hazırda K.Ə. Əsgərov Azərbaycan Təhsil Nazirliyinin Elmi-Metodik Sovetinin «Yeraltı sərvətlərdən səmərəli istifadə və ətraf mühitin mühafizəsi» bölməsinin üzvüdür.

Azərbaycan Texniki Universitetində Elmi-Metodik Sovetin «Əmək mühafizəsi» bölməsində sədr müavini, eyni zamanda həmin ali məktəbin «Əmək mühafizəsi» kafedrasının professorudur.

K.Ə.Əsgərov 1953-cü ildən istehsalat – elmi-pedaqoji fəaliyyətlə məşğuldur.

Bütün bu illər ərzində rektorluq tərəfindən hər il ona təşəkkür elan edilmişdir. Əmək veteranıdır. «Neft sənayesinin 100 illiyi» medalı, keçmiş Həmkarlar Şurasının Fəxri Fərmanı ilə təltif edilmişdir. 5 il ardıcıl olaraq «Sosializm yarışının qalibi» nişanı almışdır.

O, Azərbaycan Dövlət Texniki Universitetində tələbələrin buraxılış imtahanlarında Dövlət Komissiyasının üzvüdür. K.Ə.Əsgərov Zaqafqaziya Elmi Konfransında, Rusiya Federasiyası Qubkin adına Neft və Qazçıxarma Akademiyasında, Sankt-Peterburq Politexnik İnstitutunda, xarici ölkələrdə, Hindistanda (Dehli, Bombey, Caypur, Aqra,



Mədrəs, Şri-Lanka Universitetlərində), Türkiyə Cumhuriyyətinin Atatürk adına Ərzurum Universitetində elmi məruzələrlə çıxış etmişdir.

K.Ə.Əsgərov 1997-ci ildən Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun (Az. DƏMTTETİ) direktoru vəzifəsində çalışmış, hazırda isə o, Azərbaycan Dövlət Texniki Universitetinin Sənaye Ekologiyası və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Kafedrasında professor vəzifəsində işləyir.



## TƏHLÜKƏSİZLİK TEXNİKASI PROBLEMLƏRİNƏ DİQQƏT

Əliyev Qasım Məmməd oğlu 22 aprel 1962-ci ildə Tovuz rayonunda qulluqçu ailəsində doğulmuşdur. O, 1979-cu ildə Bakı şəhərində 238 saylı orta məktəbi bitirdikdən sonra 81 saylı texniki peşə məktəbinə daxil olmuş və bu təhsil ocağını bitirdikdən sonra, Bakı məişət kondisionerləri zavodunda çilingər işləmişdir. Sonra 1983-cü ildə o, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsinə daxil olmuş, institutda oxuya-oxuya elmi-tədqiqat işlərində yaxından iştirak edərək, həm respublikada, həm də onun hüdudlarından kənarda elmi konfranslarda fəal iştirak etmiş, müxtəlif mükafatlara layiq görülmüşdür.

Q.M.Əliyev 1988-ci ildə institutu uğurla başa vuraraq, 1989-cu ildə, fakültənin Elmi Şurasının qərarı ilə həmin institutun aspiranturasına göndərilmişdir. O, aspiranturanı müvəffəqiyyətlə başa vuraraq, 1992-ci ilin fevral ayında namizədlik dissertayasını müdafiə etmiş, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Sonra da o, institutda bir müddət dərs demişdir.

1995-ci ildə Q.Əliyev AR EA Geologiya İnstitutunda çalışmışdır.

1996-cı ildən o, Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunda (Az.DƏMTTETİ) elmi işlər üzrə direktorun müavini işləyir. 2003-cü ildən həmin institutun direktoru vəzifəsini icra edir. Q.M.Əliyev 70-ə qədər elmi əsərin müəllifidir. Az.DƏMTTET institutunda çalışdığı müddətdə əməyin mühafizəsi və təhlükəsizlik texnikası sahəsində xeyli sayda qaydaların, standartların, təlimatların, metodik vəsaitlərin işlənilməsində birbaşa iştirak etmişdir. Burada yerinə yetirdiyi elmi-tədqiqat işlərinin tam əksəriyyəti Azərbaycanın neft sənayesi ilə bağlıdır.



Q.Əliyev ARDNŞ-in beş istehsalat birliyi üçün iri həcmli yanğın təhlükəsizliyi qaydalarının işlənilməsinə bilavasitə rəhbərlik etmişdir.Ümumiyyətlə, onun rəhbərliyi altında Azərbaycanın neft sənayesi üçün əməyin mühafizəsi və təhlükəsizlik texnikasına dair 100-ə yaxın milli normativ sənəd tərtib olunaraq nəşr olunub ARDNŞ-nin ayrı-ayrı qurumlarına təhvil verilmişdir. Onun rəhbərliyi ilə əməyin mühafizəsi və təhlükəsizlik texnikası problemlərinə dair (xüsusilə neft sənayesinin) iki Respublika və iki Beynəlxalq səviyyəli elmi-praktiki konfranslar, neft sənayesinin problemlərinə dair iki səyyar elmi-praktiki seminar keçirilmişdir.

Q.M. Əliyev 1998-ci ildə Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri fərmanına layiq görülmüşdür.

Hal-hazırda Q.Əliyev Az.DƏMTTET institutunda direktor vəzifəsini icra edərək öz elmi fəaliyyətini davam etdirir.

## O, ELMİ FƏALİYYƏTİNİ UĞURLA DAVAM ETDİRİR

Yusifova Xatirə İbrahim qızı 25 may 1946-ci ildə Ağdam şəhərində qulluqçu ailəsində doğulmuşdur. O, 1964-cü ildə Ağdam şəhər 5 saylı orta məktəbini bitirmiş, həmin ildə də M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft akademiyası) Neft-Mexanika fakültəsinə daxil olmuşdur.

X.İ.Yusifova 1969-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Neft-Mexanika fakültəsini bitirmiş, təyinatla, gənc mütəxəssis kimi Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutuna (ÜNETTTİ) indiki Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizük Texnikası Elmi-Tədqiqat İnstitutuna (Az-DƏMTTETİ) işə qəbul olunmuşdur.

O, əmək fəaliyyətinə qazma işlərinin təhlükəsizliyi laboratoriyasında elmi işçi kimi başlamış, mühəndis, böyük mühəndis, kiçik elmi işçi vəzifələrində çalışmışdır. 1990-cı ildə yeni yaranmış vışkaquraşdırma işlərinin təhlükəsizliyi laboratoriyasında işləmişdir. O, burada böyük elmi işçi vəzifəsinə kimi yüksəlmişdir.

1993-cü ildə institutun strukturu dəyişilmiş və laboratoriya «Yükqaldırma və quraşdırma işlərinin təhlükəsizliyi laboratoriyası» adlandırılmışdır.

X.İ.Yusifovanın ixtisası üzrə istehsalat və elmi iş stajı 34 il, o cümlədən Az.DƏMTTETİ-da 34 ildir.

İnstitutda işlədiyi illər ərzində X.İ.Yusifova 100-dən artıq elmi əsərin, rəhbər sənədlərin, standart və təlimatların müəllifi olmuşdur. 40 elmi əsəri çap edilmişdir, o cümlədən «Dənizdə iş zamanı fərdi xilasetmə vasitələri» kitabçası (Seriya: Dəniz neft və qaz quyularının qazılması, 5-ci buraxılış, Moskva 1980), və «Konteyner» (m.ş. № 1287694) ixtirası çap edilmişdir.



O, keçmiş SSRİ-nin «Tengiz» və «Janajol» yataqlarının işlənməsi ilə əlaqədar təhlükəsizlik problemlərinin həllində fəal iştirak etmişdir.

X.İ.Yusifova istehsalat birlikləri («Embaneft», «Nijnevoljskneft», «Aktyubinskneft» və «Saratovneftqaz») üçün fəhlə briqadasının əsas peşələri üzrə 13 təlimat, habelə «Vışkaquraşdırıcılar üçün əmək təhlükəsizliyi üzrə sahə təlimatları toplusu», «Mədən şəraitində qazma vışkalarının təhlükəsiz (dağıdıcı olmayan) sınaq üsulunun tətbiqi üçün müvəqqəti təlimat» – RD 39-094-91-in işlənilməsi və tətbiq edilməsində əsas icraçılardan biri olmuşdur. O, Ümumi təhlükəsizlik tələbləri (OST-39-258-83) neft sənayesi standartının da icraçısıdır.

X.İ.Yusifova, mədən şəraitində qazma və istismar vışkalarının təhlükəsiz (dağıdıcı olmayan) sınaq üsulunun əsas icraçılarından biri olmuşdur. Üsul keçmiş SSRİ XTNS-nin neft pavilyonunda (Moskva şəhəri) nümayiş etdirilmiş, həmin sərginin 1 qızıl və 4 gümüş medalı ilə təltif olunmuşdur. Bu üsul keçmiş SSRİ-nin müxtəlif neft regionlarında, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qazma və neftçıxarma müəssisələrində, həmçinin Hindistan və Vyetnam ölkələrində də geniş tətbiq olunmuşdur.

X.İ.Yusifova hal-hazırda Az.DƏMTTETİ-da öz elmi fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

## YENİ, TƏHLÜKƏSİZ SINAQ ÜSULU

Məmmədov Tahir Məmmədağa oğlu 1 iyul 1946-cı ildə Bakı şəhərində qulluqçu ailəsində doğulmuşdur. O, 1964-cü ildə 189 saylı onbirillik orta məktəbi, 1970-ci ildə isə Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Neft-Mexanika fakültəsini bitirmişdir. Elə həmin il təyinatla, gənc mütəxəssis kimi Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutuna (ÜNETTTİ) indiki Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutuna (Az.DƏMTTETİ) işə qəbul olunmuşdur.

O, əmək fəaliyyətinə qazma işlərinin təhlükəsizliyi laboratoriyasında mühəndis kimi başlamış, həmin laboratoriyada böyük elmi işçi vəzifəsinə qədər yüksəlmişdir.

1990-cı ildə yeni yaranmış vışkaquraşdırma işlərinin təhlükəsizliyi laboratoriyasına müdir təyin edilmişdir.

1993-cü ildə institut Azərbaycan Respublikası Dövlətdağtexnəzarət komitəsinin tabeliyinə keçdikdən sonra struktur dəyişikliyi aparıldığından laboratoriyanın adı və iş istiqaməti dəyişilmişdir, laboratoriya indi «Yükqaldırma və quraşdırma işlərinin təhlükəsizliyi laboratoriyası» adlandırılmışdır.

İxtisası üzrə istehsalat və elmi iş stajı 33 il, o cümlədən Az.DƏMTETİ-da 33 ildir.

O, institutda işlədiyi illər ərzində 200-dən artıq elmi-tədqiqat və təcrübi-konstruktor işlərində iştirak etmişdir.

T.M.Məmmədov quyuların qazılması və qazmada tikinti-quraşdırma işlərində əmək mühafizəsi və təhlükəsizlik texnikası sahəsində bir çox elmi-tədqiqatlar aparmış və bunların əsasında bilavasitə onun rəhbərliyi ilə bir sıra texniki qurğular, tərtibatlar və texnoloji üsullar işlənib hazırlanmışdır. Belə ki, 70-ci illərdə onun tərəfindən müxtəlif tipli qazma qurğularında səs-küyün və titrəyişin səviyyəsi üzrə elmi-tədqiqat işləri aparılmışdır. Aparılmış tədqiqatların əsasında bir sıra təşkilati, təşkilati-texniki tədbirlər, qazma briqadası üzvləri üçün iş yerlərində səs-küyün və titrəyişin səviyyəsini azaldan qurğular: «Titrəyişdən təcrid edən meydança» və «Titrəyişdən təcrid edən xamıt» işlənib hazırlanmışdır. Bu qurğular keçmiş SSRİ XTNS-nin (Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi) 2 bürünc medalı ilə təltif edilmiş və neft regionlarının qazma müəssisələrində geniş tətbiq olunmuşdur.

80-ci illərdə T.M.Məmmədov bir sıra texnoloji proseslərdə elmi-tədqiqat işləri aparmışdır: qoruyucu kəmərlərin quyuya buraxılması, quyuların qazılması prosesində AQB (Ağırlaşdırılmış Qazma Boruları) ilə işləyəndə, aparıcı borunun qoyulması üçün turboburla şurfun qazılması, habelə şaquli vəziyyətdə qazma vışkalarının təhlükəsiz dartılıb gətirilməsi və s.

Aparılmış elmi-tədqiqat işlərinin əsasında bu texnoloji proseslərin təhlükəsiz yerinə yetirilməsini reqlament edən bir çox normativ-texniki sənədlər işlənmiş, qazma və vışkaquraşdırma briqadaları üzvləri üçün təhlükəsiz şərait yaradılmasına yönəldilmiş konstruktiv qurğular və tərtibatlar yaradılmışdır. Bunlara «Qoruyucu kəmərlərin quyuya təhlükəsiz buraxılması üçün tərtibatlar kompleksi», «Əlavə, uzunlaşmış şurfa AQB-nı qoymaq üçün qurğu», «Şurf qazmaq üçün qurğu», «Şaquli vəziyyətdə qazma vışkalarının təhlükəsiz dartılıb gətirilməsi üçün tərtibat», «Qoruyucu diyircək» və s. aiddir.

Bu qurğu və tərtibatlar müxtəlif sərgilərdə (o cümlədən XTNS-də) və yarmarkalarda nümayiş etdirilmiş, həmin müsabiqələrin diplomlarını almış və bir sıra keçmiş SSRİ neft rayonlarında geniş tətbiq olunmuşdur.

Son illərdə bilavasitə onun iştirakı ilə mədən şəraitində qazma vışkalarının prinsipcə yeni təhlükəsiz (dağıdıcı olmayan) sınaq üsulu işlənmişdir. Üsul idarələrarası dövlət komissiyası tərəfindən qəbul edilmiş və keçmiş SSRİ-nin Neft Sənayesi Nazirliyi, Geologiya Nazirliyi və Qaz Sənayesi Konsernin qazma müəssisələrində geniş tətbiq edilmək üçün tövsiyə olunmuşdur.

Üsul keçmiş SSRİ-nin müxtəlif neft regionlarında «Belorusneft», «Ukrneft», «Komineft», «Gürcüneft», «Türkmənneft», «Tacikneft» istehsalat birliklərində, «Uxtaneftqazgeologiya», «Yeniseyneftqazgeologiya», «Lenaneftqazgeologiya» Geologiya istehsalat birliklərində, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qazma və neftçıxarma müəssisələrində geniş tətbiq olunmuşdur. Bundan başqa bu üsul Hindistan və Vyetnam kimi ölkələrdə də tətbiq olunmuşdur.

Üsul neftçilər tərəfindən yüksək qiymətləndirilmiş, onun köməyi ilə 5000-dən artıq, o cümlədən Azərbaycanda 1000-dən artıq vışka sınaqdan keçirilmişdir. Üsul XTNS-nin neft pavilyonunda (Moskva şəhəri) nümayiş etdirilmiş və bu işləməyə görə T.M.Məmmədov 1 qızıl və 1 gümüş medalla təltif edilmişdir.

Bu üsulla 1 vışkanın sınaqdan keçirilməsi 150 mln. manat iqtisadi səmərə verir.

Bu üsul dünya praktikasında analoqu olmayan bir üsuldur. Burada kompüter texnikasından istifadə olunması, indiki zamanda həm quruda, həm də dənizdə qazma və istismar işlərinin həcminin artdığı bir vaxtda, onun texniki göstəricilərini və tətbiqinin perspektivliyini əhəmiyyətli dərəcədə artırmışdır.

O, quyuların qazılması və qazmada tikinti-quraşdırma işlərində əmək mühafizəsi və təhlükəsizlik texnikası sahəsində 100-dən çox əhəmiyyətli normativ-texniki sənədlərin: «Neft və qazçıxarma sənayesində təhlükəsizlik qaydaları», ƏTSS «Neft və qaz quyularının qazılması, Ümumi təhlükəsizlik tələbləri. OST 39-158-83», «Neft və qazçıxarma avadanlıqlarının əsas növlərinin işlənməsində vahid təhlükəsizlik texnikası normaları. RD 39-32-617-81», «Xüsusi briqadalarla vışkaların yoxlanmasında metodik göstərişlər RD 39-22-180-79», Mədən şəraitində qazma vışkalarının təhlükəsiz təmir edilməsində metodik göstərişlər RD 39-22-850-82», «Əmək təhlükəsizliyi normativ-texniki sənədlərinin tərtib edilməsində metodik göstərişlər, RDBT 39-0147171-001-86», habelə işlərin növləri, qazma və vışkaquraşdırma briqadası üzvlərinin əsas peşələrinin təhlükəsizliyi üzrə bir sıra sahə təlimatlarının yaradılmasında iştirak etmiş və bir çoxunun müəllifidir.

T.M.Məmmədov 200 elmi əsərin müəllifidir ki, onlardan 150-dən çoxu nəşr edilmişdir. Bir neçə ixtirası vardır.

T.M.Məmmədov hal-hazırda Az.DƏMTTETİ-da öz elmi fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.



## EKSPERİMENTAL QURĞU

Quliyev Ramiz Böyükağa oğlu 1946-cı ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 39 saylı orta məktəbi, sonra da Azərbaycan Neft və Kimya İnstitutunun Neft-Mexanika fakültəsinin əyani şöbəsini 1970-ci ildə bitirmişdir. Təyinatla Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutuna elmi işçi vəzifəsinə təyin olunmuşdur. 1974-cü ildə aspiranturaya daxil olmuşdur. Dissertasiya mövzusu yüksək təzyiq və temperatur şəraitində qazma alətinin tutulması mexanizminin araşdırılması və tutulmaların effektiv ləğvi üçün tədbirlərin işlənməsinə həsr edilmişdir. O, tutulmaların mexanizminin araşdırılması üçün ixtira səviyyəsində işlənmiş, keçmiş İttifaq məkanında vahid olan, eksperimental qurğu layihəsi hazırlamışdır. Eksperimental tədqiqatlar ilk dəfə tutulma mexanizminin açılmasına imkan verdi və nəticədə, ixtira səviyyəsində effektiv maye vannaları işlənib, istehsalatda uğurla sınaqdan çıxarıldı, tutulmuş qazma alətinin təhlükəsiz azad edilməsi üçün bir sıra normativ sənədlər işlənib hazırlandı və İttifaq məkanında geniş tətbiq edildi.

R.B.Quliyev təhlükəli anları aradan qaldırmaq məqsədilə ixtira səviyyəsində qazma şamlarının rotordan şamaltına yönəldən qurğu işləyib hazırlamışdır.

Qurğu keçmiş Kuybışev şəhərinin Otradnı təmir-mexaniki zavodunda istehsal edilirdi. Qurğu ÜXTNS-nin bürünc medalına layiq görülmüşdür.

1978-ci ildə «Dərin quyularda boruların tutulmasının aradan qaldırılması sahəsindəki səmərəli tədbirlər yaradılması» işinə görə R.B.Quliyev respublika Lenin komsomolu mükafatı ilə təltif edilmişdir.

O, 1980-ci illərin ortalarında «Tengiz» (Qazaxıstan) kükürd-hidrogen tərkibli yataqların işlənməsi problemləri ilə bağlı təhlükəsiz-

lik texnologiyasının əsasları üzərində işləmişdir. Qazma prosesinin təhlükəsiz aparılması məqsədi ilə 10-dan artıq normativ-texniki sənədlər işləyib hazırlamışdır. Hidrogen-sülfid tərkibli yataqların qazılmasında çıxarılan süxur nümunələrinin təhlükəsiz nəqli və saxlanılması üçün ixtira səviyyəsində xüsusi konteynerlərin konstuksiyalarını işləyib hazırlamışdır. Konteynerlərə olan tələbatı təmin etmək məqsədi ilə institut eksperimental zavodunda onların istehsalı təşkil olunmuşdur. 1989-cu ildə konteyner ÜXTNS-nin Neft pavilyonunda nümayiş etdirilmiş və gümüş medala layiq görülmüşdür.

R.B.Quliyev SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən «SSRİ neft sənayesinin əlaçısı» döş nişanı ilə təltif olunmuşdur.

1987-ci ildə Ufa şəhərinin Neft İnstitutunda namizədlik dissertasiyası müdafiə etmiş, texniki elmlər namizədi adı, 1990-cı illərdə böyük elmi işçi adı almışdır.

O, 1984–1994-cü illərdə institutun texniki-məlumat və patent-lisenziya şöbəsinin müdiri, 1994–1996-cı illərdə institutun direktor müavini vəzifəsində işləmişdir.

R.B.Quliyev, 1996-cı ildən institutun texniki-məlumat şöbəsinin müdiri vəzifəsində çalışır.

Ramiz müəllim 100-dən artıq elmi əsərin, 14 ixtiranın və 2 patentin, 3 kitabçanın müəllifidir.



## QAZIN NƏQLƏ HAZIRLANMASI TEXNOLOGİYASI

Əbdülhəsənov Abbas Zeynalabdin oğlu 7 sentyabr 1946-cı ildə Naxçıvan MR-nın Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdur. «Dəniz neftqazlayihə» DETLİ-nin «Səthi-aktiv maddələrin yaradılması, tətbiqi və neftlərin tədqiqi» laboratoriyasının aparıcı elmi işçisi, texnika elmləri namizədidir.

Əbdülhəsənov Abbas 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. 1968–1995-ci illərdə o, Azərbaycan Qaz Problemləri İnstitutunda mühəndis, kiçik elmi işçi, baş elmi işçi və laboratoriya müdiri işləmişdir.

1985-ci ildə «Qaz və yanacağın kimyası texnologiyası» mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

1995-ci ildə müsabiqə yolu ilə, «Dəniz neftqazlayihə» DETLİ-nin «Səthi-aktiv maddələrin yaradılması, tətbiqi və neftlərin tədqiqi» laboratoriyasının baş elmi işçisi vəzifəsini tutmuş və 1998-ci ildən aparıcı elmi işçi vəzifəsində çalışır. A.Z.Əbdülhəsənov laboratoriyada yerinə yetirilən elmi müqavilələrin məsul icraçısıdır. Neft və qazın çıxarılması, yığılması və nəqlə hazırlanması vaxtı qarşıya çıxan texnoloji çətinlikləri aradan qaldırmaq üçün onun bir çox müəlliflik ixtirası, patent və təklifləri neft-qaz mədənlərində geniş tətbiq olunur.

Onun birbaşa iştirakı ilə respublikamızın qaz-kondensat mədənlərində təbii qazın nəqlə hazırlanması üçün yerli kimya məhsulları əsasında xaricdən alınan metil spirti və dietilen qlikolu əvəz edən effektli, ekoloji cəhətdən təmiz izopropil spirti və propilen qlikol reagentləri işlənib hazırlanmış və sənayedə tətbiq edilmişdir.

Onun 1995–2000-ci illərdə patentinin tətbiqindən xeyli iqtisadi səmərə əldə olunmuşdur.

A.Z.Əbdülhəsənov qazların nəqlə hazırlanması texnologiyası sahə-

sində yüksək ixtisaslı mütəxəssisdir. O, bu sahədə doktorluq dissertasiyası yazır.

A.Z. Əbdülhəsənov 72 elmi işin, o cümlədən 10 müəlliflik şəhadətnaməsi, 10 patent və 1 monoqrafiyanın müəllifidir. O, müntəzəm olaraq institutun və bölmənin elmi şurasında, konfranslarında məruzələrlə çıxış edir.





## FUNDAMENTAL XARAKTERLİ İŞLƏR

Həsənov İskəndər Zeynal oğlu 1938-ci ildə Ağcabədi rayonunun Qaradolax kəndində anadan olmuşdur. O, 1955-ci ildə rayonda orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuş və 1960-cı ildə «Neft və qaz yataqlarının işlənməsi» ixtisası üzrə dağ mühəndisi ixtisası almışdır.

İnstitutu bitirdikdən sonra o, təyinatla «Əzizbəyovneft» NMİ-nin 3 saylı qazma kontorunda işə qəbul olunmuş və orada 1967-ci ilə qədər qazmaçı köməkçisi, qazmaçı, buruq ustası, sahə rəisi, texniki-istehsalat şöbəsində böyük mühəndis və şöbənin rəisi vəzifələrində işləmişdir.

İ.Z.Həsənov 1960–1967-ci illərdə Zirə neft yatağında böyük dərinlikli (5000–5500 m) quyuların müvəffəqiyyətlə qazılması və istismara verilməsi üçün görülən tədbirlərdə fəal iştirak etmişdir. Onun rəhbərlik etdiyi gənc komsomolçular briqadasının kollektivi o dövrün təcrübəli qazmaçıları – usta Zeynal Rüstəmovun, Qriqori Bulavinin, sosialist əməyi qəhrəmanı Ağadadaş Kərbalayı oğlunun əmək kollektivləri ilə yarışaraq böyük dərinliyə qazılmış quyuların kommersiya sürətlərinin artırılmasına nail olmuşdur. Onun rəhbərliyi ilə böyükdiametrli qoruyucu kəmərlərin böyük dərinliyə (3000 m-dən çox) buraxılması o dövrdə Avropada rekord göstərici kimi tanınmışdır.

İ.Z.Həsənov 1967–1970-ci illərdə Səngəçal-dəniz, Duvannı-dəniz sahələrində TİŞ-nin rəisi kimi maili quyuların qazılmasına rəhbərlik etmiş, fərdi özüllərdən və estakada üzərində yerləşən hər meydançadan bir şaquli və iki maili quyuların qəzasız və sürətlə qazılmasına elmi-təcrübi köməklik göstərmişdir.

İ.Z.Həsənov 1969-cu ilin dekabrında indiki ADNA-nın «Neft və qaz quyularının qazılması» kafedrasında aspiranturanın əyani şöbəsinə

daxil olmuş və kafedranın müdiri, dünya miqyaslı alim, akademik M.P.Quluzadənin rəhbərliyi altında elmi fəaliyyətə başlamışdır.

İ.Z.Həsənov 1975-ci ildə «Dərin maili quyuların mürəkkəbləşmiş şəraitdə qazılması texnologiyasının tədqiqi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, elmlər namizədi alimlik dərəcəsi almışdır.

1973–1980-ci illərdə o, kafedranın «Böyük dərinlikli quyuların qazma texnologiyası» problem laboratoriyasında böyük mühəndis, Baş elmi işçi, aparıcı elmi işçi və laboratoriya müdiri vəzifələrində çalışmışdır. Bu illərdə o, həmçinin Azərbaycan Neft və Kimya İnstitutu – «Xəzərdənizneftqazsənaye» ÜİB (Ümumittifaq İstehsalat Birliyi) ETİK (Elmi Tədqiqat İstehsalat Kompleksi) üzrə bağlanmış bir sıra təsərrüfat müqavilələrinə rəhbərlik etmiş və ETİ-nin nəticələrinin təsdiq olunmuş «Texnoloji reqlament» şəklində 28 Aprel (indiki Günəşli) yatağında 3,4,5,6,8,9,10,11,14 və 15 saylı DSDÖ-də (Dərin Stasionar Dəniz Özülləri) qazılmış quyularda – tətbiq olunmasına nail olmuşdur. O, hər özüldən qazılan küt (22–24-ə qədər) quyuların lülələrinin görüşməməsi, qəzasız və sürətlə qazılması üçün qazmaçılara yaxından köməklik göstərmişdir.

İ.Z.Həsənov 1973-cü ildən başlayaraq kafedrada tədris-metodik işlərlə və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1980-cı ildə o, konkursla dosent vəzifəsinə seçilmiş, elmi-pedaqoji fəaliyyətini davam etdirir. Dosent işlədiyi müddətdə o, bir sıra fənlər üzrə mühazirələrin konspektini və «Maili quyuların qazılması», «Elmi tədqiqatların əsasları» və «Üfüqi quyuların qazılması texnologiyası» kursları üzrə isə mühazirə və məşğələ dərsləri üçün proqramlar və konspekt işləyib hazırlamışdır.

O, 1998-ci ildən «Dənizneftqazlayihə» DETLİ-nin maili istiqamətli qazma laboratoriyasında aparıcı elmi işçi vəzifəsində çalışır.

İ.Z.Həsənov 120-dən çox elmi işin müəllifidir. Onlardan 78 elmi məqalə, 12 tədris-metodik işləri, 13 texnoloji reqlament, 5 rəhbər sənəd, təlimat və müəssisə standartı, 3 kitab, 2 müəlliflik şəhadətnaməsi və onlarla səmərəli təklifləri göstərmək olar.

İ.Z.Həsənovun böyük elmi və təcrübi əhəmiyyət kəsb edən aşağıdakı işləri fundamental xarakter daşıyır.

– müxtəlif yığımlarla izotrop və anizotrop süxurları qazıdıqda quyuların əyriliyinin riyazi modelinin işlənməsi;

– maili, üfüqi, çoxdibli və çoxşaxəli lüləli quyuların layihə trasalarının optimal variantlarının seçilməsi və hesablanması üsulunun işlənməsi;

– quyuların əyriliyinin idarə edilməsi və tənzimlənməsi üçün operativ qərarların qəbul edilməsi üsulunun işlənməsi;

– quyuların təbii əyilməsini proqnozlaşdırmağın riyazi modelinin işlənməsi.



İ.Z.Həsənovun elmi tədqiqatlarının nəticələrinin bir hissəsi 1990-cı ildə Moskvada «Nedra» nəşriyyatında çap edilmiş «Maili quyuların qazılması» soraq (məlumat) kitabına daxil edilmiş, digər hissələri isə Azərbaycan respublikasında metodiki göstəriş, təlimat, texnoloji reqlament, rəhbər normativ sənəd və kitab şəklində nəşr edilmişdir.

O, qazmanın müxtəlif sahələrinə həsr olunmuş çoxlu sayda Ümumittifaq konfransların və seminarların iştirakçısı olmuşdur.

İ.Z.Həsənov ADNA-da namizədlik dissertasiyası üzrə ixtisaslaşdırılmış şuranın üzvüdür. Onun elmi rəhbərliyi ilə 3 magistr, 5 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Onun yetişdirdiyi mütəxəssislər hal-hazırda İndoneziyada, Vyetnamda, Rusiyada (VNİİTB, Tümen), Qazaxıstanda («Manqışlakneft» İB-də), Ukraynada (Borislav Qİİ-də) və respublikanın müxtəlif qazma idarələrində məsul vəzifələrdə çalışırlar.

İ.Z.Həsənov hazırda Doktorluq dissertasiyasını işləyib başa çatdırmışdır və onu müdafiə etməyə hazırlaşır. O, maili istiqamətli, üfüqi və çoxdibli (və ya gövdəli) quyuların qazılması üzrə yüksək biliyə və zəngin təcrübəyə malik mütəxəssis və müəllim kimi tanınır.

ETİ-nin nəticələrinin istehsalatda müvəffəqiyyətlə tətbiqinə, Neft Akademiyasında tədrisin keyfiyyətinin yaxşılaşdırılması və «Xəzərdənizneftqazsənaye» (indiki Dənizdə NQÇ İB) üçün yüksəkixtisaslı kadrların hazırlanması ilə əlaqədar olaraq İ.Z.Həsənov Neft Sənayesi Nazirliyi tərəfindən «Neft sənayesi əlaçısı» nişanı və Neft və Qaz Sənayesi fəhlə həmkarlar ittifaqı mərkəzi komitəsinin fəxri fərmanı ilə təltif edilmişdir.



## SEVİMLİ PEŞƏYƏ HƏSR OLUNMUŞ HƏYAT

Azərbaycan dünyada ilk neft istehsal edən ölkə olduğu üçün neft sənayesi uzun illər Respublikamızın əsasını təşkil edib və indi də onun rolu ölkəmizdə günü-gündən artır. Elə buna görə də Azərbaycanda ömürlərinin çox hissəsini neft-qaz sənayesinin dirçəlməsinə həsr etmiş yüksək səviyyəli neftçi alimlər yetişmişdir.

Haqqında danışacağımız belə şəxsiyyətlər sırasına ömrünün 45 ilindən çoxunu neft-qaz sənayesinin inkişafına həsr etmiş və bu sahədə xüsusi xidmətləri olan tanınmış alim, texnika elmləri doktoru Minəxanım Əliağa qızı Mürsəlovadır.

M.Ə.Mürsəlova 1932-ci il avqust ayının 10-da Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1950-ci ildə 46 saylı orta məktəbi gümüş medalla bitirdikdən sonra, həmin ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun neft texnologiyası fakültəsinə daxil olub. 1955-ci ildə institutu bitirdikdən sonra 1958-ci ilə qədər Yeni Neftayırma zavodunda operator və baş operator işləmişdir.

Hələ tələbə ikən elmi-tədqiqat işlərinə böyük maraq göstərdiyi üçün istehsalat təcrübəsi qazandıqdan sonra 1958-ci ildən 1974-cü ilə qədər Azərbaycan Elmlər Akademiyasının Neft İnstitutunda, Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda və onun Sumqayıt filialında kiçik və baş elmi işçi vəzifələrində fəaliyyətdə olmuşdur.

M.Ə.Mürsəlova 1974–95-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Layihə Qaz İnstitutunda baş elmi işçi, laboratoriya müdiri və elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. 1995-ci ildən Dəniznefqazlayihə DETLİ-də «Səthi-aktiv maddələrin yaradılması, tətbiqi və neftin tədqiqi laboratoriyası»nın müdiri vəzifəsində çalışır.



M.Ə.Mürsəlova 1965-ci ildə «Alkilbenzolsulfatlar və onların sinergetik kompozisiyalarının xassələrinə aktiv əlavələrin təsirinin tədqiqi» mövzusunda namizədlik, 1996-cı ildə isə «Neft, qaz kondensatı yataqları üçün çoxfunksiyalı parafin və duz çökmə inhibatorları» mövzusunda neft kimyası ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.

M.Ə.Mürsəlova çox maraqlı və zəngin həyat yolu keçmişdir. Onun hansı təşkilatda işləməsindən asılı olmayaraq 45 illik elmi fəaliyyəti yalnız səthi-aktiv maddələr ilə bağlı olmuş və bu illər ərzində ardıcıl olaraq suda və neftdə həll olan yüksək effektivli yeni inhibatorların yaradılmasına həsr olunmuşdur.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə müxtəlif məqsədlər üçün bir sıra yeni səthi-aktiv maddələr yaradılıb, elmi-cəhətdən əsaslandırılmışdır. Son vaxtlar o, bu istiqamətdəki yaradıcılıq işlərini davam etdirərək neft-qaz yataqlarında parafin və duz çökmələrinin qarşısını almaq üçün ixtira səviyyəsində yeni, çoxfunksiyalı inhibatorlar yaratmışdır ki, bunlar da uzun illərdir ki, nəinki Azərbaycanda, eləcədə Rusiyada (Orenburqda), Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda və digər regionlarda sənaye miqyasında yüksək iqtisadi səmərə ilə tətbiq edilir. Bu reagentlərdən – DİR-A, Azolyat və s. qeyd etmək olar.

Təkcə onu qeyd etmək kifayətdir ki, M.Ə.Mürsəlovanın yaratdığı DİP reagentinin hesabına Qazaxıstan Respublikasında fəaliyyət göstərən nəhəng «Karaçanaq» qaz-kondensat yatağı üç il fasiləsiz olaraq işləmişdir. Bu reagentin effektivliyini və qaz-kondensat yataqlarının işlənməsi üçün, vacibliyini nəzərə alaraq, Azərbaycan Qaz Problemləri İnstitutunun bazasında xüsusi qurğu hazırlanaraq reagentin sənaye miqyasında istehsalı təşkil edilmişdir.

Alimin uzun illər apardığı axtarışlar nəticəsində yaratdığı yeni Azolyat reagenti də Türkmənistanın Şatlık qaz-kondensat yatağında başqa bir istiqamətdə – parafin-hidrat birləşmələrinə qarşı istifadəsindən ən yüksək nəticələr əldə edilmişdir.

Ümumiyyətlə, M.Ə.Mürsəlovanın rəhbərlik etdiyi kompleks asfaltqətran-parafin birləşmələri, duz və hidrat çökmələrinə qarşı yaradılmış yeni səthi-aktiv inhibatorlar Dənizdə Neft Qazçıxarma İstehsalat Birliyinin mədənlərində tətbiq edilərək quyuların səmərəli və fasiləsiz işləməsini və sistemdə yaranan çətinliklərin qarşısının alınmasını təmin edir. Bunlardan lift borularını təmizləmək üçün A-95, A-98 reagenti, dərin neft kəmərlərini duz və asfalt parafin çökünlərindən təmizləmək üçün LSP, KAZ-1 və s. reagentlər fasiləsiz olaraq istifadə olunur. Yaradılmış kompleks inhibatorlar Orenburq qaz emalı zavodunda metanolun regenerasiyası sistemində və kondensatın nəqlində də geniş masştabda istifadə olunur.

Alimin yaradıcılığı ilə tanış olduqda görürük ki, onun elmi-tədqiqat

spektri nisbətən genişdir. O, həmişə istehsalata bağlı olmuş və yaranan operativ tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmişdir.

M.Ə.Mürsəlova uzun illər apardığı elmi-tədqiqat işlərini Respublikanın və keçmiş SSRİ-nin elmi mərkəzləri ilə sıx əlaqədə olaraq yerinə yetirmişdir.

M.Ə.Mürsəlova uzun illər fasiləsiz olaraq apardığı elmi-tədqiqat işlərinin nəticələri ilə dəfələrlə Beynəlxalq və Ümumittifaq konfranslarda və simpoziumlarda çıxış etmişdir. O, 200-dən çox elmi məqalənin, 45 ixtira və patentin müəllifidir.

Onun patent və müəlliflik şəhadətnaməsinin 7-si hazırda keçmiş SSRİ məkanındakı neft-qaz yataqlarında tətbiq edilir.

M.Ə.Mürsəlovanın rəhbərliyi altında bir elmlər doktoru və bir neçə elmlər namizədi hazırlanmışdır.

Hazırda M.Ə.Mürsəlova «Neft-kimya» sahəsində elmi dərəcələrin verilməsi üzrə Azərbaycan Neft-Kimya Prosesləri İnstitutunda Elmi Şuranın üzvüdür və «Neft və qaz» yataqlarının işlənməsi və istismarı» sahəsində Neft Akademiyasının Xüsusi Elmi Şurasının elmi katibidir. O, dəfələrlə şəhər və rayon sovetlərini deputatı, Respublika Komsomolu Mərkəzi Komitəsinin plenumunun üzvü seçilmiş və digər ictimai işlərdə çalışmışdır.

M.Ə.Mürsəlovanın əməyi layiqincə qiymətləndirilmiş, o, «Neft və qaz sənayesinin əməkdar işçisi», «SSRİ ixtiraçısı», «SSRİ Qaz-Sənayesi Nazirliyinin ən yaxşı ixtiraçısı» adlarına və dəfələrlə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medallarına layiq görülmüşdür.





## UĞURLU YOL

Azərbaycan Respublikasının Xəzər dənizi sektorunda «Xəzərdənizneftgeofizika» tresti mədən-geofizika tədqiqatlarını aparan yeganə müəssisədir. Trestin kollektivi Dövlət Neft Şirkətinin idarə və müəssisələri arasında həmişə qabaqcıllar sırasında olmuş, trest işçiləri öz bacarıqları, fəallıqları və yüksək peşəkarlıqları ilə fərqlənmişlər. Onlardan biri də Taleh Cahangir oğlu Həsənovdur.

Taleh Həsənov 9 may 1954-cü ildə Sabirabad rayonunda anadan olmuşdur. 1971-ci ildə orta məktəbi, 1976-cı ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmişdir. İnstitutda təhsil alarkən, 1974 ilin iyun ayından 1976-cı ilin may ayına kimi «Azneftgeofizika» trestində fəhlə və karotajçı-perforatorçu işləmiş, institutu bitirdikdən sonra təyinatla Tümen vilayətinin Tarko-Sale neft kəşfiyyat ekspedisiyasına göndərilmişdir. Bu ekspedisiyada 1976-cı ilin avqustundan 1977-ci ilin iyuluna qədər fəhlə, mühəndis-geofizik işləmişdir. 1977-ci ildən 1985-ci ilə qədər Urenqoy geofiziki ekspedisiyasında geofizik, karotaj-perforator rəisi, Tarko-Sale geofiziki işlər partiyasının rəisi, ekspedisiyasının geologiya-geofizika şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1985-ci ilin oktyabr ayında o, Azərbaycana qayıtmış və həmin vaxtdan «Xəzərdənizneftgeofizika» trestində işləyir. 1985–1996-cı illərdə trestin Səngəçal Dəniz Mədən Geofizika Ekspedisiyasında geofizik, mədən-geofizika dəstəsinin rəisi, ekspedisiya rəisi vəzifələrində çalışmış, 1996-cı ildən 2003-cü ilə qədər trestin baş mühəndisi vəzifəsində fəaliyyət göstərmişdir.

Trestin texniki rəhbəri kimi o, Xəzər dənizi şelfində aparılan mədən-geofiziki tədqiqatların keyfiyyət və operativlik səviyyəsinin tələb

olunan standartlara çatdırılmasına nail olmuşdur. Bu məqsədlə yeni texnika və texnologiyanın tətbiqi sürətləndirilmişdir. İstehsalatda T.Həsənovun bir neçə səmərələşdirici təklifi tətbiq edilmişdir. Trestdə işlədiyi dövrdə, xüsusən, baş mühəndis kimi T.Həsənov dərin texniki savada, gözəl insani keyfiyyətlərə və yüksək mədəniyyətə malik olduğunu göstərmişdir.

T.Həsənov kollektivdə, ümumən dəniz geofizikləri arasında böyük hörmət qazanmışdır. Onun bütün bu keyfiyyətləri Dövlət Neft Şirkəti, Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyi rəhbərliyi, trest kollektivi tərəfindən layiqincə qiymətləndirilmişdir.

T.Həsənov yaxşı başa düşür ki, qarşıda, rəhbərlik etdiyi kollektivi çox böyük və məsuliyyətli vəzifələr gözləyir. İndi iş, ancaq işləyənə, bacarana, yüksək hazırlıqlı mütəxəssislərə etibar edilir. Taleh Həsənovun rəhbərlik etdiyi «Xəzərdənizneftgeofizika» trestinin kollektivi bu etibarı qazanmış, bu etibara layiqdir.





## ZİYALILAR AİLƏSİ

Namiq Ədhəm oğlu Sultanov 1931-ci ildə Qax rayonunu İlisu kəndində qulluqçu ailəsində anadan olmuşdur. Qax 1 saylı orta məktəbini bitirdikdən sonra 1951-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1956-cı ildə institutu bitirdikdən sonra Gürgənneft Neft Mədənləri İdarəsində («Neft daşları») əvvəlcə neft və qaz quyuları və laylarının tədqiqatı üzrə operator, sonra isə neftqazçıxarma operatoru kimi əmək fəaliyyətinə başlamışdır.

Qeyd etmək lazımdır ki, 1957-ci ilin noyabr ayının 19-dan 20-nə keçən o müdhiş gecə Namiq Sultanov gecə növbəsində olmuş və demək olar ki, ölümlə üz-üzə gəlmişdir. Lakin sahənin quyularının atqı xətləri sındığından (2-ci neftyığma məntəqəsinə gedən) neftin dənizə axmasına imkan verməmək üçün quyular bağlanmışdır.

O, 1958-ci ildə Elmi-tədqiqat və istehsalat işləri üzrə sexə neft yataqlarının işlənməsi laboratoriyasına mühəndis, sonra isə neft və qaz quyuları və laylarının tədqiqatı laboratoriyasına baş mühəndis təyin edilmişdir.

1968-ci ilin may ayından 1972-ci ilin iyul ayına kimi Əlcəzair Xalq Demokratik Respublikasının SONATRAK neft şirkətində neft və qaz quyularının və laylarının tədqiqatı üzrə ekspert vəzifəsində çalışmış, burada Fəxri fərmanla təltif olunmuşdur. Xassi-messaud, Zarzaitin, Xassi-ermel və digər neft və qaz yataqlarının işlənmə layihəsinin hazırlanmasında iştirak etmişdir.

N.Ə.Sultanov vətənə qayıdandan sonra N.Nərimanov adına neft və qazçıxarma idarəsində Elmi-tədqiqat və istehsalat işləri sexinə, neft və qaz quyularının və laylarının laboratoriyasına müdir vəzifəsinə təyin

olunmuş, 1978–80-ci illərdə həmin idarənin 2-ci mədənində baş geoloq kimi fəaliyyət göstərmişdir.

1980–1981-ci illərdə Dəniz Neft-Qaz Layihə Elmi-Tədqiqat İnstitutunda bölmə (sektor) müdiri vəzifəsində işləmiş, 1991-ci ildə öz xahişilə təqaüdə çıxmışdır.

1993–98-ci illərdə o, Azərbaycan Elmi-Tədqiqat Neft və Qaxçıxarma İnstitutunda Qərbi Abşeron və Xəzəryanı neft yataqlarının işlənməsi laboratoriyasında baş elmi işçi vəzifəsində işləmiş, 1998-ci ildə yenə öz xahişi ilə işdən çıxmışdır.

Bir neçə səmərələşdirmə təkliflərinin, 2 ixtiranın və elmi məqalələrin müəllifidir. Əmək veteranıdır.

Üç oğul və bir qız atasıdır. Böyük oğlu Gürsen Kiyev Dövlət Universitetinin Beynəlxalq münasibətlər və Hüquq fakültəsini bitirib, Moskvada Şərqşünaslıq İnstitutunda Namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1997-ci ildən hal-hazıra kimi, Amerika Birləşmiş Ştatlarında yaşayır və işləyir. 5 əcnəbi dil bilir.

Ortancıl oğlu Elçin Kiyev Dövlət Universitetinin Fəlsəfə fakültəsini bitirmişdir. Fəlsəfə elmləri namizədidir. Hal-hazırda Rusiya Federasiyasında çalışır.

Kiçik oğlu Rəşad Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirib, Moskvada işləyir.

Qızı Arzu Bakı Dövlət Universitetinin Tibbi-biologiya fakültəsini bitirib, həkim-bioloq işləyir.

5 nəvəsi vardır.






## QAZMA İŞLƏRİNİN PERSPEKTİVLİYİ



Babayev Ramiz Yaqub oğlu 1928-ci ildə Bakı şəhərində anadan olmuşdur. O 1951-ci ildə Azərbaycan Sənaye İnstitutunun Geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. Həmin ildən bu günə qədər, 53 ildir ki, «Azərneft» birliyinin geoloji-kəşfiyyat kontorunda onun kəşfiyyat sahələrində və Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunda çalışır.

Quruda geoloji-kəşfiyyat kontorunda işləyərkən Azərbaycanın bir neçə sahələrində, əvvəlcə çöl, sonralar isə struktur-axtarış qazma partiyalarında böyük geoloq vəzifəsində çalışmışdır. Bu illər ərzində o, böyük təcrübə qazanaraq, işlədiyi sahələrin geoloji quruluşları haqqında ətraflı məlumatlar toplamışdır. R.Y.Babayev bu sahələr haqqında hesabatlar yazmış və gələcək qazma işlərinin aparılması və onların perspektivliyi haqqında öz tövsiyələrini vermişdir. Bunların nəticələrindən birini, hal-hazırda istismarda olan Kələmədin neft yatağını göstərmək olar.

R.Y.Babayev 1962–73-cü illərdə Azər.NSETLİ-də böyük mühəndis, kiçik elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. İnstitutda işlədiyi müddətdə Neft-qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı üzrə mövzuların araşdırılmasında yaxından iştirak etmiş, bu mövzularda həm rəhbər, həm də əsas icraçı kimi fəaliyyət göstərmişdir. Quyuların normal qazılması üçün geoloji şəratin öyrənilməsi və zəmanətin verilməsi kimi bir neçə təklif vermişdir.

O, 1973-cü illərdə quruda geoloji-kəşfiyyat kontorunda baş geoloq vəzifəsində çalışmışdır.

1985-ci ildən bu günə qədər Azər.NSETLİ-də aparıcı elmi işçi vəzifəsində işləyir.

İşlədiyi müddətdə bir çox fəxri adlara layiq görülmüşdür, Əmək ve-

teranıdır. 1967-ci ildə geologiya-minerologiya elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

1956–58-ci illərdə Albaniya Respublikasında çalışmış, onun ərazisində struktur-axtarış, qazma işlərinə rəhbərlik etmiş, bir neçə sahələr üzrə hesabatlar yazmış və onları Albaniya Neft Nazirliyinin mütəxəssisləri qarşısında müdafiə etmişdir.

R.Y.Babayev səriştəli, nəzəri hazırlıqlı və istehsalat təcrübəsi olan bir mütəxəssisdir. Onun 83 elmi əsəri vardır. Onlardan 46-sı çap edilmişdir.





## BİRİNCİ MİKROPALEONTOLOQ

Çingiz Əhməd oğlu Tahirov 1925-ci il noyabr ayının 17-də Şəkidə Azərbaycan Respublikasının Əməkdar müəllimi məşhur tarzən Əhməd bəy Tahirovun ailəsində dünyaya göz açmışdır. O, Şəki şəhərində 1 saylı orta məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. 1943-cü ildə Qırmızı Əmək bayrağı ordenli Azərbaycan Sənaye İnstitutunun (indiki Dövlət Neft Akademiyası) Geoloji-Kəşfiyyat fakültəsinə daxil olub, 1949-cu ildə oranı dağ (mədən) mühəndisi-geoloqu diplomu ilə bitirmişdir. İnstitutun tələbə elmi cəmiyyətinin sədr müavini olmuşdur. 1949-cu ilin may ayından 1950-ci ilin iyununadək «Artyomneft» (indiki «Abşeronneft») trestinin mərkəzi elmi-tədqiqat laboratoriyasının baş mühəndis-geoloqu geoloji şöbəsinin rəisi, 1949-cu ildən 1950-ci ilə qədər trestin geoloji şöbəsinin baş geoloqu (trest baş geoloqunun müavini) vəzifələrində işləmişdir. 1950-ci ildən 1951-ci ilə qədər «Kirovabad Neftkəşfiyyat» trestinin Dəliməmmədli neft kəşfiyyatının (Acınohur sahəsi) baş geoloqu (rəis müavini) işləmişdir.

Neft və qaz yataqlarının paleontologiyası və stratiqrafiyası üzrə elmi işçi hazırlamaq məqsədilə «Azərneftkəşfiyyat» Birliyinin rəhbərliyi Ç.Ə.Tahirovu istehsalatdan Azərbaycan Elmi-Tədqiqat Neft Geoloji-Kəşfiyyat İnstitutuna keçirmək qərarına gəlmişdir.

1951-ci il oktyabrın 3-dən Ç.Ə.Tahirov Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunda 52-ci ildir ki, fəaliyyət göstərir. Bu müddət ərzində Ç.Ə.Tahirov paleontologiya laboratoriyasında baş mühəndis, kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdirinin əvəzi, aparıcı elmi işçi vəzifələrində çalışıb. 1981-ci ilin 15 oktyabrından mikropaleontologiya qrupunun rəhbəridir.

Ç.Ə.Tahirov 1951-ci ildən başlayaraq Böyük Qafqazın Azərbaycan hissəsinin (Şimali Qobustan, Dibrar fliş zonası, Quba-Xəzəryanı ərazisi

və cənub yamacının hissəsi) və kiçik Qafqazın Azərbaycan hissəsinin tabaşir çöküntülərinin mikrofauna və stratiqrafiyasının öyrənilməsi ilə məşğul olur.

Onun 160-dan çox əsərinin 70-dən çoxu xaricdə dərc edilib.

Həmin tədqiqatların nəticəsində alt və üst tabaşir çöküntülərinin ayrı-ayrı mərtəbə, yarımmərtəbə və horizontları, həmçinin onların müxtəlif hissələri üçün səciyyəvi olan rəhbər formaların kompleksləri ayrılmış və dəqiq surətdə təyin edilmişdir. Bu müddət ərzində struktur-axtarış və dərin kəşfiyyat quyularından, eyni zamanda tabaşir çöküntülərinin klassik və əsas kəsilişlərindən götürülmüş minlərlə süxur nümunəsi dəqiqliklə tədqiq edilmişdir. Bu tədqiqatların nəticələri Ç.Ə Tahirovun «Cənub-Şərqi Qafqazın apt və alb mərtəbələrinin foraminiferləri və onların stratiqrafik əhəmiyyəti» (Azərnəşr, Bakı, 1961), monoqrafiyasında və «Paleontologiyanın əsasları» (Moskva, 1959) 15 cildlik toplunun 1-ci cildində, həmçinin ABŞ, Kanada, Macarıstan, Rumıniya və başqa xarici ölkələrdə çap edilmiş mötəbər və nüfuzlu mikropaleontologiya əsər və toplularında da dərc edilmişdir.

Tabaşir çöküntülərinin Ç.Ə. Tahirov tərəfindən tədqiq edilməsi indi də davam edir. Respublikanın Abşeron, Qusar-Dəvəçi, Şamaxı-Qobustan, Aşağı Kür, Gəncə, Muradxanlı, Lənkəran, Kür və Qabırrı çaylararası, Acınohur, Böyük Qafqazın cənub-şərq yatımı neftli-qazlı rayonlarının, eyni zamanda Qanıx-Əyriçay və Naxçıvan güman edilən neftli-qazlı rayonlarının mezozoy çöküntülərinin mikropaleontoloji tədqiqatlarının nəticələri də istehsalatda tətbiq edilmiş və qəbul edilmişdir. Bu tədqiqatlar indi də davam etdirilir. Ç.Ə. Tahirov bir çox Respublika, Ümumittifaq və Beynəlxalq konfrans, simpozium və konqreslərdə iştirak etmişdir, o cümlədən, Polşada keçirilmiş X Beynəlxalq mikropaleontoloqlar konqresində (1967-ci ildə) və Rumıniyada keçirilmiş XIV Beynəlxalq mikropaleontoloqlar konqresində (1975-ci ildə) Sovet nümayəndələrinin tərkibində Azərbaycanı təmsil etmiş və orada məruzə ilə çıxış etmişdir.

Ç.Ə.Tahirov 1958-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. O, institutun, Nərimanov rayonunun, Bakı şəhərinin və Respublikanın ictimai-siyasi həyatında həmişə fəal iştirak etmişdir və indi də edir. Elmi və siyasi biliklərin təbliğindəki çoxillik fəaliyyətinə görə Ç.Ə.Tahirova 1982-ci ildə SSRİ-də neftçilər arasında birinci olaraq «Azərbaycan Respublikasının əməkdar təbliğatçısı» fəxri adı, 1985-ci ildə ona «SSRİ-nin neft sənayesi əlaçısı» fəxri adı verilmişdir.

Çingiz Tahirov Azərbaycanın və Rusiya Federasiyası Paleontologiya Cəmiyyətlərinin fəxri üzvüdür. Azərbaycanda birinci mikropaleontoloqdur.

Ç.Tahirov «1941–1945-ci illərin Böyük Vətən müharibəsində rəşadətli əməyə görə» (30.04.1947). «Əmək igidliyinə görə V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə» (31.03.1970), «1941–1945-ci illərin Böyük Vətən müharibəsində Qələbənin 30, 40, 50 ili (əmək cəbhəsinin iştirakçısına)», «Əmək veteranı» medalları ilə (cəmisi 6 medal), Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı (28.07.1966) ilə, habelə, «SSRİ Neft Sənayesi nazirliyinin və neft və qaz sənayesi işçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin Fəxri fərmanı» ilə, «Neft və Kimya sənayesi işçilərinin Həmkarlar İttifaqının Azərbaycan Respublika Komitəsinin Fəxri fərmanı» ilə, Respublika «Bilik» cəmiyyətinin fəxri fərmanı ilə, bir çox dövlət və təşkilatların Fəxri fərmanları ilə təltif edilmişdir. O, eyni zamanda «Neft sənayesinin 100 illiyi», «Azərbaycanın 1 milyard ton nefti» və başqa yubiley medalları ilə də təltif edilmişdir.

Ç.Ə.Tahirov elmi-istehsalat fəaliyyəti ilə yanaşı, öz ictimai-siyasi işlərini də geniş surətdə davam etdirir. O, Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu Veteranlar Şurası şədrinin ideoloji işlər üzrə müavini, Nərimanov Rayon Veteranlar Şurasının üzvüdür. Onun veteranlıq fəaliyyəti «Bakı şəhər müharibə əmək, silahlı qüvvələr və hüquq mühafizə orqanları Veteranları Şurasının fəxri fərmanı» ilə qeyd edilmişdir.

Ç.Ə.Tahirov 1943-cü ildən neft və qaz sənayesi həmkarlar ittifaqının üzvüdür. Ümumi fasiləsiz iş stajı 60 il, institutda iş stajı 52 ildir. 1942-ci ildən «Azərbaycan neft təsərrüfatı» jurnalının oxucusudur, 1955-ci ildən isə müəllifidir (40-dan artıq yazısı dərc edilmişdir). 1-ci məqaləsi 1955-ci ildə jurnalın 4-cü sayında çap edilmişdir.

O, 2000-ci ildə Prezidentin fərmanı ilə «Qələbənin 55 illiyi Fəxri nişanı ilə» təltif edilmişdir.

2001-ci ildə Beynəlxalq və Energetika Akademiyasının (ABŞ) üzvü seçilmişdir, geologiya elmləri doktoru elmi dərəcəsi və professor elmi adı almışdır.

## GEOLOJİ ƏSASLANDIRMA

Abbasov Abbas Sultan oğlu 1925-ci ildə Bakı şəhərində anadan olmuşdur. Hələ uşaq ikən 1935-ci ildə atasını və 1937-ci ildə isə anasını itirmişdir.

O, 1949-cu ildə Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmiş, «dağ mühəndisi-geoloqu» ixtisasını almışdır.

Əsas əmək fəaliyyətinə 1948-ci ildə «Azərneft» birliyinin «geoloji-axtarış» trestində başlamışdır. 1950-ci ilə qədər trestin «struktur-axtarış» kontorunun çöl partiyasında texnik-geoloq, geoloq və baş geoloq işləmişdir.

1950–1962-ci illər ərəfəsində «Azərneft birliyinin quruda geoloji-kəşfiyyat kontorunun (QRK) tərkibinə daxil olan Sovetabad, Çeildağ, Sündi, Ayrantökən (1951–52-ci illərdə Abşeron-Kaspisahili kontorunun direktoru), Süleymanyataq, Zaqli, Zeyvə, Kürovdağ, Hərəmi, Mişovdağ, Kürsəngi, Mədrəsə və Mədrəsə-Çərhan neft kəşfiyyatlarının rəisi vəzifəsində işləmişdir.

1950-ci ildə onun iştirakı ilə Sovetabad sahəsində qazılmış birinci 4 saylı struktur axtarış quyularından sutkada 20 m³-dən çox açıq neft fontanı alınmışdır. Bu quyu sahənin neftli-qazlı olmasını təsdiq edən birinci quyu olmuşdur. Sonra qazılan quyulardan neftlə bərabər qaz fontanları olmuşdur. 4 saylı dərin quyudan sutkada 25.000 m³ qaz fontanı alınmışdır.

1955-ci ildə Kürovdağ sahəsində 37 saylı struktur-axtarış quyusundan açıq fontanla sutkada 100 tondan artıq debitlə neft alınmışdır. Bu da sahədə neft alınan birinci quyu olmuşdur.

A.S.Abbasov 5 fevral 1962-ci ildən 5 oktyabr 1969-cu ilə qədər Az.NSETLİ «quyuların tikintisinin layihələndirilməsinin geoloji əsaslandırılması» laboratoriyasının müdiri vəzifəsində işləmişdir. 15 oktyabr 1969-cu ildə köçürmə yolu ilə «geoloji-axtarış» kontoruna direktor vəzifəsinə təyin olunmuşdur.



3 avqust 1973-cü ildən Az.NSETLİ-nin «quyuların tikintisinin layihələndirilməsinin geoloji əsaslandırılması» laboratoriyasının müdiridir.

Bu laboratoriyada rəhbərlik etdiyi müddət ərzində (1977–81-ci illərdə) Azərbaycanın dəniz sahələri 246 quyu üçün 215 layihənin, quru sahələri üzrə (1977–2001-ci illərdə) 1224 layihənin laboratoriyada geoloji hissələri yüksək dərəcədə hazırlanıb təhvil verilmişdir.

Bununla yanaşı, Gürcüstan respublikasının 6 neftli-qazlı sahəsi üçün 9 dərin (5000–5500 m) kəşfiyyat quyularının layihələrinin, Qazağıstan və Türkmənistan respublikalarının 6 neftli-qazlı sahələri üzrə 6 dərin kəşfiyyat quyularının layihələrinin, Dağıstan respublikasının 10 neftli-qazlı sahələri üzrə 10 dərin kəşfiyyat quyularının layihələrinin, Kalininqradskaya və Staraya Leninqradskaya sahələri üçün 2 dərin kəşfiyyat quyularının layihələrinin geoloji hissələri hazırlanıb təhvil verilmişdir.

O, 1965-ci ildə dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi adı almışdır.

1989-cu ildə «Azərbaycan respublikasının əməkdar geoloqu» fəxri adına layiq görülmüşdür.

Neft şirkətinin mərkəzi qazma komissiyası heyətinin, institutun Elmi Şurasının və onun iki bölməsinin (geologiya və qazma) üzvüdür.

1983-cü ildən Az.NSETLİ-nin «Müharibə və əmək veteranları» şurasının sədri və Nərimanov rayonunun «Müharibə və əmək veteranları» şurası plenumunun fəxri üzvüdür. Çoxlu Fəxri fərmanlara və digər mükafatlara layiq görülmüşdür.

## PEŞƏKAR ALİM–NEFTÇİ

Eldar Məmməd oğlu Süleymanov 22 mart 1950-ci ildə Bakı şəhərində neftçi ailəsində anadan olmuşdur.

O, 1967-ci ildə «Neft və qaz quyularının qazılması» ixtisası üzrə Azərbaycan Neft və Kimya İnstitutunun «Qaz-Neft-Mədən» fakültəsinə daxil olmuş, 1972-ci ildə institutu bitirmişdir. Hələ tələbə ikən iki elmi işi Bakıda və Moskvada dərc olunmuşdur. O, «Xəzər» üzən qazma qurğusunda, dəniz stasionar platformasında və quru quyularda işləyib.

1972-ci ildən isə fasiləsiz olaraq Azərbaycanın Neft Qaz Sənayesinin dəniz və quru sahələrində «İliç Buxtası» və Bulla dəniz Qazma İşləri İdarəsində fəhlə, qazma ustasının köməkçisi, mühəndis, sonra isə Az.NSETLİ-də mühəndis, böyük elmi işçi, laboratoriya müdiri işləmişdir. 1997-1999-cu illər E.M.Süleymanov «Schlumberger» Beynəlxalq Neft Servis Kompaniyasında qazma işləri, quyuların tamamlanması və ətraf mühitin mühafizəsi üzrə rəhbər vəzifələrdə işləmişdir. Hal-hazırda Az.NSETLİ-də quyuların möhkəmləndirilməsi və tamamlanması laboratoriyasının müdiridir.

1980-ci ildə Qroznı şəhərində namizədlik, 1994-cü ildə Bakı şəhərində doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1986-cı ildə «Rəşadətli əməyə görə» medalı ilə, SSRİ-nin Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medalı ilə təltif edilmişdir. SSRİ ixtiraçısıdır (1988).

E.M.Süleymanov Almaniyada, İngiltərədə, Moskvada, Krasnodarda, Həştərxanda, Qroznıda, Jaremçada, Jvano-Frankovskda, Bakıda və s. şəhərlərdə elmi-texniki məruzələr etmişdir. Rusiyada, Türkmənistanda, Qazağıstanda, Özbəkistanda, Ukraynada (onlarla şəhərlərdə) texniki iclaslarda iştirak etmişdir.



E.M.Süleymanov 18 tədqiqatı (yeni texnologiya, qurğular) sənayedə tətbiq olunub. Onlardan 10 tədqiqatı–müəlliflik şəhadətnaməsidir. Müəlliflik şəhadətnaməsinin biri – sementləmə tıxacı keçmiş SSRİ Neft Sənayesi Nazirliyinin 29 birliyində, Qaz Sənayesi Nazirliyinin 17 birliyində, Geologiya Nazirliyinin 25 birliyində – 100 mindən artıq istismar kəmərlərində istifadə olunmuşdur.

E.M.Süleymanovun tədqiqatları Beynəlxalq iclas və sərgilərdə – Yuqoslaviyada (1983), Vyetnamda (1987), Efiopiyada (1987), Liviyada (1988), Polşada (1988), Misirdə (1989), Rumıniyada (1989), İranda (1993), Bakıda (1994–1998) təqdim edilmişdir. O, Beynəlxalq iclas və konfranslarda ingilis dilində məruzələr etmiş, Azərbaycan Qazmaçılar Assosiasiyasının və Ümumdünya Qazma İcraçılar Cəmiyyətlərinin (ADA/İADC) fəal üzvüdür.

E.M. Süleymanovun 100-dən artıq çap işi, o cümlədən 49-u xaricdə, 30 müəlliflik şəhadətnaməsi, 2 monoqrafiyası və s. vardır.



## TƏCRÜBƏLİ MÜTƏXƏSSİS

Müfidzadə Vasif Miryusif oğlu 1940-cı ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində ziyalı ailəsində anadan olmuş və həmin şəhərdə orta məktəbi bitirdikdən sonra 1956-cı ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) Neft-Mədən fakültəsinə daxil olmuşdur. 1961-ci ildə həmin institutu bitirib, neft və qaz yataqlarının işlənməsi ixtisası üzrə dağ mühəndisi ixtisası almışdır.

O, institutu bitirdikdən sonra «Manqışlakneftqazkəşfiyyatı» trestinə göndərilmiş və Jetıbay neft kəşfiyyatı idarəsində qazmaçı köməkçisi işləmişdir. Lakin ailə vəziyyəti ilə əlaqədar olaraq o, 1962-ci ildə Bakıya qayıtmış və həmin ildən 1972-ci ilədək «Azərdənizneftkəşfiyyat» trestinin qazma idarələrində, Bulla və Səngi-Muğan adalarında mühəndis, böyük mühəndis və sahə rəisi vəzifələrində fəaliyyət göstərmişdir. Bu dövrdə o, Bulla, Səngi-Muğan adalarında, Bulla-dəniz, Hamamdağ-dəniz, Səngəçal-dəniz sahələrində dərin kəşfiyyat quyularının qazılmasında fəal iştirak etmişdir. Suyun dərin qatlarında 5500–6500 m dərinliyində quyuların qazılması üçün texniki və texnoloji məsələlərin həllində çox iş görmüşdür.

Elmə olan böyük həvəsinə görə V.M.Müfidzadə 1972-ci ildə Azərbaycan Neft Senayesinin Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutuna qəbul olunmuş, «İnformasiya təminatı» laboratoriyasında böyük mühəndis vəzifəsinə işə götürülmüşdür. Bu sahədə biliklərini artırmaq məqsədilə o, 1972-ci ildə Moskva şəhərinə ezam edilmiş və Moskva Neftkimya və Qaz Sənayesi İnstitutunda ixtisasartırma kursunda oxumuşdur.

V.M.Müfidzadə 1973–1975-ci illərdə Az.NSETLİ-nin aspirantura-



sında əyani təhsil almış və sonra elmi fəaliyyətini «Dağ süxurlarının dağıdılması» laboratoriyasında böyük elmi işçi vəzifəsində davam etdirmişdir. Onun apardığı elmi-tədqiqatlar quyu divarlarında baş verən deformasiya tipli mürəkkəbləşmələrin yaranma şəraitinin öyrənilməsinə, divarların dəyanətliliyinin proqnozlaşdırılıb təmin olunmasına həsr edilmişdir. Kəşfiyyat işləri aparılan yeni sahələrdə süxurların fiziki-mexaniki xassələri yeni VNİİBT metodikası ilə öyrənilmiş, məsafəcə yaxın olan quyuların bir-birinin gərgin vəziyyətinə qarşılıqlı təsiretmə prosesleri tədqiq edilmiş, müxtəlif tip qazıma məhlulları ilə təmasda süxur nümunələrinin şaquli və üfiqi deformasiyaları arasındakı qarşılıqlı əlaqə öyrənilmiş, aşağı pliosen və miosen çöküntülərinin süxurları ilə müxtəlif tip qazma məhlullarının fiziki-kimyəvi uyğunluğu araşdırılmışdır.

O, Unikal SQ-1 Saatlı quyusunun divarlarının dəyanətliliyinin öyrənilməsində və böyük dərinlikdə yana çıxıb, yeni lülə qazılmasında yaxından iştirak etmişdir.

V.M.Müfidzadə apardığı tədqiqatların əsasında müəyyən nəticələrə gəlmiş, deformasiya tipli mürəkkəbləşmələrin qarşısının alınması üçün tədbir və tövsiyələr hazırlamış, onların həyata keçirilməsində yaxından iştirak etmişdir. O, həmin mövzuya həsr edilmiş dissertasiya işini 1986-cı ildə Qroznı Neft İnstitutunda müdafiə etmiş və texniki elmlər namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

V.M.Müfidzadə 1987-ci ildən başlayaraq, əvvəlcə, «Quyuların tikintisinin layihələndirilməsi» laboratoriyasının və 1994-cü ildən isə «Mürəkkəb quyu işlərinin texnika və texnologiyası» laboratoriyasının müdiri vəzifələrində çalışmışdır. O, quyuların tikintisi üçün tərtib olunmuş işçi layihələrin keyfiyyətinin artırılması və onların tətbiqi üzrə, quyuda görülən mürəkkəb işlərin texnika və texnologiyasının təkmilləşdirilməsi üzrə, həmin işlərin uğurla aparılması üçün təlimatların buraxılması üzrə və alınmış nəticələrin istehsalatda tətbiqi üzrə böyük səy göstərmişdir.

V.M.Müfidzadənin 80 elmi əsəri və 1 ixtirası var. Əsərlərinin 40-ı çap edilmişdir.

İşlədiyi laboratoriyalarda yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzu rəhbəri və məsul icraçısı olmuşdur.

Harada işləməyindən asılı olmayaraq V.M.Müfidzadə özünü qazma texnologiyasının mürəkkəb məsələlərini həll etməyi bacaran elmi işçi və təcrübəli bir mütəxəssis kimi göstərmişdir. O, öz üzərində işləyərək daim biliyini artırır, işgüzardır, nizam-intizamlıdır, özünə və ətrafındakılara qarşı tələbkardır. İnstitutun ictimai həyatında yaxından iştirak edir və kollektiv ona böyük hörmət bəsləyir. Elə ona görə də 2002-ci ildə o, İnstitut Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmişdir.

Öz fəaliyyətitndə o, əməkdaşların qanuni mənafelərinin qorunmasını, sosial problemlərinin həllini, əməyin mühafizəsini ön plana qoyur. Bununla belə, V.M.Müfidzadə elmi fəaliyyətini də davam etdirir. 2002-ci ildə institutda işlənib hazırlanmış və «Quruda Neft və Qazçıxarma» İstehsalat Birliyində təsdiq edilmiş təlimatın müəlliflərindən biridir.

V.M.Müfidzadə həm də gözəl ailə başçısıdır. O, haqlı olaraq öz övladları ilə fəxr edir. 2 qızı ali təhsillidir, oğlu isə Azərbaycan Milli Aviasiya Akademiyasında oxuyur.

V.M.Müfidzadə 6 Fəxri fərmanla, o cümlədən Ukrayna LKGİ MK-nin Fəxri fərmanı ilə təltif edilmişdir.

O, Ukrayna LKGİ plenumunun iştirakçısı olmuş, «Ukrayna LKGİ-nin 50-illik yubiley medalı»na layiq görülmüşdür.

V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə «Şərəfli əməyə görə» Yubiley medalı ilə təltif edilmişdir.

1985-ci ildə Az.NSETLİ-də «Əmək zərbəçisi» adına layiq görülmüşdür.

1990-cı ildə «Əmək veteranı» medalı ilə təltif edilmişdir.





## MÜRƏKKƏB ŞƏRAİTDƏ NEFT VƏ QAZ QUYULARININ QAZILMASI

Yaqub İsmayıl Oğlu Səfərov 1940-cı il may ayının 10-da Şamxor rayonunun (indiki Şəmkir) Təzəkənd kəndində ziyalı ailəsində anadan olmuşdur. 1958-ci ildə Şəmkir rayonunun S.Vurğun adına Təzəkənd orta məktəbini bitirmişdir.

Y.İ.Səfərov 1959-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Neft və Mədən fakültəsinə daxil olmuş, 1964-cü ildə institutu bitirmişdir.

O, 1964–1969-cu illərdə təyinatla «Azərdənizneftkəşfiyyat» trestinə göndərilmiş, orada qazmaçı köməkçisi, qazma ustası vəzifələrində çalışmışdır.

1969-cu ilin iyul ayından Az.NSETLİ-yə köçürülmüş, əvvəlcə, mühəndis, kiçik elmi işçi, böyük elmi işçi, bölmə müdiri vəzifələrində işləmiş və 1993-cü ildən laboratoriya müdiridir.

Y.İ.Səfərov 1970-ci ildə Az.NESTLİ-nin aspiranturasına daxil olmuş və 1974-cü ildə namizədlik dissertasiyasını müdafiə edərək, texniki elmlər namizədi adını almışdır.

1972-ci ildə «Quyuda gil məhlulunun dövranında hidravliki itkilərin azaldılmasına görə» Y.İ.Səfərov ÜİXTNS-nin gümüş medalına layiq görülmüşdür.

Az.NSETLİ-də işlədiyi müddətdə özünü elmi-tədqiqat işlərinin aparılmasında hazırlıqlı mütəxəssis kimi göstərmişdir. O, beynəlxalq və respublika miqyaslı konfranslarda və seminarlarda elmi məruzələrlə çıxış etmişdir.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə qazma vaxtı mürəkkəbləşməyə aid 10 rəhbər sənəd işlənmiş və bunlar hazırda qazma idarələrində geniş istifadə olunur.

Y.İ. Səfərov 1983-cü ildən institutda yerinə yetirilən müxtəlif el-

mi mövzuların rəhbəri və məsul icraçısı olmuş, tədqiqat işlərinin dairəsini və tətbiqini təşkil etmişdir. Onun, həmçinin Dərin qazma texnologiyası üzrə elmi kadrların yetişdirilməsində əməyi çoxdur.

Onun elmi-tədqiqat işlərinin nəticələri 129 elmi məqalədə, o cümlədən «Mürəkkəb şəraitdə neft və qaz quyularının qazılması» probleminə həsr olunmuş iki monoqrafiyada əks olunmuşdur. Bununla yanaşı, Y.İ.Səfərov neft və qaz quyularının qazılmasında mürəkkəbləşmə ilə mübarizədə fəal iştirak etmiş, 15 işlənməyə görə müəlliflik şəhadətnaməsi almışdır.

1993-cü ildən Az.NSETLİ-nin laboratoriya müdiri işləyən Y.İ.Səfərov geniş elmi yaradıcılıq işi aparır və ictimai fəaliyyət göstərir. O, Azərbaycan qazmaçılar Assosiasiyasının üzvü, Azərbaycan Dövlət Neft Akademiyasının, neft-qaz və kimya geotexnoloji problemlər ETİ-un quyuların qazılması elmi seminarının sədrinin müavini və Az.NSETLİ-nin Elmi şurasının üzvüdür.

O, Azərbaycanda neft sənayesinin inkişafında xidmətlərinə görə keçmiş neft sənayesi nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

Y.İ.Səfərov hal-hazırda «Mürəkkəb şəraitdə neft və qaz quyularının qazılması zamanı səmərəliliyin artırılması» mövzusu üzrə doktorluq dissertasiyasını yazıb, Azərbaycan Ali Attestasiya komissiyasına təqdim etmişdir.





## QUYUYA QUM VƏ SU GƏLMƏSİNİN QARŞISINI ALAN TEXNOLOJİ PROSES

İbrahim Yusif oğlu Əfəndiyev 1933-cü il noyabr ayının 16-da Qax rayonunda müəllim ailəsində anadan olmuşdur. O, 1942-ci ildə 1 saylı orta məktəbə daxil olmuş və oranı 1952-ci ildə müvəffəqiyyətlə bitirmişdir.

Həyatının 45 ildən çoxunu neft sənayesinə həsr etmiş Əfəndiyev İbrahim 1952-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuş və 1957-ci ildə institutu bitirmiş və dağ mühəndisi peşəsinə yiyələnmiş, istehsalata – Pirallahı adasında yerləşən Abşeronneft NQÇİ-nə (keçmiş Artyomneft) göndərilmişdir. Gənc mühəndis İ.Y.Əfəndiyev əmək fəaliyyətinə 3-cü mədəndə quyuların tədqiqatı operatorı kimi başlamış, sonradan quyuların yeraltı təmiri üzrə usta və baş usta işləmişdir. İstehsalatda işlədiyi müddətdə elmin qabaqcıl nailiyyətlərini neftçıxarmada tətbiq edən gənc mühəndis, elmə böyük həvəs göstərmiş və bu həvəs onu Azərbaycan Neft Sənayesi Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutuna (Az.NSETLİ) gətirir, institutun quyuların və layların tədqiqi laboratoriyasında böyük mühəndis vəzifəsində çalışır. Bu laboratoriyada işləyərkən «Neft daşları», Nərimanov adına və Bulla adası quyularında, quruda Şirvanneft, Salyanneft, Qaradağneft NQÇİ-nin quyularında tədqiqat işləri aparır. Alınmış nəticələr bu yataqların işlənmə layihələrinin tərtibində və neft ehtiyatlarının hesablanmasında istifadə olunur.

Neftçıxarmanın texnika və texnologiyası laboratoriyasında böyük elmi işçi vəzifəsində işlədiyi müddətdə mədənlərdə neft quyularının iş rejimlərinin göstəriciləri haqda informasiya materiallarının toplanması, onların təhlil edilməsi nəticəsində alınan məlumatları sistemləşdirib və nəticəsi olaraq laboratoriyanın əməkdaşları ilə birgə müxtəlif mürək-

kəbləşmiş şəraitdə, tamamilə, yeni prinsipdə işləyən 4 dərinlik nasosları təhlil olunur, onlara ixtira kimi müəlliflik şəhadətnaməsi alır.

Neft yataqlarının istismarında ən vacib problemlərdən biri çıxarılan neftlə birlikdə quyuya qum və suyun gəlməsinin və onların yaratdığı mürəkkəbləşmələrin qarşısının alınmasıdır. Belə ki, Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin quyularında bir ildə 40 mindən çox cari təmir işləri aparılır və 10 milyon $m^3$-dən çox su çıxarılır. Bu problemin həll edilməsi ilə daha əsaslı məşğul olmaq üçün, neftçıxarmada qumla mübarizə laboratoriyası yaradıldı və elmi tədqiqat işləri bu istiqamətə yönəldildi.

İ.Y.Əfəndiyev apardığı elmi tədqiqat işlərinin nəticəsi olaraq 1980-ci ildə Qroznı Neft İnstitutunda dissertasiya işini müdafiə edərək texniki elimlər namizədi alimlik dərəcəsi alır və 1981-ci ildən laboratoriyaya rəhbərlik etməyə başlayır. Bundan sonra İbrahim müəllimin elmi fəaliyyəti Azərbaycanın Quru yataqlarında neftçıxarmada baş verən təzahürlərin qarşısını almaq və neft hasilatının yüksəlməsinə yönəldilir.

Laboratoriyaya rəhbərlik etdiyi müddətdə neft yataqlarını istismar edən minlərlə qum və su təzahürlü quyuların informasiya materialları təhlil edilmiş, qum və su təzahürünün baş verməsinin nəzəri əsasları işlənilmiş və təsir edən amillərin hər birinin aradan qaldırılması üçün texnika və texnoloji üsullar işlənilmiş və istehsalatda tətbiq olunmuşdur.

İ.Y.Əfəndiyevin rəhbərliyi altında istismarda olan nasosların işinə qum və qazın təsirini azaltmaq, dolma əmsalını və işləmə müddətini artırmaq məqsədilə, mərkəzdənqaçma qüvvələrinin tətbiqi əsasında yeni qoruyucu qurğular işlənilmiş və yüzlərlə dərinlik nasoslarının qəbulunda quraşdırılmışdır.

Laboratoriya Amerikanın «Layens» və Yaponiyanın «Naqaoka» firmalarının qum əleyhinə süzgəcləri Abşeronda neft mədənlərində sınaqdan çıxarılmış və 30-dan çox quyuda tətbiq edilmişdir. İbrahim müəllimin rəhbərliyi ilə yaranmış qum tıxacını yumaq üçün xüsusi yuyucu maye hazırlanmış və hal-hazırda bir sıra mədənlərdə istifadə olunur. Hazırlanmış yuyucu maye iqtisadi cəhətdən çox səmərəlidir, təkrar istifadə olunur ki, bu da neft hasilatının artırılmasına öz müsbət təsirini göstərir.

İbrahim müəllim gənc kadrların yetirməsində öz biliyini və əməyini əsirgəmir. Laboratoriyanın 3 əməkdaşı texniki elmlər namizədi alimlik dərəcəsi almışdır.

İ.Y.Əfəndiyev neft yataqlarının istismarında quyularda qum və su təzahürünün qarşısının alınması, məhdudlaşdırılması və neftçıxarmanın texnikası və texnologiyasının təkmilləşdirilməsi istiqamətində aparılan elmi araşdırmaların nəticəsində 60-dan çox elmi əsər, bir kitab yazmış və 25 ixtiraya müəlliflik şəhadətnaməsi və Azərbaycan Respublikası



Patenti almışdır. O, apardığı elmi-tədqiqat işlərinin nəticələri ilə keçmiş SSRİ-nin Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində iştirak etmiş, iki bürünc, iki gümüş medal almışdır.

Hal-hazırda laboratoriyada İ.Y.Əfəndiyevin rəhbərliyi ilə neftçıxarmada ən mürəkkəb problemlərdən biri olan laydan və kəmərarxasından quyuya qum və suyun gəlməsinin qarşısını alan texnoloji proseslərin işlənilməsi üzərində elmi tədqiqat işləri aparılır.

İbrahim müəllim həm də yaxşı, başqalarına nümunə olan ailə başçısıdır.



## SEYSMOSTRATİQRAFİK ÜSUL

ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB Azərgeofizika ETİ-nin stratiqrafik tədqiqatlar laboratoriyasının baş mütəxəssisi Kərimov Fikrət Məhəmməd oğlu 1933-cü il iyul ayının 20-də Zərdab rayonunda anadan olmuşdur.

1957-ci ildə geoloq-geofizik ixtisası üzrə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Universiteti bitirdikdən sonra Qazaxıstanda Aktubinsk geofizika ekspedisiyasında, sonra isə Azneftçıxarma ETİ-də böyük geofizik vəzifəsində işləmişdir.

F.M.Kərimov 1965-ci ildən Azərgeofizika ETİ-də seysmik dəstələrin və geofiziki materialların maşın emalı dəstəsinin rəisi, sonra isə baş elmi işçi vəzifəsində çalışmışdır.

F.M.Kərimov Qazaxıstanda duz gümbəzlərinin sınan dalğaların korrelyasiya metodu ilə yer qabığının dərinlik quruluşunun (dərin seysmik zondlama) DSZ metodu ilə öyrənilməsi, Qərbi Azərbaycanda ümumi dərinlik nöqtəsi üsulu ilə mezozoy çöküntülərinin tədqiqi, axtarışı məqsədilə yod-brom sularının azamplitudlu pozulmaların, Cənubi-Qərbi Qobustan şəraitində interferensiya sistemlərinin təkmilləşdirilməsi və imkanlarının qiymətləndirilməsi ilə məşğul olmuşdur. Kür çökəkliyində neft və qaz yataqlarının sınan dalğa üsulu ilə birbaşa axtarışı, Özbəkistanın rifogen çöküntülərində karbohidrogenlərin proqnozunun sınan dalğalarla dinamik eninə profilləmə işlərinin metodikasının təkmilləşdirilməsi və tətbiqi ilə məşğul olmuşdur.

F.M.Kərimov 1998-ci ildən seysmostratiqrafik üsulla qeyri-antiklinal neft-qaz tələlərinin axtarışı ilə məşğul olur. O, 10-dan çox nəşr edilmiş elmi işin və 1 ixtiranın müəllifidir.



## ONU ÜRƏKDƏN SEVİRLƏR

Azərbaycan Neft Sənayesi Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun «Neft yataqlarının işlənməsi və quyuların qazılmasının avtomatlaşdırılmış layihələndirmə sistemləri» laboratoriyasının müdiri, texnika elmləri namizədi, hesablama riyaziyyatı üzrə böyük elmi işçi, neft sənayesi əlaçısı Qəzənfər Əli oğlu Məmmədov 1956-cı ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini «riyaziyyatçı» ixtisası üzrə bitirdikdən sonra göndərişlə Az.NSETLİ-yə gəlmiş və bütün şüurlu həyatını bu institutla bağlamışdır. İnstitutda çalışdığı ilk günlərdən elmi-tədqiqat işlərinin yerinə yetirilməsində yaxından iştirak etmiş, yeraltı hidrodinamika elmini, neft yataqlarının işlənmə layihələrinin tərtibini, neftçıxarmanın əsaslarını mənimsəməyə başlamış və qarşıya çıxan müxtəlif nəzəri, praktik məsələlərin həlli yollarını axtarmaqla məşğul olmuşdur.

Bu işdə onun fəaliyyətə başladığı elektromodelləşdirmə laboratoriyasında yenicə istifadəyə verilmiş elektrik modeli köməyinə gəlmişdir. Qəzənfər müəllim qısa bir zamanda bu maşının iş prinsiplərini mənimsəyib, onu məharətlə yeraltı hidrodinamika, neft yataqlarının işlənmə layihələrinin, texnoloji sxemlərin tərtibi, istismar və qazma kəmərlərinin möhkəmliyinin tədqiqi məsələlərinin həllinə tətbiq etməyə başlamışdır. Bu gənc, cəsarətli insan həlli çoxlu əl əməyi və vaxt tələb edən hesablama işləri ilə bağlı elastiklik nəzəriyyəsinin «əyilmə» və «burulma» məsələlərini dünyada ilk dəfə olaraq, milli akademiyamızın müxbir üzvləri, texnika elmləri doktorları Böyükağa Əzimov və Yusif Əmənzadənin rəhbərliyi altında həll etmişdir.

Ötən əsrin 60-cı illərində Azərbaycanın neft yataqlarının işlənməsi ilə əlaqədar çox maraqlı və zəruri olan layda neft-su sərhəddinin hərəkəti və quyuların sulaşması məsələlərinin həlli böyük maraq doğururdu.

Gənc tədqiqatçı Qəzənfər müəllim görkəmli alimlər Böyükağa Əzimovun və Vladimir Şelkaçevin rəhbərliyi altında işləyirdi. Qəzənfər Məmmədovun belə görkəmli alimlərlə yanaşı işləməyi onun üzərinə böyük məsuliyyət hissi qoyurdu.

Bir dəfə laboratoriyada keçirilən seminardan sonra Böyükağa müəllim ona dedi:

– Çıxışın xoşuma gəldi. Mövzunu elmi prinsiplər üstündə əsaslandırmısan. Riyazi baxımdan da yaxşı, dürüst həll olunubdur. Bəlkə, bu işlərin həcmini artırıb, bunları bir yerə yığıb müdafiə edəsən?

Qəzənfərin yerinə yetirdiyi namizədlik dissertasiyası EHM-in və riyazi üsulların neft yataqlarının işlənmə məsələlərinə tətbiqi sahəsində ilk elmi əsər olub, sonralar xeyli maraqlı məsələlərin həllinə yol açdı. Ona 1964-cü ildə AAK-nın qərarı ilə texnika elmləri namizədi elmi dərəcəsi, 1965-ci ildə isə «Hesablama riyaziyyatı» üzrə böyük elmi işçi elmi adı verilmişdir.

Sonralar Qəzənfər müəllim öz bilik və bacarığını gənc əməkdaşlardan əsirgəmədi. O, riyazi usulların və hesablama texnikasının neftçıxarma məsələlərinə tətbiqi sahəsində 4 aspirantın elmi rəhbəri olmuşdur. Riyazi hesablama üsullarının tətbiqi, mayelərin laylarda hərəkətinin analitik və elektrik modellərində tədqiqi, neft-qaz yataqlarının işlənməsinin müxtəlif texnoloji məsələlərinin həlli, neft laylarının hidrodinamik, termik, fiziki-kimyəvi bakterioloji üsullarla təsir proseslərinin riyazi modelləşdirilməsi, neftçıxarmada çoxkriteriyalı proqnozlaşdırma, neft quyularının istismarının optimallaşdırılmasının avtomatlaşdırılmış sistemlərinin yaradılması onun gərgin əməyinin və intellektual qabiliyyətinin nəticəsidir.

Müəllifi olduğu 5 kitab, 100-dən artıq elmi məqalə, 30-dan çox beynəlxalq, ümumittifaq və respublika elmi konfrans və seminarlardakı çıxışları onu püxtələşmiş bir alim, mütəxəssis kimi respublikamızda, onun hüdudlarından uzaqlarda sahə elmi kollektivlərində yaxından tanıtmaqla yanaşı, kənar təşkilatların neftçıxarmanın vacib və çətin məsələlərinin həllinə həsr olunan problemlərin instituta sifariş vermələrinə səbəb olmuşdur. Vaxtilə Surqut və Ukraynadan olan sifarişlər buna parlaq sübutdur. Qəzənfər müəllimin rəhbərlik etdiyi laboratoriya əməkdaşlarının 7 elmi məruzəsinin 2000-ci ildə Kazan Universitetinin toplusunda dərc edilməsi bu işlərin müasirliyinə, elmi əhəmiyyət kəsb etməsinə dəlalət edir.

Qəzənfər müəllim neftçıxarma sahəsində görkəmli mütəxəssis olmaqla yanaşı, xalqımızın tarixinə, ədəbiyyatına, incəsənətinə, mədəni və mənəvi dəyərlərinə dərindən bələd olan və onlarla nəfəs alan ziyalılarımızdandır. Onun lap bu yaxınlarda işıq üzü görmüş «Talelər, duyğular, düşüncələr» elmi, bədii, publisistik kitabı bu fikrimizi bir daha sübut edir. Kitabdakı «neft ətirli sətirlər», «portretlər», «mənəvi dəyərlərimiz», «nəvələrimlə söhbətlər» və b. fəsillər böyük maraqla oxunur.



Onun uzun illər boyu işlədiyi institutun, onun görkəmli alimlərinin fəaliyyətinə həsr etdiyi yazılarda müəllifin doğma institututla fəxr etməsi, ona minnətdarlığı qədirbilən insanın ürəyindən gələn səslərdir.

Qəzənfər müəllimin təşkilatçılıq məharəti, kollektivə qayğıkeş rəhbərlik etmək və onunla səmərəli işləmək bacarığı lap gənclik illərindən özünü göstərmişdir və işlədiyi müddətdə mühəndis vəzifəsindən sektor, laboratoriya və şöbə müdiri vəzifələrinə qədər yüksəlmişdir.

Dağlar qoynunda yerləşən, Azərbaycanın cənnət guşələrindən biri olan gözəllər-gözəli Şəkidə anadan olub, Bakıda böyüyüb, boya-başa çatan, onun neft ətrini lap uşaqlıqdan duyan Qəzənfər müəllim neftə bir təbii sərvət kimi baxmaqla yanaşı, onu müqəddəsləşdirir, həyatımızın bir hissəsi edir, neft ətri ilə nəfəs alır, yaşayır.

Professor C.Şeydayevin «Banda şakalov» kitablarının ayrı-ayrı məqamlarını dəfələrlə müzakirə etməyimiz o kitablar haqqında birgə rəyin yaranması da göstərdi ki, baxışlarımız müəyyən mənada üst-üstə düşür. Biz o rəylərin birində Qəzənfər müəllimin, XIX əsrin sonu, XX əsrin birinci yarısında yaşamış, Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus görkəmli yerlərdən birini tutan Mirzə Cəlilin, Nəriman Nərimanovun yaxın dostu olan babası Şeyx Fərəculla Pişnamazzadənin ziyalılığının, cəsarətinin bəzi məqamlarına toxunmuşduq. Bu gün biz, vaxtilə Lev Tolstoyla məktublaşan və onun İslam dininə və bu dində nigah, təhsil kimi vacib kateqoriyalara münasibəti haqqındakı suallarına tutarlı cavab verən həmin görkəmli şəxsiyyətin nəvəsi Qəzənfər müəllimdə də irsən keçən bəzi xususiyyətləri görürük.

İnstitutda işlədiyi müddətdə onunla təmasda olan hər bir kəs Qəzənfər müəllimi prinsipial, mübariz, məsuliyyətli, həssas, qayğıkeş, xeyirxah, mənən pak, alicənab, ambisiyalardan uzaq, tədbirli ziyalı kimi şəxsi keyfiyyətlərə malik, yaxşı təşkilatçı, səmimi dost, yaxın yoldaş, arxadaş, nümunəvi ailə başçısı, qayğıkeş ata kimi tanıyır, hörmətini uca tutur və onu qəlbən sevir.

## ELMİ TƏDQİQAT İŞLƏRİ SƏMƏRƏ VERİR

Zakir Salam oğlu Məmmədov 1935-ci ildə doğulmuşdur. O, 1957-ci ildə M.Əzizbəyov adına Azərbaycan Senaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini bitirmişdir. Həmin ildən Neftçala yod-brom mədənində baş geoloq vəzifəsinə qədər yüksəlmiş, böyük istehsalat təcrübəsi qazanmışdır. O, 40 ilə yaxındır ki, Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunda fəaliyyət göstərir. Burada o əvvəlcə mühəndis, böyük mühəndis, sonra kiçik və böyük elmi işçi laboratoriya müdiri işləmişdir.

Zakir Məmmədov 1969-cu ildə dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 45 illik əmək fəaliyyətində geniş, hərtərəfli istehsalat və elmi təcrübə toplamış, öz bilik və bacarığını respublikamızın neft-qaz senayesinin inkişafına sərf etmişdir. O, Bakı Neft Texnikumunda, Azərbaycan Neft Akademiyasında müəllimlik etməklə gənc kadrların hazırlanmasında yaxından iştirak etmişdir.

Zakir Məmmədovun rəhbərliyi altında Azərbaycan neft-qaz yataqlarının səmərəli işlənməsi məqsədilə çoxlu sayda layihə sənədləri tərtib edilmiş və bu layihələr keçmiş neft senayesi nazirliyinin kollegiyasında və «Azneft» istehsalat birliyində müvəffəqiyyətlə müzakirə edilərək təsdiq olunmuş və həyata vəsiqə almışdır.

1978-ci ildə respublikamızın ən iri və köhnə neft yatağı sayılan Balaxanı-Sabunçu-Ramanı yatağının kompleks işlənmə layihəsinin tərtib edilməsi üzrə elmi-tədqiqat işinin elmi rəhbərlərindən biri Zakir müəllim olmuşdur. Bu layihə keçmiş ittifaqın neft nazirliyinin kollegiyasında onun məruzəsi əsasında müzakirə olunmuş və təsdiq edilmişdir. Həmin layihədə nəzərdə tutulan 582 neft quyusunun xeyli hissəsinin sonralar



qazılıb istismara verilməsi respublikamızda neftçıxarmanın inkişafında böyük rolu olmuşdur.

İlk dəfə respublikamızda neft yataqlarının işlənməsində horizontal və xüsusi profilli maili quyuların qazılmasının bəzi elmi əsasları və texnoloji məsələlərin işlənib hazırlanması üçün tərtib edilən iki layihə sənədinin (Umbakı və Siyəzənneft yataqları üzrə) əsas elmi rəhbəri məhz Zakir müəllim olmuşdur. Neftçala neft yatağında gəlmə sular, bataqlıqlar və Əlibayramlı şəhərində isə yaşayış sahələrinin altında olan qalıq neft ehtiyatlarının mənimsənilməsi üçün yerinə yetirilən elmi-tədqiqat işinin elmi rəhbərliyini o aparmışdır. Ümumiyyətlə, onun rəhbərliyi və iştirakı ilə 100-dən çox müxtəlif şaxəli elmi-tədqiqat işi yataqların işlənməsinin digər rəhbər sənədləri, müəllif təhlilləri aparılmışdır. Onlardan 50-si bilavasitə onun elmi rəhbərliyi altında yerinə yetirilmişdir. 50-yə qədər elmi məqaləsi keçmiş SSRİ məkanında və respublikamızın elmi jurnallarında nəşr edilmişdir.

Müəllifi olduğu layihələrin və əksər tədqiqat işlərinin yerinə yetirilməsində təbiətin mühafizəsi və tarazlığını təmin etməyə xidmət edən müxtəlif ekoloji məsələlərin həllində fəal iştirak etmişdir.

Bütün bunları nəzərə alaraq Zakir Məmmədov Beynəlxalq Ekoenerji Akademiyasının üzvü, elmlər doktoru və professor adına layiq görülmüşdür.

O, 4 ildən çox (1979--1983-cü illərdə) Əlcəzairdə karbohidrogen və energetika nazirliyində, bu ölkənin neft yataqlarının işlənməsi üzrə ekspert vəzifəsində işləmişdir. Verdiyi təklif və tövsiyələr yerli rəhbərlik tərəfindən minnətdarlıqla qiymətləndirilmişdir. Yaxşı iş fəaliyyətinə görə sovet səfirliyinin Fəxri fərmanı və nümunəvi əmək nişanı ilə təltif edilmişdir.

45 illik neft-sənayesindəki xidmətlərini nəzərə alaraq ona Əmək veteranı medalı, SSRİ neft əlaçısı adı və nişanı verilmiş, elmi-siyasi bilikləri fəal yaydığına görə bir çox Fəxri fərmanlarla təltif edilmişdir.

Zakir müəllim 25 ildən çoxdur ki, Az.NSETLİ-nin Qərbi Abşeron, Şamaxı-Qobustan və Xəzəryanı neft-qaz yataqlarının işlənməsi laboratoriyasının müdiri vəzifəsində işləyir. Respublikada və beynəlxalq elmi konfranslarda, digər forumlarda çıxışları, verdiyi təklif və tövsiyələri neft sənayesində geniş tətbiq edilir.

## PETROFİZİKİ TƏDQİQATLAR

Sultanov Lətif Ağamirzə oğlu 1948-ci il sentyabr ayının 9-da Sabirabad rayonunun Qasımbəyli kəndində anadan olmuşdur. 1965-ci ildə orta məktəbi bitirmiş və 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin Geoloji-Kəşfiyyat fakültəsini mühəndis-geoloq ixtisası üzrə qurtarmışdır.

O, Universitetdə oxumaqla bərabər, 1965-ci ilin sentyabr ayından Ümumittifaq Geofizika Elmi-Tədqiqat İnstitutunun Azərbaycan filialının (indiki Azərgeofizika ETİ) süxurların fiziki xassələri laboratoriyasında əmək fəaliyyətinə başlamışdır. Universiteti bitirdikdən sonra 1972-1973-cü illərdə Sovet ordusu sıralarında xidmət etmişdir.

L.A.Sultanov institutun ictimai işlərində də yaxından iştirak etmişdir. Uzun müddət institutun Gənc Alimlər Şurasına sədr seçilmiş və Respublika Gənc Alimlər Şurasının üzvü olmuşdur.

O, institutda işlədiyi müddətdə müxtəlif vəzifələrdə laborant, texnik, mühəndis və elmi işçi kimi fəaliyyət göstərmişdir.

L.A.Sultanov kompleks təcrübi-metodik geofiziki ekspedisiyasının petrofiziki dəstəsinin rəisi təyin edilmiş və uzun müddət respublikanın müxtəlif ərazilərində petrofiziki tədqiqatlar üzrə çöl işlərinə rəhbərlik etmişdir.

L.A.Sultanov 1986-cı ildə dəstə rəisi işlədiyi müddətdə institut kollektivi ona böyük etimad göstərmiş və o, İnstitutun Həmkarlar İttifaqı Komitəsinin sədri olmuşdur. 1992-ci ildə isə Azərbaycan neft və qaz sənayesi işçiləri Həmkarlar İttifaqının qurultayında sədr müavini seçilmişdir. O, 1997-ci ildən isə Azərgeofizika ETİ-nin direktorunun istehsalat üzrə müavini işləyir.

L.A Sultanov 24 elmi məqalə və 4 elmi hesabatın müəllifi və həmmüəllifidir. O, çoxsaylı beynəlxalq və Respublika səviyyəli seminar və konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

L.A.Sultanov Azərgeofizika ETİ Elmi Şurası və Azərbaycan Milli Geofizika Komitəsinin üzvüdür.



## ELMİ VƏ METODİKİ İŞLƏRDƏ FƏALLIQ

Abbasov Əşrəf Bərxudar oğlu 1930-cu ildə Ağdam rayonunun Xındırıstan kəndində anadan olmuşdur.

O,1947-ci ildə Xındırıstan orta məktəbini əla qiymətlərlə qurtarmış, 1947-ci ildə Ağdam ikiillik Pedaqoji İnstitutunun fizika-riyaziyyat şöbəsinə daxil olmuş, 1949-cu ildə isə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir.

Ə.B.Abbasov 1949-1951-ci illərdə Ağcabədi rayonunun Sarıcalı yeddiillik məktəbində fizika-riyaziyyat müəllimi və tədris hissə müdiri işləmişdir.

1951–1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin geofizika fakültəsini fərqlənmə diplomu ilə qurtararaq, geoloq-geofizik ixtisası qazanmışdır.

1956-cı ildən 1970-ci ilə kimi Türkmənistan Respublikasının «Qərbi Türkmənistan geoloji-kəşfiyyat» trestində texnik-operator, böyük geofizik, baş geofizik və seysmik kəşfiyyat dəstəsinin rəisi vəzifələrini yerinə yetirmişdir. Qərbi Türkmənistanın müxtəlif sahələrində seysmik kəşfiyyat işlərinin aparılmasında fəal iştirak etmişdir.

1961–1969-cu illərdə seysmik kəşfiyyatın əksolunma dalğa üsulu üzrə birbaşa neft-qaz axtarışı işlərinə rəhbərlik etmişdir.

Onun rəhbərliyi və iştirakı ilə aparılan tədqiqatlara görə əks olunan dalğa üsulu ilə birbaşa neft-qaz axtarışı üçün kriteriyalar aşkar olunmuş, həmin kriteriyalara görə ilkin kəşfiyyat aparılan sahənin neftli-qazlılığı aşkar olunmuşdur. Bununla əlaqədar olaraq, həmin sahədə qazılan ilkin kəşfiyyat quyusundan sutkada 264 ton neft fontanı alınmışdır. Bununla da «Komsomol» neft mədəni aşkar olunmuşdur.

O, 1970-ci ildən 1993-cü ilə kimi «Azərneftgeofizika» trestində işləmişdir. Göstərilən müddətdə böyük geofizik, baş geofizik və seysmik

dəstə rəisi kimi Qobustan və Hacınohur sahələrində seysmik kəşfiyyat işləri aparmışdır. Trestin emal və interpretasiya qruplarına baş geofizik vəzifəsi üzrə rəhbərlik etmişdir. Ə.B.Abbasov 1976-cı və 1987–1988-ci illərdə Ceyrançöl sahəsində aparılan çöl seysmik kəşfiyyat işlərində və materialların interpretasiyasında yaranmış problemin həllində fəal iştirak etmişdir.

O, «Azərneftgeofizika» trestində işlədiyi zaman metodiki köməklik məqsədilə iki dəfə Əlcəzair Demokratik Respublikasına ezamiyyətə göndərilmişdir. Ə.B.Abbasov orada işlədiyi 7 il müddətində fransız kompaniyası tərəfindən aparılan seysmik kəşfiyyat işlərinin istiqamətləndiricisi vəzifəsində işləmişdir. Bundan əlavə Əlcəzairin müxtəlif sahələrində seysmik materialların interpretasiyasını və təkrar interpretasiyasını yerinə yetirmişdir.

Aparılan təkrar interpretasiya işləri əsasında yeni antiklinal struktur aşkar edilmişdir. Aşkar olunan antiklinal strukturda qazılan ilkin ANR-1 saylı quyusundan sutkada 280 ton neft fontanı alınmışdır.

Ə.B.Abbasov 1993-cü ildən Azərgeofizika ETİ-nin seysmostratiqrafiya laboratoriyasında böyük elmi işçi və baş mütəxəssis vəzifəsində işləyir. İşlədiyi dövrdə aparılan elmi və metodiki işlərdə fəal iştirak etmişdir.

Əşrəf müəllim 1999-cu ildən «Neftli-qazlılığı ilə əlaqədar Orta və Aşağı Kür çökəkliklərinin geoloji quruluşunun və inkişaf tarixinin seysmostratiqrafiya tədqiqatları ilə öyrənilməsi» mövzusu üzrə dissertasiya işini tamamlamışdır.





## YATAQLARIN RADİOMETRİK ÜSULLA PROQNOZU

Geologiya-mineralogiya elmləri namizədi, Beynəlxalq Ekoenerji Akademiyasının professoru, ARDNŞ GMG İB, Azərgeofizika ETİ-nin direktor müavini, Radiospektrometrik və ekoloji tədqiqatlar laboratoriyasının elmi rəhbəri, Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü, şair və publisist Əliyev Mərdan Bayram oğlu, 1926-cı ilin 15 oktyabrında Qazax rayonunun Qıraq Kəsəmən kəndində anadan olmuşdur.

Böyük Vətən müharibəsi zamanı orta məktəbdə təhsil almaqla bərabər kənd Sovetində maliyyə agenti vəzifəsində və kolxoz təsərrüfatında çalışmışdır. Eyni zamanda, komsomol təşkilatı xəttilə qaçaq və banditlərə qarşı yaradılmış «Qırıcı Batalyon»un tədbirlərində iştirak etmişdir.

1946-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun Fizika-Riyaziyyat fakültəsini bitirib, Azərbaycan və Gürcüstan kəndlərində müəllimlik etmişdir.

1951-ci ildə Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, buranı 1956-cı ildə fərqlənmə diplomu ilə bitirmiş, «Dağ mühəndisi» geofizik ixtisasına yiyələnmişdir, həmin ildən Azərbaycan Neft Sənayesinin müxtəlif sahələrində elm və istehsalat üzrə fəaliyyət göstərmişdir.

M.B. Əliyev 1950–60-cı illərdə Moskva alimləri ilə birlikdə neft yataqlarının radiometrik üsulla proqnozu üzrə yaradılmış cihaz və metodikanın müəlliflərindən biri olmuşdur. Bu dövrdə Azərbaycan ərazisi də havadan, quru və dənizdən tədqiq edilmiş, 44-dən artıq anomaliya sahələri müəyyənləşdirilmişdir. Bunlardan, böyük əksəriyyətinin qazma nəticəsində, neftli olduqları təsdiqlənmişdir.

Onun fəal iştirakı ilə Moskva alimləri qazma prosesində geoloji kəsilişin proqnozu üçün cihaz və metodika yaratmışlar. Bu cihaz və

metodika SSRİ ərazisinin bir çox regionlarında tətbiq edilmiş, ixtira üzrə 3 müəlliflik şəhadətnaməsi verilmiş, Moskvada sərgidə nümayiş etdirilmişdir.

Hazırda M.B. Əliyev müəllifi olduğu, müasir radiospektrometrik metodun tətbiqi ilə neft yataqlarının, dərin qatlarda ola biləcək və qeyriantiklinal yataqların proqnozu VQ radioaktivliyə görə ekoloji proseslərin tədqiqilə əlaqədar elmi işlərə rəhbərlik edir. Eyni zamanda, zəlzələni baş verməzdən əvvəl xəbər verən cihazın yaradılması ilə məşğuldur, artıq bunun üçün Dövlət Milli Patent Ekspertizası Mərkəzi tərəfindən müəlliflik sənədi verilmişdir.

M.B. Əliyev 1968-ci ildən geologiya-mineralogiya elmləri namizədi, 1988-ci ildən baş elmi işçi attestatı almışdır. 2000-ci ildə ona Beynəlxalq Ekoenerji Akademiyasının doktor-professor diplomu verilmişdir. O, 70-dən çox dərc olunmuş elmi əsərin, 6 ixtiranın müəllifidir. Azərbaycan Geofiziklərinin Milli Komitəsinin, YAP-nın üzvü, YAP «Geofizik» ilk partiya təşkilatının sədridir.

Tez-tez qəzetlərdə, ələlxüsus «İki sahil» qəzetində çıxış edir. «Vışka» və «Ocaq» qəzetlərində şerləri dərc olunur. «Müstəqil Respublika» qəzetinin məsul katibidir. O, 1991-ci ilin dekabrında dünyanın ən görkəmli siyasətçisi, cənab Heydər Əliyevlə Naxçıvanda görüşmüşdür. Bir saatdan artıq söhbət zamanı Moskva alimləri, Azərbaycan geofizikləri onun respublikamıza rəhbərlik etməsini xahiş etmişlər, «Bakıda görüşənə qədər» deyib ayrılmışlar. Bununla əlaqədar «Aydınlıq» qəzetində çıxış etmişdir.

M.B.Əliyev 1946–90 illərdə KP-nin üzvü olmuş, MK tərkibində Sosiologiya üzrə kurs bitirmişdir, 1990-cı ildə Qorbaçov–Yazov vəhşiliklərindən sonra partiyadan imtina etmiş, 20 yanvar hadisələri ilə əlaqədar diqqətə layiq stendin təşkilinin təşəbbüskarı olmuşdur. Həmin stend saxlanılır, hər il nümayiş etdirilir.

Mərdan müəllim əməkdə fərqlənməyə görə medalı, SSRİ Geologiya Nazirliyinin və ARDNŞ-nin Fəxri fərmanları ilə təltif olunmuşdur.



## SEYSMİK KƏŞFİYYAT MÜTƏXƏSSİSİ

Geologiya-mineralogiya elmləri namizədi, AR DNŞ Geofizika və Mühəndis Geologiyası İB Azərgeofizika ETİ-nin seysmomonitorinq və mühəndis geofizikası laboratoriyasının müdiri, Avro-Asiya geofizika cəmiyyətinin üzvü (EAGO), Amerika kəşfiyyatçı-geofiziklər cəmiyyətinin Azərbaycan bölməsinin üzvü (SEG), Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü Axundov İbrahim Səfər oğlu 1935-ci il iyul ayının 5-də Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə dağ mühəndisi-geofizik ixtisası üzrə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

1960–1963-cü illərdə Moskva şəhərində İ.M.Qubkin adına Neft-Kimya və Qaz Senayesi İnstitutunun aspiranturasında oxumuşdur.

1957–1965-ci illərdə Azərbaycan neftçıxarma üzrə elmi-tədqiqat institutunda texnik, mühəndis, dəniz seysmik partiyasının texniki rəhbəri və rəisi vəzifələrində çalışmış, 1964-cü ilin oktyabr ayında geofiziki kəşfiyyatlar üsulları şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur.

1965-ci ildən İ.S.Axundov Azərgeofizika ETİ-də elmi işlər üzrə direktor müavini, kompleks təcrübi-metodik geofizika ekspedisiyasının rəisi və baş geofiziki, dəniz seysmik kəşfiyyatı, filiz seysmik kəşfiyyatı, partlayışsız və faza seysmik kəşfiyyatı, seysmomonitorinq və mühəndis geofizikası laboratoriyalarının müdiri vəzifələrində işləmişdir.

1965-ci ildə «Dəniz seysmik kəşfiyyatında seysmik dalğaların yönəldilmiş, tənzimlənmiş qəbulu üsulunun tətbiqi nəticəsində alınan məlumatların təhlili və işlənməsi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

İ.S.Axundov seysmik kəşfiyyat sahəsində aparıcı mütəxəssislərdən biridir.

1961-ci ildə onun elmi-metodik rəhbərliyi ilə seysmik dalğaların

yönəldilmiş, tənzimlənmiş qəbulu üsulu ilə Xəzər dənizində ilk dəfə olaraq Bahar sahəsində tədqiqatlar nəticəsində bu sahənin yüksək neft-qaz perspektivliyi göstərilmişdir.

1980-ci illərin ortalarında İ.S.Axundovun təşəbbüsü ilə ümumi dərinlik nöqtəsi üsulu ilə Xəzər dənizini qərbdən şərqə, o cümlədən Azərbaycanın Kür çökəkliyi və Türkmənistanın Okarem sahəsini kəsən reqional profillər üzrə tədqiqatlar aparılmışdır. Bu işlər nəticəsində cənubi Xəzər çökəkliyində yerləşən profillər üzrə 12-saniyə müddətli seysmik dalğaları qeyd etməklə alınmış materiallar geoloji kəsilişi 20-25 km dərinliyə qədər dəqiq öyrənilməsinə imkan vermiş və indiyə qədər mütəxəssislər tərəfindən dərin tədqiqatlar, o cümlədən seysmostratiqrafik üsulların tətbiqi ilə geniş istifadə olunur.

İ.S.Axundov mürəkkəb seysmogeoloji şəraitli rayonlar üçün dalğa mənbələrini və qəbuledicilərini ixtiyarı formaya malik profil xətləri üzrə yerləşdirməklə sahə seysmik kəşfiyyat üsulu işləyib hazırlamış və müəllif şəhadətnaməsi ilə müdafiə olunmuşdur. Həmin üsuldan istifadə edərək Azərbaycanda ilk dəfə 3D seysmik işləri aparılmış, Cəfərli və Nəsibbəyli sahələrinin geoloji quruluşu barədə yeni məlumatlar alınmışdır.

İ.S.Axundov Azərbaycan Dövlət Neft Akademiyasında «Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarış və kəşfiyyatı» kafedrasının dosentidir və 15 ildən artıq orada geofizika ixtisası üzrə tələbələrə mühazirələr oxuyub, praktiki və diplom işlərinə rəhbərlik edib.

İ.S.Axundov 1967–1969-cu illərdə Pakistanda seysmik dəstənin texniki rəhbəri, sonra isə Sovet mütəxəssis-neftçilər qrupunun baş geofiziki məsləhətçisi işləmişdir.

1988–1989-cu illərdə Həbəşistanda Sovet neft-qaz ekspedisiyasında yerli mütəxəssislərə seysmik kəşfiyyat tədrisi üzrə geofizik-məsləhətçisi vəzifəsində işləmişdir.

İ.S.Axundov 50-dən artıq nəşr edilmiş elmi işini, 2 dərs vəsaiti və 2 ixtiranın müəllifidir.



## XƏZƏRDƏ REGİONAL SEYSMİK TƏDQİQATLAR

Qənbərov Yusif Heydər oğlu 1928-ci il may ayının 15-də Füzuli rayonunun Kürdlər kəndində anadan olmuşdur.

O, 1948-ci ildə Füzuli rayonunun Qarğabazar kənd orta məktəbini, 1953-cü ildə isə, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin geofizika şöbəsini bitirmişdir.

Y.H.Qənbərov əmək fəaliyyətinə 1953-cü ildə təşkil olunmuş Moskva Elmi-Tədqiqat Geofizika və Geokimya Kəşfiyyat İnstitutunun Azərbaycan filialında kiçik elmi işçi vəzifəsində başlamış, sonralar Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunda (Az.NSETLİ-də ) geofizik, böyük geofizik, dəniz seysmik partiyasının rəisi, laboratoriya rəisinin müavini, laboratoriya rəisi və 1965-ci ildə ÜİET Geofizika İnstitutunun Cənub şöbəsində ekspedisiyanın baş mühəndisi, institutda böyük elmi işçi, dəniz seysmik kəşfiyyatı laboratoriyasının müdiri, elmi işlər üzrə direktor müavini, şöbə müdiri olmuş, 1992-ci ildən isə Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda seysmostratiqrafiya laboratoriyasının müdiri vəzifəsində çalışır.

Y.H.Qənbərov 1967-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasında «Dəniz seysmik kəşfiyyatının geoloji effektivliyini artırmaq üçün iş metodikasının və texnikasının təkmilləşdirilməsi və işlənilməsi» mövzusunda namizədlik dissertasiyası, 1989-cu ildə AMEA Geologiya İnstitutunda isə, «Xəzər dənizində regional seysmik tədqiqatlar» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

O, Azərbaycan dəniz seysmik kəşfiyyatını yaradanlardan biridir. İlk dəfə dənizin istənilən dərinliklərində seysmik kəşfiyyat işlərinin aparılması üçün lazım olan texniki və metodiki vasitələrin hazırlanmasında, Cənubi Xəzər çökəkliyinin dərinlik geoloji quruluşunun seysmik kəşfiyyat metodları ilə öyrənilməsində və Azərbaycanın

dəniz bölməsində 180-dən artıq geoloji strukturun aşkar edilməsində Qənbərovun müstəsna rolu olmuşdur.

Y.H.Qənbərovun son illərdə Azərbaycanın quru ərazilərində seysmik kəşfiyyat materiallarının dərindən araşdırılması, seysmik kəşfiyyat üsulu ilə hazırlanmış strukturların perspektivlik dərəcəsini və dərin kəşfiyyat qazmasına verilmə ardıcıllığının müəyyənləşdirilməsi üçün kompleks geoloji-geofiziki kriteriyaların işlənib hazırlanması, Orta və Aşağı Kür regionlarında daha perspektivli strukturların kəşfiyyat qazmasına tövsiyə edilməsi istiqamətində apardığı işlər təqdirəlayiqdir.

Y.H.Qənbərovun rəhbərlik etdiyi laboratoriyanın elmi nəticələri dəfələrlə AR EA Rəyasət Heyəti tərəfindən ən mühüm elmi nailiyyətlər kimi qəbul edilmişdir.

Y.H.Qənbərov 240-dan çox, o cümlədən, 170-dən artıq dərc olunmuş elmi əsərin, 5 monoqrafiya və kitabın, 1 atlasın, 15 ixtiranın müəllifidir. Onun elmi məqalələri Azərbaycan, rus, ingilis və türk dillərində dərc edilmişdir.

O, 1959-cu ildə Moskva şəhərində keçirilən «Elmi-texniki geofiziki konfrans»da, 1961, 1966-cı illərdə Gelencik şəhərində «Dəniz seysmik kəşfiyyatı elmi-texniki müşavirə»sində, 1971-ci ildə Kiyev şəhərində «Ukraynanın gənc geofiziklərinin IV elmi-texniki konfransı»nda, 1972-ci ildə Leninqrad şəhərində «Geofizika cihazqayırma məsələsi»nə həsr olunmnuş elmi-texniki konfransda və Gelencik şəhərində «Dəniz geofizikası VII elmi-texniki konfransı»nda, 1981-ci ildə Krasnodar şəhərində «SSRİ dənizlərində neft və qaz üçün geofiziki işlərin nəticələri və X beşillikdə tədqiqatların istiqaməti»nə həsr olunmuş elmi-texniki konfransda, 1988-ci ildə Praqa şəhərində keçirilən «XXXIII Beynəlxalq simpozium»da, 1991-ci ildə Ankara şəhərində «XII Türkiyə geofiziki konqrensi»ndə, 1993-cü ildə Ankara şəhərində «XIII Türkiyə geofiziki qurultayı»nda və Moskva şəhərində «Beynəlxalq Geofiziki konfrans və sərgi»də , 1994-cü ildə Ankara şəhərində «X Türkiyə neft konqresi və sərgisi»ndə, 1997-ci ildə Moskva şəhərində «Beynəlxalq Geofiziki konfrans və sərgi»də, 1999-cu ildə Moskva şəhərində «DSZ-nin 50 illiyi»nə həsr olunmuş Beynəlxalq müşavirə»də, 2000-ci ildə Moskva şəhərində «V.V.Fedinskinin xatirəsinə həsr olunmuş geofiziki mühazirə»də iştirak etmişdir.

Y.H.Qənbərov 1963-cü ildə Hindistanda dəniz seysmik kəşfiyyatı üzrə ekspert, 1991-ci ildə İngiltərənin London şəhərində Amerika neftçi geoloqları assosiasiyasının konfrans-sərgisində, 1992-ci ildə «Jerko» firmasının dəvətilə İngiltərənin London şəhərində, 1993-cü ildə Şevron şirkətinin dəvətilə Amerikanın San-Fransisko, Los-Anjelos və Hyuston şəhərlərində olmuşdur. Y.H.Qənbərov müxtəlif illərdə Bakı Dövlət



Universitetində və Azərbaycan Neft Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Y.H.Qənbərovun rəhbərliyi ilə bir sıra yüksək ixtisaslı kadrlar hazırlanmış, o cümlədən, namizədlik dissertasiyası müdafiə olunmuşdur. O, bir çox dissertasiya işlərinin opponenti olmuş və hal-hazırda aspirantlara rəhbərlik edir.

O, «Cənubi Xəzər meqaçökəkliyində çöküntü qatlarının strukturformasiya və seysmostratiqrafik tədqiqatları», «Геофизические изучение геологическое строения нефтегазоносных областей Азербайджана», «Геофизические исследования в Азербайджане (состояние, результаты, перспективы)», monoqrafiyaları, «Атлас нефте-газоносных и перспективных структур Каспийского моря», «Rusca-azərbaycanca geofiziki terminlərin izahlı lüğəti»nin elmi redaktoru və müəlliflərindən biri, «İngiliscə-rusca-azərbaycanca geofiziki terminlər lüğəti»nin müəllifidir.



# YÜKSƏK DƏQİQLİKLİ DƏNİZDİBİ QRAVİMETRİK PLANALMA

Azərbaycan Milli Yaradıcılıq Akademiyasının doktoru, ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB Azərgeofizika ETİ-nin elmi təcrübi ekspedisiyasının qravimetrik dəstəsinin layihə baş mühəndisi, Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü, Yeni Azərbaycan Partiyasının üzvü İsgəndərov İsgəndər Məhəmmədəli oğlu 1932-ci il aprel ayının 22-də İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olmuşdur.

İ.M. İsgəndərov Azərbaycan Dövlət Neft Akademiyasının Geoloji-Kəşfiyyat fakültəsini dağ-mühəndis geofiziki ixtisas üzrə bitirdikdən sonra 1955-ci ildən 1957-ci ilin may ayına qədər Azərbaycan EA Fizika və Riyaziyyat İnstitutunun Seysmik ekspedisiyasında müşahidə qrupunun rəhbəri vəzifəsində çalışmışdır. 1957-ci ildən 1965-ci ilə qədər Azneftçıxarma ETİ-də dəniz qravimetrik dəstəsinin rəisi olmuşdur.

1965-ci ildən 1998-ci ilə qədər Azərgeofizika ETİ-də dəstə rəisi, «aeroqravimetrik və dəniz qravimaqnit tədqiqatlar laboratoriyası»nın müdiri vəzifəsində işləmiş, 1988-ci ildən qravimetrik dəstədə layihə baş mühəndisi vəzifəsində çalışır.

O, işlədiyi müddətdə Azərbaycanda və keçmiş SSRİ-də aeroqravimetrik və dəniz qravimaqnit tədqiqatları sahəsində yüksək ixtisaslı mütəxəssis kimi tanınmışdır. Elmi-istehsalat fəaliyyətinin 45 ilini dəniz qravimetrik planalmanın yaradılması və inkişafına həsr etmişdir. O, bu sahənin, xüsusilə, dənizdibi qravimetrik planalmanın yaradıcılarından biridir.

Onun iştirakı və bilavasitə rəhbərliyi ilə qravimetrik planalma işləri Xəzər, Baykal və Göyçə göllərində, Kuba Respublikasında, Qərbi və Şərqi Sibirin keçilməz sahələrində müvəffəqiyyətlə həyata keçilmişdir.



Barens dənizindəki neft yataqlarının kəşf edilməsində, o sahədə aparılmış yüksəkdəqiqlikli dənizdibi qravimetrik planalmanın nəticələrindən istifadə edilmişdir. Onun elmi rəhbərliyi altında işlənib hazırlanmış və dünyada analoqu olmayan aeroqravimetrik planalmanın yeni texnologiyası Xəzər və Qara dənizlərdə, Qərbi və Şərqi Sibirin çətin keçilən rayonlarında müvəffəqiyyətlə tətbiq edilmişdir.

İ.M.İsgəndərov pedaqoji fəaliyyətlə də məşğuldur. Uzun illərdir ki, qravimetrik və maqnitometrik cihazlara aid institut tələbələri ilə təcrübi məşğələlər aparır. O, 65-dən çox dərc olunmuş elmi əsərin, 7 ixtiranın və 3 metodik tövsiyənin müəllifi və həmmüəllifidir.

O, 1962–63-cü illərdə Kuba Respublikasında, Kuba Mineral Resursları İnstitutunun (KMRİ) dənizdibi qravimetrik dəstəsində böyük mühəndis vəzifəsində işləmiş, KMRİ-də işlədiyi müddət ərzində 4 nəfər gənc Kubalı texnik yetişdirmişdir.

Hal-hazırda o, elmi-təcrübi ekspedisiyada aparılan kompleks geofiziki (seysmoqravimetrik) üsullarla YTA-ların aşkar məsələləri ilə ciddi məşğul olur, məsul icraçıdır.



# DİNAMİK ENİNƏ PROFİLLƏMƏ ÜSULU

Əhmədov Aydın Qafar oğlu 20 iyun 1934-cü ildə Şəki şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Şəki şəhəri 10 saylı orta məktəbi bitirdikdən sonra 1953–1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin Geologiya-Coğrafiya fakültəsində mühəndis geoloq-geofizik ixtisası üzrə təhsil almışdır.

Tələbə olarkən elmi konfranslarda iştirak etmiş, jurnal və qəzetlərdə elmi məqalələr çap etdirmişdir. 1957-ci ildə unversitetin qəzetində «Beynəlxalq geofizika ili qarşısında» adlı ilk elmi məqaləsi dərc olunmuşdur. Təcrübi çöl işlərində özünü layiqli göstərdiyinə görə Krasnodar geofizika idarəsinin rəisi tərəfindən təşəkkür və mükafatlar almışdır. 1958-ci ildə universiteti bitirdikdən sonra könüllü olaraq Türkmənistan Respublikasına çöl işinə getmişdir.

A.Q.Əhmədov Qərbi Türkmənistanın geofizika ekspedisiyasında radiotexnik, mühəndis geoloq, baş geofizik-interpretator vəzifələrində çalışmışdır. Sonralar o, Azərbaycan, Özbəkistan və Qərbi Sibirin geofiziki ekspedisiyalarında fəaliyyət göstərmiş və laboratoriya müdiri vəzifəsinə qədər yüksəlmişdir. Əhmədov hansı təşkilatda işləmişsə, o müəssisənin ictimai həyatında fəal iştirak etmişdir. Elm sahəsində göstərdiyi xidmətinə və istehsalata verdiyi səmərəli tövsiyələrinə görə Fəxri fərman və təşəkkürlərlə mükafatlandırılmışdır.

1961-ci ildə Moskva Ümumittifaq Geofizika İnstitutunda seysmik kəşfiyyat ixtisası üzrə aspiranturaya daxil olmuş və 1968-ci ildə böyük rus alimi M.K.Polşkovun elmi rəhbərliyi altında «Azərbaycanın neftli quyularında seysmik dalğaların dinamik və kinematik xüsusiyyətlərinin tədqiqi» mövzusunda namizədlik dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır. O,



birbaşa (qazmasız) neft və qaz laylarını seysmik kəşfiyyat üsulu ilə aşkar etmək üçün təbii yatım şəraitində layların elastik xüsusiyyətlərini (seysmik dalğanın yayılma sürəti, seysmik dalğa enerjisinin udulma mexanizmi, seysmik dalğanın amplitud, tezlik xassəsi və s.) öyrənmişdir.

Sonralar geologiya-minerologiya elmləri doktoru adı almaq üçün 1991-ci ildə Azərbaycan Geologiya İnstitutunun Elmi Şurasında «Neft və qaz yataqlarının proqnozlaşdırılmasında sınan dalğalarla dinamik eninə profilləmə metodu və onun geoloji nəticələri» mövzusunda dissertasiya müdafiə etmişdir.

A.Q.Əhmədov karbonat rif qurumlarında neft və qaz yataqlarının kəşfi üçün ilk dəfə «sınan dalğalarla dinamik eninə profilləmə metodu»nu yaratmışdır. Bu metodun Buxara-Xivə neftli-qazlı rayonunda tətbiqi nəticəsində 21 qaz və bir neft yatağı (neft yatağı müəllifin şərəfinə doğulduğu şəhərin adı «Şəki» adlandırılmışdır) açılmışdır.

50-dən çox forum, simpozium, konfrans, beynəlxalq konfrans, konqres, sessiya və tədbirlərdə məruzə və çıxışlar etmişdir.

O uzun müddət Bakı Dövlət Neft Texnikumunda, Azərbaycan Neft Akademiyasında, Bakı Dövlət Universitetində dosent kimi pedaqoji fəaliyyət göstərmişdir.

«Neft və qaz yataqlarının kəşfi üçün sınmış dalğa ilə dinamik eninə profilləmə üsulu üzrə metodik göstərişlər» adlı (Bakı «Kitab» nəşriyyatı №3, 1987, 72 səh.) monoqrafiyanın müəllifidir.

«Şəkidən başlandı uzaq səfərlər» elmi-kütləvi kitabını («Səda» ədəbi nəşriyyat mərkəzi. Bakı, 1997, 104 səh.) və «Geofiziki məlumatlar və onların interpretasiyası» adlı dərs vəsaitini (Bakı, «Qanun» nəşriyyatı, 2002, 136 səh.) yazmışdır. 122 məqaləsindən 36-sı xarici ölkələrdə nəşr olunub. 9 ixtira və 30-dan çox səmərəli təklifin müəllifidir.

Təbii yatım şəraitində elastik dalğaların neftli və qazlı laylarda udulma mexanizmini, tezlik-amplitud udulmanın spektrini, dalğanın yayılma sürətini, onun struktur formadan və litologiyadan asılılıq qanunauyğunluğunu ilk dəfə o, müəyyən etmişdir.

İlk dəfə seysmik tomoqrafiya prinsipləri əsasında sınan dalğa ilə qeyri-antiklinal quruluşlu neft və qaz tələlərinin aşkar edilməsi üçün yeni metod hazırlamışdır. Sınan dalğalarla kəşfiyyat üsulu üçün çöl məlumatlarının emalının avtomatlaşdırılmasını, interpretasiya üsulunu, yataq tipli anomaliyaların (YTA) tapılması metodunu hazırlamışdır. Yaratdığı metod Özbəkistan, Türkmənistan, Qaraqalpaq və Sibirdə tətbiq edilmiş, nəticədə 80 perspektivli-qeyri-antiklinal, o cümlədən rif tipli neft və qaz tələləri müəyyən edilmiş, obyektlər üzərində dərin quyu qazılaraq 21 qaz yatağı (Pirnəzər, Markovski, Cənubi Ortabulaq və

s.), Qərbi Özbəkistanda neft yatağı («Cənubi Şəki») açılmışdır. Bunlardan əlavə o, nəzəri modelləşdirmə işləri aparmış, ilk dəfə Azərbaycanda və Xəzər dənizində rif və rifəbənzər qurumların kataloqunu yaratmış, türk dünyasının neft hasilatı və artırılma yolları mövzusu üzərində işləmişdir.

Amerika Neftçi-Geoloqlar assosiasiyasının filialı olan Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin üzvüdür.

45 illik fəaliyyəti nəticəsində bir sıra medal və döş nişanları ilə təltif olunmuşdur.

A.Q.Əhmədov ÜXTNS-nin birinci dərəcəli medalına layiq görülmüş, əla kəşfiyyatçı, SSRİ-nin səmərələşdiricisi fəxri adlarına layiq görülmüşdür, KİVHİ-nin «Vətən» adlı mükafatını almışdır. Onun sınmış dalğalarla yaratdığı metod mühüm nailiyyət kimi qəbul olunmuşdur (1986). Yaradılmış kəşfiyyat metodu Ümumittifaq müsabiqəsində 3-cü yer tutmuşdur. Özbəkistanda 22 neft-qaz yatağının açılışının ilk iştirakçısıdır.

O, hal-hazırda Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda «Seysmik tomoqrafiya» laboratoriyasının müdiri vəzifəsində işləyir.






## BEYNƏLXALQ TƏDBİRLƏRDƏ

Manaflı Aqil İbrahim oğlu 1937-ci ildə Ağdaş şəhərində anadan olmuş və 1955-ci ildə Göyçay şəhərində orta məktəbi qurtarmışdır. 1960-cı ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmiş, həmin ildən AMEA Geologiya İnstitutunun Geofizika şöbəsində kiçik elmi işçi vəzifəsində işləmiş və 1962–65-ci illərdə həmin institutun aspirantı olmuşdur.

A.İ.Manaflı 1966-cı ildən ÜİKKYETİ Azərbaycan filialının (indiki Azərgeofizika ETİ) elektrik kəşfiyyatı laboratoriyasında kiçik elmi işçi, Kompleks elmi-tədqiqat dəniz geofiziki ekspedisiyasının (KETDGE) elektrik kəşfiyyatı dəstəsində böyük və baş geofizik kimi fəaliyyət göstərmişdir.

O, 1977-ci ildə KETDGE-nin rəisi, 1984-cü ildə onun baş geofiziki və 1986-cı ildə Azərgeofizika ETİ-nin baş mühəndisi təyin olunmuşdur.

A.İ.Manaflı 1995-ci ildən institutun elmi katibidir.

O, ekspedisiyanın rəisi işlədiyi 1977–84-cü illərdə 12 çöl dəstəsi (keçmiş SSRİ-nin cənub ərazilərində – (Azərbaycan, Abxaziya, Gürcüstan, Ermənistan, Ukrayna, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Dağıstan, Rusiya Federasiyasının Krasnodar və Stavropol diyarları, Tümen və Arxangelsk vilayətləri, Xəzər, Barens, Oxot, Azov, Qara və Ağ dənizlər, Ladoqa gölü) müxtəlif geofiziki üsullarla təcrübi-metodik və QGT işləri aparmışdır.

Onun iştirakı ilə (Aşağı və Orta Kür çökəklikləri, Acınohur, Abşeron və Bakı arxipelağı) elektrik kəşfiyyatının süni və təbii mənbələrdən istifadə olunan üsullarından (DEZ, MTZ, DMTZ) istifadə etməklə mezozoy çöküntülərinin dərinlik quruluşunun öyrənilməsinə yönəldil-

miş tədqiqatlar aparılmışdır. A.İ.Manaflı 1969 və 1976-cı illərdə Türkmənistan Respublikası EA YFİ-nin əməkdaşları ilə birlikdə Yer qabığının dərinlik quruluşunu öyrənmək məqsədilə maqnitellurik və dərinlik maqnitotellurik zondlama (MTZ və DMTZ) üsulları ilə Nebitdağ-Bəndovan-Saatlı-Qazax, Yalama-Xaçmaz-Abşeron-Bəndovan-Qızılağac-Astara profilləri üzrə və Xəzər dənizinin bir sıra adalarında çöl təcrübi tədqiqatlarının yerinə yetirilməsində iştirak etmişdir.

Bu tədqiqatların nəzəri və praktiki əhəmiyyəti – Yer qabığının dinamikası və quruluşunun, həmçinin faydalı qazıntıların əmələ gəlməsi və yerləşməsinin, litosferin elektrik keçiriciliyi və istilik rejiminin öyrənilməsindən ibarətdir.

Bu tədqiqatların nəticələri onun 10-dan çox elmi hesabat və 35-dən artıq elmi məqalələrində (həmçinin, müəlliflərlə birlikdə) öz əksini tapmışdır.

A.İ.Manaflı dəfələrlə Respublika və beynəlxalq seminar, konfrans, simpozium və sərgilərin (1968-ci ildə Novosibirskdə, 1969 və 1974-cü illərdə Aşqabadda, 1970-ci ildə Kiyevdə, 1978-ci ildə Mukaçovoda, 1982-ci ildə Zveniqorodda, 1990, 1998 və 2000-ci illərdə Sankt-Peterburqda, 1991-ci ildə Ankarada, 1992 və 1995-ci illərdə Tehranda, 1967, 1974, 1978, 1981, 1987, 1990, 1991, 1996, 1997 , 1998 və 2002-ci illərdə Bakıda) bir çoxunda elmi məruzələrlə çıxış etmiş, bir neçəsinin isə təşkilat komitəsinin üzvü kimi tədbirlərin müvəffəqiyyətlə keçirilməsinin fəal iştirakçısı olmuşdur.

O, iki dəfə Moskvada SSRİ GN-nin rəhbər işçilərin və mütəxəssislərin təkmilləşdirmə institutunun «Yaradıcı kollektivi idarəetmənin təkmilləşdirilməsi» (1987) və «Yeni idarəetmə şəraitində elmi-tədqiqat və təcrübi-layihə işləmələrinin elmi-texniki tərəqqisinin idarə edilməsi» (1990) kurslarını keçmiş, həmin institutun xətti ilə Bakıda Azərgeofizika ETİ-nin rəhbər işçiləri və mütəxəssisləri üçün iki dəfə (1989 və 1991) bazar iqtisadiyyatına keçid dövründə idarəetmə üsullarına aid kursların təşkilatçılarından biri olmuşdur.

A.İ.Manaflı 1974–76-cı illərdə institutun həmkarlar komitəsinin sədri, 1976-88-ci illərdə isə Geoloji-Kəşfiyyat işləri fəhlələrinin Həmkarlar İttifaqının Rəyasət Heyətinin üzvü olmuşdur.

O, SSRİ GN-nin «Yer təki kəşfiyyatının əlaçısı» nişanı (1987), Geoloji-Kəşfiyyat işləri fəhlələrinin Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin Fəxri fərmanı (1976) ve Geoloji-kəşfiyyat işləri fəhlələrinin Həmkarlar İttifaqı Komitəsi Rəyasət Heyətinin Fəxri fərmanı (1978) ilə təltif edilmişdir.



## SÜXURLARIN VƏ FİLİZLƏRİN ELEKTRİK XÜSUSİYYƏTLƏRİ

Geologiya-mineralogiya elmləri namizədi, ARDNŞ Geofizika və mühəndis Geologiyası JB Azərgeofizika ETİ-nin «Geodinamik gərginlik və kəsilişlərin neftliliyi - qazlılığı laboratoriyasının aparıcı elmi işçisi Suvarov Cahangir Hüccət oğlu 1937-ci il iyul ayının 20-də Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində anadan olmuşdur.

1963-cü ildə dağ mühəndisi geoloq ixtisası üzrə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.

O, əmək fəaliyyətinə 1957-ci ildə neftçıxarma operatoru kimi başlamışdır. 1958-ci ildən 1965-ci ilədək Azneftçıxarma ETİ-nin geofizika şöbəsində laborant, böyük texnik, mühəndis vəzifələrində işləmişdir.

1965-ci ildən indiyədək Azərgeofizika ETİ-də böyük mühəndisdən başlamış aparıcı elmi işçi vəzifəsinə yüksəlmişdir.

1985-ci ildə C.H.Suvarov, «Azərbaycanın filizləri əyalətlərindəki süxurların fiziki xassələri arasındakı əlaqə və elektrik xüsusiyyətlərinin tədqiqi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

C.H.Suvarovun çoxillik elmi fəaliyyəti Azərbaycanın filizli zonalarının və neftli-qazlı rayonların geoloji quruluşlarındakı süxurların elektrik xüsusiyyətlərinin öyrənməsinə və kompleks petrofiziki tədqiqatlarla faydalı qazıntı yataqlarının proqnozlaşdırılmasına həsr etdilmişdir.

İlk dəfə olaraq onun tərəfindən süxurların və filizlərin elektrik xüsusiyyətlərinin tədqiqi üçün sabit və dəyişən cərəyanla işləyən elektron cihazı montaj olunmuşdur.

C.H.Suvarov 1982-ci ildən 1984-cü ilə qədər Vyetnam respublikasına ezam olunmuşdur. Orada ARF-6 tipli «Rentgen fluorensensiya analizatorunu» və «Dron-3» tipli rentgen difraktometri montaj edib istehsalata tətbiq etmiş, geokimyəvi - petrofiziki tədqiqatlar aparmışdır.

C.H.Suvarov 1987-ci ildən 1989-cu ilə qədər Laos Respublikasına ezam olunmuşdur. Orada orta Laosun geoloji quruluşundakı qalay tərkibli metal yataqlarının geofiziki üsullarla («Poisk-103» tipli cihazla elektrometrik, maqnitometrik, radiometrik) axtarışı və kəşfi ilə bilavasitə məşğul olmuşdur.

Xarici dövlətlərdə yerinə yetirdiyi işlərinə görə, yerli hökumət tərəfindən C.H.Suvarov «Dostluq» medalı və «Fəxri fərman»larla təltif olunmuşdur.

C.H.Suvarovun Azərbaycanda gənc mütəxəssislərin hazırlanmasında da əməyi olmuşdur. Belə ki, 1980–1982-ci illərdə Bakıdakı Neft Texnikumunda, 1993–1995-ci illərdə isə Lənkəran Dövlət Universitetində oxuyan tələbələrə ixtisas fənlərindən mühazirələr oxumuşdur.

C.H.Suvarov, 55 dərc olunmuş elmi əsərlərin, 30 fondlaşdırılmışdır, tematik hesabat və 4 səmərələşdirici təklifinin müəllifidir.

2002-ci ildə C.H.Suvarov Həcc ziyarətini yerinə yetirmişdir.





## QUYULARIN RADİAKTİV ÜSULLARLA TƏDQİQİ

ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB Azərgeofizika ETİ-nin «Quyuların radiaktiv üsullarla tədqiqatı» laboratoriyasının müdiri Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü Ələsgərov Ələsgər Kazım oğlu 1934-cü il dekabr ayının 30-da Ordubad rayonunun Əndəmic kəndində anadan olmuşdur.

O, 1956-cı ildə dağ mühəndisi-geofizik ixtisası üzrə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə «Azərgeofizika» trestinin Mərkəzi Geofizika Kontorunda başlamış, mühəndis, dəstə rəisi, mədən geofizikası ekspedisiyasının texniki rəhbəri və sonra rəisi, 1968-ci ildən Bakı «Mikrosxematexnika» Xüsusi Konstruktor Bürosunda (BXKB) aparıcı mühəndis, laboratoriya rəisi, 1974-cü ildən «Azon» zavodunda XKB-nin laboratoriya və şöbə rəisi, Baş konstruktor şöbəsinin rəisi – zavodun Baş konstruktoru, 1995-ci ildən Azərgeofizika ETİ-də laboratoriya müdiri vəzifəsində işləmişdir.

1957–59-cu illərdə mədən geofizikası ekspedisiyasında dəstə rəisi işləyərkən, yeni texnikanın tətbiqilə kompleks geofiziki quyu tədqiqatlarının keyfiyyətlə aparılmasında xüsusilə fərqlənmişdir.

Ə.K.Ələsgərov 1959–68-ci illərdə ekspedisiyanın texniki rəhbəri, sonra rəisi vəzifələrində işləyərkən ekspedisiyanın apardığı geofiziki tədqiqat və perforasiya işlərinə rəhbərlik etmiş, dərin kəşfiyyat quyularında geofiziki tədqiqatların yüksək keyfiyyətlə aparılmasını təmin etmiş və yeni mədən geofiziki üsulların (akustik, dielektrik, induksiyalı, yan karotajı və s.) ilk dəfə istehsalata tətbiqində xüsusi fəaliyyət göstərmişdir.

1968–74-cü illərdə BXKB-də mikroelektronikanın neft sənayesi cihazlarına (geofiziki) tətbiqi laboratoriyasına, 1974–88-ci illərdə «Azon»

zavodunda inteqral mikrosxemlərin layihələşdirilməsi laboratoriyasına, 1988–95-ci illərdə Baş konstruktor şöbəsinə rəhbərlik etmiş və istehsalatda tətbiq edilmiş 10-dan artıq layihənin Baş konstruktoru olmuşdur.

Ə.K. Ələsgərov 1995-ci ildən Azərgeofizika ETİ-də «Quyuların radiaktiv üsullarla tədqiqatı» laboratoriyasına başçılıq edir. O, mədən geofizikası, geofiziki və xüsusi cihazqayırma, nüvə geofizikası sahələrində böyük təcrübəsi olan yüksək ixtisaslı mütəxəssis kimi, işlənilən yataqlarda lay kollektorlarının cari neftliliyin təyini məqsədilə laboratoriyanın apardığı nüvə-geofiziki tədqiqatlarının elmi-texniki və metodiki məsələlərini bacarıqla həll edir. Onun gərgin əməyi sayəsində müxtəlif variantlarda aparılan İNNK tədqiqatları əsasında mürəkkəb kollektorların cari neftliliyinin kəmiyyətcə qiymətləndirilməsi üsulları işlənilmiş və istehalatda tətbiq edilmişdir.

Ə.K.Ələsgərov 10 dərc edilmiş elmi işin, o cümlədən bir ixtiranın müəllifidir.



## TƏCRÜBİ EKSPERİMENTAL ÇÖL TƏDQİQAT İŞLƏRİ

Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutu (Azər.geofizika ETİ) Təcrübi-Metodik Geofizika İstehsalat Bölməsinin (TMGİB) Baş geoloqu, geologiya-mineralogiya elmləri namizədi Əşrəf Mirzəli oğlu Qurbanov 1937-ci ildə Zəngəzur vilayəti Qafan rayonunun Şəhərcik kəndində anadan olmuşdur. O, 1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun Geologiya fakültəsini bitirmiş, neftçi, geoloq ixtisasına yiyələnmişdir. 1956–1959-cu illərdə keçmiş SSRİ ordusu sırasında xidmət etmiş, 1960–1971-ci illərdə Azərbaycan Neftçıxarma Elmi-Tədqiqat İnstitutunda laborant-mühəndis, 1971-1977-ci illərdə Nazirlər Soveti yanında Geologiya idarəsində Böyük geoloq, geoloji dəstədə baş geoloq və dəstə rəisi vəzifələrində, 1977-ci ildən 1987-ci ilə qədər Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi olmuş, 1987-ci ildən Təcrübi-Metodik Geofizika Ekspedisiyasında (TMGİB) Baş geoloq vəzifəsində çalışır.

Ə.M.Qurbanov 1974-cü ildə «Böyük Qafqazın cənub yamacının Girdimançay-Kişçay çaylararası sahənin üst təbaşir çöküntüləri və onların neftlilik-qazlılıq perspektivliyi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Ə.M.Qurbanov işlədiyi dövrlərdə Azərbaycanda Mezokaynozoy çöküntülərinin neftlilik-qazlılığının aşkar edilməsi işləri ilə məşğul olmuş, Böyük və Kiçik Qafqaz hüdudlarında detal və xüsusi geoloji planaalma işləri aparmış və həmmüəllifliklə bu regionların geoloji və tektonik xəritələrini tərtib etmişdir ki, bunlardan sonralar Azərbaycanın müvafiq xəritələrinin tərtibatında istifadə edilmişdir. O, Azərgeofizika ETİ-də işlədiyi dövrdə Aşağı Orta Kür çökəkliyində, quru-dəniz keçid zonalarında və dayaz-dəniz sahələrinin geoloji quruluşunun dəqiqləşdirilməsi və öyrənilməsi, eləcə də bu sahələrdə Mezokaynozoy çöküntü-

lərinin neftlilik-qazlılığın proqnozlaşdırılması sahəsində təcrübi-eksperimental çöl tədqiqat işlərinə rəhbərlik etmişdir. Onun iştirakı ilə Aşağı və Orta Kür çökəkliyinin bir neçə sahələrində dərində yatan çöküntülərin neftliliyi və qazlılığı, qeyri-struktur tələlərin aşkar edilməsi və onların neftliliyi və qazlılığı öyrənilir.

Ə.M.Qurbanov 50-dən artıq, məqalə, tezis və hesabatların müəllifi və həmmüəllifidir.





## STRUKTUR-FORMASİYA İNTERPRETASİYASI SAHƏSİNİN MÜTƏXƏSSİSİ

Fizika-riyaziyyat elmləri namizədi, ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB Azər.geofizika ETİ-nin geofiziki məlumatların struktur-formasiya geofiziklər laboratoriyasının müdiri, Amerika kəşfiyyatçı-geofiziklər cəmiyyətinin (SEG) üzvü, Avropa geoalim və mühəndislər cəmiyyətinin (EAGE) üzvü, Amerika geoloq-neftçilər cəmiyyətinin Azərbaycan bölməsinin üzvü, Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü Şıxəliyev Yusif Ataman oğlu 1952-ci il mart ayının 15-də Lerik rayonunda anadan olmuşdur.

1973-cü ildə riyaziyyatçı ixtisası üzrə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

Əmək fəaliyyətinə 1973-cü ildə Azər.geofizika ETİ-də başlamış, müxtəlif vəzifələrdə, sonra da laboratoriya müdiri vəzifəsində çalışmışdır.

1989-cu ildə «Akvatoriyalarda partlayışsız dalğa mənbələrinin yaratdığı seysmik dalğa sahələrinin nəzəri və eksperimental tədqiqi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Uzun müddətdir ki, Y.A.Şıxəliyev seysmik materialların interpretasiyası, seysmik kəşfiyyat və QGT məlumatlarının kompleksləşdirilməsi ilə məşğuldur. O, geofiziki məlumatların struktur formasiya interpretasiyası sahəsində Azərbaycanda aparıcı mütəxəssislərdən biridir. Onun tərəfindən, seysmik dalğaların dəniz partlayışsız mənbələr nəzəriyyəsinin əsası işlənib hazırlanmışdır.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə xüsusi EHM üçün seysmik kəşfiyyat və QGT məlumatların kompleks interpretasiyası üzrə metodika, texnologiya və proqramlar paketi yaranmışdır.

Y.A.Şıxəliyev elmi fəaliyyətlə yanaşı, müəllimliklə də məşğuldur,

– AD NA «Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarış və kəşfiyyatı» kafedrasının dosentidir.

Y.A.Şıxəliyev 70-dən artıq nəşr olunmuş elmi işin müəllifi və bir sıra tövsiyələrin müəlliflərindən biridir.

Y.A.Şıxəliyev yüksək ixtisaslı mütəxəssis, genişprofilli alimdir. O bunu ABŞ-ın müxtəlif Universitetləri və dünyanın aparıcı neft şirkətləri ilə birgə həyata keçirdiyi elmi işlərlə sübut etmişdir.

1996-cı ildə Y.A.Şıxəliyevə Amerika Beynəlxalq Təhsil Assosiasiyası (NAFSA) və elmi dərəcələrin qeydi və təsdiqi üzrə Amerika Assosiasiyası (RHD) tərəfindən fizika-riyaziyyat elmləri üzrə doktor adı verilmişdir.




## NEFTLİ-QAZLI KOLLEKTORLARIN PROQNOZLAŞDIRILMASI

Ağayev Cəbrayıl Feyruz oğlu, 1950-ci il iyul ayının 15-də Masallı rayonu, Xoşçobanlı kəndində anadan olmuşdur. 1968-ci ildə orta məktəbi bitirmişdir. 1969-cu ildən 1971-ci ilədək Sovet Ordusunda komandir kimi xidmət etmişdir. 1971–1976-cı illərdə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsinin axşam şöbəsində təhsil almışdır.

Bakı şəhərində yerləşən Təmir-tikinti trestində fəhlə, 26 Bakı komissarı adına Neft və Qazçıxarma idarəsində operator köməkçisi kimi fəaliyyət göstərmişdir. 1975-ci ildən Azərgeofizika ETİ-də işləyir.

C.F.Ağayev 1982–1985 və 1988–1990-cı illərdə SSRİ Geologiya Nazirliyinin Ekspedisiyası tərkibində iki dəfə Yəmən Xalq Demokratik Respublikasında ezamiyyətdə olmuşdur. Erməni işğalçılarının vətənimizə xaincəsinə basqın etməsi ilə əlaqədar olaraq 1992-1993-cü illərdə Laçın bölgəsində 4-cü Yevlax batalyonunun komandiri kimi döyüşlərdə iştirak etmişdir. Azərgeofizika ETİ-də işlədiyi dövr ərzində onun Azərbaycanın çətin quruluşlu (Qobustan timsalında) neftli-qazlı rayonların dərin geoloji quruluşunun, Şamaxı-Qobustan zonasının mezozoy çöküntülərinin tektonik quruluşunun, Kür çökəkliyinin (Mingəçevir-Gəncə sahəsi) seysmoaktivliyinin və dərinlik quruluşunun, Mingəçevir su hövzəsi zonasının seysmoaktivliyinin, Dəliməmmədli, Duzdağ, Hacıqabul sahəsinin, Ələt-dəniz, Gil adası sahəsinin tektonik quruluşunun və pliosen çöküntülərinin neftli-qazlı kollektorlarının proqnozlaşdırılması sahəsində böyük əməyi olmuşdur. Bir çox hesabatlar hazırlamışdır. Bir neçə məqalənin müəllifidir.

C.F.Ağayev hal-hazırda 2 saylı seysmoloji dəstənin rəisi işləyir.

## GEOMAQNİT SAHƏNİ YARADAN FAKTORLAR

Qədirov Vaqif Qədir oğlu 1954-cü il may ayının 28-də Sabirabad rayonunun Qəzli kəndində anadan olmuşdur.

1978-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmişdir.

1975-ci ildən Azərgeofizika ETİ-də işləyir, texnikdən elmi işlər üzrə direktor müavini vəzifəsinədək yüksəlmişdir.

O, 1991-ci ildə «Kompleks geofiziki məlumatlara əsasən Orta Kür çökəkliyində mezozoy vulkanik süxurların və onların neftli-qazlılığının proqnozlaşdırılması» mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi almışdır.

V.Q.Qədirovun elmi fəaliyyəti qravimaqnit kəşfiyyatı sahəsində tədqiqatlarla, eləcə də, neftveriminə təbii təsirlərin araşdırılması ilə əlaqədardır. Alim neft-qaz yataqlarının, o cümlədən dərində yatan və azqalınlıqlı yataqların qravimaqnit sahəsində əks olunmasının fiziki-geoloji əsasları kimi problemlər üzərində işləyir. Onun tərəfindən neft-qaz yataqları üzərindəki subşaqulı zonanın nəzəri və model tədqiqatları yerinə yetirilmiş və həmin zonanın fiziki parametrləri kəmiyyətcə qiymətləndirilmiş, həmçinin, Orta Kür çökəkliyində geomaqnit sahəni yaradan faktorlar aydınlaşdırılmışdır. O, lokal neftli-qazlı strukturların qravimetrik üsulla aşkar edilməsi metodikasını işləyib hazırlamış mütəxəssislərdən biridir.

Bunlarla yanaşı, V.Q.Qədirov Yer qabığında baş verən təbii proseslərin, o cümlədən, müxtəlif neft yataqları hasilatının dövri olaraq dəyişildiyi və bu hadisələrin Yer qabığının qlobal sıxılıb genişlənməsi ilə əlaqədar olduğu fikrini irəli sürmüş və bu istiqamətdə tədqiqatlar ararır.



V.Q.Qədirov 30 nəşr edilmiş elmi işin və 1 ixtiranın, 16 elmi hesabatın, axtarış-kəşfiyyat işlərini istiqamətləndirmək üçün DNŞ-nə verilmiş 12 tövsiyənin müəllifi və həmmüəllifidir.

O, Beynəlxalq və Respublika səviyyəli konfrans və sərgilərdə əməkdaşların fəal iştirakını təmin etməklə bərabər, elmi məruzələrlə və nümayiş materialları ilə institutu təmsil etmiş və dəfələrlə mükafata layiq görülmüşdür.

V.Q.Qədirov institutun Ekspert Komissiyasının sədri, Elmi Şura və Redaksiya Şurasının sədr müavinidir.

O, Azərbaycan Milli Geofizika Komitəsinin, Avropa-Asiya Geofizika Cəmiyyətinin, Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin üzvüdür.

## NƏTİCƏLƏR YÜKSƏK QİYMƏTLƏNDİRİLMİŞDİR

Geologiya-mineralogiya elmləri namizədi, ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB, Azərgeofizika ETİ-nin neft və qaz yataqlarının geofiziki üsullarla birbaşa axtarışı laboratoriyasının müdiri, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin üzvü Novruzov Əli Qulu oğlu 1955-ci il yanvar ayının 5-də Ermənistan Respublikasının Amasiya rayonunun Çaxmaq Kəndində anadan olmuşdur. Rayonun Güllübulaq kənd orta məktəbini bitirdikdən sonra – 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin Riyaziyyat fakültəsinə daxil olmuş, Universiteti 1977-ci ildə bitirmiş, riyaziyyatçı ixtisası qazanmışdır. Həmin ildən Azərgeofizika ETİ-nin «Neft və qaz yataqlarının geofiziki üsullarla birbaşa axtarışı» laboratoriyasında mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Sonrakı illərdə elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışmışdır. Hazırda həmin laboratoriyaya rəhbərlik edir. Seysmik Kəşfiyyatın sınan və əks olunan dalğaları və qravimetrik kəşfiyyatın kompleksi ilə müəllifi olduğu «neft-qaz yataqlarının birbaşa axtarışı üsullarının» işlənib hazırlanmasında və uğurlu tətbiqində əldə olunan nəticələr institutun Elmi Şurasında, AMEA-nın müxtəlif illərdə illik hesabatlarında, sifarişçi təşkilatlarda, Respublika və Beynəlxalq konfrans və sərgilərdə yüksək qiymətləndirilmişdir. Ə.Q.Novruzov 1990-cı ildə «Seysmik Kəşfiyyatın sınan dalğaları ilə neft və qaz yataqlarının birbaşa axtarışı üsulunun inkişafı» mövzusunda dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Hazırda birbaşa axtarış üsullarının təkmilləşdirilməsi, yeni üsulların yaradılması ilə yanaşı, bu üsulların dərin qatlarda, Xəzər dənizinin və akvatoriyaların tədqiq olunmamış quru-dəniz Keçid



zonalarında, mürəkkəb seysmogeoloji şəraitə malik sahələrdə antiklinal və qeyri-antiklinal tipli neft-qaz yataqlarının axtarışında və proqnozlaşdırılmasında geniş tətbiq olunması laboratoriyanın gərəkli və səmərəli fəaliyyətindən xəbər verir.

Onun bilavasitə iştirakı ilə Azərbaycanın və Gürcüstanın bir sıra perspektivli sahələrində neft və qaz yataqları proqnozlaşdırılmış, onların hüdudları və dərinlikləri təyin edilmişdir. Sonrakı dərin qazma işləri ilə verilmiş proqnozlar təsdiq edilmişdir.

Əli müəllim respublikamızda geofiziklər ordusunun layiqli davamçılarının hazırlanması məqsədilə Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərir, «Geofiziki tədqiqat üsulları» fənnini tədris edir. O, həm tələbələr arasında, həm də laboratoriyada kadr hazırlığına yaxından köməklik edir. 40-dan çox elmi məqalənin, 1 patent, 7 ixtiranın və 20-dən çox elmi, hesabatın müəllifidir.



## NEYTRON, QAMMA VƏ NÜVƏ MAQNİT KAROTAJLARI

ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB, Azərgeofizika ETİ-nin GMG İB mədən geofizikası dəstəsinin rəisi, Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü Sərdarov Hidayət Zeynəddin oğlu 1956-cı il aprel ayının 21-də Ermənistan Respublikasının Vedi rayonunda anadan olmuşdur.

1983-cü ildə dağ mühəndisi-geofizik ixtisası üzrə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.

1982-ci ildən Azərgeofizika ETİ-nin mədən geofizikası akustik karotaj üsulları dəstəsində geofizik, 1985-ci ildən nüvə maqnit karotaj üsulları dəstəsində baş geofizik vəzifəsində işləmişdir. 1993-cü ildən təcrübi-metodiki geofiziki istehsalat bölməsinin dəstə rəisi vəzifəsində işləyir.

Dəstə rəisi işlədiyi dövrdə mədən geofizikası sahəsində qarşıya qoyulan məsələləri həll etmək məqsədilə müxtəlif neft yataqlarında akustik, impulslu neytron-neytron, qamma və nüvə maqnit karotajları (AK, İNNK, QK, NMK) üsulları ilə quyu tədqiqatları aparmış və materialların keyfiyyətli alınmasını təmin etmişdir.

İNNK üsullarının GMG İB-nin mədən geofizikası trestlərində istehsalata tətbiq olunmasına texniki-metodiki yardım göstərilmişdir.

H.Z.Sərdarov 2002-ci ildə kompüterləşdirilmiş KEDR-02-1,5 tipli karotaj stansiyasını tez bir zamanda işə salmış və il ərzində bütün İNNK, QK tədqiqatlarını vahid proqramla kompleks şəkildə aparmaqla, geniş həcmdə materialların alınmasına nail olmuşdur. Son nəticədə tədqiqatların keyfiyyəti yüksəlmişdir.

O, hal-hazırda mədən geofizikası dəstəsinin rəisi işləyir və qarşıda qoyulan quyu tədqiqat işlərinin keyfiyyətlə aparılmasını təmin edir. Kollektiv üzvləri arasında öz qayğıkeşliyi ilə seçilir. Elə buna görə də nüfuz sahibidir.



## SINAN VƏ ƏKS OLUNAN DALĞA ÜSULLARI

Geologiya-mineralogiya elmləri namizədi, AR YEN DNŞ Geofizika və Mühəndis Geologiyası İB Azərgeofizika ETİ-nin «Geodinamik gərginlik və kəsilişlərin neftlilik-qazlılığı» laboratoriyasının müdiri, Azərbaycan Milli Geofiziklər Komitəsinin və Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin üzvü Şəkərov Hafiz İsmayıl oğlu 1960-cı il may ayının 14-də Gədəbəy rayonunda anadan olmuşdur. 1986-cı ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsini fizik ixtisası üzrə bitirmişdir.

Əmək fəaliyyətinə 1977-ci ildə fəhləliklə başlamışdır. 1983-cü ildən Azərgeofizika ETİ-də mühəndis, elmi işçi, böyük elmi işçi, baş mütəxəssis vəzifələrində işləmişdir. Hal-hazırda laboratoriya müdiri işləyir.

H.İ.Şəkərov 2001-ci ildə «Azərbaycanın müxtəlif seysmogeoloji şəraitlərində seysmik kəşfiyyatın sınan və əks olunan dalğa üsulları ilə neft-qaz yataqlarının proqnozlaşdırılması» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

H.İ.Şəkərov uzun müddət kompleks geofiziki (seysmik, yüksək dəqiqlikli qravimetrik) üsullarla neft-qaz yataqlarının birbaşa axtarışı ilə məşğul olmuş, seysmik çöl işlərinin aparılması metodikasının, emal və interpretasiya üsulların təkmilləşdirilməsində fəal iştirak etmişdir. Onun bilavasitə iştirakı ilə Azərbaycanın Orta və Aşağı Kür çökəkliklərinin müxtəlif sahələrində, Bakı və Abşeron arxipelaqlarının bir sıra «quru-dəniz» keçid zonalarında, dənizin dayaz hissələrində neft-qaz yataqları proqnozlaşdırılmış və hüdudlandırılmışdır. O, həmçinin kəsilişin neftlilik-qazlılığının öyrənilməsində geodinamik amillərin nəzərə alınması problemləri üzərində işləyir.

H.İ.Şəkərov respublikanın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə ARDNŞ-nin Fəxri fərmanı ilə təltif olunmuşdur.

H.İ.Şəkərov 20 elmi məqalənin müəllifidir. Mehribanlığı, səmimiliyi və bacarığına görə iş yoldaşlarının hörmətini qazanmışdır.





## «YATAQ TİPLİ ANOMALİYA»lar AŞKAR EDİLMİŞDİR

Xanbabayev Nadirşah Balakişi oğlu 1953-cü il mart ayının 20-də Quba rayonu Qırız-Dəhnə kəndində anadan olmuşdur. 1972-ci ildə Xaçmaz rayonu, Qusarçay kənd orta məktəbini bitirmişdir. 1972–74-cü illərdə hərbi xidmətdə olmuşdur. Əmək fəaliyyətinə 1975-ci ildən fəhlə kimi Bakı mebel yığma kombinatından başlamışdır.

O, 1975-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun axşam şöbəsinə qəbul olunmuşdur.

1981-ci ildə həmin institutu, (indiki Neft Akademiyasını) «Dağ mədən geofiziki» ixtisası üzrə bitirmişdir.

N.B.Xanbabayev 1976-cı ildən Azərgeofizika ETİ də fəhlə, texnik, mühəndis, böyük mühəndis, böyük geofizik, dəstə rəisinin müavini və dəstə rəisi vəzifəsinə qədər yüksəlmişdir.

O,1979–82-ci illərdə Qazaxıstan SSR-in Manqışlaq vilayətində və Türkmənistanın Nebitdağ, Barsagelmez, Kara-Kala neftli-qazlı rayonlarında akustik karotaj işlərinin aparılmasında çalışmışdır.

1985–90-cı illərdə Orta Asiya respublikasında qravimetrik kəşfiyyat işlərinin aparılmasında aparıcı mühəndis kimi iştirak etmişdir.

4 saylı qravimaqnitometrik dəstənin rəisi kimi 1998-ci ildən başlayaraq 2002-ci ilin axırına qədər 15 hesabatın icraçısı, həmmüəllifi və müəllifidir.

Rəhbərlik etdiyi qravimaqnitometrik dəstə Azərbaycanın quru-dəniz keçid zonalarında birbaşa axtarış üsulu ilə bir sıra «yataq tipli anomaliya»lar aşkar etmişdir. Dəstə 2000-ci ildə Nəvahi çökəkliyinin şimal-şərq hissəsində qeyri-antiklinal tipli tələlərin olmasını aşkar etmiş, Böyük Zirə adası və ona bitişik sahələrin tektonik quruluşlu və Pliosen çöküntülərində neft-qaz yataqlarının proqnozlaşdırılması işlərini 2000-ci ildə başa çatdırmışdır. Hövsan quru-dəniz keçid zonasında

verilmiş təkliflər əsasında 4 quyu qazılmış, nəticədə həmin quyular sutkada 250 ton neft vermişdir.

N.B.Xanbabayev Pirallahı və Xali sahələrində axtarış-kəşfiyyat işlərini başa vurmuş, Gürgan-dəniz və Cənub strukturları arası sahələrdə geofiziki kəşfiyyat işlərini başa çatdırmışdır. O, həmçinin Abşeron yarımadası Pirşağı poliqonunda nəzərdən yayınmış neftli-qazlı obyektlərin aşkarı üçün kompleks geofiziki rejim müşahidə işləri aparır.

N.B.Xanbabayev 2003-cü ildən Aşağı Kür çökəkliyinin «Qayıdış» tektonik zonasının geoloji quruluşunun kompleks geofiziki kəşfiyyat üsulları ilə dəqiqləşdirmə işlərinə qoşulmuşdur.

O, bir neçə səmərəli təklifin və elmi məqalənin müəllifidir.





## MÜHÜM ELMİ NAİLİYYƏT

Həsənov Dursun Abbas oğlu 1925-ci il aprel ayının 19-da Tbilisi şəhərində anadan olmuşdur.

O, əmək fəaliyyətinə 1942-ci ildə Naxçıvan Muxtar Respublikasının Parağaçay molibden yatağında geoloji-kəşfiyyat dəstəsində kollektor vəzifəsi ilə başlamış, 1944–48-ci illərdə «Daşkəsənkobalt» zənginləşdirmə fabrikində texnik geoloq, növbətçi usta, daha sonra müdir müavini vəzifələrində çalışmışdır.

O, 1948-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş, 1950-ci ildən M.B.Lomonosov adına Moskva Dövlət Universitetində təhsilini davam etdirmiş, 1954-cü ildə Universiteti dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmişdir.

D.A.Həsənov 1954–60-cı illərdə Moskvada ÜİGKÜ ETİ-də geofiziki cihazlar üzrə mexanik, mühəndis və böyük-geofizik vəzifələrində çalışmışdır.

O,1960-cı ildə Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutuna dəvət olunmuş, geofizika laboratoriyasında (1963-cü ildən İnstitutun Yer Fizikası bölməsi) böyük mühəndis-geofizik, sonralar isə laboratoriya müdirinin elm üzrə müavini vəzifəsində çalışmışdır.

D.A.Həsənov 1965-ci ildə neft laylarını nişanlamaq üçün lüminessensiya-diffuziya metodu mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsini almışdır.

1965-ci ildə keçmiş SSRİ Geologiya Nazirliyinin ÜİGKÜ ETİ-nin Azərbaycan filialının yaradılması ilə əlaqədar olaraq o, nüvə-lüminessensiya laboratoriyasının müdiri, həm də 1965–67-ci illər ərzində filialda elmi katib, 1969-cu ildə elmi işlər üzrə direktor müavini, həmin ildən elektrik kəşfiyyatı şöbəsinin və elektrik kəşfiyyatı laboratoriyası-

nın müdiri olmuş və 1993-cü ildən Azərgeofizika ETİ-də elektrik kəşfiyyatı laboratoriyasının müdiridir.

Həsənov D.A. Azərbaycanda filiz dağ-mədən geofizikasının əsasını qoyan mütəxəssislərdən biridir. Onun rəhbərliyi və iştirakı ilə filiz yataqlarının kompleks geofiziki tədqiqatları (nüvə-maqnit, qravi-maqnit, elektrik kəşfiyyatı və s.) aparılmış, bu tədqiqatlar genişləndirilmiş, bu isə öz növbəsində müxtəlif üsullar üzrə müstəqil laboratoriyalar qurulmasına zəmin yaratmışdır.

D.A.Həsənov rəhbərliyi və iştirakı ilə Kiçik və Böyük Qafqazın mürəkkəb geomorfoloji şəraitində bərk faydalı qazıntıların kəşfiyyatı və axtarışının metodik üsulları işlənmiş, Xarxar, Hovoqorelovka, Ağamalıyev, Çovdar, Qızılbulaq, Canyataq və Katex, Qamzaqor, Çeder, Yuxarı Filizçay, Ağdam-Gelas, Samalit, Tenros, Katsdaq sahələrində yeni anomal zonalar aşkar olunmuş, onların mis-kolçedan və polimetal təbiətləri müəyyən edilmiş və göstərilən rayonların filiz yataqları zonalarında axtarış-kəşfiyyat işlərinin həcmi genişləndirilmişdir ki, bu da xalq təsərrüfatına böyük iqtisadi səmərə vermişdir.

Onun rəhbərliyi ilə son illərdə Naftalan, şimali Naftalan-Dəliməmmədli, cənubi Naftalan-Qaşaltı, Acıdərə sahələrində aparılmış infraaşağı tezlikli elektrik kəşfiyyatı üsulu ilə karbohidrogen yataqlarının proqnozlaşdırılmasında böyük nailiyyətlər əldə edilmiş və işin nəticəsi 1997-ci ildə AEA Rəyasət Heyətində ən mühüm elmi nailiyyət kimi qəbul olunmuşdur.

D.A.Həsənov 60-dan artıq elmi əsər və hesabatın, çoxsaylı tövsiyələrin müəllifidir.

O, 1965-ci ildən Azərgeofizika ETİ-nin Elmi Şurasının daimi üzvüdür.

D.A.Həsənov «Rəşadətli əmək», «Əmək veteranı» medalları, «Yer təki kəşfiyyatının əlaçısı» fərqlənmə nişanı və SSRİ Geologiya Nazirliyinin «Neftgeofizika» EİB-nin Geoloji-Kəşfiyyat İşləri Fəhlələrinin Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanları ilə təltif olunmuşdur.



## KOLLEKTORLARIN FİZİKİ-TEXNİKİ XASSƏLƏRİNİN KATALOQU

Telman Mirzə oğlu Salehli 1936-cı il iyul ayının 26-da Şəki şəhərində anadan olmuşdur. 1952-ci ildə orta məktəbi qızıl medalla bitirib, Azərbaycan Sənaye İnstitutunun (indiki ANA) Geoloji Kəşfiyyat fakültəsinə daxil olmuş və 1957-ci ildə institutu «Neft-qaz yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı» ixtisası üzrə bitirmişdir. O, əmək fəaliyyətinə 1957-ci ildə Azərbaycan Neftçıxarma ETİ-də başlamış, institutun geofiziki şöbəsində texnik, sonra isə mühəndis vəzifəsində işləmişdir.

O, 1961-ci ildə Azərbaycan Milli EA-nın Geologiya İnstitutunun aspiranturasına qəbul edilmiş və SSRİ EA-nın Yer Fizikası İnstitutuna ezam edilmişdir. Aspiranturanı müvəffəqiyyətlə bitirərək, 1968-ci ildə «Azərbaycanın quru və məhlulla doymuş çöküntü süxurları nümunələrində elastiki dalğaların sürətlərinin yüksək təzyiq şəraitində tədqiqi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

T.M.Salehli 1965-ci ildən Azərgeofizika ETİ-də petrofiziki tədqiqatlar laboratoriyasının müdiri işləmişdir. O, Saatlı (SQ-1) dərin quyusunun aşkar etdiyi dağ süxurlarının fiziki xassələrinin adi və yüksək termobarik şəraitdə tədqiqi ilə məşğul olmuşdur.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə Azərbaycanın neftli-qazlı strukturlarında yayılmış kollektorların fiziki-mexaniki xassələrinin kataloqu tərtib edilmiş və bu «Kataloq» geologiya-geofizika sahəsində AMEA-nın Rəyasət Heyəti tərəfindən 1999-cu ildə ilin ən mühüm elmi işi kimi qəbul edilmişdir.

T.M.Salehlinin elmi fəaliyyəti Azərbaycanda yer qabığının geostruktur elementləri üzrə geoloji formasiyaların petrofiziki xüsusiyyətlərinin fəza dəyişkənliyinin qanunauyğunluqlarının öyrənilməsinə həsr edilmişdir.

Onun tərəfindən süxurların kollektor və başqa petrofiziki parametrləri və maddi tərkibi arasındakı əlaqələr təsbit olunmuş, süxurların fiziki xassələrinin şaquli və horizontal istiqamətlərdə dəyişməsini göstərən riyazi və fiziki modellər qurulmuşdur.

O, 150-dən artıq elmi əsərin, o cümlədən 115 dərc olunmuş məqalənin və ixtiranın müəllifidir.

T.M.Salehli Petrofizika, üzrə Beynəlxalq Ümumittifaq və Respublika elmi-texniki konfranslarında fəallıq göstərmiş və məruzələrlə çıxış etmişdir.



## SƏMƏRƏLİ TƏDQİQATLAR

İbrahimov Seyfulla Mahmud oğlu 18 yanvar 1947-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Dizə kəndində anadan olmuşdur.

1970-ci ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini, neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı, dağ mühəndisi geoloq ixtisası üzrə bitirmişdir.

Əmək fəaliyyətinə 1967-ci ildən Azərbaycan EA-nın tarix institutunda topoqraf vəzifəsindən başlamışdır. 1968-ci ildən 1987-ci ilədək Azərbaycan Ümumittifaq Elmi-Tədqiqat Geofizika İnstitutunda mexanik, mühəndis, kiçik elmi işçi, dəstə rəisi, baş elmi işçi vəzifələrində çalışmışdır.

1983-cü ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

1987-ci ildən 1993-cü ilədək Azərbaycan Dövlət Neft Akademiyasında geofiziki üsullarla kəşfiyyat kafedrasında dosent vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə mədən geofizikası sahəsi istiqamətində müxtəlif fənlər üzrə mühazirə konspektləri, fərdi laboratoriya işləri, quyularda geofiziki tədqiqatlar və petrofizika fənni üzrə laboratoriya işlərinə rəhbərlik, elektron hesablama maşınlarının tətbiqi ilə radioaktiv və digər qeyri-elektrik üsullarının quyularda öyrənilməsi və s. barədə hazırladığı işlər çap olunmuşdur. 10 ildən çox elmi-pedaqoji stajı vardır.

O, bir neçə elmi-metodik təkliflər işləmiş və istehsalatda tətbiq etmişdir. Bunlardan «Petrofiziki və mədən-geofiziki kompleks üsulları vasitəsilə qazma quyularında Anomal Yüksək Lay Təzyiqi (AYLT) intervallarının ayrılması və məsamə təzyiqinin qiymətləndirilməsi», «Səngəçal-dəniz», «Duvannı-dəniz», «Bulla adası» yataqlarında məhsuldar qatın (MQ) V horizontunun neftli-qazlılığına dair təkliflər və s.

Bunların istehsalata tətbiqi nəticəsində milyon manatlarla iqtisadi səmərə əldə olunmuşdur. 40-a yaxın elmi məqalənin müəlifidir, ən vacib tədqiqatları aşağıdakılardır:

– Qazma zamanı quyularda geofiziki məlumatlara əsasən AYLT-nin ekspres-metodla proqnozlaşdırılması və qiymətləndirilməsi;

– Məsamə, lay təzyiqləri və temperatur qiymətləri arasında korrelyasiya əlaqəsi və bunun böyük dərinliklərdə neft-qazlılığın proqnozlaşdırılmasında istifadə olunması;

– AYLT məlumatlarına əsasən böyük dərinliklərdə karbohidrogen potensialının qiymətləndirilməsi və s.

S.M.İbrahimov 1993-cü ildən Azərbaycan Dövlət Neft Şirkəti, Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyində mədən geofizikası şöbəsində çalışır. Hal-hazırda «Mədən geofizikası şöbəsinin» rəisidir.



## ELMİ-TEXNİKİ İNFORMASİYA SAHƏSİNDƏ FƏALİYYƏT

ARDNŞ «Geofizika və mühəndis geologiyası» İB-nin İnformasiya mərkəzi şöbəsinin müdiri, «Azərbaycanda geofizika yenilikləri» elmi-texniki jurnalının məsul katibi, Azərbaycan Milli Geofizika Komitəsinin üzvü Sadiqova Fatmaxanım Qəzənfər qızı 1945-ci il may ayının 17-də Bakı şəhərində anadan olmuşdur.

O, elmi-texniki sahədə 30 il işlədiyi müddət ərzində geofizikaya aid o qədər ədəbiyyat oxumuş və redaktə etmişdir ki, bunu institutda oxuduğu 5 il ərzində çətin həyata keçirmək olardı. Fatmaxanım Sadiqova 1963-cü ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş, 1969-cu ildə təhsilini bitirmişdir. 1970–1972-ci illərdə «Azərbaycan neft təsərrüfatı» jurnalı redaksiyasında ədəbi işçi və redaksiya müdiri vəzifələrində işləmişdir.

O, 1973-cü ildə SSRİ Geologiya Nazirliyi Ümumittifaq Elmi-Tədqiqat Geofizika İnstitutunun Azərbaycan bölməsinin (1992-ci ildən ARDNŞ Azər.geofizika ETİ-dir) elmi-texniki informasiya şöbəsinə (ETİŞ) işə qəbul olunmuşdur. Böyük mühəndis kimi fəaliyyət göstərmiş, 1987-ci ildən ETİŞ-ə rəhbərlik etməyə başlamışdır. 1995-ci ildə ARDNŞ «Geofizika və mühəndis geologiyası» İB-nin İnformasiya Mərkəzi şöbəsinin müdiri vəzifəsinə keçirilmişdir və hazırda həmin vəzifədə çalışır.

F.Q.Sadiqova tərəfindən 7 elmi əsərin toplusu, 3 metodik rəhbərlik, Azər.Geofizika ETİ-nin elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin referativ toplusu, «Kim kimdir» kitabı, 6 geofiziki konfransın materialları (onlardan ikisi Ümumittifaq (1975, 1978) və dördü Beynəlxalq (1996, 1998, 2000, 2002) konfransın materiallarıdır) hazırlanmış və nəşr olunmuşdur.

F.Q.Sadiqova «Neft və qaz yataqlarının birbaşa axtarışında geofizi-

ki-kəşfiyyat üsullarının tətbiqi» (1987) və «Süxur nümunələri və quyu kəsilişləri tədqiqində nüvə-maqnit rezonansının tətbiqi» (1988) mövzuları üzrə şərh edilmiş biblioqrafik göstəricilərin tərtibatçısıdır. O, 1996-cı ildən məsul katibi olduğu «Azərbaycanda geofizika yenilikləri» jurnalının buraxılışı ilə məşğuldur. Bu respublikada rübdə bir dəfə ingilis və Azərbaycan dillərində çıxan yeganə jurnaldır.

Onun elmi-texniki informasiya sahəsindəki 30 illik əmək fəaliyyəti geofizika sahəsində elmi-texniki nailiyyətlərin və elmi tədqiqat nəticələrinin təbliğatına yönəldilmişdir. F.Q.Sadiqova Moskva şəhərində XTNS-nın (1974), Tiflis (1979) və Daşkənd (1981) şəhərlərində keçirilən konfransların iştirakçısı olmuşdur.

Moskva şəhərində İnformasiya işçilərinin ixtisasının artırılması institutunda (1979) və bazar iqtisadiyyatı əsaslarına görə «Geostaj»da (1991) ixtisasını artırmışdır.





## SEYSMİK KƏŞFİYYATIN GEOLOJİ SƏMƏRƏLİLİYİ

Azərgeofizika ETİ-nin fəza seysmik kəşfiyyatı laboratoriyasının müdiri, geologiya-mineralogiya elmləri doktoru Qarayev Baba Manaf oğlu 1931-ci il yanvarın 23-də Bakı şəhərində anadan olmuşdur. 1948-ci ildə orta məktəbi, 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini neft-qaz yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı ixtisası üzrə qurtarmışdır. Bundan başqa o, 1949-cu ildə Azərbaycan Dövlət Musiqi texnikumunu klarnet sinfi üzrə qurtarmış və bir müddət Dövlət Simfonik orkestrində işləmişdir.

B.M.Qarayev geofizika ixtisası üzrə əmək fəaliyyətinə 1954-cü ildə «Azərneft» Birliyinin Dəniz geofizika kəşfiyyat kontorunda başlamış, dəniz seysmik-kəşfiyyat dəstələrində böyük radiotexnik, mühəndis-operator, mühəndis interpretator, 1956–1964-cü illərdə quru seysmik dəstələrində rəis vəzifəsində işləmişdir. Bu dövrdə B.M.Qarayevin texniki rəhbərliyi altında Azərbaycanın mürəkkəb quruluşlu rayonları üçün seysmik kəşfiyyatının yeni və təkmilləşdirilmiş texnologiyaları işlənib hazırlanmış, bir sıra neftli-qazlı strukturlar detallaşdırılmış və dərin qazmaya hazırlanmış, ilk dəfə Azərbaycanda Tənzimlənən Yönəldilmiş Qəbul (TYQ) seysmik üsulu işlənilmiş və müsbət geoloji nəticələrlə Azərbaycanın müxtəlif neftli-qazlı rayonlarında geniş tətbiq edilmişdir.

1964–1965-ci illərdə B.M.Qarayev Azərneftçıxarma ETİ-nin Geofiziki şöbəsində, 1965-ci ildən indiyədək Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda işləyir. Burada o, böyük elmi işçi, Geofiziki ekspedisiyanın rəisi, laboratoriya və seysmik kəşfiyyat şöbəsinin müdiri, 1977–1980 və 1992–1994-cü illərdə eyni zamanda bu institutun elmi işlər üzrə direktor müavini vəzifəsində işləmişdir. 1977-ci ildən

B.M.Qarayev Azərgeofizika ETİ-də fəza seysmik kəşfiyyatı laboratoriyasına rəhbərlik edir.

Azərgeofizika ETİ-də işlədiyi dövrdə B.M.Qarayev əsas etibarilə seysmik kəşfiyyatının nəzəri və metodik məsələləri ilə, Azərbaycanın mürəkkəb quruluşlu neftli-qazlı rayonları üçün müasir seysmik kəşfiyyat texnologiyalarının inkişafı və təkmilləşdirilməsi, yeni 3-ölçülü seysmik texnologiyalarının yaradılması və onların geniş tətbiq edilməsi ilə məşğul olmuş, müsbət geoloji nəticələr əldə etmişdir. O, 3-ölçülü enli seysmik profil üsulunun (EPÜ) yeni modifikasiyasını və fəza seysmik kəşfiyyatı üzrə əks olunmuş seysmik dalğaların korrelyasiya üsulunu işləyib hazırlamış, Azərbaycanın mürəkkəb neftli-qazlı rayonlarında geniş tətbiq etmiş və perspektivli sahələrin dərinlik geoloji quruluşunu öyrənmişdir.

Son zamanlar B.M.Qarayev fiziki-seysmik modelləşdirmə vasitəsilə antiklinal və müxtəlif tipli qeyri-antiklinal neft yataqlarının geoloji kəsilişdə proqnozlaşdırılması metodikasını işləmişdir və Azərbaycanın müxtəlif kəşfiyyat sahələrində tətbiq edilmək üçün hazırlamışdır.

B.M.Qarayev 1970-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun alimlik dərəcəsi verən Elmi Şurasında «Azərbaycan SSR-in quru hissəsində TYQ seysmik metodunun tətbiqi, səmərəli metodikasının işlənib hazırlanması və geoloji effektivliyinin analizi» mövzusunda namizədlik dissertasiyasını,1996-cı ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunda İxtisaslaşdırılmış Şurada «Azərbaycanın mürəkkəb quruluşlu neftli-qazlı rayonlarında seysmik kəşfiyyatının geoloji səmərəliliyinin artırılması» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir və həmin illərdə müvafiq alimlik dərəcələri almışdır.

B.M.Qarayev 1993–1994-cü illərdə Ankarada keçirilmiş 13-cü Beynəlxalq Geofiziki Qurultayda və 10-cu Beynəlxalq Neft Konqresində, 1996–1998, 2000 və 2002-ci illərdə Bakı şəhərində keçirilmiş Azərbaycan Beynəlxalq Geofiziki Konfranslarda elmi məruzələrlə çıxış etmişdir. 1965-1967-ci illərdə Kuba Respublikasında dəniz seysmik kəşfiyyatı dəstəsində aparıcı mühəndis, 1983–1987-ci illərdə isə Almaniya Demokratik Respublikasında «Geofizika» kombinatında seysmik materialların interpretasiyası üzrə baş mühəndis vəzifəsində çalışmışdır. Xaricdə olarkən o, Havana şəhərində ispan dili üzrə ikiillik «Con Rid» məktəbini, Leypsiq şəhərində alman dili üzrə dördillik Xalq Universitetini qurtarmışdır.

B.M.Qarayev Azərbaycan Milli Geofiziklər Təşkilatının, Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutu Elmi Şurasının və Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu nəzdində dissertasiyalar müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın üzvüdür.

O, 85 elmi işin, o cümlədən çap edilmiş 46 elmi məqalənin və yeni seysmik kəşfiyyat texnologiyaları üzrə 6 ixtiranın müəllifidir. Onun əsərləri rus dilində Moskvada nəşr olumuş jurnallarda, Ankara şəhərində keçirilmiş geofiziki konqres və qurultayın materiallarında, «Azərbaycan Neft Təsərrüfatı» və ingilis dilində «Azərbaycanda geofizika yenilikləri» jurnallarında çap edilmişdir.



## YENİ YATAQLAR AXTARIŞINDA

ARDNŞ, GMG İB Azərgeofizika Elmi-Tədqiqat İnstitutunun Kəşfiyyat dəstəsinin rəisi Qasımov Nəriman Qalası oğlu 1936-cı il iyunun 22-də Kürdəmir rayonunun Çöl-Ərəb kəndində anadan olmuşdur. Təhsilini 1943–45-ci illərdə Kürdəmir şəhər 1 saylı məktəbində almış, sonralar Bakıda 1 saylı məktəbdə davam etdirmişdir. 1954-cü ildən Ukrayna Respublikasının Olevski şəhərində mülki aviasiya məktəbinin radiotexnika şöbəsində təhsil almışdır.

N.Q.Qasımov əmək fəaliyyətinə 1957-ci ildən Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma institutunda texnik-geofizik vəzifəsində işləməklə başlamışdır. Sonralar Azərgeofizika Elmi-Tədqiqat institutunda seysmik kəşfiyyat işlərinə rəhbərlik edərək Aşağı və Orta Kür depressiya sahələrində, Respublikanın bir çox neftli-qazlı rayonlarında, Xəzərin Şelf zonalarında neftli-qazlı yataqların açılmasında yüksək professional-fəalliyyət göstərmişdir. Onun «Qayıdış» yatağının seysmik tədqiqatlarında əməyi böyükdür.

1968-72 və 1976–80-ci illərdə SSRİ-dən qabaqcıl mütəxəssis kimi Əfqanıstan Respublikasına ezam edilmişdir. Onun fəal iştirakı ilə burada ilk dəfə olaraq Ümumi Dərinlik Nöqtəsi (ÜDN) seysmik metodik tətbiqi ilə neft-qaz yataqlarının axtarış işləri aparılmışdır. Bunun nəticəsi olaraq 2 neft və 1 qaz yatağı açılmışdır. O, bacarıqlı mütəxəssis kimi Zakir Şah tərəfindən təşəkkür almış, medalla təltif edilmişdir.

N.Q.Qasımov SSRİ-nin digər regionlarında da, ələlxüsus Qazaxıstan Respublikasının Manqışlaq vilayətində də seysmik kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir.

Hazırda o, Azərbaycanın müxtəlif sahələrində yeni neft yataqlarının axtarışı işlərində fəaliyyət göstərir. YAP-ın üzvüdür.



## YERİN DƏRİN QATLARINDA TƏDQİQAT



Qəhrəmanov Qurban Kərim oğlu 1932-ci il aprel ayının 8-də Gürcüstan Respublikasının Marneuli rayonunda anadan olmuşdur.

Q.K.Qəhrəmanov 1957-ci ildə geoloq-geofizik ixtisası üzrə Azərbaycan Dövlət Universitetini bitirmiş və 1957–1961-ci illərdə Qazaxıstanda geofiziki ekspedisiyada müxtəlif vəzifələrdə işləmişdir. 1961-ci ildən Azərbaycan Neftçıxarma ETİ-də, sonralar isə uzun müddət elektrik kəşfiyyatı (maqnitotellurik metodlarla) dəstəsinin rəisi vəzifəsində çalışmışdır.

Q.K.Qəhrəmanov 1965-ci ildən Azərgeofizika ETİ-də fəaliyyət göstərir, 1961–65-ci illərdə onun iştirakı və rəhbərliyi ilə Gəncə və Quba-Xəzəryanı neftli-qazlı rayonlarında elektrik kəşfiyyatının tellurik üsulu ilə Mezozoy çöküntülərinin öyrənilməsi istiqamətində çöl-tədqiqat işləri həyata keçirilmiş və müsbət nəticələr əldə edilmişdir.

1966–67-ci illərdə Q.K.Qəhrəmanovun təşəbbüsü və rəhbərliyi ilə elektrik kəşfiyyatının ən müasir maqnitotellurik Zondlama (MTZ), Maqnitotellurik Profilləmə (MTP) və Dərin Maqnitotellurik Zondlama (DMTZ) üsulları Azərbaycanda ilk dəfə olaraq tətbiq edilmiş və Yer qabığının dərinlik quruluşunun bu üsullarla öyrənilməsinin əsası qoyulmuşdur. Sonralar bu üsullarla uzun müddət Azərbaycanın neftlilik-qazlılıq baxımından perspektivli olan müxtəlif rayonlarında – Kür depressiyası, Qobustan və Hacınohur sahələrində geniş tədqiqat işləri aparılmış, işlənilən regional profillər boyu geofiziki kəsilişlər qurulmuş və mezozoy çöküntülərinin dərinlik tektonikası öyrənilmişdir.

Alınan müsbət nəticələrə əsaslanaraq onun həmmüəllifliyi ilə verilən təklifə əsasən 1969-cu ildə «Azərneftgeofizika» trestində elektrik kəşfiyyatı dəstəsi təşkil edilmişdir.

1972–76-cı illərdə Q.K.Qəhrəmanovun rəhbərliyi və həmmüəllifliyi ilə Azərbaycanın dəniz akvatoriyasında mezozoy çöküntülərinin tektonikasını öyrənmək məqsədilə MTZ üsulunun metodikası və texnikası işlənilib hazırlanmış, bir neçə regional profil boyu tədqiqat işləri aparılmış və geofiziki kəsilişlər qurulmuşdur. Bununla da dəniz akvatoriyasında MTZ üsulu ilə Yer qabığının dərinlik tektonikasının öyrənilməsinin əsası qoyulmuşdur. 1980-ci ildə onun rəhbərliyilə Ermənistanın depressiya zonalarının geoloji quruluşunun öyrənilməsi istiqamətində MTZ üsulu ilə tədqiqat işləri aparılmışdır.

Q.K.Qəhrəmanov Türkmənistan EA Yerin Fizikası İnstitutunun elektrometrik laboratoriyasının əməkdaşları ilə birlikdə dərin maqnitotellurik zondlama metodu ilə Nebitdağ-Qazax profili üzrə Yerin ən dərin qatlarını (200–400 km) öyrənmək məqsədilə tədqiqat işləri aparmışdır.

Onun rəhbərlik etdiyi elektrik kəşfiyyat dəstəsi seysmik kəşfiyyat dəstəsi ilə birlikdə uzun müddət Böyük Qafqazın cənub ətəklərində Yer qabığının dərinlik quruluşu və geofiziki sahələrin vaxtaşırı dəyişməsini öyrənmək (rejim işləri) məqsədilə maqnitotellurik tədqiqat işləri aparmışdır. Nəticədə, seysmoaktiv zonaların dərinlik tektonikası haqqında olan təsəvvürlər xeyli zənginləşdirilmiş və geofiziki sahələr vasitəsilə zəlzələni proqnozlaşdırmağın mümkün olduğu haqda ilkin mühakimə yürüdülmüşdür.

Q.K.Qəhrəmanov 45 nəşr olunmuş elmi işin, o cümlədən 4 ixtiranın və bir neçə səmərələşdirmə təklifinin müəllifidir.





## YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**Azneftkimyamaş Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Əlif Qaraxanovun söhbəti:**

– Azərbaycanda neft-maşınqayırma sənayesinin yaranması və inkişaf etməsinin bir əsrdən artıq tarixi vardır. Ötən yüzilliyin sonunda Abşeron yarımadasında sənaye üsulu ilə dünyada ilk dəfə neft çıxarılması ilə əlaqədar olaraq Azərbaycan və onun paytaxtı Bakı şəhəri neft maşınqayırma mərkəzinə çevrilmişdi. Uzun müddət ərzində Azərbaycanın neft maşınqayırma zavodları, elmi-tədqiqat və konstruktor təşkilatları keçmiş sovetlər birliyinin neftçıxarma və maşınqayırma regionları üçün təcrübə məktəbi olmuşdur. Keçmiş SSRİ-də neft-qaz çıxarılması üçün lazım olan avadanlıqların 70 faizi Azərbaycanın neft-maşınqayırma müəssisələrində istehsal edilmişdir. Bizcə, onu da qeyd etmək yerinə düşər ki, SSRİ o vaxtlar neft istehsalına görə dünyada öncül yer tuturdu. İstehsal edilən neft-mədən avadanlıqları isə təkcə ölkə neftçilərini təmin etmirdi, həm də bir sıra xarici ölkələrə, neft regionlarına – Misirə, Əlcəzairə, Rumıniyaya, Polşaya, Argentinaya, Hindistana və Vyetnama göndərilirdi.

Bu gün Azərbaycanın neft-maşınqayırma sənayesi özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Əvvəllər Dövlət Şirkəti kimi fəaliyyət göstərən sahə, ölkədə keçirilən özəlləşdirilmə proqramına uyğun olaraq Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı ilə açıq səhmdar cəmiyyətə çevrilmişdir. 2001-ci ilin martından bu statusu alan ASC bu gün 14 sənaye müəssisəsini, 4 elmi-tədqiqat və layihə konstruktor təşkilatını öz ətrafında birləşdirir. Cəmiyyətin müəssisələrində 90 çeşiddə, 600-dən artıq tip-ölçüdə geoloji, kəşfiyyat, qazma, neftçıxarma, quyuların təmiri, mədənlərin abadlaşdırılması üçün maşın

və avadanlıqlar, alətlər və neft avadanlıqlarına ehtiyat hissələri istehsal edilir.

Neft-kimya maşınqayırma sənayesi iki mühüm amilə görə Azərbaycan iqtisadiyyatında mühüm rol oynayır. Əvvəla neft, mədən və kimya avadanlıqlarını dünya bazarına çıxarmaqla, ölkəyə valyuta axınını təmin etmək olar. Digər tərəfdən də bu sahə Azərbaycanın neft-kimya avadanlığına olan tələbatını tam ödəyə və ölkəyə xaricdən maşın və avadanlıqlar idxal edilməsinin qarşısını ala bilər.

Hazırda «Azneftkimyamaş» ASC öz qarşısına beynəlxalq standartlara cavab verən rəqabət qabiliyyətli məhsullar istehsal edilməsi, buraxılan məhsulların keyfiyyətinin yüksəldilməsi, yeni satış bazarlarının mənimsənilməsi, istehsalın həcminin artırılması, maşınqayıranların sosial rifahının yüksəldilməsi vəzifəsini qoymuşdur. Bu məqsədlə həyata keçiriləcək tədbirlərin kompleks planı tərtib olunmuş, cəmiyyətin tərkibindəki törəmə müəssisələrin istehsal, təsərrüfat və kommersiya fəaliyyətinin əlaqələndirilməsi, onların yüksək-rentabelli və səmərəli işləməsini təmin etmək üçün cəmiyyətin aparıcı mütəxəssisləri müəssisələrə təhkim olunmuşlar. Bu işlər isə artıq öz bəhrəsini verməkdədir. Bu ilin 6 ayının texniki-iqtisadi göstəricilərinin səhmdar cəmiyyəti və müəssisələr üzrə nəticəsi də nikbin proqnozlara əsas verir. Cəmiyyət üzrə bu müddətdə 45668,6 milyon manatlıq əmtəəlik məhsul istehsal edilmişdir ki, bu da ötən illə müqayisədə xeyli artıqdır. Bu müddətdə istehsalın tempi Suraxanı maşınqayırma zavodunda 121,8 faiz, Sabunçu EİB TSC-də 136,6 faiz, «Bakı fəhləsi» zavodunda 300 faiz, Zabrat maşınqayırma zavodunda 145,4 faiz, «28 May» adına zavodda 104,8 faiz, Bakı maşınqayırma zavodunda 117,8 faiz artmışdır. Digər müəssisələrin göstəriciləri də ümidvericidir və gələcəkdə nəzərdə tutduğumuz proqramların icrasının təmin olunacağına əminlik yaradır. Təsəvvür edin, «Suraxanı maşınqayırma» TASC-nin ötən ilin müvafiq dövrü ilə müqayisədə artım tempi 121,8 faiz olub. 6 ayda 1 milyard manatlığa yaxın məhsul xarici ölkələrə göndərilib. Bu gün zavodda yeni texnika və texnologiyanın tətbiqi sahəsində mühüm işlər görülür. İstehsal olunan məhsulların texniki parametrlərini Amerika Neft İnstitutunun standartlarına uyğunlaşdırmaq sahəsində mühüm işlər aparılır. Digər operativ tədbirlər həyata keçirilir.

Yaxud «28 May» TASC-də 6 ayda 1 milyard manatlıq əvəzinə 1 milyard 74 milyon manatlıq məhsul istehsal olunub. Bu da ötən ilin səviyyəsindən 80 milyon manat çoxdur. Bu müəssisədə də keyfiyyət amili əsas götürülür. Qazaxıstana, Türkmənistana, Ukraynaya, habelə digər regionlara göndərilən məhsullar da yüksək keyfiyyəti ilə fərqlənir.

Son beş ildə əsasən yeni məhsul istehsalına istiqamətlənən «Zabrat maşınqayırma» TASC-nin uğurları da sevindiricidir. 176 fəhlə və qul-



luqçusu olan, orta aylıq əmək haqqı 400 min manat təşkil edən müəssisənin işçilərə əməkhaqqı borcu yoxdur. Zavodda iş sifarişlərə uyğun olaraq qurulur. 2001-ci ilin 6 ayında 1 milyard 978 milyon manatlıq məhsul istehsal edən müəssisə bu ilin müvafiq dövründə istehsalın tempini xeyli artırmağa nail olub. 2 milyard 882 milyon manatlıq məhsul istehsal olunub.

Cəmiyyətin qabaqcıl müəssisələrindən olan «Bakı maşınqayırma» TASC artıq 2 ildir ki, «APİ» standartları ilə qazma boruları üçün qıfıllar itsehsal edir ki, bu da bizə dünya bazarına çıxmağa imkan verir.

Cəmiyyətin ən böyük müəssisəsi Səttarxan adına maşınqayırma zavodunun «İSO-9000» standartlarına uyğun olaraq texniki sənədləri yenidən işlənmişdir və gələn ildən etibarən fontan armaturları, kolon başlıqları və digər məhsulların da «APİ» standartları ilə istehsal edilməsi üçün lisenziya-monoqram alınması nəzərdə tutulmuşdur.

Neft-Maşınqayırma üzrə Konstruktor və Elmi-Tədqiqat İnstitutu Az.İNMAŞ 70 illik fəaliyyəti dövründə neft-qaz çıxarılması üçün istehsal edilən avadanlıqların böyük əksəriyyətini işləyib hazırlamışdır. Hətta Rusiyanın maşınqayırma müəssisələrində bu institutun yaratdığı avadanlıqları istehsal edirlər. Bu yaxınlarda institutun konstruktor və alimləri dünya standartlarına cavab verən neft quyularının qazılması və təmiri üçün 80 ton ağırlıq qaldıra bilən qurğu yaratmış və müvəffəqiyyətlə sınaqdan çıxarmışlar. Yaxın vaxtlarda həmin qurğunun istehsalına başlanacaqdır.

Bu gün idarəetmənin ən müasir üsulları ilə işləyirik. Marketinq fəaliyyətinə xüsusi diqqət yetiririk. İdarəetmədə kompüter texnologiyasından yararlanırıq.

Digər tərəfdən isə məhsullarımızın sertifikatlaşdırılmasına diqqət yetiririk və bu iş artıq öz operativ həllini tapmaqdadır.

Ölkə prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı bu gün durmadan inkişaf edir. Ayrı-ayrı sahələr üzrə istehsalın həcmi artır, ölkəyə investisiya axını güclənir, sahibkarlara geniş meydan verilir, münbit rəqabət mühiti yaradılır. Ölkədə davam edən siyasi sabitlik, dövlət başçısının düzgün iqtisadi-siyasi kursu ölkəmizin sivil dünyaya inteqrasiyasına əlverişli imkanlar açır.

Azərbaycan Respublikasının hökumət nümayəndə heyəti Sverdlovsk şəhərində işgüzar səfərdə olmuşdur. Nümayəndə heyətinin tərkibində mən də var idim. Biz «Uraltransmaş»da «Uralmaş»da, Sverdlovsk vilayətinin bir sıra müəssisələrində olduq. Yüksək qonaqpərvərliklə qarşılandıq. Azərbaycan diasporunun nümayəndələri ilə görüşdük. Azərbaycanın və Sverdlovskın müəssisələrinin gələcək əlaqələri, perspektivləri haqqında danışıqlar apardıq. Çıxış edənlər Rusiya-Azərbaycan münasibətlərinin inkişafında bu cür işgüzar görüşlərin, genişlə-

nən əlaqələrin, ölkələrin sənaye müəssisələrinin canlanmasında böyük rol oynayacağını vurğuladılar.

Mən bu qənaətdəyəm ki, «Azneftkimyamaş» ASC-nin gələcək inkişaf perspektivləri nikbin proqnozlara əsas verir. Məhsullarımızın satış bazarı imkanları isə getdikcə artmaqdadır. Bizim hər cür texnologiyaya malik istehsal potensialımız, əlverişli coğrafi vəziyyətimiz, kommunikasiya imkanlarımız, ən başlıcası isə ixtisaslı mütəxəssislərimiz və işçi qüvvəmiz var. Bunlar uğurlu fəaliyyət üçün əsas amillərdir.





## ПЕРВАЯ ЖЕНЩИНА–ГЕОФИЗИК

Вушедшем 2002 году научная общественность Национальной академии наук Азербайджана торжественно отметила юбилей видного ученого-геофизика, руководителя лаборатории «Земной магнетизм и палеомагнетизм» Института геологии, доктора геолого-минералогических наук Маниже Иса гызы Исаевой.

М.И. Исаева по праву является одним из основоположников палеомагнитных исследований в Азербайджане. Женщина-геофизик, ставшая первой на всем азиатском пространстве доктором наук в области физики Земли, в своей научной деятельности охватывает широкий круг проблем, связанных с палеомагнетизмом осадочных, эффузивных, интрузивных, а также метаморфических комплексов пород, магнетизмом горных пород и его прикладным значением, вопросами стратиграфии, тектоники и палеографии Азербайджана.

Много внимания уделено М.И. Исаевой количественной оценке сейсмичности отдельных регионов республики, оценке характера проявления сейсмомагнитного эффекта, что позволило сконцентрировать исследования в области прогноза землетрясений в перспективных сейсмогенных областях Азербайджана.

Круг научных интересов М.И. Исаевой не ограничивается рамками национальных границ. Большой вклад внесен ею в исследование плейстоценовых морен Русской платформы. Проведенные М.И. Исаевой детальные палеомагнитные исследования позволили уверенно расчленить ледниковые горизонты московского, днепровского и окского оледенений на обширной территории Русской

равнины и внести ясность в возрастную трактовку исследованных морен.

Большую научную значимость имеют палеомагнитные исследования М.И. Исаевой, позволившие по-новому подойти к определению кинематических параметров движения плит и дать палеотектоническую реконструкцию Большого и Малого Кавказа. Это, по сути, революция в понимании истории тектонического развития Кавказского региона.

Неоценимый научный и практический вклад внесла М И. Исаева своими исследованиями в магнитостратиграфию фанерозоя Азербайджана, а также в проблему магнитного и палеомагнитного критериев оценки перспектив нефтегазоносности региональных и локальных структур.

Доктор наук М.И Исаева является автором более 110 научных трудов и 4 монографий, опубликованных как у нас в республике, так и в Чехии, Словакии, Германии, Голландии, Турции, России, а также практически во всех странах СНГ.

Научные результаты ее работ по достоинству оценены на многих международных форумах геофизиками многих стран мира.

Высокий профессионализм Маниже ханум и ее прекрасные человеческие качества позволили ей вырастить целую плеяду молодых ученых, которые с достоинством представляют достижения национальной науки на всех научных форумах и являются основой национальных кадров.

За большие заслуги в научной, педагогической и общественно-трудовой деятельности доктор М.И.Исаева высоко отмечена руководством президиума Национальной академии наук Азербайджана. Но, самое главное, ее безграничная любовь к людям, теплота, умение дружить и высоко ценить эту дружбу снискали М.И. Исаевой любовь и уважение всех ее учеников, друзей и коллег.

Еще раз поздравляя юбиляра со знаменательной датой в ее жизни, мы благодарим судьбу за предоставленную нам возможность общения с этим прекрасным человеком.

Мы гордимся тем, что наша женщина-азербайджанка высоко держит авторитет азербайджанских геофизиков далеко за пределами нашего независимого государства, и уверены, что дальнейшая плодотворная деятельность М.И. Исаевой принесет немало успехов прикладного и теоретического характера и еще выше поднимет флаг научных достижений Азербайджана.

Ариф ГАСАНОВ, генеральный директор Республиканского центра сейсмологической службы Национальной академии наук Азербайджана, член-корреспондент НАНА, профессор.



## ÜÇÜNCÜ BÖLMƏ

# HƏYATDA İZİ QALANLAR

### ONLAR XALQIMIZIN SƏADƏTİ UĞRUNDA FƏDAKARLIQ GÖSTƏRMİŞLƏR

**AĞAYEV ZAMAN AĞALAR OĞLU (1936-2002)**

Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyi dərin hüznlə bildirir ki, uzun illər neft sənayesində çalışmış, adi fəhləlikdən kontor rəisi və QMQ İB-nin mədən geofizikası şöbəsinin müdiri vəzifələrinə qədər yüksəlmiş, istehsalat təşkilatçısı, qocaman neftçi, Zaman Ağalar oğlu Ağayev qəflətən vəfat etmişdir.

O, mədən geofizikası sahəsində yüksək ixtisaslı və təcrübəli, neft və qaz quyularında mədən geofizikası tədqiqatları komplekslərinin və perforasiya-partlayış aparılmasında qabaqcıl bir mütəxəssis idi.

1936-cı ilin iyun ayının 1-də Dəvəçi rayonunun Şıxlı kəndində qulluqçu ailəsində anadan olmuş Zaman Ağayev natamam orta məktəbi bitirdikdən sonra Bakı Neft Texnikumuna qəbul olunmuş, mədən geofizikası şöbəsini texnik-geofizik ixtisası üzrə bitirərək təyinatla «Azərneftgeofizika» trestində işləməyə göndərilmişdir. Həmin trestdə 5 il fəhlə kimi işə başlayaraq texnik-operator, mühəndis operator, dəstə rəisi, ekspedisiya rəisi, böyük mühəndis, dənizdə geofiziki işlər kontorunda direktor, trestin baş mühəndisi vəzifələrində çalışmışdır. İstehsalatdan ayrılmadan indiki Azərbaycan Texniki Universitetin radiotexnika fakültəsinə qəbul olunmuş 1970-ci ildə oranı müvəffəqiyyətlə bitirərək radio rabitəsi ixtisasına yiyələnmişdir.

1963–65-ci və 1986–88-ci illərdə keçmiş SSRİ Neft və Qaz sənayesi nazirliyi yüksək ixtisaslı mühəndis və təşkilatçı kimi qabiliyyətini nəzərə alaraq onu əvvəlcə Kuba Respublikasına, sonra isə Vyetnam Sosialist Respublikasına ezam etmişdir. Həmin ölkələrdə çalışdığı dövrdə, ona tapşırılmış tapşırıqları layiqincə yerinə yetirmişdir. Oradan qayıtdıqdan sonra əmək fəaliyyətini «Xəzərdənizneftgeofizika» trestində davam etdirmişdir. 1993-cü ildə yeni yaradılan Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinə işə dəvət edilmiş, əvvəlcə aparıcı mü-

həndis, sonra mədən geofizikası şöbəsinin rəisi və Baş metroloq vəzifələrinə təyin olunmuşdur.

Əməkdə qazandığı nailiyyətlərinə görə, Zaman Ağayev 1986-cı ildə Neft və Qaz sənayesi işçilərinin «Əlaçı» döş nişanı ilə təltif edilmişdir.

Yüksək ixtisaslı mütəxəssis olmaqla yanaşı o, mehriban ailə başçısı, iki övlad atası idi.

Zaman müəllimin əziz xatirəsi onu yaxından tanıyan çoxsaylı neftçi kollektivinin yadından çıxmayacaq.

Allah rəhmət eləsin!



## ЗИЯ АЛИ ОГЛУ БУНИАТЗАДЕ (1937-1997)



Геологическая общественность республики понесла тяжелую утрату. На 61 г. жизни скоропостижно скончался видный геолог-нефтяник, доктор геол.-минерал. наук, лауреат Государственной премии республики Зия Али оглу Буниат-заде, заместитель руководителя отдела геологии и геохимии нефти и газа, руководитель лаборатории «Проблемы генезиса нефти и нефтегазоносности больших глубин» Института геологии АН Азербайджана. Зия Али оглу Буниат-заде родился 25 октября 1937 г. в г. Гянджа. В 1960 г. с отличием окончил геолого-геофизический факультет государственного университета по специальности инженер-геолог-нефтяник. С 1958 г. работал в Институте геологии АН Азербайджана. В 1964-1970 гг. работал референтом Председателя Совета Министров республики и заместителем управляющего делами. В 1969 г. он успешно защитил кандидатскую диссертацию, посвященную газонефтяному вулканизму Южно-Каспийской впадины и закономерностям его проявлений. Зия Али оглу Буниат-заде долгие годы работал над такими проблемами, как связь нефтяных месторождений с разломной тектоникой, грязевой вулканизм и нефтегазоносность больших глубин. В 1988 г. вместе с группой ученых З.А. Буниат-заде был удостоен Государственной премии республики за составление «Карты месторождений нефти и газа и перспективных структур Азербайджанской ССР». Результаты многолетних научных исследований легли в основу его докторской диссертации «Газонефтяной вулканизм и нефтегазонакопление», которую он успешно защитил в 1991 г. З.А.Буниат-заде являлся председателем Экспертного Совета по наукам о Земле ВАК при президенте Азербайджана, ученым-секретарем Научного Совета по проблемам гео-

логии и разработки месторождений нефти и газа АН России. Признанием научных заслуг З.А.Буниат-заде явилось избрание его в 1993 г. действительным членом Международной Восточной Нефтяной Академии и членом-корреспондентом Международной Инженерной Академии. Активный участник десятков мировых и международных форумов геологов и нефтяников (в том числе и ряда организованных при его участии и проведенных в г. Баку), З.А.Буниат-заде внес значительный вклад в пропаганду новейших достижений азербайджанской науки, в частности и в качестве генерального секретаря Национального Комитета нефтяников Азербайджанской Республики, члена Евро-Азиатской ассоциации геологов-нефтяников и др. За месяц до смерти З.А.Буниат-заде принимал участие в организации Международного совещания-семинара «Новейшая тектоника и ее влияние на формирование и размещение залежей нефти и газа» совместно с Российской АН. Научная деятельность З.А.Буниат-заде тесно была связана с различными производственными организациями Азербайджана, Казахстана и Туркменистана, успешно внедряющими результаты исследований, выполненных с его участием. Он являлся членом различных экспертных групп и рабочих комиссий Нефтяной компании Азербайджанской Республики и ее подразделений. З.А.Буниат-заде опубликовал более 200 научных работ, вышедших помимо Азербайджана в 18 странах ближнего (Россия, Грузия, Туркменистан, Узбекистан, Украина и др.) и дальнего (Англия, Германия, Голландия, США, Франция и др.) зарубежья.

Светлая память о замечательном ученом, чутком и отзывчивом товарище навсегда останется в памяти его коллег.



## CƏLİLOV CƏLİL HƏSƏN OĞLU (1922-1997)

Cəlil Həsən oğlu Cəlilov 1922-ci ildə Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur.

1940-cı ildə o, Şəki şəhərindəki M.Qorki adına 10 saylı orta təhsil məktəbini bitirmişdir. 1941–1943-cü illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibədə ağır yaralandığına görə ordudan tərxis olunmuş və 1943-cü ildə M.Əzizbəyov adına Azərbaycan Qırmızı Əmək Bayrağı Ordenli Sənaye İnstitutuna (indiki Neft Akademiyasına) daxil olaraq, 1949-cu ildə orada «Qaz və Neft yataqlarının geologiyası və kəşfiyyatı» ixtisası üzrə tam kursu bitirmişdir. Dövlət İmtahan Komissiyasının 1949-cu il 5 mart tarixli qərarı ilə ona «Dağ mühəndisi–geoloq» ixtisası verilmişdir.

C.H.Cəlilov əmək fəaliyyətinə 1949-cu ildə «Neft daşları»nın təməlini qoyanların sırasında başlamışdır. Geoloq vəzifəsində işə başlamaqla «Neft daşları» Qazma İşləri İdarəsinin Baş geoloqu vəzifəsinə kimi yüksəlmişdir.

İstehsalatdan ayrılmadan C.H.Cəlilov 10 iyun 1967-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademik İ.M.Qubkin adına geologiya institutunda dissertasiya müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi – alimlik dərəcəsi adını almışdır.

31 dekabr 1974-cü ildə Neft Sənayesi Nazirliyinin Neft və Kimya Sənayesi İşçilərinin Həmkarlar İttifaqının Mərkəzi Komitəsinin Rəyasət Heyətinin qərarı ilə «Fəxri neftçi» adına layiq görülmüşdür.

Azərbaycan SSR-də 28 Aprel adına neft-qaz-kondensat yatağının (indiki «Günəşli» yatağı) kəşf edilməsinə görə 10 mart 1998-ci ildə SSRİ-nin Geologiya Nazirliyinin kollegiyasının qərarı ilə «Yatağı ilk kəşf edən» adına layiq görülmüşdür.

Respublikanın xalq təsərrüfatının inkişafı sahəsindəki xidmətləri-

nə görə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin «Fəxri fərmanı» və bir sıra medallar ilə təltif edilmişdir.

Bir kitabın, bir çox nəşr olunmuş məqalələrin və istehsalatda tətbiq olunmuş səmərələşdirici təkliflərin müəlifidir.

1985-ci ildə C.H.Cəlilova SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə «Əmək veteranı» adı verilmişdir.

1997-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Üç övlad böyüdüb boya-başa çatdırmışdır. Böyük oğlu Bəxtiyar atası kimi neftçi peşəsini seçmişdir. O, hal-hazırda xarici firmada işləyir. Kiçik oğlu Elxan arxitektordur. Qızı isə iqtisadiyyat sahəsində çalışır.



## ƏSƏDOV MƏHƏRRƏM NƏSİR OĞLU (1926–1997)

Əsədov Məhərrəm Nəsir oğlu 1926-cı il avqustun 8-də Şuşa şəhərində anadan olmuşdur. Orta məktəbi 1943-cü ildə bitirdikdən sonra Bakıya gəlib, 1944-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasının geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1950-ci ildə təhsilini başa vuraraq dağ mühəndisi-geoloq ixtisasına yiyələnərək dənizdə Kəşfiyyat Qazma İdarəsində geoloq vəzifəsində işə başlamışdır. 1952–1954-cü illərdə Qum adasında Azərbaycan Dəniz Neft Kəşfiyyat Qazma İdarəsində böyük geoloq vəzifəsinə köçürmə yolu ilə təyin edilmişdir. 1954–1958-ci illərdə həmin idarədə sahə üzrə böyük geoloq vəzifəsində işləmişdir. 1958-1963-cü illərdə Azərneft kəşfiyyat trestinin 5 saylı qazma idarəsində baş geoloq, 1963–1965-ci illərdə Azneftkəşfiyyat trestinin baş geoloqunun müavini, geoloji şöbənin rəisi, 1965–1975-ci illərdə Xəzər Dəniz Kəşfiyyat İdarəsinin baş geoloqu vəzifələrində çalışmışdır. 1975-ci ildən 1977-ci ilə qədər Nigeriya Neft Korporasiyasında məsləhətçi-geoloq vəzifəsində olmuşdur. 1979-cu ildə Neft və Qaz Yataqlarının Kəşfiyyatı Birliyinin baş geoloqu vəzifəsində, 1986-cı ildən ömrünün axırına kimi dənizdə kompleks geoloji-kəşfiyyat idarəsinin tabeliyində mərkəzi geoloji laboratoriyasının rəisi vəzifəsində çalışmış, 1997-ci il mayın 30-da Bakı Şəhərində vəfat etmişdir.

Əsədov Məhərrəm Nəsir oğlu işlədiyi illərdə özünü yüksək səviyyəli geoloq, öz sənətinin gözəl ustası, işində tələbkar, demokratik, hökumət işini özünün şəxsi mənafeyindən üstün tutan, öz savadı ilə günün bütün tələblərinə cavab verən bir insan idi.

Məhərrəm müəllimin bilavasitə iştirakı ilə Xəzərin Azərbaycan, Türkmənistan və Dağıstan sektorlarında, Qum-dəniz, Cənub, Səngəçaldəniz, Duvannı-dəniz, Bulla adası, Bahar, Bulla-dəniz, Jdanov bankası,

Lam bankası, Şərqi Livanova, İnçixa-dəniz, Günəşli, Azəri, Çıraq yataqları açılıb istifadəyə verilmişdir.

Məhərrəm müəllimin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, 1970-ci ildə V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə yubiley medalı ilə təltif olunmuşdur.

Azərbaycan Neft yataqlarının sənaye üsulu ilə işlədilməyə başladığı vaxtdan bir milyard ton neft çıxarılması ilə əlaqədar olaraq və respublika neft və qaz sənayesinin inkişafı sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1971-ci il 21 aprel tarixli fərmanı ilə ona Azərbaycan SSR Əməkdar mühəndisi fəxri adı verilmişdir. SSRİ Geologiya Nazirliyi Kollegiyasının 1988-ci il 10 mart tarixli qərarına əsasən Günəşli yatağının açılması münasibətilə medalla təltif olunmuş və ona «Yatağı birinci açan» adı verilmişdir.

1986-cı il avqustun 28-də SSRİ Qaz Sənayesi Nazirliyi Kollegiyası və Neft-Qaz Sənayesi Həmkarlar Təşkilatı Rəyasət Heyətinin qərarı ilə ona Qaz Sənayesi Nazirliyinin fəxri işçisi adı verilmişdir.

Məhərrəm müəllim Azərbaycanda neft-qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Nazirlər Sovetinin (1977-ci il 19 dekabr) qərarına əsasən fərdi təqaüdlə təmin olunmuşdur. Məhərrəm müəllimin neft-qaz sənayesində keçdiyi həyat yolu gənc geoloqlarımız üçün örnək olmalıdır.



## ƏFƏNDİYEV NADİR ƏBDÜLRƏHMAN OĞLU (1927–2002)

Nadir Əbdülrəhman oğlu Əfəndiyev 1927-ci il iyun ayının 28-də Ağdaş rayonunda anadan olmuşdur. 1951-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Neft və qaz yataqları fakültəsini bitirmişdir.

N.Ə.Əfəndiyev 1952–1991-ci illərdə Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində qazmaçı köməkçisi vəzifəsindən, idarənin baş mühəndisi vəzifəsinə qədər yüksəlmişdir.

N.Ə.Əfəndiyev 1991-ci ilin mart ayından 2000-ci ilə qədər Az.NSETLİ-də elmi işçi, aparıcı mühəndis vəsifəsində işləmişdir.

Nadir müəllim iş prosesində özünü yüksək ixtisaslı, təcrübəli, təşəbbüskar mühəndis kimi göstərmiş, Azərbaycan Respublikasının quruda yerləşən bir çox neft və qaz yataqlarının, o cümlədən «Kürsəngi», «Tərsdəllər», «Zərdab», «Kəlamətdin» və s. açılmasına rəhbərlik etmişdir.

N.Ə.Əfəndiyev 1991-ci ildən «Üfüqi quyuların qazılması texnologiyasi və texnikası» mövzusu üzrə bir sıra sanballı texnoloji tədbirlər hazırlamışdır. «Quşxana» və «Qaradağ» yataqlarında quyuların əyilməsinin və nov əmələ gəlməsinin qarşısını alan tədbirlərin müəllifi olmuşdur.

Onun istehsalatda çalışdığı dövrdə elmi-tədqiqat və təcrübi nəticələri 3 rəhbər sənəddə və 15 elmi məqalədə əks olunmuşdur.

M.Ə.Əfəndiyev 2000-ci ilin avqust ayından səhhətinə görə təqaüdə çıxmışdır. 13 mart 2002-ci ildə vəfat etmişdir.

O, Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə dövlət tərəfindən müxtəlif mükafatlarla təltif olunmuşdur.

Nadir müəllimin şəxsiyyəti onu tanıyanların diqqətini cəlb etmiş,

insanpərvərliyi, humanistliyi ilə onlarda özünə qarşı böyük məhəbbət, hörmət və minnətdarlıq hissləri doğurmuşdur.

N.Ə.Əfəndiyevin parlaq xatirəsi onun həmkarlarının, dostlarının, iş yoldaşlarının, ümumiyyətlə, onu tanıyanların qəlbində daim yaşayacaqdır.



## ƏHMƏDOV ABBAS HƏSƏNQULU OĞLU (1935–2001)

Əhmədov Abbas Həsənqulu oğlu 2 noyabr 1935-ci ildə Qərbi Azərbaycanın Alaverdi rayonunun Ayrım kəndində anadan olmuşdur. 1954-cü ildə Azərbaycan politexnik institutuna qəbul olunub, 1959-cu ildə institutu bitirib və «inşaat mühəndisi» ixtisasını mənimsəyib.

A.H.Əhmədov 1959-cu ildə təyinatla «Azərdənizinşaat» trestinə göndərilib.

1961-ci ildən Sov.İKP sıralarına qəbul olunub. İş icraçısı, baş iş icraçısı, PTO-nun rəisi, inşaat quraşdırma idarəsində baş mühəndis, trestdə PTO rəisi, dəmir-beton zavodunda rəis, inşaat quraşdırma idarəsində rəis vəzifələrində vicdanla çalışmışıb. Abbas müəllim ömrünün sonuna qədər baş mühəndis vəzifələrində fəaliyyət göstərdi. Dəfələrlə tərifnamələr və müxtəlif mükafatlarla təltif edildi.

Əhmədov Abbas Həsənqulu oğlu 2001-ci ildə dünyasını dəyişmişdir.

Keçmiş iş yoldaşları, tanışları, dostları, yaxınları, əzizləri Abbas müəllimi həmişə xatırlayırlar.

## ЛЕВ ВОЛЬФОВИЧ ФИКС (1920-2002)

После продолжительной и тяжелой болезни, 21 января 2002 г. в Санкт-Петербурге, на 82 году жизни скончался заслуженный изобретатель Азербайджана, ветеран труда Лев Вольфович Фикс.

С именем Льва Вольфовича связано становление и развитие патентнолицензионной работы в системе нефтяной промышленности республики, в которой он начал работать с 1948 г. Созданная им Научно-исследовательская лаборатория имела обширный патентный фонд, включала десятки тысяч описаний изобретений, микрофильмированных патентных описаний ведущих государств мира, официальные бюллетени и реферативные информационные сборники об изобретениях зарубежных стран, различные законодательные, нормативные, информационные документы по изобретательству и рационализации. Под его непосредственным руководством осуществлялись проверки на патентоспособность рационализаторских предложений, поступавших с предприятий нефтяной промышленности, проводились патентные исследования по данным предложениям и составлялись заявки на предполагаемые изобретения.

Благодаря его кропотливому труду и профессиональной помощи сотни производствен-ников-нефтяников получили авторство на изобретения.

Лев Вольфович обладал глубокими знаниями в области нефтяного производства, многие его изобретения успешно и эффективно внедрялись в нефтедобыче. Созданный им элеватор ЭЗН с захватным приспособлением для работы с насосно-компрессорными и



бурильными трубами в процессе спускоподъемных операций по настоящее время широко применяется на нефтяных месторождениях Азербайджана. Нефтяники отдают предпочтение этим элеваторам благодаря их надежности, безопасности и удобству в работе и любовно называют их «элеваторами Фикса».

За заслуги в деле развития изобретательства и рационализации в нефтяной промышленности Азербайджана и создание высокопроизводительного, безопасного комплекса инструментов для подземного и капитального ремонта скважин ему было присвоено звание «Заслуженный изобретатель Азербайджанской ССР».

Чуткий, отзывчивый, принципиальный, глубоко порядочный – таким человеком был Лев Вольфович Фикс, и светлая память о нем навсегда останется в наших сердцах.

## HACIYEV SABİR ƏLİHEYDƏR OĞLU (1931–2002)

Sabir Əliheydər oğlu Hacıyev 1931-ci il aprel ayının 24-də Bakı şəhərində anadan olmuşdur.

O, 1950-ci ildə Bakı Sənaye Texnikumunu bitirdikdən sonra «Azneftgeofizika» trestində elektrik montyoru, 1952-ci ildə mühəndis, 1954-cü ildə karotaj dəstəsinin rəisi işləmiş və 1951–1960-cı illər ərzində Bakıda və Siyəzəndə geofiziki ekspedisiyanın texniki rəhbəri kimi yeni texnikanın, o cümlədən avtomatik karotaj stansiyalarının istehsalatda tətbiqi ilə məşğul olmuşdur.

S.Ə.Hacıyev 1960–1965-ci illər ərzində Azərbaycan Neftçıxarma və Qazma İşləri Elmi-Tədqiqat İnstitutunda mühəndis vəzifəsində işləmişdir.

O, eyni zamanda istehsalatdan ayrılmadan təhsilini davam etdirmiş və 1965-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmişdir.

S.Ə.Hacıyev həmin ildən ÜİGKETİ-nin Cənub şöbəsində əmək fəaliyyətini davam etdirmiş, özünü təşəbbüskar, bacarıqlı elmi işçi və mədən geofizikası sahəsində təcrübəli və metodiki işlərin bilicisi kimi göstərmişdir.

O, 1971-ci ildə «Tutulmuş qazma alətlərinin açılması məqsədilə qaytanlı torpedlərin partlayışı zamanı boruların təzyiq və mühitdən asılı olaraq deformasiyasının tədqiqi» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və texnika elmləri namizədi elmi dərəcəsi almışdır.

S.Ə.Hacıyev polad və yüngül metaldan olan tutulmuş qazma borularını açmaq üçün partlayıcı maddənin optimal miqdarını təyin edən tövsiyyələr dərc etdirmiş və həmin tövsiyyələr 1970–71-ci illərdə keçmiş SSRİ Neft və Geologiya Nazirliklərinin birgə təsdiq etdikləri qaytanlı torpedlərin istifadəsi üçün «təlimatda» istifadə edilmişdir.



O, 1971–84-cü illərdə «Mədən geofizikası cihazlarının işlənməsi laboratoriyası»na rəhbərlik etmiş və mədən geofizikasının aparıcı sahəsində görkəmli alim-tədqiqatçı kimi fəaliyyət göstərmişdir.

S.Ə.Hacıyev həmin illərdə eyni zamanda, qazıma zamanı karotaj işləri üçün cihazqayırma ilə məşğul olmuş və 1978–1982-ci illər ərzində Kola yarımadasında qazılan layihə dərinliyi 15 km olan dərin quyuda (SQ-2) geofiziki tədqiqatlar aparmaq üçün avtonom cihaz və onun tətbiqi texnologiyasını yaratmış və ölçü işlərini aparmışdır.

O, 1984-cü ildə Azərbaycan Dövlət Geologiya İdarəsinin geofizika ekspedisiyasına rəis təyin olunmuş, 1989-cu ilə qədər bu vəzifədə işləmiş və bu dövrdə respublika miqyasında aparılan filiz və başqa faydalı qazıntıların axtarışında yeni texnika və texnologiyanın geniş tətbiqini təşkil etmişdir.

S.Ə.Hacıyev 1989-cu ildə Azərgeofizika ETİ-nin «Quyu geofiziki cihazlarının yaradılması laboratoriyası»nın müdiri vəzifəsinə təyin edilmişdir.

S.Ə.Hacıyev 1969–1980-cı illər ərzində elmi-istehsalat fəaliyyəti ilə bərabər elmi-pedaqoji fəaliyyətdə də olmuş, Azərbaycan Neft və Kimya İnstitutunda mədən geofizikası üzrə mütəxəssislərin hazırlanmasında əvəzsiz xidmət göstərmişdir.

O,1998-ci ildə bir namizədlik dissertasiyası üzrə rəhbər olmuşdur.

S.Ə.Hacıyev 120-dən çox elmi işin, o cümlədən 80 dərc olunmuş elmi əsərin və 24 ixtiranın müəllifi və həmmüəllifi olmuşdur.

O, Azərgeofizika ETİ Elmi Şurasının üzvü, Texniki Şurasının sədri və Azərbaycan Milli Geofizika Komitəsinin üzvü olmuşdur.

S.Ə.Hacıyev uzunmüddətli qüsursuz elmi-istehsalat və ictimai-pedaqoji fəaliyyətinə görə «Rəşadətli əməyə görə» və «Rəşadətli əmək» medalları ilə təltif olunmuşdur.

O, 2002-ci il mart ayının 11-də uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.

## HƏSƏNOV İLYAS SALEH OĞLU
## (1927–2002)

İlyas Saleh oğlu Həsənov 1927-ci il sentyabr ayının 26-da Goranboy rayonunun Xanqərvənd kəndində anadan olmuşdur.

O, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun Geoloji-Kəşfiyyat fakültəsini neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisası üzrə bitirmişdir.

İ.S.Həsənov 1952-ci ilin sentyabr ayının 26-dan əmək fəaliyyətini Ümumittifaq Geofiziki-Kəşfiyyat Üsulları Elmi-Tədqiqat İnstitutunun kompleks elmi-tədqiqat dəniz geofizika ekspedisiyasında başlamış, sonralar Azərbaycan Neftçıxarma Elmi-Tədqiqat İnstitutunda, 1965-ci ildən ÜİGKÜETİ-nin Azərbaycan filialında, 1992-ci ildən isə Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda fasiləsiz olaraq geoloji-geofiziki tədqiqatlarla məşğul olmuşdur. O, geoloq, böyük mühəndis, dəstə rəisi, şöbə müdirinin müavini, şöbə müdiri, institutun baş geoloqu, bölmə müdiri, ekspedisiyanın baş geoloqu və laboratoriya müdiri vəzifələrində çalışmışdır.

İ.S.Həsənov 1988-ci ildən institutun «Kompleks geoloji-geofiziki tədqiqatlar laboratoriyası»na rəhbərlik etmişdir.

O, 1966-cı ildə «Yeni məlumatlar əsasında Cənub-Xəzər çökəkliyinin qərb hissəsinin tektonikası» mövzusunda namizədlik və 1990-cı ildə «Orta və Cənubi-Xəzər çökəkliyinin tektonikası və geoloji inkişaf tarixi» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

İ.S.Həsənov geoloji-geofiziki ümumiləşdirmə və tektonika sahəsində Azərbaycan Respublikasının aparıcı alimlərindən biri olmuş və uzun müddət Xəzər dənizinin tektonikası, onun dərinlik geoloji quruluşu, dərinlik yarılmaları və geoloji inkişaf tarixinin öyrənilməsi, tektonik



və neftqazgeoloji rayonlaşdırma məsələlərinin həlli ilə məşğul olmuşdur.

İ.S.Həsənovun rəhbərliyi və bilavasitə iştirakı ilə Azərbaycanın, Xəzər dənizinin, Cənub-Xəzər neftli-qazlı hövzəsinin və yeni məlumatlar əsasında bir daha «Azərbaycanın neftli-qazlı və perspektiv strukturlar atlasları»nın bütöv bir rəngli seriyası hazırlanmışdır. Həmin atlaslar 30-a yaxın xarici neft şirkətləri tərəfindən alınmışdır.

1999-cu ildə İ.S.Həsənovun rəhbərliyi və onun bilavasitə iştirakı ilə Azərbaycanın həm quru ərazisi və dəniz akvatoriyası üçün ayrılıqda monoqrafik izahat kitabları ilə müşayiət edilən iki atlas tərtib edilmişdir. Bunlardan başqa, elə həmin ildə «Naxçıvan Muxtar Respublikasının geoloji-geofiziki və faydalı qazıntılar xəritələri atlası» tərtib olunmuş və rəngli şəkildə nəşr etdirilmişdir.

O, «Azərbaycanın neftli-qazlı vilayətlərinin geoloji quruluşunun geofiziki üsullarla öyrənilməsi» (Azərnəşr, 1963) və «SSRİ geologiyası» (XLVII cild, Azərbaycan SSR, «Nedra», Moskva,1972) monoqrafiyalarının həmmüəllifi olmuşdur.

İ.S.Həsənovun əsas müəlliflərdən biri olduğu «Cənubi Xəzər hövzəsinin morfostrukturu, neotektonikası və inkişaf tarixi» (Aşqabad, II im, 1992) monoqrafiyasında ən cavan çöküntülərin müqayisəli səciyyəsi, Cənub-Xəzər və Qərbi Türkmənistan seqmentlərinin ən yeni tektonikası, morfologiyası və strukturu öz əksini tapmışdır.

AMEA müxbir üzvü K.M.Kərimovun baş redaktorluğu ilə dərc edilmiş «Azərbaycanda geofiziki tədqiqatlar» (Bakı, 1996) monoqrafiyasında da İ.S.Həsənov redaksiya heyəti üzvlərindən biri olmuşdur. Bu monoqrafiyada Azərbaycanın quru ərazisində və dəniz bölməsində aparılmış geofiziki işlərin vəziyyəti, nəticələri və həmin işlərin gələcək perspektivləri öz əksini tapmışdır.

İ.S.Həsənov dəfələrlə Beynəlxalq, Ümumittifaq, Respublika əhəmiyyətli elmi qurultay, konqres, simpozium və konfranslarda məruzə ilə çıxış etmişdir.

O, üç dəfə atlasların mətbuatda dərc edilməsilə əlaqədar olaraq İngiltərədə (London, «Çebko seysmik Limited» şirkətinin dəvətilə) olmuş, 1992-ci ildə Argentinada (Buenos-Ayres) keçirilən 13-cü Neft konqresində, 1993-cü ildə Türkiyədə (Ərzurum, Atatürk Universiteti) keçirilən beynəlxalq konfransda və 1994-cü ildə (Ankara, «Şevron» şirkətinin dəvətilə) 10-cu Petrol konqresində məruzələrlə çıxış etmişdir.

İ.S.Həsənov uzun müddət Bakı Dövlət Universiteti və Maliyyə-İqtisadiyyat Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

1988, 1989, 1995, 1996 və 2000-ci illərdə İ.S.Həsənovun rəhbərlik etdiyi laboratoriyanın elmi nailiyyətləri AMEA Rəyasət Heyəti tərəfindən ən mühüm elmi nəticələr kimi qəbul olunmuşdur.

O, 1996–2001-ci illərdə Beynəlxalq neft-qaz sərgilərində Azərbaycanın yeni neftli-qazlı və perspektivli strukturlar atlaslarının maketi və reklamları ilə iştirak etmişdir.

O, 250-dən artıq, o cümlədən mətbuatda dərc edilmiş 160 elmi əsərin, 6 monoqrafiya, 7 atlas, 6 broşura, 4 xəritə və bir ixtiranın müəllifidir.

Onun mətbuatda dərc edilmiş 20-dən artıq elmi əsəri ingilis dilinə, 2-si isə türk dilinə tərcümə olunub nəşr edilmiş, həmmüəllifi olduğu 60-dan çox elmi əsəri isə respublika hüdudlarından kənarda, o cümlədən Rusiya Federasiyasında çap olunmuşdur.

İ.S.Həsənov 1967-ci ildə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, 1970-ci ildə «Azərbaycanın milyardıncı ton nefti», 1977 və 1987-ci illərdə keçmiş SSRİ Geologiya Nazirliyinin «Yer təki kəşfiyyatının əlaçısı» döş nişanları və 1999-cu ildə neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə ARDNŞ-nin Fəxri fərmanı ilə təltif edilmişdir.

O, 1991-ci ildə Azərbaycan Respublikasının «Əməkdar geoloqu» fəxri adı, 1994-cü ildə isə Avropa-Asiya Mezokaynozoy şelflərinin paleocoğrafik xəritələr atlasının tərtibində iştirakına görə H.Z.Tağıyev adına Milli Mükafata layiq görülmüşdür.

İ.S.Həsənov 1997-ci ilin yanvar ayında Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, 2001-ci ilin iyun ayında isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

İ.S.Həsənov Avropa və Asiya Geofizika Cəmiyyəti, Azərbaycanın Milli Geologiya Komitəsi, Azərbaycanın Milli Geofizika Komitəsi bürosu, AMEA Rəyasət Heyəti nəzdində Azərbaycanın Geologiya məzmunlu xəritə və atlaslarının nəşri üzrə Elmi Redaksiya Şurası ekspert qrupu, AMEA Geologiya İnstitutunun «Birləşdirilmiş və ixtisaslaşdırılmış», Elmi Şurası, Seysmoloji Mərkəzin Elmi-Texniki Şurası və Azərgeofizika ETİ-nin Elmi Şurasının üzvü olmuşdur.

O, 1984-cü ildən əmək veteranı idi.

İ.S.Həsənov 2002-ci ilin iyul ayının 1-də uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.



## ЧИНГИЗ АГАХАЛИЛ ОГЛУ ХАЛИЛБЕЙЛИ (1929–1978)

Родился 13 февраля 1929 г. в Баку. Будучи студентом Московского геологоразведочного института им. ак. Губкина, направился для прохождения производственной практики в Баку в ГРК в море, где и продолжил трудовую деятельность по окончании института, работая геологом, старшим геологом, начальником геологического отдела, главным геологом.

1969-1976 г.г. – начальник геологического отдела, затем главный геолог треста «Каспморнефтеразведка».

1976 г. – главный геолог МУРБ с ПБУ.

Увлечения – книги (особенно исторические), музыка (классическая), шахматы (его брат Султан Халилбейли был первым национальным чемпионом Азербайджана по шахматам).

Под его руководством картировочные и структурнопоисковые скважины бурились на площадях Бакинского Абшеронского архипелагов, а также на площади Банка Жданова у туркменских берегов. Будучи председателем научно-технического совета ГРК в море Ч.А.Халилбейли предъявлял самые строгие требования к написанию и оформлению объектовых геологических отчетов. Он автор множества статей по актуальным геологическим вопросам, Каспийского моря. Последние годы своей жизни Ч.А.Халилбейли возглавлял геологический отдел, был заместителем главного геолога ПО «Каспбурнефтегазпром». На этом посту еще ярче раскрылись его организаторские способности в создании новых геологоразведок на акватории Каспийского моря.

Скоропостижно скончался 2 мая 1978 г.

**MƏMMƏDOV ADİL MƏMMƏD OĞLU**
**(1930–2002)**

Azərbaycan Respublikasının Neft Sənayesinə ağır itki üz vermişdir. Görkəmli neftçi-alim, istedadlı mühəndis, texnika elmləri namizədi, AzNSETLİ-nin aparıcı elmi işçisi, respublikanın əməkdar mühəndisi Adil Məmməd oğlu Məmmədov 2002-ci il iyun ayının 19-da ağır xəstəlikdən sonra vəfat etmişdir.

Adil müəllim 1930-cu ilin yanvar ayında Naxçıvan MR-nın Ordubad şəhərində zəhmətkeş ailəsində anadan olmuşdur. O, 1953-cü ildə M. Əzizbəyov adına Sənaye İnstitutunu müvəffəqiyyətlə bitirdikdən sonra, 20 ildən artıq bir müddətdə respublikanın neft sənayesində çalışaraq qazmaçı, neftçıxarma ustası vəzifələrindən başlayaraq mədən müdiri, NQÇİ-nin rəisi vəzifəsinə qədər şərəfli istehsalat yolu keçmişdir. O, respublikanın Neftçıxarma Nazirliyində «Azərneft» İstehsalat Birliyində məsul vəzifələrdə çalışmışdır. O, böyük istehsalat təcrübəsi keçdikdən sonra, 1974-cü ildən ömrünün sonuna qədər yaradıcı taleyini AzNSETLİ ilə bağlamışdır.

A.M.Məmmədov neftçıxarma texnika və texnologiyası sahəsində yüksək ixtisaslı mütəxəssis olduğundan institutda qısa müddət ərzində böyük elmi işçi vəzifəsindən sektor, laboratoriya müdiri, direktorun elmi işlər üzrə birinci müavini – baş mühəndis vəzifələrinə qədər yüksəlmişdir. O, institutdakı fəaliyyəti dövründə neft sənayesinin bir çox problemlərinin həllində yaxından iştirak etmiş, onlarla elmi tədqiqat işinin rəhbəri olmuş, 60-dan çox ixtira və səmərələşdirici təklifin müəllifi olmuşdur. Qubkin adına mükafatın laureatı Adil Məmmədov gənclərə nümunə ola biləcək şərəfli bir ömür sürmüşdür. O, gənclərə həmişə böyük qayğı göstərməklə yanaşı, onlara ciddi tələbkarlıqla yanaşaraq səriştəli mütəxəssis kimi yetişmələrinə çalışmışdır. Adil müəllim özünün



yüksək insani keyfiyyətlərinə görə həmişə kollektivin sevimlisi olmuşdur. O, yaxşı ailə başçısı, üç övlad atası idi.

Adil müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

## MƏMMƏDOV NURƏDDİN NURMƏMMƏD OĞLU (1931–1992)

Məmmədov Nurəddin Nurməmməd oğlu 1931-ci ildə Ağdaş rayonunun Qaraoğlan kəndində anadan olub. 1948-ci ildə Pirəzə kənd orta məktəbini əla qiymətlərlə bitirdikdən sonra, həmin ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun neft-mədən fakültəsinə daxil olub, 1953-cü ildə həmin institutu bitirdikdən sonra Gürgan-dəniz qazma kontorunda buruq ustası kimi əmək fəaliyyətinə başlayıb. 1959-cu ildən həmin kontorda müxtəlif vəzifələrdə çalışıb. 1959-cu ildə «Azneftkəşfiyyat» trestinin 5 saylı kontoruna baş mühəndis təyin edilib.

1960-cı ildə elmi fəaliyyəti ilə əlaqədar olaraq Azərbaycan Respublikası Elmlər Akademiyasının Dərin Neft-Qaz Yataqlarının Problemləri İnstitutunda böyük mühəndis kimi fəaliyyətini davam etdirib, sonra böyük elmi işçi vəzifəsinə təyin edilib.

1961-ci ildə Suriya Ərəb Respublikasında işləməyə göndərilib, orada özünün rəhbərliyi ilə tikdirdiyi ilk kəşfiyyat quyusuna baş mühəndis təyin edilib.

1962-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsi alıb. Həmin ildə «Qum adası» Neft-Qazma İdarəsinə baş mühəndis, 1963-cü ildə Şirvan Qazma Kontoruna direktor təyin edilib.

1964-cü ildən 1970-ci ilədək elmi fəaliyyəti ilə əlaqədar olaraq EA-nın DNQYPİ-da qazma laboratoriyasının müdiri işləyib.

N.N.Məmmədov 1970-73-cü illərdə Əlcəzair Xalq Respublikasının Neft Kəşfiyyatı İdarəsində müxtəlif vəzifələrdə işləmişdir. 1973–1978-ci ildə Qobustan Kəşfiyyat Qazma İdarəsində direktor, 1978–1983-cü ildə «Saatlı Kəşfiyyat Ekspedisiyası»nda baş mühəndis vəzifəsində çalışmışdır.



1983-cü ildən 1991-ci ilədək elmi fəaliyyətini davam etdirmək məqsədilə yenidən «Dənizneftlayihə» institutunda laboratoriya müdiri və sektor rəisi kimi fəaliyyət göstərmişdir. Hələ 1973-cü ildə texniki elmlər doktoru elmi dərəcəsi almaq üçün «Azərbaycan şəraitində dərin quyuların qazılmasının səmərəli texnologiyası» mövzusunda çox qiymətli dissertasiyasını hazırlamış, lakin amansız ölüm bu dissertasiyanı müdafiə etməyə imkan verməmişdir. Uzun sürən ağır xəstəlikdən sonra o, 1992-ci il iyun ayının 8-də vəfat etmişdir.

Nurəddin Məmmədov onlarla səmərəli təklifin, ixtiranın, bir neçə kitabın, elmi məqalələrin və monoqrafiyaların müəllifidir.

Onun Azərbaycan şəraitində turbin qazmasının geniş yayılmasında, müəlliflərindən biri olduğu üçpilləli hidromonitor, pərli baltaların qazmada geniş istifadə olunmasında böyük zəhməti, rolu olmuşdur. Eyni zamanda neft sahəsində alimlərin təmənnasız hazırlanmasında çox işlər görmüş, bir neçə elmlər namizədinin elmi rəhbəri olmuşdur.

Gözəl insani keyfiyyətlərə malik olan, təvazökar, qayğıkeş insan, şair təbiətli, üç oğul, üç qız atası olan Nurəddin müəllim onlarla şerlərin müəllifi olmaqla bərabər, həm də haqqın, ədalətin carçısı idi.

Nurəddin müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

## MƏMMƏDOV QƏHRƏMAN HÜSEYNQARA OĞLU (1928–1997)

Q.H.Məmmədov 1928-ci ildə Xanlar rayonunun Qovlarsarı kəndində anadan olmuşdur.

1952-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuşdur. O, 1957-ci ildə institutu bitirdikdən sonra Şirvanneft Neft Mədənləri idarəsinin qazma idarəsində qazmaçı köməkçisi, qazmaçı, buruq ustası, sahə rəisi vəzifələrində işləmiş, 1960-cı ildən baş mühəndis təyin edilmişdir. Fitri istedadı və iş bacarığı olan Q.Məmmədov 1962-ci ildən Qazma idarəsinin müdiri təyin edilmiş, 1969-cu ildən 1971-ci ilə qədər Şirvan qazma trestinin müdiri işləmişdir.

Q.Məmmədov 1971-ci ildən Əlibayramlı Qazma İdarəsinə rəis təyin olunmuş, burada o, bacarıqlı və işgüzar bir rəhbər kimi özünü göstərmişdir.

1975-ci ildə Q.Məmmədov Qobustan Kəşfiyyat Qazma İdarəsinə rəis təyin edilmişdir. Bu dövrdə Qobustan KQİİ qazma planlarını yerinə yetirmir və ziyanla işləyirdi. Q.Məmmədov işə başlayan kimi tədbirlər hazırladı, mühəndis-texnoloq kadrları dəvət edərək, idarənin maddi texniki bazasını gücləndirməklə bərabər, bir sıra struktur dəyişiklikləri apardı. Tez bir zamanda Qobustan KQİİ-si Respublikada Qazma İdarələri arasında birinci yerə çıxdı.

1976-cı ildə Q.Məmmədov bütün bu müvəffəqiyyətlərə görə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi. Qobustan KQİİ-si yüksək kadr potensialına malik idi. Onun rəhbərliyi ilə idarə yüksək nailiyyətlər əldə etdi. Bu illərdə bir sıra yeni neft yataqları açılır, dərin kəşfiyyat quyuları layihə dərinliyinə çatdırılırdı. 1978-ci ildə o, Neft sənayesinin əlaçısı adına layiq görüldü.



1979-cu ildə Q.Məmmədov geridə qalan Abşeron Qazma İdarəsinə rəis, 1980-ci ildə Kalmaz Dərin Qazma Ekspedisiyasına rəis təyin edildi.

Bütün həyatını neft və qaz sənayesinin inkişafına sərf edən bu fədakar insan səhhəti ilə əlaqədar öz xahişi ilə rəhbər vəzifədən könüllü olaraq çıxmış, bir il müalicə olduqdan sonra, 1991-ci ildə Siyəzən Qazma İdarəsinə, sonra da Qala Dərin Qazma Ekspedisiyasında rəis müavini vəzifəsində işləmişdir.

Lakin Q.Məmmədov artıq sağlamlığını itirmişdi. 1997-ci ilin 24 fevralında onun polad ürəyi həmişəlik dayandı.

Qəhrəman Hüseynqara oğlu Məmmədov bütün mənalı həyatını neft və qaz sənayesinə sərf etmiş, qazma mühəndisləri arasında birincilər sırasında olmuşdu. Q.Məmmədov iki dəfə əmək igidliyinə görə medalı, əməkdə fərqlənməyə görə medalı, Azərbaycan Ali Sovetinin Fəxri fərmanı, Neft sənayesinin əlaçısı, Qaz sənayesinin əlaçısı adına layiq görülmüşdü. O, bir sıra ixtira və səmərələşdirici təkliflərin müəllifi idi.

Qəhrəman Məmmədov 4 övlad atası idi, onun övladları da atalarının yolunu davam etdirirlər. Böyük oğlu Vüsal, Binəqədi NQÇİ-nin elmi-tədqiqat və istehsalat işləri sexinin rəisi, kiçik oğlu Hüseyn Dövlət Neft Şirkətinin Magistral Neft Kəmərləri idarəsində mühəndis vəzifəsində işləyirlər.

Q.H.Məmmədovun xatirəsi onu tanıyanların və yaxınlarının qəlbində daim yaşayacaqdır.

**MEHDİYEV YUSİF MEHDİ OĞLU**
**(1937–1999)**

Y.M. Mehdiyev 1937-ci ildə Ağdam rayonunun Xıdırlı kəndində qulluqçu ailəsində anadan olmuşdur. İlk təhsilini Xıdırlı kəndində almış, 1955-ci ildə orta məktəbi bitirmiş və həmin il M. Əzizbəyov adına Neft-Kimya İnstitutuna daxil olmuşdur. 1960-cı ildə Neft-Mədən fakültəsini bitirmiş və Azneftkəşfiyyat trestinin 5 saylı qazma idarəsinə təyinat almışdır. 1961–1969-cu illərdə orada qazmaçı köməkçisi, buruq ustası və sahə rəisi vəzifələrində işləmişdir.

1969–1971-ci illərdə 2 saylı qazma idarəsinin istehsalat texniki şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

1971–1978-ci illərdə Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinin (Qobustan KQİİ) baş mühəndisi vəzifəsində fəaliyyət göstərmişdir.

1978-ci ildə xaricə – Suriyaya kəşfiyyat qazma işləri üzrə məsləhətçi göndərilmişdir. Suriyada işləyərkən Yusif müəllimin yüksək mühəndislik bacarığını, təcrübəsini, insani keyfiyyətlərini görən xarici şirkət rəhbərliyi onun ezamiyyət müddətini əlavə 3 il artırmış, 1983-cü ilə qədər orada kəşfiyyat işləri üzrə qrup rəhbəri vəzifəsinə təyin etmişdir. Xidməti ezamiyyətdən qayıdarkən səfirlik tərəfindən ona Fəxri fərman verilmişdir.

O, 1983–1985-ci illərdə yenə Qobustan KQİİ-də baş mühəndis vəzifəsində çalışmışdır. Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsi o vaxtlar Abşerondan başlamış ta Qazax rayonunun Gürcüstanla həmsərhəd olan Ceyrançöl sahəsində çox dərin axtarış-kəşfiyyat quyuları qazırdı. Şəxsən Yusif Mehdiyevin mühəndislik biliyi, bacarığı sahəsində dərinliyi 5000–5500 metrə çatan dərin quyuların qazılmasına nail olunmuşdur. Yusif müəllimin belə mühəndislik bacarığını, təşkilatçılıq qabiliyyətini



görən «Azneft» rəhbərliyi ona həmin kəşfiyyat idarəsində rəis vəzifəsində işləməyi təklif etmişdir.

İşlədiyi bütün sahələrdə uğurlu fəaliyyəti ilə ictimaiyyətin dərin hörmətini qazanan Yusif Mehdiyev, 1985-ci ildən ömrünün sonuna qədər Qobustan KQİİ-nin rəisi vəzifəsində çalışmışdır.

1999-cu il martın 13-də Yusif müəllim ürək xəstəliyindən qəflətən həyatını dəyişmişdir.

Yusif müəllim 4 övlad atası olmuşdur. Böyük qızı İradə xanım Qobustan KQİİ-nin uşaq bağçasında müdirə vəzifəsində işləyir.

## MƏMMƏDZADƏ ZAHİD ŞƏRİF OĞLU (1937–2003)

Amansız əcəl gözəl insan, təcrübəli neftçi, sərişləli mütəxəssis Zahid Şərif oğlu Məmmədzadəni sıramızdan apardı.

Z.Ş. Məmmədzadə 1937-ci il yanvarın 2-də Bakı şəhərində anadan olmuşdu. 1960-cı ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun Neft-Mədən fakültəsini bitirərək neft-qaz yataqlarının işlənməsi üzrə dağ-mədən mühəndisi ixtisasına yiyələnmişdi. Elə həmin il təyinatla «Qaradağneft» Neft Mədənləri idarəsinə işləməyə göndərilən Z.Ş. Məmmədzadə o vaxtdan taleyini neftçi peşəsinə bağlamış, neft sənayesində ömür kitabının şərəfli səhifələrini yazmışdı. 1962-ci ilə kimi «Qaradağneftdə» neft hasilatı üzrə usta vəzifəsində çalışdıqdan sonra köçürmə yolu ilə «Azərdənizneftkəşfiyyat» trestinə quyuların mənimsənilməsi üzrə usta vəzifəsinə keçirilmişdi. 1963-cü ildə trestin Quyuların mənimsənilməsi idarəsinə böyük mühəndis təyin edilən Z.Məmmədzadə 1965-ci ildə baş mühəndis vəzifəsinə irəli çəkilmişdi.

Z.Ş.Məmmədzadə 1968-ci ildə «Nərimanovneft» NQÇİ-nin Quyuların Əsaslı Təmiri sexinə rəis müavini təyin olunmuş və üç il həmin vəzifədə çalışmışdır. 1971-ci ildə o, «Bulla-dəniz» NQÇİ-nin baş mühəndisi, 1972-ci ildə isə həmin neftqazçıxarma idarəsinin rəisi vəzifəsinə yüksəlmiş, ömrünün on ildən çoxunu bu yataqların işlənməsinə həsr etmişdir.

Z.Ş.Məmmədzadə 1982–1985-ci illərdə Vyetnam Sosialist Respublikasına uzunmüddətli xidməti işə ezam olunmuş, dost ölkənin neftçilərinə «qara qızıl» hasilatında əlindən gələn köməyi əsirgəməmişdi. Əməkdə qazandığı nailiyyətlərə görə Vyetnam hökumətinin «Xalqlar dostluğu» medalı ilə təltif edilmişdi.

Z.Ş. Məmmədzadə vətənə qayıtdıqdan sonra 1986–1994-cü illər



«Qum adası» NQCİ-də baş mühəndis kimi çalışmış, bir müddət neftqazçıxarma idarəsinin rəisi vəzifəsini icra etmişdi. 1994-cü ildən ömrünün sonunadək Z. Məmmədzadə Xəzər Hərbiləşdirilmiş hissəsinin rəisi kimi məsuliyyətli bir vəzifədə işləmişdir.

Z.Ş. Məmmədzadə harada işləməsindən asılı olmayaraq daim özünü fədakar insan, bacarıqlı neftçi, yüksək səviyyəli mühəndis kimi göstərə bilmişdi. O, həm də qayğıkeş və zəhmətsevər insan idi. İşlədiyi bütün kollektivlərdə özünə hörmət və nüfuz qazana bilmişdi. O, həmkarlarının ürəyində yalnız və yalnız xoş izlər qoymuşdur.

Z.Ş.Məmmədzadənin səmərəli əməyi dəfələrlə yüksək qiymətləndirilmiş, müxtəlif qiymətli hədiyyələrlə mükafatlandırılmış, Fəxri fərmanlara layiq görülmüşdü.

Ulu Tanrı hər kəsə olduğu kimi Zahid müəllimə də bir ömür vermişdi. O, bu ömrü şərəflə yaşadı, 66 illik həyatında dostlarının, iş yoldaşlarının, onu tanıyanların könlündə silinməz izlər qoydu. Zahid Şərif oğlu Məmmədzadənin nurlu xatirəsi hamımızın qəlbində daim yaşayacaqdır.

## MİRZƏHƏSƏNOV MİRZƏHƏSƏN SADƏDDİN OĞLU (1933–2003)

Yaşasaydı anadan olmasının 70-ci ildönümü tamam olacaqdı. Amma bu yubileyi görmək, dostlarının, iş yoldaşlarının, yaxınlarının xoş sözlərini eşitmək, təbriklərini dinləmək ona qismət olmadı.

2002-ci ilin iyul ayının ortalarında məzuniyyət götürdü, elinə, obasına, anadan olduğu doğma diyara baş çəkmək üçün Oğuz rayonunun Filfilli kəndinə getdi. Doğulduğu, böyüyüb başa çatdığı kənddə bir neçə gün qaldı və gözləmədiyimiz acı xəbərlə bizi sarsıtdı.

Qalmaz Dərin Qazma Ekspedisiyasının qocaman işçisi, savadlı və təcrübəli neftçi Mirzəhəsən Sadəddin oğlu Mirzəhəsənovun dünyasını dəyişməsi xəbəri gələndə yaşlıdan qocaya, fəhlədən rəisə kimi hamı kədərləndi. Axı, Mirzəhəsən müəllim sözün həqiqi mənasında hamının dostu, məsləhətçisi idi. Kollektivdə hamı ona «Mirzə müəllim» deyə müraciət edirdi. O, bu adı işi ilə, ləyaqəti ilə təsdiqləyirdi.

M. Mirzəhəsənov 1933-cü ildə dünyaya gəlmişdi. Başqa yaşıdları kimi onun da uşaqlıq illəri Böyük Vətən Müharibəsi illərinə təsadüf etmişdir. Atasını lap erkən yaşlarından itirmiş, anası Zərnigar onu min cür əziyyətlə böyütmüşdür. Çətinliklərlə dolu uşaqlıq həyatı onu bərkitmiş, mübariz etmişdir. Həyatın ona diqtə etdiyi hər cür mərhumiyyətlərə dözmüş, yaxşı oxumuş, kitabları özünün böyük dostu və məsləhətçisi hesab etmişdir.

1951-ci ildə orta məktəbi bitirərək sənədlərini mühəndis olmaq arzusu ilə Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə vermişdir. Tələbə Mirzəhəsən əla oxuyur, özünü fakültənin ən nümunəvi tələbəsi kimi göstərə bilir, elmlərin əsaslarına səy və əzmlə yiyələnirdi.



1956-cı ildə neft və qaz quyularının qazılması üzrə dağ mühəndisi diplomu alan cavan mühəndis təyinatla «Azərdənizneftkəşfiyyat» trestinin 2 saylı kontoruna göndərilir. O, əmək fəaliyyətinə fəhləlikdən başlayır, qazmaçı köməkçisi olur, əməyin ləzzətini, şirinliyini dadır. Sonra qazmaçı, buruq ustası olur, sahə rəisi vəzifəsinə təyin olunur.

1971-ci ildə Carlı Kəşfiyyat Qazma İdarəsi təşkil olunduqda M. Mirzəhəsənov həmin idarənin baş mühəndisi vəzifəsinə irəli çəkilir. O, Muradxanlı, Cəfərli, Şıxbağı, Zərdab sahələrində dərin və çox dərin quyuların qazılmasına öz yorulmaz fəaliyyətini və biliyini sərf edir. Daha sonra təcrübəli neftçi istehsalat-texniki şöbəsinə rəhbərlik edir.

Çöl şəraitində işləməsi, cürbəcür xarakterə malik insanlarla qarşılaşması, müxtəlif kateqoriyalı işçilərlə ünsiyyətdə olması onda möhkəm xarakter formalaşdırmışdır. Həddən artıq dözümlü, mübariz, son məqsədə nail olmaq istəyi kimi keyfiyyətləri özündə birləşdirən Mirzəhəsən müəllim gənclərə örnək və nümunə idi. O, həm dərin nəzəri biliklərə və həm də praktiki vərdişlərə malik idi. Yenilikçi mühəndisin çoxlu səmərələşdirici təklifləri istehsalata tətbiq edilmişdir.

M. Mirzəhəsənov 1993-cü ilin aprel ayından Qalmaz DQE-da əmək fəaliyyətini davam etdirmiş, əvvəl baş mühəndis, 1995-ci ildən ömrünün sonuna kimi texniki-istehsalat şöbəsinin rəisi işləmişdir.

M.Mirzəhəsənov həyatda olmasa da, tələbələri və övladları onu xatirələrində yaşadırlar.

M. Mirzəhəsənov gözəl ailə başçısı idi. Dörd övlad böyüdüb ərsəyə çatdırmış, onlara ali təhsil vermişdi. Oğlu İnqilab, atasının yolunu davam etdirərək Azərbaycan Neft və Kimya İnstitutunun Qaz-Neft fakültəsini bitirmişdir. Hazırda Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunun qazma məhlulları laboratoriyasında çalışır. M.Mirzəhəsənovun 10 nəvəsi babalarının əziz xatirəsini qəlblərində yaşadırlar.

Mirzəhəsən müəllim həyatda iz qoymuş, yaxşı ad-san qazanmış insanlardandır. Onun adı uzun müddət onu tanıyanların qəlbində yaşayacaqdır.

## MƏMMƏDOV RAFİQ HACIAĞA OĞLU (1942–2003)

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Geofizika və Mühəndis Geologiyası İB-nə ağır itki üz vermişdir. GMG İB-nin struktur bölməsi olan «Xəzərdənizneftgeofizika» trestinin müdiri Rafiq Hacıağa oğlu Məmmədov 12 fevral 2003-cü ildə qəflətən vəfat etmişdir.

Rafiq Hacıağa oğlu Məmmədov 2 may 1942-ci ildə Ağsu rayonunun Dilman kəndində anadan olmuşdur. 1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmişdir.

Əmək fəaliyyətinə 1965-ci ildən Maşınqayırma zavodunda usta kimi başlamışdır. 1966-cı ildən «Azneftgeofizika» trestinin Duvannı kontorunda mühəndis-operator və mədən-geofizika dəstəsinin rəisi vəzifələrində çalışmış, 1974-cü ildə həmin kontorun direktoru vəzifəsinə təyin olunmuşdur.

1985-ci ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Geofizika və Mühəndis Geologiyası İB-nin nəzdində olan «Xəzərdənizneftgeofizika» trestinin müdiri vəzifəsində işləmişdir.

R.Məmmədovun bilavasitə rəhbərliyi sayəsində trest kollektivi öz üzərinə düşən vəzifələri şərəflə yerinə yetirmişdir. Bu illər ərzində Xəzərdə «Günəşli», «Azəri», «Neft daşları», «Bulla-dəniz», «Ümid» və onlarla başqa neft və qaz yataqlarının kəşfinə və işlənməsinə layiqli töhfələr verilmişdir. Trestin mütəxəssisləri bir sıra xarici ölkələrin, o cümlədən Qazaxıstanın, Türkmənistanın, İran İslam Respublikasının, Rusiya Federasiyasının və Gürcüstan Respublikasının neft və qaz yataqlarının axtarışı, işlənməsi və istismara verilməsində iştirak etmişlər. Trest bu gün yüksək ixtisaslı mütəxəssislər işləyən, böyük təcrübə toplamış və inkişaf üçün yüksək potensialı olan müasir müəssisədir.



«Xəzərdənizneftgeofizika» trestinin kollektivi quyularda geofiziki tədqiqatlar aparmaq üçün lazımi istehsal bazasına, təcrübəli kadrlara və müasir avadanlığa malikdir. Bu nailiyyətlərin əldə edilməsində R. Məmmədovun tükənməz zəhməti olmuşdur.

R.Məmmədov gənc geofizik kadrların hazırlanmasına böyük diqqət yetirmişdir. O, uzun müddət Azərbaycan Dövlət Neft Akademiyasının diplom işlərinin müdafiəsi üzrə Dövlət Komissiyasına rəhbərlik etmişdir.

R.Məmmədov 1985-ci ildə keçmiş Sovetlər Birliyinin Qaz Sənayesinin «Fəxri işçisi» adına layiq görülmüşdür.

Son illərdə dövlətimizin neft strategiyasının həyata keçirilməsində Rafiq müəllimin böyük əməyi olmuşdur. Rafiq müəllim kollektiv arasında həmişə böyük nüfuza malik olmuşdur.

R.Məmmədovun əziz xatirəsi qəlbimizdə yaşayacaqdır.

## MUSTAFAYEV QURBANƏLİ ABDURƏHİM OĞLU (1926-1998)

Mustafayev Qurbanəli Abdurəhim oğlu Geologiya-mineralogiya elmləri doktoru, ARDNŞ Geofizika və Mühəndis Geologiyası İB Azərgeofizika ETİ-nin neft və qaz yataqlarının kompleks geofiziki üsullarla birbaşa axtarışı laboratoriyasının müdiri, Azərbaycan Geofiziklərinin Milli Komitəsinin üzvü idi.

O, 1926-cı il sentyabr ayının 25-də Şəki şəhərində anadan olmuşdur.

1953-cü ildə geoloq-geofizik ixtisası üzrə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1960–1965-ci illərdə Azərbaycan Respublikası EA Geologiya İnstitutunda işləmişdir. 1965-ci ildən Azərgeofizika ETİ-də laboratoriya müdiri vəzifəsində işləyirdi.

1959-cu ildə «Seysmik kəşfiyyat materiallarının geoloji interpretasiyasının yeni imkanları» mövzusunda namizədlik dissertasiyası, 1975-ci ildə isə «Neft və qaz yataqlarının birbaşa axtarışının seysmik metodu» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. İlk dəfə onun tərəfindən əvvəllər məlum olmayan fiziki hadisə – Azərbaycanın neftli-qazlı çöküntülərində seysmik dalğaların yüksək udulma effekti aşkar edilmiş və eksperiment yolu ilə sübut edilmişdir. Onun tərəfindən bu effekt əsaslandırılmış və seysmik üsullarla neft-qaz yataqlarının birbaşa proqnozlaşdırılması və hüdudlandırılması üçün təklif edilmişdir. Onun elmi tədqiqatlarının nəticələri 60-cı illərin əvvəllərində kəşfiyyat geofizikasında elmi-tədqiqat işlərinin yeni inkişaf istiqamətlərinin – məhsuldar çöküntülərdə elastik dalğaların udulmasına görə neft-qaz yataqlarının seysmik kəşfiyyatla birbaşa axtarış problemlərinin əsasını təşkil etmişdir.



Q.A.Mustafayev Azərbaycanın müxtəlif geoloji şəraiti ilə səciyyələnən neft-qaz yataqlarının proqnozlaşdırılması, hüdudlandırılması və yatım dərinliyinin təyin edilməsi üçün seysmik işlərin orijinal metodikalarının müəlliflərindən biri idi.

Alimin işləyib hazırladığı metodikaların istehsalata tətbiqi nəticələri Cənubi Kürsəngi, Bahar-dəniz, Qırovdağın ŞQ periklinalı, Qərbi Muradxanlı, Cəfərli (Azərbaycan), Dengizkul, Ümid, Markovskaya, Pinzar, Sardab (Özbəkistan), Vostoçnaya-Moxrovaya (Qərbi Sibir) sahələrində yeni neft-qaz yataqlarının açılmasına kömək etmişdir.

Q. A.Mustafayev 3 elmlər namizədi hazırlamışdır.

Q.A.Mustafayevin elmi tədqiqatlarının nəticələri 65 elmi işdə və 11 müəlliflik şəhadətnaməsində öz əksini tapmışdır.

Q.A.Mustafayev 1998-ci ildə vəfat etmişdir.

## НАЗАРОВ САЛМАН САРХУШ ОГЛУ (1933–2003)

Салман Сархуш оглу Назаров родился 23 января 1933 года в Баку в многодетной семье. В 1951 году окончил энергетический техникум, по распределению был направлен работать в Приморский край в город Сучань. Проработав там два года, вернулся в родной город, где в 1958 году окончил Азербайджанский институт нефти и химии им. М. Азизбекова. Начинал трудовой путь инженером по качеству нефтепромыслового оборудования на машиностроительном заводе «Бакинский рабочий», затем работал мастером по наземному оборудованию нефтепромысла № 7 нефтепромыслового управления «Лениннефть» (ныне НГДУ «Балаханынефть»), заведующим третьего нефтепромысла. В сентябре 1963 года был избран вторым, а в январе 1965 года - первым секретарем Ленинского РК КП Азербайджана.

С 1971 по 1984 год С. Назаров работал главным инженером НГДУ «Кировнефть» и НГДУ «Лениннефть», а с 1989 по 1995 год возглавлял нефтегазодобывающее управление «Балаханынефть».

Нелегким был 1992 год. Из-за разрыва связей с бывшими республиками СССР экономика Азербайджана, молодого суверенного государства, находилась в упадке Машиностроительные заводы, потеряв рынки сбыта, резко снизили выпуск нефтепромыслового оборудования. В этих сложных условиях в НГДУ «Балаханынефть» под руководством Салмана Назарова, изыскав резервы, добились сверхплановой добычи нефти в объеме 2002 тонн, а газа - 131 тыс. куб. м. Нефтепромысловики в тот год провели 3400 геолого-технических мероприятий, 13414 подземных ремонтов, капитально отремонтировали 416 скважин. Все это было достигнуто



ценой сплоченности коллектива НГДУ, в работе которого тон задавали главный геолог М. Агдамский, заведующий 6-м нефтепромыслом М. Байрамов, ведущий геолог С. Керимов, начальник ЦНИПР Х. Ширмамедов и другие. Достигнутые успехи были закреплены и в последующие годы.

Но не только за производственные показатели и большое хозяйство управления радел начальник НГДУ С. Назаров. В 1993 году нефтяники «Балаханынефти» оказали гуманитарную помощь Карабаху в сумме 550 тыс. руб., выделили на строительство мечети 45 тыс. руб. Обществу «Чернобыль» было передано 40 тыс. рублей. Кроме этого НГДУ «Балаханынефть» оказала разным организациям благотворительную помощь в сумме 510 тыс. руб.

Как руководитель старейшего нефтегазодобывающего предприятия С. Назаров и занимался патриотическим воспитанием молодежи. И когда наступили тяжелые для страны дни в Нагорном Карабахе отстаивали независимость и честь Отечества молодые нефтяники управления: Ровшан Кязымов, Алиджан Совзиев, Виктор Кадышев, Акиф Ширинов, Шамсаддин Зейналов, Джамиль Кулиев, Рафик Гусейнов, Нуру Искендеров, Гамид Мирзалиев, Ариф Ярмамедов, Мурадхан Магорланов и другие.

Руководитель не только на виду у своих работников, как глава семьи он всегда был в центре внимания своих детей, домочадцев.

Производственную деятельность С. Назаров сочетал с научной работой. В 1965 году он блестяще защитил кандидатскую диссертацию на тему «Промывка песчаной пробки пластовой водой и некоторые вопросы гидравлики призабойной зоны скважины».

Салман Сархуш оглу Назаров был участником Съезда новаторов в 1963 году, награжден медалью «За трудовую доблесть», орденом «Знак почета», удостоен звания «Отличник нефтяной промышленности».

Умер в 2003- году в городе Баку.

## ОРУДЖЕВА ИЗЗЕТ МИРЗА АГА ГЫЗЫ (1909–1983)

Оруджева Иззет Мирза Ага гызы (1909-1983 гг.), заслуженный деятель науки и техники, лауреат Государственной премии СССР и республики, академик АН Азербайджана, доктор технических наук, профессор, прошла большой творческий путь от инженера до академика. Жизнь ее была яркой, трудной, многогранной, а круг интересов – широк и многообразен.

Вся ее деятельность неразрывно была связана с АзНИИ НП им. В.Куйбышева, реорганизованным в Институт нефтехимических процессов им. Ю.Мамедалиева, с Институтом химии присадок и Институтом неорганической и физической химии АН Азербайджана.

На всех этапах деятельность И.М.Оруджевой была посвящена решению важной проблемы – разработки процессов получения эффективных моторных масел и добавок к смазочным материалам.

В годы Великой Отечественной войны вместе с другими азербайджанскими учеными она отдавала все силы и способности для выполнения фронтовых заказов, работ по созданию высококачественных смазочных материалов.

В 1949 г. ею совместно с группой ученых была разработана технология получения нового ассортимента масел, а также спецмасел на основе бакинских нефтей, что позволило значительно расширить ресурсы получения различных смазочных масел высокого качества.

Большой вклад внесла И.М.Оруджева в разработку таких важных процессов нефтепереработки, как селективная очистка масел, деасфальтизация, получение синтетических остаточных и дистиллятных авиационных масел. И.М.Оруджева внесла большой вклад



в развитие новой области нефтехимии – химии присадок к смазочным маслам. Она являлась одним из авторов разработки процессов производства ряда высококачественных присадок, смазочных композиций, исследований по проблеме защиты газоконденсатных месторождений от коррозии, новых ингибиторов коррозии.

С ее именем связаны разработка и промышленное внедрение новых алкилфенольных присадок к маслам АзНИИ-8у, СБ-3, СК-3, БФК и др.

И.М.Оруджева – автор свыше 300 трудов и изобретений, монографий, ряда учебных пособий по нефтехимии. Ею подготовлен ряд высококвалифицированных специалистов в области нефтехимии.

Значительное место в ее деятельности занимала научно-организационная деятельность, будь то на должности руководителя лаборатории или директора Института неорганической и физической химии АН Азербайджана.

Она была также большим общественным деятелем, являясь членом главной редакционной коллегии Азербайджанской энциклопедии, членом ряда спецсоветов по химии нефти, председателем координационного совета по ингибиторам коррозии.

Высокая научная эрудиция, разносторонние интересы, скромность и интеллигентность снискали ученому большое уважение широкой научной общественности.

Оруджева И.М. часто выступала с докладами на международных конгрессах, конференциях, симпозиумах в различных странах–Канаде, Португалии, Венгрии, ГДР и других, достойно представляя отечественную науку.

И.М.Оруджевой принадлежит особое место не только в науке, но и в истории, культуре, искусстве азербайджанского народа.

Она – первая женщина-азербайджанка, с именем которой связана история становления национального киноискусства.

Еще в 30-х годах она снималась в кинофильмах «Севиль», «Алмаз» и других, ставших жемчужинами азербайджанского киноэкрана.

Внешняя и внутренняя красота, умение общаться с людьми, с учетом специфики каждого, снискали ей любовь всех, кому посчастливилось жить, учиться, работать рядом с ней. Научная, организационная и общественная деятельность И.М.Оруджевой была отмечена высокими правительственными наградами-орденами и медалями.

Но ее лучшая награда – это любовь соотечественников и всех, кто ее знал, которая и по сей день живет в их сердцах.

## SADIQOV AKİF HƏSƏN OĞLU (1947–2002)

Akif Sadıqovun vəfatı «Neft Daşları» NQÇİ-nin kollektivi üçün ağır itki oldu. NQÇİ-nin Neftin-Qazın Çıxarılması və Nəqli Üzrə İstehsalat şöbəsinin rəisi Akif Həsən oğlu Sadıqov 2002-ci il sentyabrın 21-də 55 yaşında qəflətən vəfat etmişdir.

A.H. Sadıqov 1947-ci il iyulun 1-də Gədəbəy rayonunun Çayrəsullu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ilk əmək fəaliyyətinə Səttarxan adına zavodda fəhləlikdən başlamışdır. Ordu sıralarında xidmətini başa vurduqdan sonra «Elektrosentralit» zavodunda işləmişdir. 1974-cü ildə ADNA-nın neft və qaz yataqlarının işlənməsinin texnologiyası və kompleks mexanikləşdirilməsi fakültəsini bitirdikdən sonra taleyini «Neft daşları» NQÇİ ilə bağlamışdır. Əvvəlcə 4 saylı, sonra isə 1 saylı RMTX-də neftqazçıxarma operatoru, mühəndis texnoloq, 1982–92-ci illərdə isə ən böyük mədən olan 1 saylı NQÇS-də rəis müavini və rəis işləmişdir. 1996-cı ildən istehsalat şöbəsinin rəisi, baş mühəndisin müavini vəzifəsində çalışırdı.

İstehsalat yolları ilə pillə-pillə irəliləyən A.H.Sadıqov işə həmişə yüksək məsuliyyətlə yanaşmış, zəhmətkeşliyi və bacarığı ilə seçilmişdir. Tapşırılan bütün işləri həmişə vicdanla yerinə yetirirdi. Son illərdə NQÇİ-nin qazandığı uğurlarda aparıcı şöbələrdən birinin rəhbəri kimi A.Sadıqovun da böyük əməyi olmuşdur.

Çalışqanlığı, malik olduğu mənəvi keyfiyyətləri sayəsində kollektivin dərin rəğbətini qazanmışdır.

Ömrünün çiçəkləndiyi dövrdə həyatdan getmiş təvazökar insan, həssas yoldaş, etibarlı dost, bacarıqlı istehsalatçı Akif Həsən oğlu Sadıqovun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.



## СУЛЕЙМАНОВ МАМЕД КАГРАМАН ОГЛУ (1912-1988)

Мамед Каграман оглу Сулейманов (18.09.1912 - 09.08.1988 гг.) пришел в нефтяную промышленность Азербайджана в 1939 году после окончания АзИНЕФТЕХИМа (ныне Азербайджанская нефтяная академия). Впоследствии он окончил Московскую нефтяную академию. Первое время работал начальником разведочной партии, в 1945-1946 годах - начальником участка в Иране, а затем директором Геолого-поисковой конторы треста «Азнефтеразведка».

В 1949 году руководство объединения «Азнефть» поручает М.К. Сулейманову организацию Геолого-поисковой конторы в море (ГПК в море). Занимая должность директора ГПК (затем ГРК в море) на протяжении более 30 лет, М. Сулейманов по сути дела заложил основы геолого-поисковых работ на шельфе Каспия. Он стоял у истоков развития картировочного и структурно-поискового бурения и был поборником технического прогресса. Его талант организатора производства, многолетний опыт и знания были направлены на повышение технической оснащенности и в конечном итоге - на улучшение технико-экономических показателей морских поисково-разведочных работ.

Трудно поверить, но это факт, что в начале 50-х годов картировочное бурение велось с помощью примитивных парусно-моторных шхун, рыбацких сейнеров, мотоботов и тральщиков, на которых были смонтированы станки типа «КАМ-300» и «АББМ-3100». Такие плавсредства и техника позволяли бурить скважины лишь глубиной 25- 30 метров при толще воды до 30 метров.

В первое десятилетие на раннем этапе ведения геолого-поисковых работ на шельфе Каспия конторой под руководством М. Су-

лейманова были осуществлены инструментальные съемки островов, надводных и подводных обнажений, картировочное бурение с судов и структурно-поисковое бурение со сплошным отбором керна на островах Бакинского и Абшеронского архипелагов, изучены грязевые вулканы. Геолог по призванию, Мамед Сулейманов уделял большое внимание этим исследованиям, которые в значительной степени дополняли данные бурения. Полученные геологические данные способствовали дешифрованию материалов аэрофото-, геоморфологической и геофизической съемок.

Благодаря его заботам об оснащении конторы более совершенными судами в 1959 году ГРК в море получила первое отечественное плавучее основание понтонного типа, с которого была пробурена 51 скважина со средними глубинами 650-700 метров. На следующий год по заказу предприятия судоремонтный завод «Вано Стуруа» переоборудовал суда «Скорый» и «Скромный» (позднее - «И. Судмалис» и «А. Лазарев») и приспособил их для выполнения картировочного бурения. Это были комфортабельные, с отличными условиями для жилья и работы суда, обладающие хорошей автономностью плавания. Они могли бурить более глубокие скважины на относительно больших глубинах моря.

Работы по техническому перевооружению предприятия продолжались и в 60-е годы. В это время по заказу ГРК в море была создана первая отечественная плавучая установка «Абшерон», предназначенная для бурения структурно-поисковых скважин глубиной до 1800 метров при глубине моря до 15 метров, а потом, после реконструкции, проведенной под руководством и при непосредственном участии М.К. Сулейманова, - до 20 метров. Затем коллектив предприятия собрал, успешно испытал и приступил к эксплуатации плавучей буровой установки «Хазар», построенной в Голландии, которая позволяла вести бурение скважин глубиной до 6000 метров при толще воды до 60 метров.

Сложившаяся в коллективе атмосфера товарищества, взаимопонимания и взаимовыручки позволяла успешно осваивать и эффективно эксплуатировать сложную технику. Так было, когда на вооружение ГРК в море пришло специальное судно французского производства «Али Амиров», способное производить шлангокабельное бурение без применения бурильных труб при больших глубинах (500–600 м) моря.

Под руководством М.К. Сулейманова за тридцать лет ГРК в море закартировала с судов более 30 структур, были неоднократно исследованы все острова Бакинского архипелага, а также острова Яшма и Камни Ближние, Средние и Дальние на подводном склоне Прикаспийского района. Всего за первые тринадцать лет ГРК в море произвела структурно-поисковое бурение в объеме более 400 тысяч метров, картировочное - свыше 800 тысяч метров. Немалый объем работ был выполнен на акватории казахстанского, туркменского и дагестанского секторов Каспийского моря.



Работая в должности директора Научно-исследовательской лаборатории объединения «Каспморнефтегаз» с 1979 по 1988 год, Мамед Каграманович переоборудовал ее, оснастив современной аппаратурой, и добился проведения исследовательских работ согласно существующим стандартам.

Сулеймановым подготовлена целая плеяда морских нефтяников, многие из которых впоследствии получили степени кандидата и доктора наук и возглавили крупнейшие нефтяные предприятия. Среди них президент Нефтяной компании Азербайджана Н.А. Алиев, зам. начальника, главный геолог ПО по добыче нефти и газа на море А.А. Нариманов, зам. генерального директора Производственного объединения геофизики и инженерной геологии А.Г. Ахмедов, начальник КМГРУ Г.Ю. Гасанов, главный геолог Конторы разведочного бурения «Баил лиманы» Т.Б. Аскеров, главный геолог КМГРУ Г.Г. Тагиев и многие другие.

За многолетнюю безупречную работу М.К. Сулейманов неоднократно был награжден медалями и орденами Советского Союза. Ему были присвоены звания «Почетный нефтяник СССР» и «Заслуженный инженер Азербайджанской ССР». Он являлся автором многих изобретений.

Для увековечения памяти Мамеда Каграман оглу Сулейманова в 1988 году по инициативе воспитанников и учеников его именем было названо исследовательское судно, которое вместе с другими судами КМГРУ проводит большую работу по подготовке перспективных площадей для глубокой разведки. С этого же судна, начиная с 2000 года, осуществляется также контроль за экологией Каспия.

## SÜLEYMANOV MUXTAR MÜTƏLLİB OĞLU (1913–1985)

Bəşəriyyətin çoxəsrlik tarixi sübut etmişdir ki, sağlam düşüncə tərzinə malik olan insanlar gözəlliyi xeyir əməllərdən ayrı təsəvvür etməmişlər. Elə Muxtar Suleymanov da istər zavod, istərsə də institut kollektivinə rəhbərlik etdikdə belə düşünüb, belə hərəkət etmişdir.

Onun mənalı ömründə prinsipiallıq, düzlük, məsuliyyət, işgüzarlıq kimi yüksək insani keyfiyyətlər bir vəhdət təşkil etmişdir.

Muxtar Suleymanov bir-biri ilə sıx əlaqədə olan istehsalat və elmi-tədqiqat işi, pedaqoji fəaliyyəti ilə neft sənayesində təhlükəsizlik texnikası sahəsinin inkişafında əvəzsiz rol oynamışdır.

Muxtar müəllimin şərəfli və mənalı ömür yolu xalqa xidmətin ən gözəl nümunəsidir. O, 19 yaşından öz həyatını neft sənayesinə həsr etmişdir.

Muxtar Süleymanov 1913-cü ildə fevral ayının 28-də Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1931-ci ildə Neft Texnikumunun Neft-Mədən fakültəsini bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuş və 1936-cı ildə həmin institutu bitirmişdir.

Əmək fəaliyyətinə təhsilini davam etdirməklə qazma idarəsində və eksperimental zavodda başlamışdır.

İnstitutu bitirdikdən sonra o, Azərbaycan Neft Maşınqayırma Elmi-Tədqiqat İnstitutuna böyük mühəndis-konstruktor vəzifəsinə qəbul edilmişdir. 1942–1945-ci illərdə o, «Qırmızı proletar» zavodunun baş mühəndisi, 1945–1963-cü illərdə isə zavodun direktoru vəzifəsində çalışmışdır. Bu illər ərzində Muxtar müəllim bir sıra nailiyyətlər qazanmışdır. Belə ki, istehsalatda əldə etdiyi nailiyyətlərə görə SSRİ Ali Soveti



Rəyasət Heyətinin qərarı ilə «Şərəf nişanı» ordeni və digər medallarla təltif olunmuşdur.

Muxtar Süleymanov 1959-cu ildə namizədlik dissertasiyası müdafiə etmiş, texniki elmlər namizədi adı almışdır. Onun apardığı elmi-tədqiqat işlərinin nəticələri kitablarında əks olunmuşdur. Elmdəki və istehsalatdakı nailiyyətlərinə görə, o, 1963-cü ildə Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutuna direktor müavini vəzifəsinə təyin edilmişdir.

Muxtar Süleymanovun əmək fəaliyyətinin ən işıqlı hissəsi onun 1968-ci ildə institutun direktoru vəzifəsinə təyin olunması ilə bağlıdır. Bu məsul vəzifəni üzərinə götürərək, o, instituta 16 il bacarıqla rəhbərlik etmişdir.

Onun rəhbərliyi dövründə institut neft sənayesində təhlükəsizlik məsələlərinin həlli üzrə SSRİ Neft Sənayesi Nazirliyinin qərarı ilə aparıcı elmi müəssisəyə çevrilmişdir. İnstitut 1991-ci ilə qədər layihə olunan və ya modernizə olunan neft avadanlığının ekspertizası üzrə aparıcı və əməyin mühafizəsi standartlarının işlənməsi üzrə isə baza müəssisəsi statusuna malik olmuşdur.

Təşkilatçı alim kimi, o, Elmi Şuranın işini yenidən quraraq elmi mövzuların aktual olmasını qarşıya məqsəd qoymuşdur. Bu isə, institutun işində böyük canlanmaya səbəb olmuşdur.

Bu illərdə Muxtar Süleymanov Bakı Şəhər Sovetinin deputatı seçilmişdir. O, uzun müddət SSRİ Elm və Texnika Komitəsinin Elmi Şurasının üzvü olmuşdur.

Elmi yeniliklərin istehsalata geniş tətbiq edilməsi məsələsi Muxtar müəllimi daim narahat edirdi. Konstruksiya olunan tərtibat və qurğuların istehsalata tətbiqi illərlə uzanırdı. Bu məsələnin həlli üçün o, SSRİ Neft Sənayesi Nazirliyi qarşısında institutun nəzdində eksperimental zavodun tikilməsi məsələsini qoydu və tikintiyə icazə aildı. Onun şəxsi təşəbbüsü və fəaliyyəti nəticəsində 1984-cü ildə zavod ilk məhsulunu buraxdı.

1978-ci ildə Muxtar Süleymanov Neft sənayesində uzun illər səmərəli fəaliyyət göstərdiyinə və institutun 50 illiyi ilə əlaqədar Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan Respublikasının Əməkdar Mühəndisi fəxri adına layiq görülmüşdür. SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən neft sənayesinin inkişafındakı böyük xidmətlərinə görə ona «Fəxri neftçi» adı verilmişdir.

Yüksək biliyə malik olması Muxtar Mütəllib oğlunun elmi-tədqiqat işlərində müvəffəqiyyətlər qazanmasına kömək etmişdir. O, 130-dan artıq elmi əsərin (məqalə), 20-dən çox ixtiranın müəllifi olmuşdur. Onun birbaşa rəhbərliyi altında aparılan elmi-tədqiqat işləri ixtira səviy-

yəsində yerinə yetirilmiş və müxtəlif sərgilərin medal və diplomlarına layiq görülmüşdür.

Muxtar müəllim özünün istehsalat və elmi-tədqiqat fəaliyyətini pedaqoji fəaliyyətlə sıx əlaqələndirmişdir. O, uzun müddət indiki Azərbaycan Neft Akademiyasında dərs demiş, Dövlət İmtahan Komissiyasının üzvü olmuşdur.

Rəhbərlik etdiyi kollektivin mənafeyi ilə yaşamaq, alicənablıq, düzgünlük, səmimilik ona xas olan cəhətlərdən idi. O, yüksək nəzakətə və mənəvi mədəniyyətə malik idi, ətrafındakılara qarşı həssaslıq göstərirdi, insanlara hörmət, qayğı ilə yanaşırdı.

Muxtar Süleymanov həyatda çox səmimi və istiqanlı bir ziyalı idi.

Gözəl insan, yaradıcı mühəndis və tədqiqatçı-alim Muxtar Mütəllib oğlu Süleymanovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayır və yaşayacaqdır.



## SADIQOV MƏMMƏDTAĞI HƏBİB OĞLU (1910–1982)

Sadıqov Məmmədtağı Həbib oğlu 1910-cu ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıda bitirəndən sonra, 1934-cü ildə Azərbaycan Sənaye İnstitutuna daxil olmuş və 1938-ci ildə institutu bitirmişdir. M.H.Sadıqov hələ institut tələbəsi olarkən 1937–1940-cı illərdə Bakı Neft Texnikumunda müəllim işləmiş, 1940-cı ilin iyul ayından isə Bakı Neft Texnikumunun direktor müavini vəzifəsinə irəli çəkilmişdir.

Böyük Vətən müharibəsi başlayanda M.H.Sadıqov 1943-cü ilə qədər, Krım və Şimali Qafqaz döyüşlərində iştirak etmişdir. Bu döyüşlərdə o, ağır yaralanmış və 1943-cü ilin iyul ayında hərbi xidmətdən tərxis edilmişdir.

M.H.Sadıqov cəbhədən qayıtdıqdan sonra yenə də neft texnikumuna qayıtmış və müəllimlik fəaliyyətini davam etdirmişdir.

M.H.Sadıqov 1948-ci ildə nümunəvi müəllim fəaliyyətinə görə «Şərəf nişanı» ordeninə layiq görülmüşdür. O işlədiyi müddət ərzində Bakı Neft Texnikumunda laboratoriyaların sayı 7-dən 22-yə çatdırılmışdır. Bu da tələbələr üçün böyük əhəmiyyət kəsb etmişdir. 1947-ci ildə Bakı Neft Texnikumunda əyani şöbə yaradılmışdır. 1953-cü ildən isə burada gecə kursları təşkil olunmuşdur.

Beləliklə, tələbələrin sayı 3500 nəfərə çatdırılmışdır. Əgər Böyük Vətən müharibəsindən əvvəl texnikum 100-120 mütəxəssis hazırlayırdısa, sonrakı illərdə texnikumu qurtaranların sayı ildə 650–750 nəfərə qədər artmışdı, 17 peşə üzrə mütəxəssis hazırlanırdı. Texnikumda 158 müəllim, 7 elmlər namizədi çalışırdı. 1968-ci ildə əldə edilən nailiyyətlərə görə texnikum dəfələrlə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı və mükafatçısı olmuşdur.

M.H.Sadıqov dəfələrlə Azərbaycan SSR Ali Sovetinin Fəxri fər-

manı ilə təltif edilmişdir. O, 1967-ci ildə «Əməkdə fərqlənməyə görə» medalı ilə və digər mükafatlarla təltif olunmuş, dəfələrlə rayon XDS-nin deputatı seçilmişdir. 1970–1972-ci illərdə Bakı Neft Texnikumunun direktoru vəzifəsində işləmişdir.

Müharibə və əmək veteranı, təcrübəli pedaqoq M.H.Sadıqov 1982-ci ildə vəfat etmişdir.



## ŞİRİNZADƏ SƏYAVUŞ ƏLİSƏTTAR OĞLU (1937–2002)

S.Ə.Şirinzadə 1937-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra o, 1954-cü ildə Azərbaycan Sənaye İnstitutuna (indiki ADNA) daxil olmuş və 1959-cu ildə buranı müvəffəqiyyətlə bitirərək neft-qaz quyularının qazılması üzrə mühəndis ixtisasına yiyələnmişdir. Elmə artan həvəsi onu 1960-cı ildə «Azneftmaş»ETİ-yə gətirmiş və o, burada mühəndis vəzifəsində işləməyə başlamışdır. Sonralar (1962–1966-cı illərdə) S.Şirinzadə quyuların qazılması üzrə ETİ-də (indiki AzNSETLİ) mühəndis, böyük mühəndis vəzifələrində əmək fəaliyyətini davam etdirmişdir. Bu illərdə o, qazma göstəricilərinin yaxşılaşdırılmasında yeni üsulların işlənməsi və tədqiqi ilə bağlı elmi araşdırmalar aparmış və nəticə olaraq 1966-cı ildə görkəmli alim M.K.Seyid-Rzanın rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə etmişdir.

S.Şirinzadənin 1966-cı ildən əmək fəaliyyətində yeni mərhələ başlanmışdır. O, istedadlı mütəxəssis kimi Moskvaya, SSRİ Neft Sənayesi Nazirliyinə işləməyə dəvət olunmuşdur. O, burada 20 il müxtəlif vəzifələrdə (texniki idarədə böyük mühəndis, baş texnoloq, Baş idarənin şöbə rəisi, yeni texnika şöbəsinin rəisi) çalışmışdır. Bununla belə, S.Ə.Şirinzadə elmi axtarışlarını, tədqiqatlarını davam etdirirdi. Belə ki, 1970-ci ildə Moskvada Ümumittifaq Neft ETİ-də Sovet İttifaqında ilk dəfə olaraq akademik Azad Mirzəcanzadə üçün laboratoriya açıldı. S.Ə.Şirinzadə bu böyük alimin təcrübəsindən bəhrələnərək həmin laboratoriyada tədqiqat işləri apararaq doktorluq dissertasiyası üzərində çalışdı. 1982-ci ildə o, qazmada mürəkkəbləşmələr, onların proqnozlaşdırılması və mübarizə üsullarına həsr edilmiş doktorluq dissertasiyası müdafiə etdi.

SSRİ Neft Sənayesi Nazirliyində çalışdığı dövrdə S.Ə.Şirinzadə

yeni texnika və texnologiyanın tətbiqi məsələləri ilə məşğul olduğuna baxmayaraq daim Azərbaycan neft sənayesində olan problemlərlə maraqlanmış, onların həllinə mövcud imkanlardan istifadə edərək köməklik göstərmişdir və bununla da respublikamız üçün böyük işlər görmüşdür.

S.Ə.Şirinzadə 1986-1993-cü illərdə «Qazma texnikası» Elm-İstehsalat Birliyində elmi işlər üzrə direktor müavini, Ümumittifaq Qazma Texnikası ETİ-nin direktor müavini vəzifələrində çalışmışdır. Burada da o, bütün qüvvəsini elmi işlərin aparılmasına, metodik vəsaitlərin hazırlanmasına, tətbiqi işlərə sərf etmişdir. Həmçinin azərbaycanlı gənclərin elmi işlərə cəlb olunmasına, doktorluq və namizədlik dissertasiyalarının müdafiə edilməsinə yaxından köməklik göstərmişdir.

S.Ə.Şirinzadənin istehsalat və elmi təcrübəsi əsasında apardığı elmi-tədqiqat işləri və alınmış nəticələr nəinki Azərbaycanda, eləcə də Tümendə, Ufada, Qroznıda, bir çox xarici ölkələrdə qazmanın sürətlənməsinə və keyfiyyətinin yaxşılaşmasına xeyli müsbət təsir göstərmişdir.

Dünya neft elminin korifeyi akademik A.X.Mirzəcanzadə ilə elmi əməkdaşlığın nəticəsi olan «Qazma göstəricilərinin analizi və layihələndirilməsi», «Neft və qaz quyularının qazılmasının və sementlənməsinin hidravlikası», «Dərin quyuların qazılmasının səmərəliyinin və keyfiyyətinin yüksəldilməsi» və s. əsərləri mütəxəssislərin masaüstü kitablarına çevrilmişdir.

S.Şirinzadə dəfələrlə Avropa, Asiya, Afrika, Latın Amerikası ölkələrində keçirilən beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir, Çində, Hindistanda və digər xarici ölkələrdə neft yataqlarının işlənməsində fəal iştirak etmişdir. Bütün bunlar S. Şirinzadənin bir alim-mütəxəssis kimi böyük nüfuzunun sübutudur.

O, 1993-cü ildə Vyetnama dəvət olundu. S.Şirinzadə burada çalışır, dost ölkənin neft yataqlarının kəşfində, mənimsənilməsində yüksək ixtisaslı mütəxəssis kimi iştirak etdi. Bundan başqa, Səyavuş müəllim həm də yerli neftçi kadrların hazırlanması ilə də məşğul olmuşdur. Buradakı səmərəli fəaliyyətinə görə o, «Vyetnam nefti uğrunda» və ali mükafat – «Xalqlar dostluğu» ordenləri ilə təltif olunmuşdur.

«Azərbaycan neft təsərrüfatı» jurnalının redaksiya heyətinin və redaksiya şurasının üzvü, Əməkdar neft xadimi S.Ə.Şirinzadə Rusiya prezidenti V.Putinin fərmanı ilə «Əməkdar neft sənayesi işçisi» fəxri adına layiq görülmüşdür.

Tanınmış neftçi 2002-ci ildə vəfat etmişdir.



## ЭЮБ ИЗМАИЛОВИЧ ТАГИЕВ (1912-1967)

27 января 2002 г. исполнилось 90 лет со дня рождения трижды лауреата Сталинской премии, профессора, доктора технических наук, заслуженного деятеля науки и техники Азербайджана, крупнейшего ученого в области бурения нефтяных и газовых скважин Эюба Измаиловича Тагиева.

Э.И.Тагиев родился 27 января 1912 г. в г.Баку. В 16-летнем возрасте он поступил в Политехнический институт (ныне Азербайджанская государственная нефтяная академия). Свою трудовую деятельность он начал в 1932 г. в Локбатан-Путинской конторе бурения. Самоотверженный труд молодого специалиста, его прилежность и любознательность привлекли внимание руководства, и он вскоре был назначен старшим конструктором отдела турбинного бурения. Именно этой области нефтедобычи посвятил Э.И Тагиев всю свою жизнь.

В 1937 г. была создана Сураханская специальная экспериментальная контора бурения, руководителем которой стал Э.И.Тагиев. Перед коллективом была поставлена задача – разработать принципиально новые конструкции забойных двигателей и технологии турбинного бурения. За короткий срок были созданы безредукторные многоступенчатые турбобуры, которые обеспечивали скоростное бурение нефтяных скважин. Кроме того, впервые в мировой практике была создана машина, работавшая на глинистом растворе. Впоследствии лицензию на нее приобрели крупнейшие зарубежные нефтяные фирмы.

В годы второй мировой войны, когда возникла угроза бакинским промыслам и необходимость открытия новых нефтяных месторождений в восточных районах страны, весь коллектив

экспериментальной конторы бурения во главе с Э.Тагиевым со всем своим оборудованием и подчиненным заводом был переведен в г. Краснокаменск Пермской области.

Здесь были открыты уникальные месторождения нефти и газа – «Второй Баку». И Э.И.Тагиева можно по праву считать одним из его создателей. Тогда ему был всего 31 год. Однако в жестких условиях Приуралья возникли серьезные затруднения с использованием турбинного бурения. Породы здесь оказались очень твердыми и крепкими, и применение турбинного бурения стало невозможным. Пришлось создавать буровые долота нового типа для условий Приуралья.

В 1945 г. для выполнения особого правительственного задания Э.И.Тагиева назначают уполномоченным Наркомата нефтяной промышленности СССР по контролю за демонтажом предприятий и вывозом оборудования, инструментов и материалов для нефтяной промышленности из Германии. Именно тогда, по инициативе Э.Тагиева, для создания в Азербайджане радиотехнической промышленности из Германии был вывезен и передан нефтяной промышленности республики один из крупнейших и современных радиозаводов в Европе – «Телефункен».

После окончания войны, в конце 40-х годов, начинается освоение морских месторождений Каспия. Создается специализированное управление «Главморнефть», главным инженером которого становится Э.И.Тагиев. И здесь как опытный, высококвалифицированный специалист Э.Тагиев предлагает все новые и новые усовершенствования в технологии и оборудовании бурения. Создается турбовибратор силой в 100 т для забивки свай глубоководных эстакад и алкировки оснований, позволивший повысить скорость бурения, проводятся испытания двуствольного бурения на морском месторождении «Бухта Ильича.»

Э.И.Тагиев в 1955 г. возглавляет группу специалистов, направленных в Индию для поиска промышленных запасов нефти. Здесь группа сразу же отправилась искать перспективные с точки зрения нефтегазонакопления районы. За короткий срок удалось сделать очень много. Уже в марте 1956 г. правительству Индии был представлен отчет о запасах промышленной нефти, и подготовлен детальный план работ. Прогнозы Э.И.Тагиева подтвердились. В Индии были обнаружены большие запасы нефти. Уже в мае 1958 г. фонтанировала первая скважина в штате Пенджаб, в сентябре 1959 г. дала нефть другая скважина, пробуренная недалеко от Бомбея. Так были вскрыты многие другие перспективные нефтеносные горизонты. Таким образом, в Индии была создана своя национальная нефтегазовая промышленность, а Э.Тагиев был назначен пожизненно главным советником Индийского государственного управления.



Вскоре Э.И.Тагиев, опять-таки для оказания помощи в создании нефтяной промышленности, направляется в Бразилию. Здесь надо было прежде всего срочно поднять уровень буровых работ при нехватке квалифицированных кадров, повысить производительность буровых установок. И эту колоссальную работу нужно было проделать в тяжелейших климатических и бытовых условиях (высокие температура и влажность воздуха, необустроенность, бездорожье и т.д.). После длительной и кропотливой работы советскими специалистами были представлены неопровержимые данные, свидетельствующие о наличии в Бразилии огромных запасов нефти. Для этого были все основания, и в первую очередь, наличие значительных площадей осадочных бассейнов, которые потенциально могли быть нефтегазоносными.

Э.И.Тагиев после возвращения из-за рубежа, занимая пост заместителя начальника Главного управления по бурению Министерства нефтяной промышленности СССР, одновременно занялся преподавательской деятельностью – заведовал кафедрой технологии и исследований буровых процессов в Институте им. И.М.Губкина (ныне Российская академия нефти и газа). Вместе с тем он не оставил и свое детище – лабораторию турбовибраторов во Всесоюзном научно-исследовательском институте техники бурения. А позднее он стал проректором этого института по науке. Даже не имея степени кандидата наук, учитывая его значительный вклад в развитие нефтяной промышленности страны и за рубежом, в 1965 г. Э.И.Тагиеву была присуждена ученая степень доктора технических наук.

Э.И.Тагиев является автором свыше 50 книг, монографий и статей по вопросам бурения нефтяных и газовых скважин, обладал 18 международными патентами на ценные изобретения. Он один из создателей первого в мире многоступенчатого турбобура, которым пользуются и поныне, уникальных технологий проводки вертикальных, одиночных, сгруппированных в куст наклонных и горизонтальных скважин.

Эюб Измаилович Тагиев ушел из жизни рано – 17 января 1967 г., – не дожив до своего 55-летия.

Светлая память о выдающемся нефтянике еще долгие годы будет жить в сердцах знавших его людей.




ƏDƏBİYYAT
"Xalq qəzeti" – 19-09-2002
"Xalq qəzeti" – 20-01-2002
"Xalq qəzeti" – 01-08-2002
"Вышка" qəzeti – 16-08-2002
"Вышка" qəzeti – 20-12-2002
"Вышка" qəzeti – 13-12-2002
"Вышка" qəzeti – 04-10-2002
"Вышка" qəzeti – 12-07-2002
"Вышка" qəzeti – 21-06-2002
"Вышка" qəzeti – 14-02-2003
"Вышка" qəzeti – 31-01-2003
"Azərbaycan neft təsərrüfatı" – №5, 2002
"Azərbaycan neft təsərrüfatı" – №2, 2002
"Azərbaycan neft təsərrüfatı" – №6, 1999
"Azərbaycan neft təsərrüfatı" – №11-12, 1997



MÜNDƏRİCƏT

**BİRİNCİ BÖLMƏ**

**II BÖLMƏ**

*NEFT SƏNAYESİNİN İNKİŞAFINDA GƏRGİN ƏMƏK SƏRF EDƏNLƏR*

**III BÖLMƏ**

*HƏYATDA İZİ QALANLAR*

# OXUCULARIMIZA

«Qara qızıl» ağ səadət rəngində» eyni adlı birinci, ikinci, üçüncü və dördüncü kitablarda Azərbaycan Respublikasının neft strategiyası barədə danışılır.

Birinci kitabda neft və qaz sərvətinin xalqımızın xoşbəxtliyinə xidmət etməsi, «Bakı–Tbilisi–Ceyhan» əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması məsələlərindən söhbət gedir, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti açıqlanır. Azərbaycan Neft strategiyasının və «Əsrin müqaviləsi»nin uğurla həyata keçirilməsi, əfsanəvi «Neft daşları»nda əldə edilən nailiyyətlər, emal müəssisələrinin işi, neft-qaz sənayesinin tarixi inkişaf mərhələləri ön plana çəkilir.

Birinci kitabda qəhrəman neftçilərin, alimlərin, geoloqların, qazmaçıların, inşaatçıların, energetiklərin, donanma işçilərinin, nəqliyyatçıların, yardımçı və xidmət təşkilatları işçilərinin fədakar əməyindən danışılır, texniki-təchizat məsələləri işıqlandırılır. Bu kitabda xalqımızın səadəti uğrunda yorulmaz fəaliyyət göstərən, mənalı həyatlarını neft sənayesinin inkişafına həsr etmiş, həyatda izi qalan mərhum neftçilərin həyatından bəhs olunur.

İkinci kitabda Azərbaycan neft sənayesinin inkişaf tarixinə dair qısa məlumatlar, Bakıda keçirilən «Xəzər, neft, qaz, neftayırma və neft kimyası» sərgisi və konfransı haqqında geniş informasiya verilir, neft-qaz hasilatının artırılması sahəsində gərgin əməklə çalışan neftçilərin həyat və fəaliyyətlərindən söhbət açılır. Bununla yanaşı, ikinci kitabda da dünyalarını dəyişmiş fədakar neftçilər xatırlanır, onlar haqqında qısa bioqrafik məlumatlar verilir.

Üçüncü kitabda Azərbaycanın yeni neft strategiyasının yeni neft erası – «Əsrin müqaviləsi»nin həyata keçirilməsi ilə əlaqədar materiallara geniş yer ayırılmış, ilk dəfə «Neftçilər günü» bayramı münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi verilmişdir.

Kitabda Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf etməsində xüsusi rol oynayan «LUKoyl» Şirkətinin yubiley tədbirlərindən, neft strategiyasının uğurla həyata keçirilməsində gərgin zəhmətlə çalışan



neftçilərin, alimlərin və ziyalıların həyatından, onların iş fəaliyyətindən söhbət açılır.

Kitabın son bölməsində xalqımızın səadəti və rifahı naminə çalışmış, həyatda iz qoyub getmiş fədakar neftçilərimiz xatırlanır.

«Qara qızıl» ağ səadət rəngində» eyni adlı dördüncü kitabda, əvvəlki kitablarda olduğu kimi, Azərbaycanın Neft strategiyasından, Bakı–Tbilisi–Ceyhan ixrac boru kəmərinin təməlinin qoyulması mərasimindən, neft-qaz sənayesinin inkişafında fədakarlıq göstərənlərin əmək fəaliyyətindən, həyatda pozulmaz iz qoyub getmiş – xoş xatirələrlə yad edilən neftçilərdən səmimi söhbət açılır.

«Qara qızıl» ağ səadət rəngində» eyni adlı birinci, ikinci, üçüncü və dördüncü kitablarda Azərbaycanın «qara qızıl»ının xalqımızın səadətinə, xoşbəxtliyinə, onların firavan həyat sürmələrinə xidmət etməsi barədə jurnalistikanın müxtəlif janrlarında söhbət gedir, öz mənalı ömürlərini bütünlüklə neft sənayemizin inkişafına həsr etmiş, əbədiyyətə qovuşan qəhrəman neftçilərimiz xatırlanır.

Əlbəttə, yetmiş minlik neftçilər ordusunun bütün layiqli övladlarını bu dörd kitabda əhatə etmək mümkün deyildir. Elə fədakar, qəhrəman, şöhrətli neftçilərimiz vardır ki, informasiya toplayarkən qarşıya çıxan bir sıra çətinliklər üzündən onlar barədə bu kitablarda hələlik məlumat verilməmişdir. Buna görə də oxucularımızdan, neftçilərimizdən, neftçi ailələrindən üzr istəyir, vəfat etmiş neftçilərimizin ruhları qarşısında baş əyirik. Hörmətli oxucularımıza onu da bildiririk ki, biz – müəlliflər layiqli neftçilərimizin həyat və fəaliyyətləri barədə ayrı-ayrılıqda və toplu halında yeni kitabların nəşr edilməsi üçün yaradıcılıq axtarışlarını davam etdirir, bu mövzuda yeni kitablar üzərində işləyirik.

Əziz oxucularımızdan bir daha xahiş edirik ki, müəlliflərlə əlaqə yaratsınlar, öz arzu, təklif və mülahizələrini bizimlə bölüşdürsünlər.

Ünvanlarımız və telefonlarımız:
Məmməd Mirzəyev – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti.
97-53-47, 320-02-21.
Canalı Mirzəliyev – «Azər.Tayms» qəzetinin redaksiyası.
32-90-09, 311-53-72.

MƏMMƏD MİRZƏYEV, CANALI MİRZƏLİYEV

**"QARA QIZIL" AĞ SƏADƏT RƏNGİNDƏ**

**DÖRDÜNCÜ KİTAB**

NAŞİRİ
***Qoşqar İsmayıloğlu***

BƏDİİ REDAKTORU
*İlham İsmayılov,*
TEXNİKİ REDAKTORLARI
*Leyla Qarayeva,*
*Akif Dənzizadə,*
KORREKTORU
*Rəfiqə Qənbərqızı,*
OPERATORU
*Mələhət Qurbanova,*
ÇAPA MƏSUL
*Anar Abdullayev,*
*Azər Yunusov,*
*Xaqani Axundov.*

*Yığılmağa verilmiş 9.10.2002,*
*çapa imzalanmış 03.07.2003,*
*formatı 60x90 1/16,*
*fiziki ç.v 20, 0, şərti ç.v.20, 0,*
*ofset kağızı №1, tayms qarnituru,*
*sifariş 41. Sayı 1000*
*Müqavilə qiyməti ilə*

Kitab
**"QAPP-POLİQRAF"** Korporasiyasının
nəşriyyatında nəşrə hazırlanmış və
**"QAPP-POLİQRAF"** Korporasiyasının
mətbəəsində çap olunmuşdur.

✉ 370025. Bakı şəhəri, N. Rəfiyev küçəsi, 24.
☎ Tel.: **902757, 989555, 937255**